ISSN 2224-0829



NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

# ELMİ ƏSƏRLƏR

## İCTİMAİ ELMLƏR SERİYASI

TARİX, ANTROPOLOGİYA VƏ SİYASİ ELMLƏR
FƏLSƏFƏ VƏ HÜQUQ ELMLƏRİ
İQTİSAD ELMLƏRİ

Nakhchivan State University

## SCIENTIFIC WORKS

SERIES OF SOCIAL SCIENCES

Нахчыванский Государственный Университет

## НАУЧНЫЕ ТРУДЫ

СЕРИЯ СОЦИАЛЬНЫХ НАУК

2022 № 2 (115)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

İSSN 2224-0829

# ELMİ ƏSƏRLƏR

*İctimai elmlər seriyası*

*№ 2 (115)*

- **Tarix, antropologiya və siyasi elmlər**
- **Fəlsəfə və hüquq elmləri**
- **İqtisad elmləri**

**Naxçıvan – 2022**

Naxçıvan Dövlət Universiteti. “Elmi əsərlər”.
*İctimai elmlər seriyası. 2022, № 2 (115)*

*Jurnal 13 fevral 1997-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. (Şəhadətnamə № 550*)

**BAŞ REDAKTOR:** ***ELBRUS İSAYEV***
*Naxçıvan Dövlət Universitetinin rektoru,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**BAŞ REDAKTOR MÜAVİNİ:** ***ORXAN CƏFƏROV***
*Elmi katib, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**REDAKTOR**: **ƏLİ HƏŞİMOV**
*Naxçıvan Dövlət Universiteti*
*“Qeyrət” nəşriyyatının direktoru,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**

***Tarix, antropologiya və siyasi elmlər üzrə:***
**İsmayıl Muxtar oğlu Hacıyev**
*tarix üzrə elmlər doktoru, professor*
*AMEA-nın həqiqi üzvü*
**İbrahim Ethem Atnur**
*tarix üzrə elmlər doktoru, professor*
**Şamxal Şükür oğlu Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Elçin Dağbəyi oğlu Zamanov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Hacıfəxrəddin Səfərli**
*tarix elmləri doktoru, professor,*
*AMEA-nın müxbir üzvü*
**Şahin Fazil oğlu Fərzəliyev**
*tarix elmləri doktoru, professor*

***Fəlsəfə və hüquq elmləri üzrə:***
**Məmməd Hüseyn oğlu Rzayev**
*fəlsəfə üzrə elmlər doktoru, professor*
**Qərib Vəli oğlu Allahverdiyev**
*fəlsəfə üzrə elmlər doktoru, dosent*
**Yusif Hüseyn oğlu Hüseynov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
**Elman Yusif oğlu Cəfərli**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Qəhrəman Novruz oğlu Behbudov**
*hüquq üzrə fəlsəfə doktoru, dosent*
**Şükür Aloş oğlu Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

***İqtisad elmləri üzrə:***
**Ağarza Ağahəsən oğlu Rüstəmov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Teymur Abbas oğlu Abbasov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Nazim Hidayət oğlu Əhmədov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Müslüm Əli oğlu Cabbarzadə**
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Ceyhun İlham oğlu Mahmudov**
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Yuliya Vasiliyevna Cutceva**
*(Rusiya Dövlət Aqrar Universiteti)*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*

# MÜNDƏRİCAT

## TARİX

1. **QADİR ƏKBƏROV.** 1924-1940-cı illərdə Naxçıvanda mədəni quruculuq siyasəti, mədəni maarif işinin təşkilində kitabxanaların, qiraət komalarının və klubların rolu............................6
2. **SEVDA ABDULLAYEVA.** XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakı quberniyası xəzinə kəndlilərinin maldarlıq təsərrüfatının tarixindən..................................................................11
3. **VÜSAL İSGƏNDƏROV.** Dağıstanda rus işğalına qarşı üsyanlar (1818-1820-ci illər)........18

## SOSİAL ELMLƏR VƏ HÜQUQ

4. **BAĞIR BABAYEV.** Əhməd bəy Ağaoğlunun dünyagörüşündə milli identiklik..................25
5. **ATİLLA ÖZTÜRK, TURAL HÜSEYNOV, NURLAN İSMAYILOV.** Legitimlik anlayışının hüquqi və sosial-siyasi tərəfləri..........................................................................35
6. **GÜNEL MƏLİKLİ.** Ali baş komandan İlham Əliyevin dövlət təhlükəsizliyində uğurlu fəaliyyəti.......................................................................................................................39
7. **RİZVAN ABASOV.** Azərbaycanın elektoral sosiologiyasında exit-poll tədqiqatının müasir problemlərinə dair...........................................................................................................48
8. **CAHANGİR HACIYEV.** Azərbaycanda torpaq üzrə mülkiyyət hüququnun formalaşması tarixi.........................................................................................................................54

## İQTİSADİYYAT

9. **TEYMUR ABBASOV.** Müəssisə və təşkilatlarda istehsal məsrəflərinin uçotu və bölüşdürülməsi.........................................................................................................64
10. **NURİYYƏ İBRAHİMOVA.** Zəngəzur dəhlizinin Naxçıvan iqtisadiyyatına təsiri.............71
11. **MEHDİ BAĞIROV, MƏSUD FƏRƏCOV.** Bitkiçilik – aqrar sahənin mühüm istiqamətlərindən biri kimi...........................................................................................76
12. **HƏSƏN ABBASOV.** Müasir dövrün aqrar tənzimləmə fəaliyyətində “sahə – region” tandemi: problemlər və beynəlxalq təcrübədən istifadə yolları...............................................87
13. **ELŞƏN NƏSİROV, DİLRUBƏ QASIMOVA.** Transmilli korporasiyaların tarixi aspektləri.................................................................................................................98
14. **NƏSRİN ƏLİYEVA.** Azərbaycan Respublikasının xarici dövlət borcu və onun tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri..................................................105
15. **HÜMEYRƏ MUSTAFAYEVA.** Qloballaşma, mədəniyyət və inkişaf.............................111
16. **ETİBAR MUSAYEV.** Avropa İttifaqının enerji təchizatı təhlükəsizliyinin təmin edilməsinə yanaşmalar...................................................................................................115
17. **SƏBUHİ RAMAZANOV.** İdarəetmə sistemində aparılan islahatlar və iqtisadi artıma təsirlərinin təhlili............................................................................................................123
18. **ANAR HƏSƏNOV.** Açıq innovasiya marketinqi strategiyası..........................................130

# CONTENTS

## HISTORY

1. **GADIR AKBAROV.** The policy of cultural construction in Nakhchivan in 1924-1940 year, the role of libraries, reading rooms and clubs in the organization of cultural and educational work……………………………………………………………………………………..6
2. **SEVDA ABDULLAYEVA.** From the history of the cattle-breeding economy of the state peasants of the Baku province at the end of the 19th - early 20th centuries…………………11
3. **VUSAL ISGANDAROV.** Uprisings against the Russian occupation in Dagestan (1818-1820)……………………………………………………..…18

## SOCIAL SCIENCES AND LAW

4. **BAGIR BABAYEV.** National identity in the worldview of Ahmed bey Aghaoglu………25
5. **ATİLLA OZTURK, TURAL HUSEYNOV, NURLAN ISMAYILOV.** Legal and socıo-polıtıcal aspects of the concept of legıtımacy.....................................................................35
6. **GUNEL MALIKLI.** The state of the commander-in-chief, Ilham Aliyevin successful operation in security…………………………………………………………………..…39
7. **RIZVAN ABASOV.** On modern problems of exit-poll research in Azerbaijan’s electoral sociology……………………………………………………………………………….48
8. **JAHANGIR HAJIYEV.** The history of the formation of ownership (land) in Azerbaijan…54

## ECONOMY

9. **TEYMUR ABBASOV.** Accounting and distribution of production costs in enterprises and organizations……………………………………………………………………………..64
10. **NURIYYE IBRAHIMOVA.** Effect of Zangazur corridor on Nakhchivan economy……..71
11. **MEHDI BAGIROV, MASUD FARAJOV.** Plantation - as one of the important directions of the agrarian sector………………………………………………………….……………76
12. **HASAN ABBASOV.** “Field-region” tandem in modern agricultural regulatory activities: problems and ways of using international experience………………………………………87
13. **ELSHAN NASIROV, DILRUBA GASIMOVA.** Historical aspects of transnational corporations……………………………………………………………………………….98
14. **NASRIN ALIYEVA.** The foreign state debt of the republic of azerbaijan and the directions of improving its regulation……………………………………………………………....105
15. **HUMEYRA MUSTAFAYEVA.** Globalisation, culture and development………………111
16. **ETIBAR MUSAYEV.** Approaches to eu energy security………………………………..115
17. **SABUHI RAMAZANOV.** Governance system reform and analyses of economic growth effects…………………………………………………………………………………..…123
18. **ANAR HASANOV.** Open innovation marketing strategy…………………….........…130

# СОДЕРЖАНИЕ

## ИСТОРИЯ


1. **ГАДИР АКБАРОВ.** Политика культурного строительства в Нахчыване в 1924-1940 гг., роль библиотек, читальных залов и клубов в организации культурно-просветительской работы....6
2. **СЕВДА АБДУЛАЕВА.** Из истории скотоводческого хозяйства казенных крестьян Бакинской губернии конца XIX– нач. XX вв....11
3. **ВУСАЛ ИСКЕНДАРОВ.** Восстания против Русской оккупации в Дагестане (1818-1820 гг.)....18


## СОЦИАЛЬНЫЕ НАУКИ И ПРАВО


4. **БАГИР БАБАЕВ.** Национальная идентичность в мировоззрении Ахмед бека Агаоглу....25
5. **АТИЛЛА ОЗТЮРК, ТУРАЛ ГУСЕЙНОВ, НУРЛАН ИСМАИЛОВ.** Правовые и социально-политические аспекты понятия легитизации....35
6. **ГЮНЕЛЬ МАЛИКЛИ.** Состояние командующего Ильгама Алиевина успешная работа в безопасности....39
7. **РИЗВАН АБАСОВ.** О современных проблемах исследования exit-poll в электоральной социологии Азербайджана....48
8. **ДЖАХАНГИР ГАДЖИЕВ.** История становления права собственности (на землю) в Азербайджане....54


## ЭКОНОМИКА


9. **ТЕЙМУР АББАСОВ.** Учет и распределение производственных затрат на предприятиях и в организациях....64
10. **НУРИЯ ИБРАГИМОВА.** Влияние Зангезурского коридора на Нахчыванского экономику....71
11. **МАХТИ БАГИРОВ, МАСУД ФАРАДЖОВ.** Растениеводство - как одно из важных направлений аграрной промышленности....76
12. **ГАСАН АББАСОВ.** Тандем "сфера – регион" в аграрно-регулятивной деятельности современности: проблемы и пути использования международного опыта....87
13. **ЭЛЬШАН НАСИРОВ, ДИЛРУБА ГАСЫМОВА.** Исторические аспекты транснациональных корпораций....98
14. **НАСРИН АЛИЕВА.** Внешний государственный долг Азербайджанской Республики и направления совершенствования его регулирования....105
15. **ГУМЕЙРА МУСТАФАЕВА.** Глобализация, культура и развитие....111
16. **ЭТИБАР МУСАЕВ.** Подходы к энергетической безопасности ес....115
17. **САБУХИ РАМАЗАНОВ.** Реформирование системы управления и анализ эффекта экономического роста....123
18. **АНАР ГАСАНОВ.** Маркетинговая стратегия открытых инноваций....130

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 6-10
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 6-10
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 6-10

# TARİX

**QADİR ƏKBƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*qadir1976@inbox.ru*

**UOT: 94 (479.242)**

## 1924-1940-CI İLLƏRDƏ NAXÇIVANDA MƏDƏNİ QURUCULUQ SİYASƏTİ, MƏDƏNİ MAARİF İŞİNİN TƏŞKİLİNDƏ KİTABXANALARIN, QİRAƏT KOMALARININ VƏ KLUBLARIN ROLU

*Məqalədə Naxçıvan Muxtar Respublikasında Sovet hakimiyyətinin qurulmasından sonra mədəni-maarif işin təşkili haqqında məlumat verilir. Həmçinin Mədəni maarif işinin təşkilində Xalq Komissarları Sovetinin xüsusi fəaliyyəti ön planda təsvir edilir. Maarifləndirmə işində çox böyük təsirə malik olan kitabxanaların, qiraət evlərinin rolu arxiv sənədləri əsasında diqqətə çatdırılır. Naxçıvan Muxtar Respublikasında qadın klublarının fəaliyyəti xüsusi olaraq qeyd edilir. Qadın klublarının savadsızlığın ləğvindəki fəaliyyətinin önəmi vurğulanır. Muxtariyyətin ilk illərində Naxçıvanda mədəni maarif işinin təşkilində əsas rolu olan klubların yaradılması, onların işindən səmərəli istifadə edilməsi kənd kitabxanalarına, qiraət komalarına köməklik göstərmələri haqqında məlumatlar da məqalədə öz əksini tapır. Ordubad şəhər türk qadınlar klubunun da fəaliiyətinə arxiv sənədləri əsasında nəzər salınır.*

***Açar sözlər:*** *Naxçıvan, Ordubad, mədəniyyət, maarif, kitabxana, klub, muzey*

Sovet hakimiyyəti qurulduqdan sonra kütlələr arasında bolşevizm ideyalarını yaymaq, onları kommunist ruhlu sovet vətəndaşı kimi yetişdirmək üçün yeni yaradılmış hökumət müxtəlif strukturlar vasitəsilə təbliğat-təşviqat işlərinə start vermişdir. Bu işdə əsas istiqamət kimi xalqın maariflənməsi, yazıb-oxuma qabliyyətinin yüksəldiləməsi, savadsızlığın aradan qaldırılması prioritet vəzifə seçilmişdi. Xalqın maarifləndirilməsində əsas yol olan məktəblərin açılması ilə bərabər qiraət komaları, kitabxanalar və klublar da yaradılmışdır ki, bu da zəhmətkeşlərin tərbiyəsi, onların siyasi və mədəni dərəcəsinin inkişaf etdirilməsində mühüm rol oynamışdı. Tədqiq edilən dövrün arxiv sənədləri Naxçıvan Muxtar Respublikası ərazisində 1920-ci ildən başlayaraq geniş, əhatəli şəkildə mədəni-maarif işinin təşkilinə başlandığını deməyə əsas verir.

Muxtar respublikada mədəni-maarif işinin təşkili və bu sahənin fəaliyyətinə nəzarət Xalq Maarif Komissarlığına həvalə edilmişdi. Bu dövrün mədəni-maarif işi ilə bağlı sənədlər, əsasən Xalq Maarif Komissarlığına aid olan dövlət sənədləri, verilən qərarlar, qəbul edilmiş normativ aktlar məhz bu dövlət orqanı ilə bağlı olmuşdur. 1922-ci il avqust ayında Naxçıvan Müəllimlərin I Qurultayının Naxçıvan şəhərindəki teatr binasında keçirilməsi də mədəni-maarif sahələrinə Naxçıvan Maarif Komissarlığının nəzarət etməsinin göstəricilərindəndir (3, s. 426).

1924-cü ildə Naxçıvan MSSR-in yaranmasından sonra Naxçıvanda təşkil edilmiş ayrı-ayrı dövlət strukturları öz səlahiyyətləri çərçivəsində Naxçıvanda dövlət hakimiyyətini bərqərar etmiş, respublika daxilində qəbul edilmiş qərarların icrasını reallaşdırmış, mərkəzdən göndərilən tapşırıqların yerinə yetirilməsi işini həyata keçirmişdir. Bu dövrdə Naxçıvan Xalq Maarif Komissarlığı da mədəniyyət və maarif işinin nizamlanması, savadsızlığın aradan qaldırılması, bunun üçün savad kurslarının yaradılması işini təşkil etmişdir (2, s. 31).

Naxçıvanda 1930-cu illərin əvvəllərində mədəni-maarif işinin təşkilində Ordubad rayonu

ərazisində mühüm işlər görülmüşdür. Bu dövrdə şəhərlərlə bərabər kəndlərdə də yeni maarif müəssisələrinin-məktəblərin tikilməsi, yararsız vəziyyətdə olanların isə yenidən təmir edilməsi işi müvəffəqiyyətlə aparılmışdır. 1932-ci ildə Ordubad rayonunun Biləv və Behrud kəndlərinin Əliyar Xəlilovun rəhbərlik etdiyi kənd camaatının birgə yığıncağında qəbul olunmuş qərarda göstərilirdi ki, Behrud kəndində yerli camaatın vəsaiti ilə təzə bir məktəb binası təmir edilməli və bu məktəbdə 1933-cü ilin yeni dərs ilində 60-dan artıq oğlan və qız uşaqlarının təhsil alması təmin edilməlidir (5, v. 1,2).

Bəhs olunan illərdə Naxçıvanda maarifləndirmə işində qiraət komalarının fəaliyyətinə nəzər saldıqda görürük ki, sovet hakimiyyətinin qurulduğu ilk on ildə kommunist təbliğat aparatı çərçivəsində qiraət komaları mühüm rol oynamışdır. Qiraət komaları zəhmətkeşlər arasında ideoloji iş aparmaqla bərabər həm də onların ilkin savada yiyələnməsində əsas yollardan birinə çevrilmişdi. Bu kimi ictimai fəaliiyət sahələrinin yaradılması sözsüz ki, sonrakı mərhələlər üçün bur addım hesab olunurdu. Bu idarələr yaradılarkən onların heyətinin müəyyən edilməsi xüsusi diqqətdə saxlanılırdı. 18 yanvar1930-cu il tarixdə Naxçıvan rayon qiraət idarəsinin keçirilmiş növbəti iclasında idarənin yeni heyətinin seçilməsi məsələsi müzakirə olunmuş, Səməd Zeynalov rəhbər təyin edilmişdir (10, v. 1). Bu tip qiraətxanaların açılması həm də kənd məktəblərinin nəzdində də yaradılırdı. 1930-cu il 18 yanvar tarixli, Sirab kənd birinci dərəcəli oğlan məktəbinin iclas protokolunda məktəbin nəzdində qiraətxana açılması məsələsi də öz əksini tapmışdır (11, v. 3).

Muxtar respublikada hələ 1922-ci ildə Naxçıvan şəhər kitabxanası kimi fəaliyyətə başlayan ( 3, s. 426) indiki M.S.Ordubadi adına Respublika kitabxanası (1930-cu ildən) qısa vaxt ərzində ictimai-mədəni həyatda əsas vasitələrdən birinə çevrilmişdir. Mədəni maarif işində əsas vasitələrdən olan kitabxana zəhmetkeşlərin mənəvi tərbiyəsi ilə əlaqədar tədbirlər keçirirdi.

1930-cu illərdə siyasi maarifləndirmə işində kitabxanaların müstəsna əhəmiyyəti olmuşdur. 1936-cı ilə aid “Kütləvi kitabxanalarda qəzet ilə iş və kitabxanaların təşkil edilməsi haqqında metodik məktublar”da muxtar respublika ərazisində mövcud olan kitabxanalara zəhmetkeşləri kommunist ruhunda tərbiyə edəcək qəzetlərin gətirilməsinin təmin edilməsi göstərilmişdi. Əsasən o dövrdə nəşr edilən “Pravda”, “İzvestiya”, “Komsomolskaya pravda”, “Kommunist”, “Ədəbiyyat”, Müəllim” və s. qəzetlər kitbxanalrda olmalı və onlardan dövrün tələblərinə uyğun təbliğat vasitəsi kimi istifadə olunmalı idi (6, v. 1). Metodik məktubda göstərilirdi ki, kitabxanalarda toplanan qəzetlər papka və metodiki albomlar formasında cəmləşdirilməli və xronoloji qaydada yerləşdirilməlidi (6, v. 2).

Mədəni-maarif müəssisələri olan kitabxanalarda kitabxana işçilərinin üzərinə düşən əsas vəzifələrdən biri də az savadlı və az hazırlıqlı, həmçinin savadsız dinləyicilərdə qəzetə, ədəbiyyata ümumiyyətlə savada qarşı həvəs oyatmaq üçün qəzetin ucadan oxunması idi (4, v. 3) Naxçıvan MSSR Xalq Maaarif Komissarlığının Ümumi Şöbəsinin xüsusi nəzarətində olan bu iş kitabxanaları xalqın maaariflənməsində əsas qüvvəyə çevirirdi.

1936-cı ilə aid “Yaz əkin kompaniyasında kitabxanaların gördüyü işlər haqqında metodiki məktub”larda şəhər mərkəzi və kənd kitabxanaları vasitəsilə əməli tədbirlər görülməsi təklifi öz əksini tapmışdır. Təklifdə göstərilimişdir ki, 1935-ci il dekabr plenumunun və SSRİ MİK 8-ci çağırış, 2-ci sessiyasının qərarlarını, staxanovçular və kombaynerlər müşavirəsində yoldaş Stalinin çağrışını izah etmək və 1936-cı ilin əkin sahəsi haqqında olan dövlət planının hər bir kolxozçu və əkinçi təsərrüfatçılarına çatdırmaq, kolxoz daxili briqadaların, traktorçuların və b. aqrar savad haqqında olan kitabları oxumaq və şərh etmək.. (9, v.8). Naxçıvan MSSR XMK bütün rayon və kənd kitabxanalarına göndərdiyi “Səyyar kitabxanaların təşkil edilməsi haqqında” məktubda da kolxozçular arasında maarifləndirmə işini yaxşılaşdırmaq üçün əhəmiyyətli tədbirlər görülməsi tapşırılmışdı. Məktubda göstərilir ki, hər bir kitabxanaçı rayon və kəndin geniş zəhmətkeş kütləsini ədəbiyyat, qəzet və jurnallarla təmin etməli, kitabxanadan istifadə edə bilməyən kolxozçulara yaxından xidmət etmək üçün səyyar kitabxana şəbəkələri genişləndirilməlidir. Kolxozda səyyar kitabxana təşkil etmək üçün stasionar kitabxana müdiri kolxoz idarəsi ilə müqavilə bağlamalı, bir nəfər məsul şəxs ayrılmalıdır (7, v. 12). Stasionar kitabxana müdirləri kolxoz idarəsi, komsomol və həmkarlar ittifaqları ilə razılaşaraq tarla və fermalarda kitab paylamaqla səyyar kitabxana işçilərinə kömək etmək üçün kitab gəzdirənlər ayırmaqla tapşırılan işi icra edirdilər.

Muxtariyyətin ilk illərində Naxçıvanda mədəni maarif işinin təşkilində əsas rolu olan

klubların yaradılması, onların işindən səmərəli istifadə edilməsi konkret məqsəd kimi qarşıya qoyulmişdu. Klublar kənd kitabxanalarına, qiraət komalarına köməklik göstərməli, klubların nəzdində fəaliyyət göstərən dram dərnəkləri isə zəhmətkeşlər üçün teatr tamaşaları göstərməli idilər. 1925-ci ildə Naxçıvan şəhər partiya təşkilatı və Noraşen Xalq Təhsili Rayon Şöbəsi nəzdində klublar açıldı. Naxçıvan MSSR XKS-nin xüsusi qərarı ilə Ordubad rayonunun Aza kəndində klublar tikilmişdi (1, s. 115).

Naxçıvan Muxtar Respublikasında mədəni quruculuq işləri çərçivəsində kişilərlə bərabər qadınlar da mədəni kütləvi tədbirlərə cəlb olunurdular. Bu işdə qadin klublarının yaradılması, fəal qadınların ictimai işlərə cəlb edilməsi, savad kurslarının açılması və işlərinin təşkilinə cəlb edilməsi mədəni-maarif işində qadınların yeni qurulmuş cəmiyyətə inteqrasiyasını sürətləndirmişdi. Qadınların ictimai-sosial həyatda mövqeyinin artmasında qadın qiraətxanalarının da xüsusi rolu olmuşdur.

Qeyd olunduğu kimi, qadınların ictimai həyatda rolunun artması Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra sürətlə irəliyə doğru istiqamət almış, demək olar ki, bütün sahələrdə qadınların fəal iş qabiliyyətindən istifadə edilmişdir. 1930 cu il 16 aprel tarixli Ordubad şəhər türk qadınlar klubunun Fatma Əliverdiyevanın sədrliyi ilə keçən iclas protokoluna (12, v. 1) nəzər saldıqda görürük ki, qadınlar Azərbaycanda sovet hakimiyyətinin qurulması və 1 May bayramları ilə əlaqədar hazırlıqlar aparmış, təşkilati işlərlə bağlı mühüm tədbirlərin keçirilməsində fəallıq göstərmişlər.

1930-cu ilə aid başqa bir sənəddə Ordubad şəhər türk qadınlarının may-oktyabr aylarında görüləcək işlərlə bağlı tədbirlər planı hazırlanması ilə əlaqədar materiallar öz əksini tapmışdır. İclas protokollarında qadın klub üzvlərinin kütlələr arasında mədəni-maarif işlərinin aparılması ilə bağlı konkret tapşırıqların verilməsi, o cümlədən klub yanındakı savadsızlığın ləğvi kurslarının işlərinə rəhbərlik, əldə edilən nəticələr barədə hesabatların hazırlanması məsələləri, divar qəzetlərinin hazırlanması, fəhlə və kəndli klubları ilə əlaqələrin qurulması öz əksini tapmışdı (13, v. 3,4).

Kütlələr arasında savadsızlığın ləğvi ilə əlaqədar aparılan kollektiv işlərdə də qadınlar, onların mənsub olduğu ictimai təşkilatlar xüsusi fəallıq nümayiş etdirirdilər. İctimai təşkilatlarda birləşən mütərəqqi qadınlar mədəni-maarif işləri ilə bərabər həm də qadın haqlarının qorunması işində də fəallıq göstərirdilər. Naxçıvan Mərkəzi Qadın klubunun və Xalq Maarif bölməsinin Siddiqə Abbasovanın sədrliyi ilə keçirilən, 1936-cı il 23 iyun tarixli iclasında qadın klublarının nəzdində fəaliyyət göstərən savad kurslarına öz qadınlarını buraxmayan firqəçi, komsomol və digər işçilərin məsuliyyətə cəlb edilməsi məsələsi müzakirəyə çıxarılmışdır (147, v.9). Bu kimi ciddi qərarların qəbulu qadınların kişilərlə bərabər hüquqlardan istifadə etmələrində sərbəst olmaları, onların savad kurslarında iştirakının təmin edilməsində qətiyyət nümayiş etdirmələri, bu təşkilatların o dövr üçün nə dərəcədə əhəmiyyət daşımalarının bilavasitə sübutudur.

Azərbaycanda, o cümlədən Naxçıvanda Sovet hakimiyyətinin qurulmasından sonra mədəni-maarif işinin təşkilində yaradılmış olan muzeylərin də əsas rolu olmuşdur. Naxçıvan MSSR XKS-nın xüsusi qərarı ilə 1924-cü ildə Naxçıvan şəhərində tarixi –etnoqrafik muzey təşkil olunmuşdur (1, s. 135). İlk vaxtlarda muzeylər eksponat baxımdan elə də zəngin olmamışdı. 1925-ci ildən sonra isə muzeylərin maddi mədəniyyət nümunələri ilə zənginləşməsində yeni bir mərhələ başladı. Belə ki, Naxçıvanda yaranmış Tədqiq və Tətəbbö Cəmiyyətinin yaranması (3, v. 25), muxtar respublika ərazisində arxeoloji qazıntıların aparılması və əldə edilmiş keramika məmulatları, əmək alətləri və digər eksponatların muzeylərdə təbliğ edilməsi bu sahənin canlanmasına kömək etmişdi (1, s. 136).

Muxtariyyətin ilk onilliklərində, xüsusilə də 1920-1930-cu illərdə Naxçıvan Muxtar Respublikasında mədəni quruculuq sahəsində mədəni-maarif müəssisələri mühüm işlər görmüşdür. Nəzər salınan bir sıra arxiv sənədləri əsasında 1930-cu illərdə Naxçıvanın müxtəlif bölgələrində zəhmətkeşləri maarifləndirmə sahəsində yaradılan qadın qiraət komaları, klublar, səyyar kitabxanalar və bu qəbildən olan ictimai təbliğat vasitələrinin fəaliyyəti ilə bağlı araşdırmalar tədqiq edilən dövr barədə aydın təsəvvür yaratmağa imkan verir.

## ƏDƏBİYYAT


1. Cəfərov F.A. Naxçıvan Muxtar Respublikasında mədəni quruculuq (1920-1941-ci illər). Bakı, 2018, 210 s.
2. Əkbərov Q. Muxtariyyətin ilk on ilində Naxçıvanda maarif işinin təşkili və elm Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər, 2020, № 2(103), 30-34
3. Naxçıvan tarixi. Üç cilddə, II cild, "Əcəmi" NPB, Naxçıvan, 2014, 528 s
4. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, f.1, siy.1, sax.vah.23, v.25
5. NMRDA: f.1, siy.1, sax.vah. 118, v.1.2
6. NMRDA: f.1, siy.1, sax.vah. 156, v.1
7. NMRDA: f.1, siy.1, sax.vah. 156, v.12
8. NMRDA: f.1, siy.1, sax.vah. 156, v.3
9. NMRDA: f.1, siy.1, sax.vah. 156, v.8
10. NMRDA: f.1, siy.1, sax.vah. 98, v.1
11. NMRDA: f.1, siy.1, sax.vah. 98, v.3
12. NMRDA: f.1, siy.1, sax.vah.101, v. 1
13. NMRDA: f.1, siy.1, sax.vah.101, v. 3,4
14. NMRDA: f.1, siy.1, sax.vah.147, v.9


## SUMMARY

**Gadir Akbarov**

## THE POLICY OF CULTURAL CONSTRUCTION IN NAKHCHIVAN IN 1924-1940 YEARS , THE ROLE OF LIBRARIES, READING ROOMS AND CLUBS IN THE ORGANIZATION OF CULTURAL AND EDUCATIONAL WORK

The article presents information about the organization of cultural and educational work in the Nakhchivan Autonomous Republic after the establishment of Soviet power. The special activity of the Council of people's commissars in the organization of cultural educational work is described in the foreground. On the basis of archival documents, the role of libraries and reading houses is emphasized, which have a great influence on educational work.

The activity of women's clubs in the Nakhchivan Autonomous Republic is particularly noted. The importance of the activities of women's clubs in the elimination of illiteracy is emphasized. Information about the creation of clubs, which played a key role in the organization of cultural education in Nakhchivan in the early years of autonomy, their effective use of their work, rendering assistance to rural libraries and reading teams is also studied in the article. The activities of the Turkish women's club of Ordubad are also considered on the basis of archival documents.

***Key words:*** *Nakhchivan, Ordubad, culture, education, library, club, museum*

## РЕЗЮМЕ

**Гадир Акбаров**

## ПОЛИТИКА КУЛЬТУРНОГО СТРОИТЕЛЬСТВА В НАХЧЫВАНЕ В 1924-1940 ГГ., РОЛЬ БИБЛИОТЕК, ЧИТАЛЬНЫХ ЗАЛОВ И КЛУБОВ В ОРГАНИЗАЦИИ КУЛЬТУРНО-ПРОСВЕТИТЕЛЬСКОЙ РАБОТЫ

В статье представлена информация об организации культурно-просветительской работы в Нахчыванской Автономной Республике после установления советской власти. Также на первый план в организации культурно-просветительской работы выдвигается особая деятельность Совета Народных Комиссаров. На основе архивных документов подчеркивается роль библиотек, домов собраний, которые оказывают большое влияние на просветительскую

работу. Особо отмечается деятельность женских клубов в Нахчыванской Автономной Республике. Подчеркивается важность деятельности женских клубов по ликвидации неграмотности. В статье также отражена информация о создании клубов, сыгравших ключевую роль в организации культурно-просветительской работы в Нахчыване в первые годы автономии, их эффективном использовании, оказании помощи сельским библиотекам, приемным комиссиям. Деятельность турецкого женского клуба города Ордубад также рассматривается на основе архивных документов.

***Ключевые слова***: *Нахчыван, Ордубад, культура, просвещение, библиотека, клуб, музей*

---

***Məqaləni çapa təqdim etdi:*** *tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov*
***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 11-17
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 11-17
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 11-17

**SEVDA ABDULLAYEVA**
*Lənkəran Dövlət Universiteti*

**UOT: 94 (479.24)**

# XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKI QUBERNİYASI XƏZİNƏ KƏNDLİLƏRİNİN MALDARLIQ TƏSƏRRÜFATININ TARİXİNDƏN

*Məqalədə çoxsaylı, mötəbər arxiv və digər mənbələrdən əldə edilən məlumatlar, o cümlədən tarixşünaslıq ədəbiyyatından götürülmüş materiallar əsasında XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakı quberniyasının dövlət kəndlilərinin maldarlıq təsərrüfatı tarixinin əsas xarakterik xüsusiyyətləri, inkişafının gedişatı və ümumi vəziyyəti nəzərdən keçirilir.*

*Əldə edilmiş müqayisəli statistik materiallar tam şəkildə göstərir ki, kənd təsərrüfatının bu mühüm sahəsi Bakı quberniyasının dövlət kəndliləri arasında da ekstensiv təsərrüfat növü olmuşdur. Tədqiq olunan dövrdə bu təsərrüfat artıq sürətlə bazar iqtisadiyyatının inkişafının tələblərinə uyğun şəkil almağa başlamışdı. Heyvandarlar kapitalist bazarının tələblərinə getdikcə daha çox uyğunlaşmaq məcburiyyətində qalırdılar ki, bu da sənayenin əmtəə qabiliyyətini ildən-ilə əhəmiyyətli dərəcədə artırırdı.*

***Açar sözlər:*** *Şimali Azərbaycan, Bakı, quberniya, xəzinə, kəndli, maldarlıq, çarizm*

Şimali Azərbaycanın dövlət kəndlilərinin təsərrüfat həyatında özünün əhəmiyyətinə görə taxılçılıqdan sonra ikinci yeri maldarlıq tuturdu. Maldarlıq öz roluna görə taxılçılıqdan nisbətən geri qalırdı. Maldarlığın inkişafı hər şeydən əvvəl əlverişli təbii-coğrafi şəraitlə, bərəkətli otlaqların, geniş düzənliklərin, lazımi iqlimin, təmiz su mənbələrinin olması ilə şərtlənirdi. Maldarlıqla məşğul olmalarına görə dövlət kəndlilərini üç qrupa bölmək olar. Birinci qrupa aid edilən əsasən əkinçiliklə məşğul olanlar yalnız əkin sahələrini becərmək və öz ehtiyaclarını ödəmək üçün tələb olunan qədər mal-qara saxlayırdılar. İkinci qrupa o kəndlilər aid edilirdi ki, onlar əkinçiliklə bərabər maldarlıqla da məşğul olurdular. Üçüncü qrupa daxil olan kəndlilər isə demək olar ki, təkcə maldarlıqla məşğul olub, elat həyatı keçirirdilər.

XIX yüzilliyin sonunda Bakı quberniyası qəzaların çoxunda dövlət kəndlilərinin pay torpaqlarındakı otlaqların ümumi sahəsi 467 489 desyatinə (belə torpaqlar xəzinə kəndlilərinin pay torpaqlarının Şamaxı qəzasında 51, Lənkəran qəzasında 52, Quba qəzasında 63, Cavad qəzasında 39, Göyçay qəzasında 65, Bakı qəzasında 64 faizini təşkil edirdi [39, s. 326-327]. Arxiv materialları əsasında tərəfimizdən aparılan hesablamalara görə XX yüzilliyin əvvəllərində isə bu 812 386 desyatinə bərabər olmuşdu [11, v. 16-20; 13, v. 48-50; 14, v. 77-79; 12, v. 17-18; 9, v. 136-137; 15, v. 65-66]. Maldarlıqla belə geniş şəkildə məşğul olmağın başlıca səbəblərindən biri də kəndlilərin eyni dərəcədə geniş miqyas almış aztorpaqlılığı idi [31, s. 51].

Dövlət kəndliləri pay torpaqlarından başqa həm sahibkarlardan, həm də dövlətdən icarəyə torpaq sahələri götürürdülər. Bakı quberniyasında icarə torpaqları dövlət və sahibkar kəndlilərin təsərrüfat həyatında mühüm rol oynayırdı. Cənubi Qafqaz statistika komitəsinin verdiyi məlumata görə 1897-ci ildə Bakı quberniyasında dövlətdən hərracla 555 797 desyatin torpaq sahəsi icarəyə götürülmüşdü. Dövlətdən icarəyə götürülmüş torpaqların çoxu otlaq və qışlaqlardan ibarət idi [26, s.34]. Senator Kuzminskinin hesabatında verilən məlumata görə, 1897-ci ildə Bakı quberniyasında hərracla icarəyə verilmiş torpaqların 407 124 desyatini məhz yaylaq və qışlaqların payına düşürdü [28, s.451]. Əgər XIX yüzilliyin sonlarında Şamaxı və Göyçay qəzaları dövlət kəndliləri dövlətdən və ayrı-ayrı şəxslərdən hər il 34,7 min desyatin yaylaq və 82 min desyatin qışlaq sahələri icarəyə götürmüşdüsə (bundan əlavə mənbələrdə bu qəzalarda yaşayan dövlət kəndliləri tərəfindən torpağın

icarəyə götürülməsi üçün 9 000 rubl xərcləndiyi göstərilir ki, bu da icarəyə götürülmüş torpaqların 150 min desyatin olduğunu ehtimal etməyə imkan verir) [36, s.98-118], XX yüzilliyin əvvəllərində icarəyə götürülən dövlət torpaqları Şamaxı qəzasında 153 000, Göyçay qəzasında 108 978 desyatinə bərabər idi [7, v.23-24].

Bakı quberniyasının kənd əhalisinin iqtisadi təminatında xüsusi torpaq sahiblərindən icarəyə götürülmüş torpaqlar böyük rol oynayırdı. 1897-ci ildə təkcə Cavad qəzasında dövlət və sahibkar kəndliləri tərəfindən xüsusi torpaq sahiblərindən 12 124 desyatin torpaq sahəsi icarəyə götürülmüşdü [26, s.17]. Kəndlilər öz həmkəndlisindən, qonşu kəndlərdən habelə digər qəzaların kəndlilərindən torpaq sahələri icarəyə götürməli olurdular. İcarəyə verilən torpaqların xeyli hissəsinin əkinə yararlı olmaması və yalnız mal-qaranın otarılması üçün yararlı olduğundan, belə sahələr maldarlar tərəfindən daha çox alınırdı. Həmçinin belə sahələr əkinə yararlı torpaq sahələrində xeyli ucuz başa gəlirdi. 1905-ci ildə senator Kuzminski Bakı quberniyasının təftişi üzrə yazdığı hesabatında Bakı qəzasında dövlət kəndlilərinin pay torpaqlarının kütləvi şəkildə icarəyə verilməsini xüsusi qeyd etmişdir. O, 1899-cu ilə qədər pay torpaqlarının icarəyə verilməsi haqqında 100-dən çox müqavilə bağlandığını göstərirdi [28, s.452]. Bakı quberniyasının ayrı-ayrı qəzalarında icarə torpaqlarından istifadə olunması heç də eyni deyildi. Bakı, Quba və Lənkəran qəzalarının dövlət kəndliləri icarə torpaqlarından daha geniş istifadə edirdilər.

Dövlət kəndinin varlıları otlaqların icarəsində başlıca rol oynayırdılar. Dövlət torpaqlarının icarəsində imkanlı və nüfuzlularla rəqabətə girmək kəndlilərin aşağı təbəqələri üçün çox çətin olurdu. Adətən iri sahələrlə icarəyə götürülmüş xəzinə otlaqları 3-4 qat baha qiymətlərlə ayrı-ayrı kənd cəmiyyətlərinə və kəndli qruplarına icarəyə verilirdi. Belə adamların geniş qol-qanad açmasına isə çox vaxt dövlət idarələri və məmurları şərait yaradırdı [3, v.1-2, 15]. Əgər XIX yüzilliyin sonunda otlaqların çoxu elliklə-kənd cəmiyyətləri tərəfindən icarə olunurdusa, XX yüzilliyin əvvəllərində bu sahədə isə, hətta formal olaraq elliklə icarəyə götürülmüş otlaq sahələri də əslində ayrı-ayrı şəxslərin əlində cəmləşmişdi [8, v.352]. Belə işdə, imperiyanın mərkəzi idarələrinin məhdudiyyət və qadağaları belə dövlət torpaqlarında baş vermiş alış-verişin qarşısını ala bilmirdi.

Haqqında danışdığımız quberniyanın maldarlıq təsərrüfatında birinci yeri qoyunçuluq tuturdu. Bunu M.Ə.İsmayılovun apardığı hesablamalara əsasən də belə qənaətə gəlmək olar [27, s.57].

*I cədvəl*

| İllər | Qoyunlar | İribuynuzlu heyvanlar | Atlar |
|---|---|---|---|
| 1897 | 706 945 | 272 335 | 99 644 |
| 1898 | 703 606 | 274 622 | 99 620 |
| 1899 | 690 000 | 237 588 | 99 540 |
| 1900 | 652 183 | 260 991 | 77 985 |
| 1901 | 652 459 | 244 299 | 77 057 |
| 1902 | 868 806 | 256 669 | 81 036 |
| 1903 | 1 025 491 | 325 783 | 100 982 |
| 1904 | 1 143 696 | 515 655 | 104 787 |
| 1907 | 865 611 | 400 609 | 74 238 |
| 1908 | 1 059 721 | 368 810 | 88 407 |
| 1909 | 954 121 | 376 993 | 74 563 |
| 1910 | 840 362 | 372 618 | 83 878 |
| 1911 | 719 289 | 592 117 | 79 133 |
| 1912 | 753 869 | 595 064 | 71 003 |
| 1913 | 903 534 | 618 253 | 84 943 |
| 1914 | --------- | 598 253 | 85 305 |
| 1915 | 1 049 202 | 547837 | 61 509 |
| 1917 | 982 975 | 475847 | 89 976 |

(Cədvələ 1904, 1914, 1915 və 1917-ci illər üzrə statistik göstəricilər tərəfimizdən əlavə olunmuşdur. 1904-cü il üçün 25, v. 1-2; 1914-cü il üçün 35; 1915-ci il üçün 24, v. 3; 1917-ci il üçün 22, v. 22)

Xəzinə kəndlilərinin 1910-cu ildə heyvandarlıq təsərrüfatlarında saxlanılan qoyunların sayı Şamaxı qəzasında bütün quberniyadakı davarların 41,9 faizini, Quba qəzasında 17,8, Lənkəran qəzasında 17,17, Cavad qəzasında 14,4 faizini təşkil edirdi [27, s. 58]. Həmin təsərrüfatlarda 1910-cu ildə mal-qaranın 2,5 faizi Bakı qəzasının, 9,7 faizi Göyçay qəzasının, 15,4 faizi Cavad qəzasının, 20,9 faizi Quba qəzasının, 17,8 faizi Lənkəran qəzasının, 33,7 faizi isə Şamaxı qəzasının payına düşürdü (faizlər «Обзор Бакинской губернии за 1910 г.» məcmuəsinin 6 saylı cədvəli əsasında hesablanmışdır). Hesablamalardan göründüyü kimi, Bakı quberniyasının ən böyük heyvandarlıq təsərrüfatı Şamaxı qəzasında idi. Lakin atların saxlanılması üzrə qəzalarda vəziyyət fərqlidir. Belə ki, 1910-cu ildə quberniyadakı bütün atların 2 faizi Bakı qəzasında, 30 faizi Göyçay qəzasında, 5,9 faizi Cavad qəzasında, 21,7 faizi Quba qəzasında, 31 faizi Lənkəran qəzasında, 9,4 faizi Şamaxı qəzasında idi (hesablamalar 23, 13-14 vərəqlər əsasında aparılmışdır).

Deməliyik ki, yuxarıda sadalanan rəqəmləri heç də tam hesab etmək olmaz. Bu rəqəmlər şübhəsiz o dövrdə mal-qaranın hesaba alınmasının yaxşı təşkil olunmaması, mal-qaranın hamısının siyahıya alınmaması üzündən tam hesab oluna bilməz. Rəsmi statistika yaylaqlarda, qışlaqlarda və kəndlilərin həyətyanı təsərrüfatlarında, habelə başqa yerlərdə olan ev heyvanlarının hamısını siyahıya almaq iqtidarında deyildi, bundan əlavə, kəndlilər vergilərdən qorxaraq mal-qaranın miqdarı haqqında çox hallarda düzgün məlumat vermirdilər [10, v.71]. İlk mənbələrdən əldə edilmiş məlumat üzrə aparılmış hesablamaların nəticələrinə görə məsələn, 1911-ci ildə Şamaxı və Göyçay qəzalarının dövlət kəndindəki mal-qaranın ümumi sayı 320 min başa bərabər idi [5, v.89 və 96, v.105-107, v.120-132, v.191-195]. Digər mənbədə həmin ildə Göyçay qəzası üzrə 377 010 baş, Şamaxı qəzasında isə 546 334 baş mal-qaranın olduğu göstərilir [1, v.57-59].

Bütün bunlarla yanaşı belə faktı göstərmək olar ki, tədqiq olunan dövrün sonlarında, yəni 1917-ci ildə Bakı quberniyasında heyvandarlıq 70-75 faizdən çoxu xəzinə kəndlilərinin əlində cəmlənmişdi. Əgər bunu XIX yüzilliyin 90-cı illəri ilə müqayisə etsək, təxminən 30 il ərzində kəndlilərin maldarlıq təsərrüfatının say miqyası demək olar ki, dəyişməmiş və yaxud çox cüzi şəkildə azalmışdır. Mülkədar kəndi ilə müqayisədə həm otlaq və həm də örüşlərlə nisbətən yaxşı təmin olunmuş dövlət kəndinin heyvandarlığı özünün nisbi say sabitliyini saxlaya bilmişdi.

Tədqiq edilən dövrdə maldarların sosial tərkibində böyük kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermişdi. Hələ XIX yüzilliyin 80-ci illərində dövlət kəndinin maldarları içərisində güclü qeyri-bərabərlik prosesi gedirdi. Bu dövrü tədqiq edən tədqiqatçılardan biri yazırdı: "*Dövlət kəndlərində hər həyətdə 10-15, bəzən, 5-20 başadək mal-qara saxlanılır. Orta sahibkarlar (və ümumiyyətlə, əksəriyyət) hər həyətə bir cüt iş heyvanı saxlayırlar*" [37, s.154].

Əsas qoşqu heyvanı kimi istifadə olunan atların sayında XIX yüzilliyin axırlarına nisbətən XX yüzilliyin əvvəllərində azalma müşahidə olunur. Bakı quberniyasında 1913-cü ildə 84 943 at qeydə alınmışdısa, bu rəqəm 1915-ci ildə 61 509-a bərabər idi. 1897-ci ildə, yəni tədqiq etdiyimiz dövrün əvvəllərində isə quberniyada atların sayı 99 644 baş təşkil edirdi. Deməli, 18 il müddətində atların sayı xeyli azalmışdı. Bu, Bakı quberniyasında dövlət kəndlilərinin get-gedə müflisləşməsinin göstəricisidir. Quberniyada əhalinin hər 100 nəfərinə 11-12 at düşürdü ki, bu da quberniyada böyük miqdarda atsız həyətlərin olduğunu göstərir. Məsələn, Göyçay qəzasında həyətlərin 60 faizinin, Şamaxı qəzasında 51,6 faizinin, Lənkəran qəzasında 49,9 faizinin, Quba qəzasında isə 44,6 faizinin atı yox idi [39, s. 67].

İmperiyanın toxuculuq sənayesinin tələbatını nəzərə alan çar hökuməti XX yüzilliyin əvvəllərində Azərbaycanda heyvandarlığın inkişafına müəyyən təkan verəcək tədbirlər həyata keçirmək məcburiyyətində qalmışdı. Bu məqsədlə Azərbaycanda sərgilər təşkil edilir, yoluxucu xəstəliklərə qarşı mübarizə aparmaq üçün bəzi tədbirlər həyata keçirilirdi.

Sürülərin tərkibini yaxşılaşdırmaq üçün Cənubi Azərbaycandan, Ukrayna, Volqaboyu və başqa yerlərdən yeni inək və qoyun cinsləri gətirirdilər [21, v.18-21; 5, v.216]. Hətta, Şamaxı qəzasında 1916-cı ildə südçülük təsərrüfatı üzrə kurslar təşkil etməyə cəhd göstərilmişdi [19, v.26; 20, v 1-9]. Hökumət kəndlilərdən dövlət vergilərinin toplanmasında heyvandarlığın inkişaf etdirilməsinin böyük rol oynadığını yaxşı anlayırdı.

1914-cü ildə "Qafqaz kənd təsərrüfatı cəmiyyətinin" heyvandarlıq bürosu sağılan mal-qaranın

bölgə sərgisini təşkil etməklə kənlilərdə bu sahəyə marağını artırmaq niyyətində idi. Sərginin iştirakçılarından birinin yazdığına görə, sərgi bütün ətraf kəndlərin əhalisinin diqqətini özünə cəlb etmişdi. Kəndliləri sərgiyə təkcə pul mükafatı və fəxri adlar almaq deyil, özlərinin nəyə ehtiyacları olduqlarını öyrənmək, yenilikləri eşitmək və görmək həvəsi cəlb edirdi [33, s. 6].

Mütəmadi olaraq baş verən xəstəliklər heyvandarlığın inkişafı yolunda böyük maneələr yaradırdı. Yazın əvvəllərindən başlayaraq mal-qara sürülərinin qışlaqlardan yaylaqlara aparılması zamanı yoluxucu xəstəliklər yayılırdı. Baytarların sayının azlığı xəstəliklərin qarşısının alınmasında çətinlik törədirdi. 1898-ci ildə Bakı quberniyasını bürümüş vəba xəstəliyi çoxlu mal-qaranın tələf olmasına gətirib çıxarmışdı. Vəba xəstəliyinə qarşı mübarizə 1879-cu il 1 iyun tarixli qanunun Cənubi Qafqaza şamil edilməsindən sonra, yəni faktiki olaraq, 1899-cu il fevralın 1-dən başlanılmışdı [27, s.62]. 1911-ci ilə kimi maldarlıq haqqında məlumatlar polisdən alınırdısa, sonralar belə məlumatlar ayrıca yaradılmış baytarlıq idarələrində toplanırdı [2, v.31]. 1911-ci ilin soyuq qışı Bakı quberniyasında heyvandarlığa vurulan növbəti zərbə oldu. Quberniyanın şimal qəzalarında –$20^0$S soyuq qeydə alınmışdı [6, v.20]. Sərt keçən qış kənd təsərrüfatının bütün sahələrinə böyük ziyan vurmuşdu. Yerlərdə otun qiyməti 80, samanın qiyməti 60 qəpiyə qədər qalxmışdı. Şamaxı qəzasının Kürdəmir Baytarlıq məntəqəsinin həkimi D.U. Uteuşun verdiyi məlumata görə 1911-ci ilin yanvar və fevralında keçən bərk qış və yem kasadlığı 23 kənd cəmiyyətini əhatə edən Kürdəmir mahalında 3 150 iribuynuzlu, 7000 xırdabuynuzlu ev heyvanının qırılmasına gətirib çıxarmışdı [17, v.26-28].

1912-ci ildə qəzaları əhatə edən vəba xəstəliyi heyvandarlığın inkişafını daha da ləngitmişdi. Xəstəliyin qarşısını almaq üçün çarizmin gördüyü tədbirlər qənaətbəxş deyildi. Lənkəran qəzasında yaradılmış 2 müalicəxana 6 ay, Göyçay qəzasında yaradılmış 3 müalicəxana 16 ay, Şamaxı qəzasında yaradılmış 1 müalicəxana 12 ay fəaliyyət göstərmişdi [16, v.114]. Bakı quberniyasında mövcud iş yerlərinə görə 29 baytar həkimi vəzifəsi mövcud olmuşdu. Lakin 1912-ci ilə kimi əhaliyə müalicə köməyi işinə yalnız 12 həkim cəlb edilmişdi, qalan həkimlər müalicə vasitələrinin çatışmamazlığı üzündən müalicə işi ilə məşğul ola bilməmişdi. Əhaliyə baytar yardımı üçün hər il quberniya üzrə cəmi 1 650 rubl pul buraxılırdı [16, v.114] ki, bu quberniya üçün cüzi hesab oluna bilər.

Bakı quberniyasında 1913-cü ilin yanvarından etibarən bir sıra baytarlıq məntəqələri birləşdirilərək birinci kateqoriyalı idarələr təşkil edilmişdi [32]. 1915-ci ildə Bakı quberniyasının Baytarlıq müfəttişliyinin baytarlıq heyəti 14 məntəqə və 3 qəzaya ezam edilmiş baytar həkimdən, habelə 2 məntəqə və 2 qəza baytar feldşerindən ibarət idi [18, v.47]. Həmin ildə Bakı quberniyasında 13 baytarlıq ambulatoriyası fəaliyyət göstərirdi. Baytarlıq ambulatoriyaları Quba, Lənkəran və Şamaxı şəhərlərində, Göyçay, Astara, Biləsuvar, Qusar, İvanovka, Petrapalovski, Prişib kəndlərində, Kürdəmir və Yalama stansiyalarında və Bəhrəmtəpə postunda yerləşirdi. Bu ambulatoriyalarda 709 iribuynuzlu mala, 3 972 ata və 1 075 digər heyvana tibbi yardım göstərməli idi [18, v.48]. Bunlardan əlavə Bakı, Quba, Şamaxı, Göyçay, Petropavlovsk və Prişibdə ambulatoriyaları yanında baytarlın bakterioloji stansiyaları yaradılmışdı [18, v.48].

Lakin görülən tədbirlər heyvandarlığın geriləməsinin qarşısını almağa qadir deyildi. Maldarların belə vəziyyəti bir tərəfdən təbii fəlakətlərə qarşı kəsərli tədbirlər görülməməsi, digər tərəfdən örüş və otlaqların getdikcə azalması, mal-qaranın ətlik üçün sərfinin sürətlə artması, müharibə və s. ilə izah oluna bilər.

Mənbələrdə saxlanılan bilgilər sübut edir ki, mal-qara və onun məhsulu geniş ticarət xarakteri daşıyırdı. Heyvandarlıqdan vergiləri ödəmək üçün nağd pul əldə edilirdi. Mal-qara yerli bazarlarda satılır, quberniyanın xaricinə, Cənubi Qafqazın digər şəhərlərinə, Dağıstana aparılırdı. Quberniyanın Lənkəran qəzasında mal-qara ticarəti əsas etibarilə Asullu və Masallı bazarlarında cəmlənmişdi. Dövlət Əmlak və Bakı-Dağıstan Torpaq İdarəsinin gətirdiyi statistik məlumata görə 1911-ci ildə Asullu bazarlarında orta hesabla 240 baş at, 27 min baş qara-mal, 12 min baş qoyun və keçi [6, v. 36], Masallı bazarında isə 800 baş at, 15 min baş qaramal, 11 min baş qoyun və keçi satılmışdı. Bu bazarlardan əlavə, ildə bir dəfə yazda Prişib kəndində xüsusi camış və kəl ticarəti bazarı təşkil edilirdi ki, burada 1 000 başa qədər camış və kəl satılırdı [38, s.113-114; 27, s.63].

Haqqında araşdırmalar apardığımız quberniyada ən iri mal bazarı Cavad qəzasının Petropavlovka kəndindəki bazar hesab olunurdu. 1912-ci ildə Petropavlovka bazarında beş ay

müddətində 3 min baş at, 30 min baş qaramal və 60 min baş qoyun və keçi satılmışdı. Mal-qaranın çox hissəsi satış üçün Bakıya gətirilirdi: 1912-1915-ci illər ərzində Bakıya hər il orta hesabla 250-270 min baş qaramal və qoyun gətirilir və satılırdı [27, s.64].

Bəzi müəlliflərin verdiyi məlumatlara görə, Göyçay qəzasındakı dəmir yolu stansiyalarından 1903-1908-ci illərdə 45 287 baş qoyun başqa yerlərə satışa aparılmamışdı [30, s.351]. Diri mal-qaranın göndərilməsi üzrə Kürdəmir bütün Azərbaycan stansiyaları içərisində ikinci yeri tuturdu.

Mal-qara qiymətləri fərqli olurdu. 1911-1913-cü illərdə mövcud qiymətlər mal-qaranın satışı haqqında müəyyən təsəvvür yaradır. Məsələn, 1911-ci ildə kəl 48 rubla, sağmal inək 50 rubla, qoyun 7 rubla, 1912-ci ildə kəl 41 rubla, sağmal inək 39 rubla, qoyun 7,7 rubla satılırdısa, 1913-cü ildə kəl 46 rubla, sağlıq inək 41 rubla, qoyun isə 9,7 rubla satılırdı [6, v.21].

Yağ və pendir istehsalı Bakı quberniyasında qismən sənaye səciyyəsi daşıdığına görə bu işlə əsasən maldarlar ibtidai istehsal alətlərindən istifadə etməklə məşğul olunurdular. Lakin 1910-cu ilin mart və aprel aylarında Göyçay qəzasının bəzi kəndlərində Qafqaz kənd təsərrüfatı cəmiyyətinin xama və yağ istehsal edən kiçik səyyar nümunə zavodu fəaliyyət göstərmişdi [35, s.1-2]. Bundan az sonra Çuxuryurd iş adamlarında Polovinkin, Sevardyayev qardaşları bir neçə dəfə primitiv yağ və pendir zavodu inşa etməyə cəhd göstərdilər [3, v.3]. 1911-ci ildə Bakı quberniyasının ən iri maldarlıq qəzası hesab olunan Şamaxı qəzasının Kəkil-Gour (Astraxanka kəndi) adlı yerində *"Kalmıkovların və Sergeyevlərin Birinci Şamaxı yağdüzəltmə işi"* adlı şirkəti fəaliyyətə başladı [6, v.31]. Burada müəssisə sahiblərinə məxsus olan və həmkəndlilərdən icarəyə götürülən inəklərdən sağılan süddən yağ və pendir istehsal olunurdu.

Tədqiq olunan Bakı quberniyasının xəzinə kəndlərində hər il böyük miqdarda yun əldə olunurdu. Hər bir qoyundan ildə orta hesabla 1-3 kiloqram yun qırxılırdı. Onda 1-ci cədvəldə göstəricilərə əsasən əldə edilən yunun miqdarı haqqında təsəvvür yaratmaq çətin deyildir. Bununla belə qaramal, qoyun, keçi və başqa heyvanların dəriləri də satışa çıxarılırdı.

Qaynaqlara söykənərək ümumilikdə demək olar ki, heyvandarlıq dövlət kəndlilərinin sosial-iqtisadi həyatında böyük əhəmiyyətə malik olmuşdur. XX əsrin əvvəllərində Bakı quberniyası xəzinə kəndlilərinin həyatında əkinçiliklə yanaşı maldarlıq təsərrüfatı da özünə məxsus yer tuturdu. Faktiki materialların təhlili göstərir ki, bəhs etdiyimiz dövrdə bu sahədə də kapitalistcəsinə təbəqələşmə prosəsi getdikcə genişlənir, əmtəə kapitalist münasibətlərinin dəyişdirici rolu daha da güclənirdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi. iş 2360
2. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, iş 1260
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 13, siy. 1, iş 472
4. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 22, siy. 1, iş 210
5. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 22, siy. 1, iş 211
6. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 22, siy. 3, iş 2439
7. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 22, siy. 3, iş 763 (a)
8. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 43, siy. 11, iş 8273
9. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 43, siy. 13, iş 9596
10. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 43, siy. 2, iş 1015
11. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 43, siy. 2, iş 1296
12. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 43, siy. 4, iş 676
13. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 43, siy. 7, iş 461
14. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 43, siy. 9, iş 764
15. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 44, siy. 4, iş 363 (a)
16. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 442, siy 1, iş 32
17. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 48, siy. 1, iş 6,

18. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 58, siy. 1, iş 3
19. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 58, siy.1, iş 58
20. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 59, siy. 1, iş 2
21. ARDA, f. 387, siy. 1, iş 225
22. ARDA, f. 391, siy 4, iş 1994
23. ARDA, f. 77, siy 1, iş 594
24. ARDTA, f.45, siy 2, iş 356
25. Həsənova L.L. İslahatdan sonrakı dövrdə Azərbaycanda torpaq icarə münasibətləri. Bakı, ADU, 1985. –68 s.
26. İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1960. –240 s.
27. Всеподданнейший отчет о произведенной в 1905 году, по высочайшему повелению сенатора Кузьминского, ревизии города Баку и Бакинской губернии. Баку, 1906
28. Евангулов А.Б. Данные о вывозе и ввозе шерсти в Закавказье // Труды Первого Кавказского съезда сельских хозяйств 15-24 ноября 1909 г. в Тифлисе. 1911, с. 344-352 / s. 266
29. Исмаилов М.А. О характере так называемого кочевого скотоводство в Азербайджане в XIX-начале XX вв. // Известия АН Азерб.ССР, серия истории, философии и права, №3, 1973
30. Кавказская копейка, 6 март, №53, 1913
31. Кавказское хозяйство, №18, 1914,
32. Калантар А.А. Начало инструкторской деятельности по молочному хозяйству в 1910 г. // Кавказское хозяйство, № 210, 1910
33. Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. 6, ч. 2, Тифлис, 1887
34. Материалы для устройства казенных летних и зимних пастбищ для изучения скотоводства на Кавказе. Т. 2, ч.2, Тифлис, 1890. –199 с.
35. Очерк сельского и местного хозяйства Ленкоранского уезда Бакинской губернии. Баку, 1914. –136 с.
36. Сборник статистических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края. Тифлис, 1899. –922 с.

## SUMMARY

**Sevda Abdullayeva**

### FROM THE HISTORY OF THE CATTLE-BREEDING ECONOMY OF THE STATE PEASANTS OF THE BAKU PROVINCE AT THE END OF THE 19th - EARLY 20th CENTURIES

In this article, on the basis of information from numerous and reliable archival and other sources, as well as materials taken from historiographical literature, an attempt is made to consider the situation, the main characteristic features, the course and peculiarities of the development of the cattle-breeding economy of the state-owned peasants of the Baku province at the end of the 19th century - the beginning of the 20th centuries.

The cited comparative statistical materials convincingly show that this important branch of the peasant economy was also an extensive economy among the state-owned peasants of the Baku province. Nevertheless, already in the period under review, it was rapidly drawn into the all-encompassing channel of market-capitalist development. The stock-breeders were compelled to conform more and more closely to the demands of the capitalist market and the marketability of this industry more and more grew significantly every year.

***Key words:*** *Northern Azerbaijan, Baku, province, treasury, peasant, cattle breeding, tsarism*

## РЕЗЮМЕ

**Севда Абдулаева**

## ИЗ ИСТОРИИ СКОТОВОДЧЕСКОГО ХОЗЯЙСТВА КАЗЕННЫХ КРЕСТЬЯН БАКИНСКОЙ ГУБЕРНИИ КОНЦА XIX– НАЧ. XX ВВ

В настоящей статье, на основе сведений многочисленных и достоверных архивных и других источников, а также материалов, взятых из историографической литературы, предпринята попытка рассмотреть положение, основные характерные черты, ход и особенности развития скотоводческого хозяйства казенных крестьян Бакинской губернии в конце XIX в. и начале прошлого столетия.

Приведенные сравнительные статистические материалы убедительно показывают, что эта важная отрасль крестьянского хозяйства и у казенных крестьян Бакинской губернии так же являлась экстенсивным хозяйством. Чем не менее уже в рассматриваемый период оно стремительно втягивалось в всеобъемлющее русло рыночно – капиталистического развития. Скотоводы вынуждены были все теснее и теснее подстраивались требованиям капиталистического рынка, и товарность этой отросли с каждым годом становилась все значительнее.



***Ключевые слова:*** *Северный Азербайджан, Баку, губерния, казна, крестьянин, скотоводство, царизм*

---

***Məqaləni çapa təqdim etdi:*** *tarix üzrə fəlsəfə doktoru, dosent Şükür Məmmədov*

***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*

***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 18-24
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 18-24
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 18-24

**VÜSAL İSGƏNDƏROV**
*Gəncə Dövlət Universiteti*
*isgandarovusal@gmail.com*

**UOT: 94**

# DAĞISTANDA RUS İŞĞALINA QARŞI ÜSYANLAR (1818-1820-Cİ İLLƏR)

*Məqalədə Rus qoşunlarının Şimali Qafqazda istehkam və qalalar tikməsinin nəticəsi olaraq Avar, Mehdili, Qazıqumux xanlarının ittifaq quraraq ruslara qarşı hərəkətə keçmələri, Rusiya tərəfindən Dağıstanın üsyançı hakimlərinə qarşı sərt və müntəzəm cəza ekspedisiyalarının təşkil edilməsi, Qafqaz qoşunlarının baş komandanı general Yermolovun həyata keçirdiyi cəza tədbirləri, baş vermiş üsyanların rus qoşunları tərəfindən yatırılması zamanı hər iki tərəfdən insan itkiləri haqqında verilmiş məlumatlardan bəhs edilmişdir. Bununla yanaşı, Qafqaz komandanlığının cəza ekspedisiyaları zamanı Dağıstanlılara məxsus əkinləri məhv edib mal-qaranın sürüb aparılması, üsyankar icmalara məxsus mal-qaranın xəzinənin xeyrinə müsadirə edilməsi, dağlıların iqtisadiyyatına dəyən ziyan, rus qoşunları tərəfindən süni şəkildə yaradılan gömrük maneələrinin dağlıların təsərrüfatlarına və sənətkarlığa mənfi təsir göstərməsi araşdırılmışdır.*

***Açar sözlər:*** *Dağıstan, rus işğalı, üsyançı dəstələr, cəza tədbirləri, müstəmləkəçi siyasət, ağır vergilər*

Yermolov tərəfindən 1818-ci ildə Sunja çayının sol sahili boyu ərazilərdə bir sıra istehkamların salınması və Qroznı qalasının tikintisi təkcə çeçenləri narahat etmirdi, bu Dağıstanda da vəziyyətin gərginləşməsinə səbəb olur. Bundan əndişə duyan Avar, Mehdili, Qazıqumux xanları, Akuşa və Tabasaran ittifaq qurub ruslara qarşı hərəkətə hazırlaşırlar. Rus mənbələrindən bəlli olur ki, Dağıstandakı üsyançı qüvvələr ilk olaraq bölgədə rus meyilli Tərki şamxalını cəzalandırmağı planlaşdırırdılar. General A.P. Yermolov bu barədə Quba dairəsi rəisi general-mayor A.B. Pestelə yazırdı ki, hazırlanan həyəcanlarda Qazıqumuqlu Surxay xan, akuşalılar və Şeyxəli xan da yaxından iştirak edir [22, c.3-4]. V.A. Potto isə qeyd edirdi ki, Dağıstan üsyançıları uğur qazanacağı təqdirdə onlar, Dərbənd, Quba, Qaraqaytaq və Cenqutayı vaxtilə rus hakimiyyəti tərəfindən uzaqlaşdırılmış əvvəlki hakimlərinə qaytarmağı düşünürlər [20, c.210].

1819-cu ildə Rusiya tərəfindən Dağıstanın üsyançı hakimlərinə qarşı daha sərt və müntəzəm cəza ekspedisiyaları təşkil edilməklə Avar, Mehdili xanlarını, Qaraqaytaq usmisini hakimiyyətdən kənarlaşdırmışdı [8, c.64-83]. 1820-ci ildə isə general-mayor Mədətovun komandanlığı altında rus qoşunlarının Qazıqumuq xanlığını işğal etməsindən sonra Surxay xan hakimiyyətdən kənarlaşdırılmış, xanlıq onun qardaşı oğlu Kürə xanı Aslan xanın idarəçiliyinə verilmişdi [7, c.439-443].

Çar hökuməti dağlılara qarşı təsir vasitəsi kimi istifadə etmək üçün Dağıstanın bütün duz göllərini ələ keçirməyi planlaşdırırdı. Hərbi nazir Barklay de Tolli hesab edirdi ki, Şamxalın ixtiyarında olan duz göllərinin ələ keçirilməsi və dağlılara "duz almağa" qadağa qoyulması onları "daimi asılılıqda saxlayacaq" və "bu həyəcanlara qalxanları ram etmək üçün ən yaxın vasitə olacaqdır" [13, c.37].

Hətta çar I Nikolay Qafqaz administrasiyasından tələb edirdi ki, "itaətkar" dağlıları yalnız onların tərəfinə keçmiş rus əsgər və zabitlərin qaytarılması müqabilində duzla təmin etsin [24, c.25].

Qafqazda çarizmin işğalçılıq siyasətinin ən qəddar icraçısı olan Yermolovun adı Arakçeyev, Muravyov-Veşşatel və başqalarının adları ilə yanaşı çəkilə bilər. Yermolov tabe olmayan aulları dağıdaraq və yüzlərlə günahsız insanı güllələyərək onları od və qılıncla ələ keçirirdi.

Yermolovun özü isə onun üzərinə düşən missiya barədə yazırdı: "Qafqaz yarım milyonluq qarnizon tərəfindən müdafiə olunan nəhəng bir qaladır. O qalaya hücum etməliyik, yaxud səngərlərini ələ keçirməliyik. Hücum baha başa gələcək, onu hər tərəfdən mühasirəyə almalıyıq" [1, c.95].

Yermolovun Qafqaza gəlişi ərəfəsində Qafqazdakı rus ordularının sayı 132 topla təchiz olunmuş 56 min nəfərlik qüvvədən ibarət idi. Yeni təyin olunmuş baş komandan buradakı ordunun vəziyyəti ilə tanış olduqdan sonra Peterburqa raportunda Qafqazdakı rus ordularının sayını daha 26 min nəfər artırmağın zəruriliyini bildirirdi [3, c.487].

Hazırlanan üsyan barəsində Tərki şamxalı Qafqazın yeni baş komandanı general Yermolova məlumat verdi ki, Dağıstan hakimləri tərəfindən dağlıların ümumi üsyanı və onun mülkünə hücum planı hazırlanr. Tərki şamxalının məlumatlarına görə, 1818-ci ilin yayında Avar xanı başda olmaqla Dağıstan hakimləri və icmaları, Rusiyaya qarşı ümumi çıxışa hazırlaşırdılar. Azərbaycan hakimlərindən, həyatının sonuna kimi Rusiyaya qarşı mübarizə aparmış Şeyxəli xan da Dağıstanın feodal hakimlərinin hazırladığı çıxışda yaxından iştirak etmişdir. O, hətta tabasarnlıları da üsyana qaldırmaq məqsədilə Yersinli Abdulla bəyin yanına yaxın adamlarını göndərmişdi [25, c.5-6].

Quba dairə rəisi, general-mayor A.B. Pestelin Yermolova göndərdiyi məktubdan bəlli olurdu ki, Azərbaycanın feodal hakimlərindən Şamaxılı Mustafa xan və Şəkili İsmayıl xanın da Dağıstan üsyanı ilə əlaqələri olmuşdur. Onun yazdığına görə Qacar sarayından Mirzə Bozorq 150 min tümən vəd edilməklə Dağıstanı üsyana qaldırmaq təklifi ilə Şamaxılı Mustafa xanın yanına göndərilmişdi. Bu barədə Mustafa xan, Qazıqumuxlu Surxay xan və Şeyxəli xan arasında müəyyən yazışmalar olmuşdur [23, c.801-801].

Qalanın tikintisi ilə məşğul olan A.P. Yermolov Dağıstanda həyəcanın geniş yayılmasının qarşısını almağa çalışır və P.İ. Pesteli usminin (Dağıstanda Qaraqaytaq hakiminin titulu) itaətindən çıxmış Başlının alınması üçün göndərir. Bundan xəbər tutan akuşalılar Başlıya köçdülər. Avar xanı Sultan Əhməd xan, qardaşı Mehdili xanı Həsən xan, Dərbəndli Şeyxəli xan kürəkəni Yersinli Abdulla bəylə akuşalılara qoşulur. Nəticədə üsyançı qüvvələrin ümumi sayı 20.000 nəfərə çatdı [11, c.135].

Həmin vaxtı Pestel iki batalyon və yerli atlılardan ibarət dəstə ilə Başlı kəndini alsa da burada çoxsaylı üsyançı dəstə tərəfindən mühasirə olunur. Başlı kəndinin dar küçələri artilleriyanın hərəkəti üçün çətinlik törətdiyindən ruslar üsyançılara qarşı effektiv müqavimət göstərə bilmirlər. Polkovnik Mişenkonun sayəsində ruslar mühasirədən çıxaraq Dərbəndə çəkilə bilsələr də bu döyüşdə onların kütləvi itkiləri olur. Belə ki, bu zaman ruslar 12 zabit, 500 sıravi itirmişdilər. Dağlıların bu qələbəsi hətta Təbrizdə qeyd olunmaqla, vəliəhd Abbas Mirzə bu münasibətlə ziyafət təşkil etmiş və toplardan atəş açdırmışdı [5, c.60-61].

Başqa bir rus hərb tarixçisi N.F.Dubrovin də rusların Başlı kəndində verdiyi itkilərin 500-dən artıq olduğunu qeyd edir. O, yazır ki, oktyabrın 23-də Avar xanı Sultan Əhməd xan, Cenqutaylı Həsən xan və Şeyxəli xanın başçılıq etdiyi üsyançı dəstələrin Başlı kəndində mövqe tutmuş rus qoşununun üzərinə baş vermiş hücumu nəticəsində həmin ayın 26-sı axşamı general Pestel, mühasirəyə düşməkdən ehtiyat edərək Başlını tərk etmiş və Dərbəndə çəkilmişdi. Bu döyüşdə rusların itkisi 500 nəfərdən artıq olur [7, c.319-322].

Bu döyüşdə rusların itkiləri barədə Qizettinin verdiyi məlumatlar isə bir qədər fərqlidir. Beləki, onun yazdığına görə gen-m Pestelin başçılığı altındakı hissələrin Başlı kəndi yaxınlığında 1818-ci ilin oktyabrın 23-dən 26-a kimi verdiyi itkilər aşağıdakı kimi olmuşdur: zabitlərdən 3-ü öldürülmüş, 3-ü yaralanmış, aşağı rütbəlilərdən 137 nəfər öldürülmüş, 269 nəfər yaralanmışdı [6, c.14].

Həmin dövrün rəsmi mənbələrindən Başlı kəndindəki döyüşlərdə rusların kifayət qədər ağır itkilərə məruz qaldığı bəlli olur. General A.P. Yermolov imperiyanın xarici işlər naziri qraf K.V. Nesselrodeyə yazdığı 1819-cu il 2 aprel tarixli məktubunda bildirirdi ki, Şeyxəli xanın qasidi Abbas Mirzəyə Başlı kəndindəki döyüşdə öldürülmüş rus əsgərlərinin kəsilmiş qulaqları və onların digər bədən üzvləri ilə dolu kisə gətirmişdi [14, c.213].

Başlı əməliyyatının ardınca Yermolov 5 batalyon piyada, 300 kazak və 14 topla digər üsyan mərkəzi Mehdili xanlığına gəlir. Hücumla xanlığın Paraul və Cenqutay kəndlərini alan Yermolovun əmri ilə bu kəndlər dağıdılır. Mehdili xanlığı ləğv olunur, onun bir hissəsi Tərki şamxalına verilir,

digər hissəsi isə Rusiya imperiyasına qatılır [5, c.61]. Yermolov bu barədə riyakarcasına qeyd edirdi ki, "Bizə qarşı silah götürməyə cəsarət etdikləri Cenqutay kəndlərini dağıtdım, onlarla birlikdə bütün evləri, mülkləri yandırdım."

Yermolovun sözlərinə görə, Pestel Başlı kəndində daşı daş üstə qoymadı və onun bünövrəsinin izləri tamamilə silinib. O yazırdı ki, "Artıq Başlı mövcud deyil" [17, c.37-38].

Yermolov, gen. Pestelin hərəkətlərini təşviq edərək yazırdı: "Sizə verilən tapşırığın yerinə yetirilməsi məni qane etdi. Başlının dağıdılmasından razı qaldım, və eyni zamanda geri qayıdarkən bizə qarşı çıxışlarda iştirak etmiş yaxınlıqdakı digər kəndləri də cəzalandırmaq fikrindən daşınmayın" [22, c.59].

Rus mənbələri general Yermolovun başçılığı altındakı hissələrdən 1818-ci ilin oktyabrın 25-dən noyabrın 20-ə kimi Mehdili xanlığında üsyançılarla döyüşlərdə 6 sıravinin öldürüldüyünü, 4 zabit, 54 sıravinin isə yaralandığını qeyd edirlər [6, c.14].

Rus komandanlığının rəsmi məktublaşmalarından bəlli olur ki, 1919-cu ilin yazında Avar xanı Sultan Əhməd xan dağlarda yeni həyəcanlar məqsədi ilə qüvvə toplamaqla məşğul idi. Bu zaman keçmiş Dərbənd xanı Şeyxəli xanın da Dağıstan üsyanında yaxından iştirak etməsi barədə də məlumatlar verilirdi. General A.P. Yermolov general Vredeyə yazdığı təlimatında Avar xanı Sultan Əhməd xanın və Şeyxəli xanın bu fəaliyyətləri ilə bağlı məlumat verilməklə Vredeyə onlarla heç bir əlaqəyə girməmək tapşırılırdı. Baron Vredeyə eyni zamanda akuşalıları ciddi nəzarətdə saxlamaq, bu xalqlar tərəfindən Dərbənd-Qızılyar yolunda törədilən quldurluğa qarşı tədbirlər görmək də tapşırılırdı [21, c.7-8].

1919-cu ilin yayında ruslar Dağıstanın iri kəndlərindən olan Enderi kəndinin yaxınlığında Vnezapnaya qalasının tikintisinə başlayırlar. Bu, yenidən Dağıstanda vəziyyətin gərginləşməsinə səbəb olur. Qalanın tikintisi Dağıstan üsyançılarının aramsız hücumları ilə müşayiət olunurdu.

Həmin vaxtı Quba-Dərbənd bölgəsində də həyəcanlı vəziyyət yaranmışdı. General-leytenant İ.A. Velyaminov 1819-cu ilin iyunun 25-də Mustafa xana yazdığı məktubunda Şeyxəli xan tərəfindən ayaqlandırılan Dağıstan icmalarından bəzilərinin Quba və onun ətrafında yerləşən bölgələrə hücum etməyi planlaşdırdıqlarını bildirirdi. Bu təhlükənin qarşısının alınması məqsədilə Qubada general Mədətovun başçılığı altında hissələr yerləşdirilir [19, c.806].

Yermolovun Dağıstan hərbi dairə rəisi general Vredeyə yazdığı məktubundan Şeyxəli xanın akuşalılar arasında təbliğat apararaq onları Rusiyaya qarşı çıxışlara sövq etdiyi bəlli olur. Yermolov buna qarşı ciddi tədbirlər görməyi, Şeyxəli xanın yaxın adamlarını həbs edərək Dərbənd qalasına salmaq barədə tapşırıqlar verirdi [21, c.105].

Belə bir vaxtda Avar xanı Sultan Əhməd xanın başçılığı altında 6 min nəfərə çatan üsyançı dəstə Vnezapnaya qalasına doğru hərəkətə başlayır. Beybulatın başçılığı altında çeçenlərdən ibarət dəstə də Dağıstan üsyançılarına qoşulmuşdu. Yermolov Kabardin piyada alayının 7 rotası, Yeger alayının 6-cı və 8-ci rotaları, 42-ci Yeger alayının 2 batalyonu, 13 top və 300 kazakla avqustun 29-da Vnezapnaya qalasından Dağıstan üsyançılarına qarşı çıxış edir. 1819-cu ilin avqustun 29-da tərəflər arasında Sulak çayındakı Bavtuqay kəndi yaxınlığında baş vermiş döyüşdə üsyançılar məğlub edilsələr də rusların verdiyi itkilər kifayət qədər çox olmuşdu. Yermolovun məlumatına görə avqustun 29-dan sentyabrın 5-ə kimi tərəflər arasında baş vermiş müxtəlif döyüşlərdə ruslardan 30 sıravi, 2 kazak öldürülmüş (sonradan yaralılardan daha 5 nəfər ölmüşdü), 5 sıravi itkin düşmüş, 2 zabit, 69 sıravi, 5 kazak isə yaralanmışdı [2, c.26-27]. Bu döyüşdə rusların verdiyi itkilər barədə Qizettinin verdiyi məlumatlara görə isə 37 sıravi öldürülmüş, 3 zabit, 85 sıravi yaralanmış, 5 sıravi əsir düşmüşdü [6, c.14].

Bu döyüşdən sonra Yermolov rus qoşunlarının bir hissəsini akuşalıların, qaytaqların, Şeyxəli xanın və şamxalın digər düşmənlərinin onun üzərinə hücum etməsinin qarşısını almaq üçün Tərki şamxallığına göndərdi, özü Çeçenistana gayıtdı.

Həmin vaxtı Dağıstanın cənubunda fəaliyyət göstərən general Mədətov Əmir Həmzəni və İbah bəyi öz tərəflərinə çəkməyə müyəssər olan Dağıstandakı antirusiya koalisiyasının Qaraqaytaq ərazisinə hazırlanan hücumu barədə xəbər alır və sürətlə onlara qarşı hərəkətə başlayır. 1819-cu il sentyabrın 3-dən 4-nə keçən gecə üsyançı dəstələrə hücum etdi və onları ağır məğlubiyyətə uğratdı

[11, c.136].

Bu arada, Mədətov Başlıda aralarında keçmiş usmiy Adil xanın və Yersinli Abdulla bəyin də adamlarının yer aldığı üç minə yaxın üsyançı dəstənin toplanması barədə xəbər alır. Oktyabrın 5-də Mədətov Başlıya hücum edərək kəndin müdafiəçilərini onu tərk etməyə məcbur edir. Qizettinin yazdığına görə general-mayor, knyaz Mədətovun 1819-cu ilin sentyabrın 1-dən 5-ə kimi Qaraqaytaqa ekspedisiyası zamanı onun hissələrindən 5 sıravi öldürülmüş, 19-u yaralanmışdı [6, c.15].

Usmiy Adil xan dəstəsi ilə birlikdə Madjalisə çəkilir və akuşalılardan əlavə yardın aldıqdan sonra Samsi bölgəsində möhkəmləndi. Burada 4000 nəfərlik üsyançı qüvvə cəmləşmişdi. Samsiyə hücum etməklə əsgər itirmək istəməyən Mədətov usminin iqamətgahının yerləşdiyi Yangikəndə getdi. Bu hərəkəti ilə Mədətov ümid edirdi ki, Adil xan kəndi xilas etməyə tələsəcək. Elə də olur. Usmiy möhkəmləndirilmiş mövqeyini tərk edib Yangikəndə tərəf hərəkət edir. Kəndin girəcəyində oktyabrın 22-də tərəflər arasında baş vermiş döyüşdə usmi məğlub olur, onun evi dağıdılır və kənd yandırılır. Adil xan Akuşaya qaçmaq məcburiyyətində qalır.[11,c.136] Usmiy Adil xanın məğlubiyyətindən sonra Qaraqaytaq, Kaba-Darqo və Tərəkəmə sakinləri Rusiyaya sədaqət andı içməyə məcbur olurlar [9, c.62-63].

1820-ci il yanvarın 26-da “Qaraqaytaq xalqına müraciət”ində Yermolov bildirir ki, usmian nəsli Qaytaqın irsi hakimi hüququndan məhrum edilmişdir. Bundan sonra onun hökmdarı imperator tərəfindən təsdiqlənəcəkdir. Bütün digər məsələlərdə idarəetmə əvvəlki qaydada qalır. Eyni zamanda, o, müvəqqəti olaraq Qaytaqın idarəsini Dərbənd komendantına tabe edərək Əmir Həmzəyə tapşırdı [12, c.63-64].

1819-cu ilin sonlarında Yermolov qoşunlarını Tərki şamxalının ərazisinə cəmləyərək Mehdili mülkündən keçməklə akuşalılara qarşı hərəkət etdi. Urma və Levaşi aullarının yaxınlığında Yermolov dağlıları məğlub etdi. Dekabrın 21-də rus qoşunları Akuşanı işğal etdilər. Kəndin bütün sakinləri dağlara getdiyi üçün ruslar boşalmış kəndə daxil olurlar. Levaşi, Ullu-Aya və başqa aullar talan edilərək yandırıldı. Bu vəhşiliklər barədə general Yermolov yazırdı: “qürurlu və indiyə qədər heç vaxt, heç kimə tabe olmayan bir xalqın cəzasına abidə kimi kəndi viran etmək lazım idi; bu, həm də bəzi dəhşət nümunələrinin tabeçilik üçün kifayət edəcək digər xalqlara dərs vermək üçün lazımdır” [8, c.82]. Yermolovun 1819-cu ilin dekabrın 19-21-ə kimi davam etmiş Akuşa ekspedisiyası zamanı ruslardan 4 sıravi öldürülmüş, 2 zabit, 26 sıravi yaralanmışdı [6, c.15].

Yermolov qeyd edirdi ki, Akuşaya sözün tam mənasında rusların müttəfiqi olan yeni qazı təyin etmiş və Akuşanın itaətinin ən yaxşı təminatı kimi 24 nəfər əyan ailələrdən girovlar götürərək Dərbənd qalasında saxlanmaq üçün göndərmişdir [5, c.62].

1819-cu ilin dekabrın 16-dan 24-ə kimi Qazıqumuxlu Surxay xanın başçılığı altında 6 minlik dəstənin Troitski piyada alayının iki bölüyü tərəfindən müdafiə olunan Çirax körpüsünü ələ keçirmək uğrunda apardığı döyüşlər zamanı ruslardan 2 zabit, 43 sıravi öldürülmüş, 1 zabit, 24 sıravi yaralanmışdı. Ümumilikdə 1819-cu il ərzində Şimali Qafqazda yerli əhali ilə toqquşmalarda ruslardan 5 zabit, 201 sıravi öldürülmüş, 22 zabit, 428 sıravi yaralanmış, 36 sıravi əsir alınmışdı [6, c.15].

1919-cu ilin payızında apardığı əməliyyatların nəticəsi olaraq Yermolov bir sıra Dağıstan icmalarını Rusiyaya itaət etmələri barədə andlı öhdəlik imzalamağa məcbur edə bilir. Lakin hadisələrin sonrakı gedişi göstərəcək ki, Qaraqaytaq icmalarının [9, c.62-63] və Tabasaran məsumunun [10, c.72-73] (Tabasaran hakiminin titulu) hakimiyyəti altında olan bütün sakinlərinin andlı öhdəlikləri əslində zahiri tabeçilikdən başqa bir şey deyildi.

1820-ci ildə Təki və Şirvan xanlarının, eləcə də Kürə xanı Aslan xanın başçılıq etdiyi milislərin qoşulduğu Yermolovun komandanlığı altında olan rus qoşunları Qazıqumuxlu Surxay xana qarşı çıxış edir. 1820-ci ilin iyunun 12-də Xozrek kəndi yaxınlığında gen-m, knyaz Mədətovun başçılığı altındakı hissələrlə Qazıqumuxlu Surxay xanın üsyançı dəstəsi arasında baş vermiş döyüşdə ruslardan 1 zabit, 61 sıravi öldürülmüş, 5 zabit, 142 sıravi yaralanmışdı [6, c.16].

İyulun 14-də Çirax kəndi yaxınlığında baş vermiş döyüş nəticəsində Surxay xanın dəstələri məğlub edildilər. Üsyançıları təqib edən general Mədətov xanlığın mərkəzi Qumuxu tutur. Surxay xan qaçır və onun yerinə ruslar Aslan xanı təyin edirlər. Yermolovun imperatora yazdığı 7 iyul 1820-ci il tarixli raportunda bu barədə qeyd olunurdu ki, Surxay xan bu zaman ölü və yaralı olaraq 1200

nəfər itirmiş, onun dəstəsindən 603 nəfər əsir götürülmüş, üsyançıların 11 bayrağı və düşərgəsi ələ keçirilmişdir. İyunun 15-də xanlığın baş kəndi Qumuxun tutulması zamanı üsyançılara məxsus 9 top və 3 minaatan ələ keçirilmişdir. Əhali Rusiya təbəəliyini qəbul etmiş, Surxay xanın yerinə isə Aslan xan təyin olunmuşdur [4, c.41].

Artıq üsyançıların müqavimətinin qırıldığını güman edən Yermolov çara yazırdı: ”Keçən ildən başlayan Dağıstanın işğalı indi tamamlandı və bu qürurlu, döyüşkən və indiyə qədər heç kim tərəfindən məğlub edilməyən ölkə İmperator Əlahəzrətinizin müqəddəs ayaqları altına düşdü” [4, c.41].

Yermolov hesab edirdi ki, Qafqazın üsyankar bölgələri artıq silah gücünə itaətə gətirilib və diyarın digər hissələrinin fəthi iqtisadi yolla aparıla bilər. Yermolov əmin idi ki, Qafqazın digər hissələrinin iqtisadi blokada və ya "mühasirə" yolu ilə işğalı elə də çətinlik yaratmayacaq. Lakin o, belə düşünərək onunla bu barədə həmfikir olan insanlarla bərabər çox yanılırdı.

Tabe edilmiş xalqların üzərinə Qafqaz komandanlığı natura və pul şəklində birdəfəlik ianə, həmçinin pul, taxıl, heyvan və heyvandarlıq məhsulları ilə ödənilən çoxsaylı vergilər qoymuşdu. Qaytaq usmiliyinin sakinləri ildə hər ailə başına 2 sabı buğda və 2 sabı arpa, akuşalılar 2 min qoyun, surqalılar 400 çervon, Qazıqumux xanlığının sakinləri 3 min çetvert buğda və 3 min çervon verməli idilər [8, c.82].

Bu vergilərin yığılması zamanı, bir qayda olaraq, sui-istifadə hallarına yol verildiyini və vergilərin daha böyük məbləğdə yığıldığını nəzərə alsaq, onların dağlılar üçün necə ağır yük olduğu aydın olur. Bundan əlavə, mütləqiyyət zor gücünə dağlıları qalaların tikintisi, magistral yolların və torpaq yolların çəkilməsinə məcbur edilirdi.

Bəzi feodal mülklərində yerli hakimiyyət sakinlərə xan tərəfindən imzalanmış xüsusi bilet olmadan onun ərazisindən kənarda ticarət etməyi qadağan etmişdi. Bu tədbir rus hakimiyyəti üçün qeyri-münasib xanların hakimiyyətini sarsıtmaq və Rusiya meyilli siyasət yürüdən xanların təsirini artırmaq üçün tətbiq edilirdi. Bu, xüsusən də Avar xanlığında belə idi. Burada arzuolunmaz Sultan Əhməd xanın hakimiyyətini sarsıtmaq və Surxay xanın xalqın gözündə nüfuzunu artırmaq məqsədilə general Velyaminov 1821-ci ildə biletsiz və sonuncunun möhürü olmadan, “Onlara heç bir halda Rusiyanın hansısa şəhərinə səyahət etməyə icazə verməməyi tələb edirdi [24, c.21].

Bu barədə qraf Paskeviç qraf Nesselrodaya məruzə edərək yazırdı ki, “Avarlardan Surxay xanın (Sultan Əhməd xanın xanlıqdan kənarlaşdırılmasından sonra xanlığın idarəçiliyinin həvalə edildiyi yeni Avar xanı) biletləri olanlardan başqalarının bölgələrimizə buraxılmaması barədəki qərarımızın, bu istiqamətdəki addımlarımızın ən layiqlisi kimi qəbul etmək lazımdır. Hökumətimizə yalnız bu qaydaya ciddi şəkildə əməl etmək qalır və nəticədə çox güman ki, məqsədinə çatacaq” [16, c.509].

1819-cu ildə andilərdən (avarların etnoqrafik qrupu) 21 at, 983 rublluq 493 yapıncı müsadirə edilmiş, onlardan alınan pullar xəzinəyə daxil edilmişdi. 1821-ci ildə Gürcüstana ticarət məqsədilə gələn 10 didoy həbs edilərək Telavi qalasına göndərilir [24, c.20-21].

Yermolovun xarici işlər naziri Nesselrodeyə 10 yanvar 1820-ci il tarixli raportunda şamaxılı Mustafa xan, qazıqumuqlu Surxay xan və Avar hakimi Sultan Əhməd xanın Şeyxəli xanla əlaqə saxlamaları barədə məlumat verilirdi. Bu raportdan bəlli olur ki, Mustafa xan dərbəndli Şeyxəli xanın Abbas Mirzə ilə əlaqə yaratması üçün ona pul, qasidlər və adamlar təhkim etməklə kömək etmişdi. Mustafa xan eyni zamanda qohumu qazıqumuqlu Surxay xan vasitəsilə Dağıstanı ruslara qarşı qaldırmaqda ittiham olunurdu [15, c.10-11].

Yermolov 1820-ci ilin oktyabrın 7-də Aslan xana yazırdı ki, İrana keçməyə çalışan Şeyxəli xan buna müyəssər ola bilmədiyindən yenidən Dağıstana qayıtmışdır. O göstərirdi ki, Aslan xan Şeyxəli xanın Kürə və Qazıqumuq xanlıqları ərazisindəki xalqlarla əlaqə yaratmasına imkan verməsin [18, c.43]

1821-ci ildə Mehdili xanlığının kəndlərində üsyan baş verdi. Avar xanlığının sakinləri bütün hakimiyyəti ərzində yalnız 3-4 kiçik kəndi öz tərəfinə çəkə bilmiş Yermolovun əlaltısı olan Surxay xanı qəbul etmədilər. 1821-ci ilin avqustun 15-dən 28-ə kimi general-mayor Velyaminovun Mehdili xanlığına olmuş ekspedisiyası zamanı Aymaki kəndi yaxınlığındakı döyüşdə ruslardan 13 sıravi

öldürülmüş, 3 zabit, 46 sıravi yaralanmışdı [6, с.16].

Məlumdur ki, Qafqaz komandanlığı cəza ekspedisiyaları zamanı əkinləri məhv edib mal-qaranı sürüb aparır, həmçinin üsyankar icmalara məxsus qış otlaqlarındakı mal-qaranı xəzinənin xeyrinə müsadirə edirdi. Bütün bunlar dağlıların iqtisadiyyatına ciddi ziyan vururdu. Bütöv rayonların blokadası və mal-qaranı qış otlaqlarına apara bilməməsi Dağlıq Dağıstanda kənd təsərrüfatının aparıcı sahələrindən birinin - maldarlığın mövcudluğunu təhlükə altına qoyurdu. Blokada və süni şəkildə yaradılan gömrük maneələri dağlıların təsərrüfatlarına ciddi kömək olan sənətkarlığa da son dərəcə mənfi təsir göstərirdi. Dağlılar sənətkarlıq məmulatlarının sərbəst satışı və onların ilkin tələbat mallarına dəyişdirilməsi imkanından məhrum olmuşdular və bu da öz növbəsində sənətkarlığın tənəzzülünə səbəb olmuşdu. Həbs olunma təhdidi altında sərbəst şəkildə hərəkət etməyin qadağan edilməsi dağlıların kəsbkarlıqla məşğul olmasına imkan vermirdi ki, bu da xeyli sayda dağlıları dolanışıqdan məhrum etmişdi. Bütün bunlar dağlıları yarıac həyata məhkum etmişdi. Çarizmin bu müstəmləkəçi siyasəti dağlıları seçim qarşısında qoymuşdu: onlar ya bu vəziyyətlə barışmalı, yaxud da müstəmləkəçilərə qarşı mübarizəyə qalxmalı idi. Dağlılar ikinci yolu seçdilər. Beləliklə, "Yermolov sakitliyi" fırtına qabağı sakitlik oldu.

## ƏDƏBİYYAT

1. Ахмадов Я.З., Хасмагомадов Э.Х. История Чечни в XIX-XX веках. Москва: Пульс, 2005. 996 стр. https://djvu.online/file/hPtrbgMcedING
2. Выписка из всепод-го рапорта ген. Ермолова, от 10-го сент. 1819 г. АКАК, т. 6, ч. 2, с. 26-27
3. Высочайшее повеление ген. Ермолову, от 19-го апреля 1819 г., АКАК, т. 6, ч. 1, с. 487
4. Всеподданнейший рапорт Ермолова, от 7-го июля 1820 года, АКАК, т. 6, часть 2-я, с 41
5. Гаммер М. Шамиль. Мусульманское сопротивление царизму. Завоевание Чечни и Дагестана (перевод с английского В.Симакова). М.: КРОН-ПРЕСС, 1998. 512 с.
6. Гизетти А.Л. Сборник сведений о потерях Кавказских войск во время войн Кавказско-горской, персидских, турецких и в Закаспийском крае, 1801-1885 гг. Тифлис: Издательство военно-исторического отдела при штабе Кавказского военного округа, 1901, 222 с.
7. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. Том VI. СПб.: Тип. И.Н. Скороходова, 1888, с.319-322
8. История Дагестана. В 4-х т. Том II. М.: Наука, 1968, с. 64-83
9. Клятвенное обещание Каракайтагских эмирзаде и вообще старшин, улемов и всего общества Каракайтага и Кубы, подвластных Уцмию, от 27 октября 1819 г. // АКАК, т. 6, ч. 2, с. 62-63
10. Клятвенное обещание старшин, кетхудов, улемов и вообще всех жителей Табасарани, подвластных Маасуму, от 2-го зиль-каадэ 1234 (1819) года // АКАК, т. 6, ч. 2, с. 72-73
11. Муртазаев А.О. Обострение Кайтаго-Российских отношений в начале XIX в.: причины и последствия. С. 132-137. [электронный ресурс]. 1818-ci il üsyanı.pdf
12. Обвешание ген. Ермолова каракайтагскому народу, от 26-го янв. АКАК, т. 6, ч. 2, с. 63-64
13. Отношение воен. мин-тра Барклай де-Толли маркизу Пауличчи, от 14-го июля 1811 года. АКАК, т. 5, с. 37
14. Отношение ген. Ермолова к гр. Несселроде, от 2 апреля 1819 г. // АКАК, т. 6, ч. 2, с. 213
15. Отношение ген. Ермолова к гр. Нессельроде, от 10 января 1820 г. // АКАК, т. 6, ч. 2, с. 10-11
16. Отношение графа Паскевича к гр. Несселроде, от 13-го сент. 1828 года. АКАК, т. 7, с. 507-511

17. Писмо ген. Ермолова к Сурхай чану, от 22 ноября 1818 года. АКАК, т. 6, ч. 2, с. 37-38
18. Письмо ген. Ермолова к полк. Аслан хану Кюринскому и Казикумухскому, от 7 октября 1820 г. // АКАК, т. 6, ч. 2, с. 43
19. Письмо ген.-л. Вельяминова к Мустафа хану, от 25 июня 1819 г. // АКАК, т. 6, ч. 1, с. 806
20. Потто В. А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях. Том 2-й. Ермоловское время. СПб.: Тип. Е. Евдокимова, 1887, с. 210
21. Предписание ген. Ермолова ген.-м. барону Вреде, от 12 июля 1819 г. // АКАК, т. 6, ч. 2, с. 708
22. Предписание ген. Ермолова ген.-м. Пестелю, от 24 июля 1818 г. // АКАК, т. 6, ч. 2, с. 3-4
23. Предписание ген.-л. Вельяминова кн. Мадатову, от 5 сент. 1818 г. // АКАК, т. 6, ч. 1, с. 801-802
24. Рамазанов Х.Х. Колониальная политика царизма в Дагестане в первой половин 19-го века. Махачкала, типография министерства культуры ДАССР, 1956. 41 стр.
25. Рапорт ген.-м. Пестеля ген. Ермолову, от 14 июня 1818 г. // АКАК, т. 6, ч. 2, с. 3;
26. Рапорт ген.-л. Вельяминова ген. Ермолову, от 4 августа 1818 г. // АКАК, т. 6, ч. 2, с. 5-6

## SUMMARY

**Vusal Isgandarov**

### UPRISINGS AGAINST THE RUSSIAN OCCUPATION IN DAGESTAN (1818-1820)

As a result of the construction of fortifications and fortresses by the Russian troops in the North Caucasus, the Avar, Mehdili, Gazikumukh khans formed an alliance and took action against the Russians. There were reports of casualties on both sides during the suppression of the uprisings by Russian troops. In addition, the Caucasus Command's punitive expeditions investigated the destruction of Dagestani crops and cattle, confiscation of livestock belonging to rebel communities, damage to the mountain economy, and the negative impact of customs barriers artificially created by Russian troops on mountain farms and crafts.

***Key words:*** *Dagestan, Russian occupation, rebel groups, punitive measures, colonial policy, heavy taxes*

## РЕЗЮМЕ

**Вусал Искендаров**

### ВОССТАНИЯ ПРОТИВ РУССКОЙ ОККУПАЦИИ В ДАГЕСТАНЕ (1818-1820 ГГ.)

В результате строительства русскими войсками укреплений и крепостей на Северном Кавказе аварский, Мехдильский, Газикумухский ханы заключили союз и выступили против русских. Поступали сообщения о жертвах с обеих сторон при подавлении восстаний русскими войсками. Кроме того, карательные экспедиции Кавказского командования расследовали уничтожение дагестанских посевов и скота, конфискацию скота, принадлежавшего повстанческим общинам, ущерб горскому хозяйству, негативное влияние искусственно созданных русскими войсками таможенных барьеров на горные хозяйства и промыслы.

***Ключевые слова:*** *Дагестан, российская оккупация, повстанческие отряды, карательные меры, колониальная политика, высокие налоги.*

---

***Məqaləni çapa təqdim etdi:*** *tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov*
***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 25-34
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 25-34
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 25-34

# SOSİAL ELMLƏR VƏ HÜQUQ

**BAĞIR BABAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*baqirbabayev59@mail.ru*

**UOT: 323.**

## ƏHMƏD BƏY AĞAOĞLUNUN DÜNYAGÖRÜŞÜMDƏ MİLLİ İDENTİKLİK

*Rusiya imperiyasının və sovet-kommunist rejiminin zorakı təzyiqlərindən qurtulmaq, xalqını və vətənini azadlığına qovuşdurmaq üçün Əhməd bəy Ağaoğlu kimi milli aydınlar bütün yaradıcı fəaliyyətini vətəni Azərbaycana və bütövlükdə müsəlman coğrafiyasında yaşayan xalqlara layiqli xidmətə həsr etmişdir. Bu baxımdan Ağaoğlunun irsi xalqımızın azadlıq salnaməsinin parlaq səhifələrini təşkil etmişdir.*

*XX əsrin başlanğıcında milli ideyalar, o cümlədən türkçülük ortaya çıxmağa başladı. Azərbaycanlıların millət kimi formalaşmasında XIX əsrdə Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabidən başlanan tarixi estafeti Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə davam etdirdilər və milli identiklik axtarışında yaradıcı fəaliyyətləri ilə dini identikliyin o zamana qədərki şəriksiz ağalığını sındırdılar. XIX əsrin sonu- XX əsrin əvvəllərində Azərbaycanda Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadə əvvəlcə islamçı ideologiyanın yayılmasında, sonralar isə bütün türk dünyasında siyasi türkçülüyün yaranmasında və formalaşmasında çox böyük xidmətlər göstərib, həlledici rol oynadılar.*

*Əhməd bəy Ağaoğlu daim Azərbaycan xalqının milli identifikliyi, milli özünəməxsus xüsusiyyətlərini araşdırır, türk xalqlarının və müsəlmanların milli oyanışı məsələsini gündəmə gətirir. XX əsrin əvvəllərində onun Azərbaycan xalqının milli identikliyi və milli kimliyi uğrunda apardığı mübarizə əsrin sonlarında xalqımızın azadlıq mübarizəsində mühüm rol oynamış və milli dövlətçiliyimizin formalaşmasına öz töhfəsini vermişdir. Bu baxımdan Ağaoğlu yaradıcılığı dövlətçiliyimiz və fəlsəfi fikrimizi tədqiq etmək baxımından həmişə aktualdır.*

***Açar sözlər:*** *Əhməd bəy Ağaoğlu, Rusiya imperiyası, milli ideyalar, milli identiklik, türkçülük, türk-müsəlman xalqları*

Azərbaycan xalqı tarixin yeni və ən yeni dövrünü yüzillər boyunca Rusiya imperiyasının və sovet-kommunist rejiminin zorakı təzyiqləri altında yaşamaq məcburiyyətində qalmışdır. Bu əsarət süründürməçiliyindən qurtulmaq, xalqı və vətəni azadlığına qovuşdurmaq üçün mübarizəyə başlayan Əhməd bəy Ağaoğlu kimi milli aydınlar çətinliklərlə dolu zamanlarda bütün yaradıcı fəaliyyətini vətəni Azərbaycana və bütövlükdə türk-müsəlman coğrafiyasında yaşayan xalqlara layiqli xidmətə həsr etmişdir. Bu baxımdan Ağaoğlunun irsi xalqımızın azadlıq salnaməsinin parlaq səhifələrini təşkil etmişdir.

Əhməd bəy Ağaoğlu öz yaradıcılığı ilə Azərbaycan ziyalılarının milli maarifçilik hərəkatının fəlsəfi irsini və tarixi missiyasını layiqli davam etdirir, İslamın xalqımızın tarixi taleyindəki mütərəqqi rolunu göstərirdi. Elmi, ədəbi-bədii, publisistik və tarixi-fəlsəfi yaradıcılığında Ağaoğlu əvvəlcə vahid dini birliyi önə çəkirdi. Bu mərhələdə Ağaoğlu o zamankı Azərbaycan ziyalıları arasında üstünlük təşkil edən islamçı baxışları müdafiə edirdi, lakin sonralardan millətin əsasən dilinin, tarixinin adət-ənənələrinin, mədəniyyət birliyinin vacibliyini gördü və bu sahədə tədqiqatlarını daha da genişləndirdi.

Rusiya işğalından sonra Azərbaycan cəmiyyətindəki İslam və türkçülük ənənələri zorakılıqla

yad ənənələrin təsirinə məruz qalmışdı. Çünki Rusiya hökumətinin yeritdiyi müstəmləkə siyasəti ilə bölgədəki müsəlman və türklərin maraqları heç cür nəzərə alınmır, onların çoxminillik ənənələrinə qarşı təcavüzkarlıq edilirdi. Çar Rusiyasının müsəlmanlara qarşı yeritdiyi milli və dini ayrı-seçkilik siyasəti Ağaoğlunun da milli identifiklik düşüncəsinə təsir göstərməyə bilməzdi. XX əsrin başlanğıcında isə ziyalılar arasında əhəmiyyətli dərəcədə türkçülük ideyaları ortaya çıxdı və Rusiya əsarətindəki müsəlmanları zorakı xristianlaşmadan-ruslaşmadan, assimilyasiyadan, beləliklə də, gözlənilən təhlükələrdən, fəlakətlərdən, məhv olmaqdan birdəfəlik qurtardı.

Əhməd bəy Ağaoğlunun dünyagörüşümdə milli identiklik məsələsi- Azərbaycanlılar tarixin yeni dövrünü yüzillər boyunca Rusiya imperiyasının və sovet rejiminin əsarəti altında yaşamışdır. Bu əsarətdən qurtulmaq, xalqı və vətəni azadlığına qovuşdurmaq üçün mübarizəyə başlayan Əhməd bəy Ağaoğlu kimi mübarizlərin başlatdıqları yol xüsusi əhəmiyyətə malikdir. Ağaoğlunun dövlətimiz və xalqımız üçün müstəsna xidmətlərinin tamamilə yenidən öyrənilməsinin, xatirəsinin bir daha yad edilməsinin və əbədiləşdirilməsinin çox böyük əhəmiyyətini Azərbaycan Respublikasının hər bir vətəndaşı yüksək vətəndaşlıq məsuliyyəti ilə dərk etməli, hər bir azərbaycanlı onun haqqında düşünməyi hər an özünün mənəvi borcu bilməlidir. Çünki o, çətinliklərlə dolu zamanlarda bütün yaradıcı fəaliyyətini vətəni Azərbaycana və bütövlükdə türk-müsəlman coğrafiyasındakı xalqlara layiqli xidmətə həsr etmişdir.

Azərbaycan Respublikası Prezidentinin Əhməd bəy Ağaoğlunun xatirəsinin bir daha əbədiləşdirilməsinə xidmət edən 2019-cu ildəki Sərəncamı xalqımızın onu yenidən anmasına, qəlbində əbədi yaşatmasına yönəldilmişdir. Bu, onun xalqımızın, vətənimizin, eləcə də yaşadığımız qlobal dünyanın çox nəhəng coğrafiyasını əhatə edən bütün türk-müsəlman xalqlarının gələcək gözəl inkişafı yolunda göstərmiş olduğu xidmətlərinin layiqli qiymətinin verilməsinə göstərilən diqqətin nümunəsidir. Çünki Ağaoğlu irsi xalqımızın şərəf, şan və şöhrət salnaməsinin parlaq səhifələrini təşkil etməkdədir [16, s.78]. O, "modern dünyada layıq olduğu yeri almaq üçün mücadilədə ön sıralarda yer almış olan önəmli bir tarixi şəxsiyyətdir [1,s.48]. "Ağaoğlu Azərbaycan xalqının milli kimlik şüurunun inkişafında müstəsna rol oynamiş şəxsiyyətlərdəndir" [10, s.624].

Əhməd bəy Ağaoğlu Azərbaycan xalqının XX əsrin əvvəllərindəki milli-demokratik hərəkatının ən görkəmli nümayəndələrindən biridir. Lakin əsasən elm adamlarına, tədqiqatçılara məlum olan bir görkəmli xadim kimi, onun Azərbaycan xalqının qarşısındakı göstərdiyi nəhəng, əzəmətli və heç zaman unudulmayacaq xidmətləri həm xalqımızın müxtəlif geniş təbəqələri arasında, digər tərəfdən isə bütünlüklə ziyalılar araslnda hələ də tam aydınlığı ilə ətraflı öyrənilməmişdir. Halbuki, tarixi ədalət naminə Azərbaycanlıların milli oyanışında, dirçəlişində, milli özünüdərkin yaranmasında, formalaşmasında və inkişafında bu görkəmli şəxsiyyət bir mütəfəkkir, ictimai-siyasi xadim kimi fəxr ediləcək, qürur duyulacaq xidmət nümunəsidir. Millətimizin və vətənimizin tarixi taleyini dəyişənlərdən biri kimi Ağaoğlu, hər şeydən öncə, özünü müsəlman kimliyinə təslim edən, millətimizə türkçülük ideyalarını aşılayanlardan olmuşdur. "Azərbaycan mədəniyyəti tarixində zəngin irs qoyub getmiş Əhməd bəy Ağaoğlu türkçü-ideoloq kimi məşhurdur" [8, s.290]. Əhməd bəy Ağaoğlu Şərq xalqlarının milli azadlıq hərəkatında və mədəni yüksəlişində görkəmli xidmətləri olmuş bir ictimai xadimdir. Burada "özəllik ondan ibarətdir ki,

1) Əhməd bəy Ağaoğlu Avropa qiyafəsinə və üslubuna aludə olmur;

2) Avropanın heç də bütün xüsusiyyətlərini Azərbaycanın tarixi tərəqqisi üçün nümunə hesab etmir;

3) Azərbaycan tarixi-mədəni həyatını, milli müəyyənliyini qoruyur, etnogenezimizin dil və düşüncə tərzini əsas götürürdü;

4) Milli heysiyyəti, türkün milli qururunu və əxlaqını - "vətən əxlaqını" (Z.Göyalp) hər zaman uca tuturdu" [15, s.18].

İslam XIX əsrin sonlarına qədər Azərbaycan əhalisinin dini kimliyinin əsasını təşkil edirdi. Çünki Azərbaycanlılar əsasən İslam əqidəli idi, onlarda İslam düşüncəsi üstünlük təşkil edirdi. Ona görə də Azərbaycan milli identikliyi-milli kimlik axtarışı dini kimlik-ümummüsəlman konteksti daxilində gedirdi. Lakin XX əsrin əvvəllərində Azərbaycanda müstəmləkə imperiyasının tabeliyindəki türklərə-müsəlmanlara qarşı açıq və ya gizli yollarla yeritdiyi siyasəti onların milli

mənsubiyyətini vacib problem kimi gündəmə gətirdi və bu, türkçülüyün nəzəri əsaslarının yaranmasında özünü göstərdi. Çoxmilyonlu müsəlmanların yaşadıqları ucsuz-bucaqsız nəhəng coğrafiyada imperiyanın dəyişməz düşmən siyasəti gözlənilən və gözlənilməz fəlakətlərdən xilas yolu kimi, bütün təhlükələri aşıb keçəcək türklərin birliyi-vəhdəti ideyasını-türkçülüyü ortaya gətirdi. Türkçülüyün-milli hisslərin yenicə yaranmağa başlaması gözlənilən təhlükənin dərkedilənliyinin sübutu idi. Azərbaycan ziyalıları aydınlıqla milli intibah ideyalarının vacibliyini ortaya gətirib, cəmiyyətdə baş qaldıra biləcək oyanışı dəstəkləməklə, milli özünüdərkə təkan verməklə belə təhlükənin qarşısını almaq istəklərini ortaya qoydular. XIX əsrin sonlarında Azərbaycan maarifçilik hərəkatı həmvətənlərinin arasında maarifçilik ideyalarını yaymağa çalışırdısa, XX əsrin başlanğıcında isə əhəmiyyətli dərəcədə milli ideyalar, o cümlədən türkçülük ortaya çıxmağa başladı. Elə bu mənada Azərbaycanlıların millət kimi formalaşmasında XIX əsrdə Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabidən başlanan tarixi estafeti Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə davam etdirdilər və milli identiklik axtarışında yaradıcı fəaliyyətləri ilə dini identikliyin o zamana qədərki şəriksiz ağalığını sındırdılar. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadə əvvəlcə islamçı ideologiyanın yayılmasında, sonralar isə bütün türk dünyasında siyasi türkçülüyün yaranmasında və formalaşmasında çox böyük xidmətlər göstərib, həlledici rol oynadılar. "Ağaoğlu öncə Əli bəy Hüseynzadə ilə birlikdə türkcə ilk gündəlik qəzet olan "Həyat"ı, daha sonra isə müstəqil olaraq gündəlik "İrşad" qəzetini çıxarmağa başlamışdı. Hər iki qəzetdə o, çar Rusiyasına qarşı və türklərin siyasi hüquqları uğrunda mübarizə, türklər arasında birlik yaratmaq məqsədi ilə sünni-şiə düşmənçiliyinə son qoymaq, xalqı savadlandırmaq məqsədi ilə türkcə məktəblər açmaq qayəsini ön plana çəkmişdir" [5, s.247]. "Türk dünyasının siyasi və mədəni fikir tarixində son dərəcə böyük xidmətləri olan Əhməd bəy Ağaoğlunun" [8, s.291] "bundan sonrakı dövrün görkəmli türk millətçisi olacağı heç kimin ağlına belə gəlmirdi" [20, s.15].

Çar Rusiyasının azərbaycanlılara və o cümlədən müsəlmanlara qarşı yeritdiyi milli və dini ayrı-seçkilik siyasəti Ağaoğlunun da milli kimlik düşüncəsinə təsir göstərməyə bilməzdi. Rusiya işğalından sonra Azərbaycan cəmiyyətindəki İslam və türklük ənənələrinə yad ənənələrin təsirindən yaxa qurtarmaq mümkün olmadı. Çünki Rusiya hökumətinin yeritdiyi müstəmləkə siyasəti ilə bölgədəki müsəlman və azərbaycanlıların maraqları heç nəzərə alınmadı, onların çoxminillik ənənələrinə qarşı təcavüzkarlıq edilməyə başlanıldı. Xüsusilə də, XIX əsrin sonlarından başlayaraq Avropa və Rusiya təhsil müəssisələrinin məzunları olan Azərbaycan ziyalıları əhəmiyyətli dərəcədə yenilikçi ideyaları əldə rəhbər tutmaqla müsəlman cəmiyyətlərini yeniləndirməyə çalışırdılar. Onların arasında Avropa təhsilli ziyalılar da var idi. XIX əsrin sonlarındakı Azərbaycan ziyalıları maarifçilik hərəkatını ən yüksək zirvəyə çatdırdılar. Bu dövrün ziyalılar dəstəsi cəmiyyətdəki təhsildən əsasən məhrum qalan həmvətənlərinin arasında özlərinin baxışlarını və ideyalarını yaymağa müvəffəq olmaq istəyirdilər. XX əsrin başlanğıcında isə ziyalılar arasında əhəmiyyətli dərəcədə türklük-türkçülük ideyalarının ortaya çıxması baş verməkdə idi.

Ağaoğlu Azərbaycan ziyalılarının milli maarifçilik hərəkatının fəlsəfi irsinin və tarixi missiyasının layiqli davamçısı kimi, İslamın vətənimizin-xalqımızın tarixi taleyindəki mütərəqqi rolunu göstərmişdir. Elmi, ədəbi-bədii, publisistik və tarixi-fəlsəfi yaradıcılığı elə ilk başlanğıcdan onun gələcəkdə zəngin irsə sahib olacağından xəbər verməkdəydi. Onun İslama həsr olunan əsərlərində bildirilirdi ki, "İslam hər hansı bir millətin inkişafına tamamilə uyğun gəlir" [14, s.202], "o, bütün tarix boyu müsəlman xalqlarının inkişafında müsbət rol oynayıb və indi də bu xalqların müasir tərəqqisini ondan kənarda təsəvvür etmək mümkün deyildir" [17, s.145]. Onun İslamla bağlı müddəaları, mülahizələri, şərhləri əvvəlcə öz dövrü üçün necə əhəmiyyətli sayılırdısa, zaman keçdikcə sonralar da, hətta bugünümüzdə belə, yenə də aktual səslənməkdədir. Ağaoğlu İslamın vəzifəsinin bütünlüklə cəmiyyət üzvlərini ən ülvi amal-din, millət və vətən uğrunda amansız, güclü düşmənə qarşı vahid birlik yaratmaq olduğunu bildirirdi. O, göstərirdi ki, bunun əvəzində din xadimləri cəmiyyəti, xalqı, vətəni, hətta dini tamamilə bir kənara atıb unutmuş, cəmiyyəti, onun dini kimliyini-İslamı ölmüş vəziyyətə salmışlar. Cəmiyyət isə öz gücü ilə o problemlərdən xilas olacaq iqtidarda deyildir.

Əhməd bəy Ağaoğlu əvvəlcə vahid "İslam ümməti"ni-vahid dini birliyi önə çəkirdi, lakin

sonralardan millətin daha çox dilinin, tarixinin adət-ənənələrinin, mədəniyyət birliyinin məhsulu olduğunu gördü. “Ancaq önəm sırasına qoyulması gərəkdirsə, öncə dil, sonra din, ən son olaraq da milli birlik gəlməlidir. Ağaoğlu da öncə türk dilinə bir şəkil vermək, sonra da dinə milli bir yön vermək üçün mücadilə etmişdir” [1, s.59]. Rusiyadakı türklərin vahid birliyinin önə çıxarılması ilə onların mədəni-mənəvi dəyərləri dini-əxlaqi dəyərlərlə birlikdə qəbul edilirdi. “Ağaoğlu bu coğrafyada yaşayan türkləri bir olaraq düşünmüş və onların birliyi üçün mücadilə etmişdir” [1, s.59].

Bu dövrün islamçı ideyologiyası ilə Azərbaycan türkləri-müsəlman cəmiyyəti dövrün tələblərinə uyğun bir addım atdı. Amma keçmiş sovet dövründə yazılmış fəlsəfi ədəbiyyat həmişə islamçı ideologiyaya neqativ yanaşmış, bilərəkdən, qərəzli mövqedən, haqsız olaraq onu açıq-aşkar kəskin pisləmişdir. Sovet fəlsəfə tədqiqatçıları islamı cəmiyyətə mühafizəkar feodal dairələrin ideyologiyalari kimi təqdim etməyə çalışmışlar. Tədqiqatçılar haqlı olaraq göstərirlər ki, əslində onun baniləri XIX əsrin ikinci yarısında meydana gələn tarix səhnəsinə çıxan yeni müsəlman ziyalıları idi. Bu mərhələdə Əhməd bəy Ağaoğlu o zamankı Azərbaycan ziyalıları arasında üstünlük təşkil edən islamçı baxışları müdafiə edirdi. Onun İslama dair “ən diqqətəlayiq əsərləri XX əsrin əvvəllərindəki Azərbaycan ictimai-fəlsəfi fikrini öyrənmək baxımından da çox qiymətlidir” [17, s.51]. “Qərbin Şərqə qarşı qarşısıalınmaz müdaxiləsinə cavab olaraq bütün dünyanın müsəlmanlarının birliyinə çalışan islamçılar, etnik kimliklərindən-fərqliliklərindən asılı olmayaraq bütün müsəlmanların hamısını vahid bir ümmətdə birliyə çağırırdılar. Xarici aləmin təzyiqinə və mənəvi müdaxiləsinə qarşı müdafiə tədbiri kimi İslam birliyi irəli sürülsə də, bu dövrdə onun aydın doktrinası yox idi” [15, s.18].

Çar Rusiyası XIX əsrin əvvəllərindən etibarən vahid Azərbaycan xalqını ikiyə böldü, bir-birindən xeyli fərqlənən ictimai-siyasi şəraitlə böyük faciələr yaratdı. O, işğal etdiyi bu torpaqların əhalisini istismar etdi, onları qul vəziyyətində saxladı və onların milli-mənəvi xüsusiyyətlərini yox etmək siyasətini həyata keçirməyə başladı. Lakin zamanla Azərbaycanın o dövrdəki maarifçilərinin fəaliyyəti nəticəsində orada dini və milli şüur, milli kimlik və identiklik formalaşdı, XX əsrin əvvəllərində isə Rusiya işğalı əleyhinə mübarizədə, müstəqilliyə gedən yolda mühüm addımlar atıldı. O zaman Rusiyanın müstəmləkə əsarəti coxmilyonlu türk-müsəlman xalqlarını, o cümlədən də Azərbaycan xalqını fəlakətli vəziyyətdə saxlayırdı. “Türk dünyasının coğrafi quruluşunu göz önünə alsaq, Azərbaycanın bu coğrafyanın tam ortasında yer aldığını görərik [9, s. 792]. Lakin onları oyanışa, dirçəlişə və milli birliyə səsləyən XX əsrin yenilikçi ruhu o vaxta qədərki dəyişməz qalanları bir kənara atdı. O, Rusiya əsarətindəki türk-müsəlmanları zorakı xristianlaşmadan-ruslaşmadan, assimil-yasiyadan, beləliklə də, gözlənilən təhlükələrdən, fəlakətlərdən, məhv olmaqdan birdəfəlik qurtardı. “Çarlıq dövründə azlıqdakı xalqları “əritmə siyasəti” hər zaman gündəmdə olmuşdur. Xristianlaşdırma və ya ruslaşdırma olaraq adlandırılan bu siyasət-panslavyanist düşüncə bütün türkdilli xalqalra qarşı çevrilmişdi” [9, s.798-799].

İmperiyanın Rusiya əsarətindəki müsəlmanlar arasında yaydığı, qızışdırdığı düşmənçilik siyasəti onların oyanışına təsirsiz ötüşmədi və milli özünüdərk prosesinin sürətlənməsinə münbit zəmin hazırladı. Zamanın istiqlal ruhu imperiyanın bütün müsəlman xalqlarına oradakı hakim millətdən birdəfəlik tamamilə fərqli olduğunu anlatdı, onları dini-milli kimliklərinə və identikliklərinə sahibləndirməklə əsarətdən qopub ayrılmağa hazırladı. “Bununla milli özünüdərkin-milli şüurun təkamülü milli oyanışı, milli intibahı sürətləndirdi” [21, s.389].

Əhməd bəy Ağaoğlunun Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Məmməd Əmin Rəsulzadə və digər ziyalılarla birlikdə dini, irqi, milli kimlik, identiklik ideyasını dəstəkləmələrinin nəticəsində Rusiyadakı müsəlmanlar özlərini daha çox yalnız hiss etməkdən birdəfəlik qurtuldular. Bu zamankı milli ideyalar aradan zaman keçdikcə dövrün tələblərinin təsiri ilə vahid ideologiya şəklində müəyyənləşdirilib zamana, dövrə uyğun öz təsdiqini tapdı. “Ağaoğlu və Hüseynzadə bizi-Azərbaycanlıları bir islam ümməti düşüncəsindən millət müstəvisinə çevirdilər” [2, s.5].

Rusiya imperiyasının müsəlmanlarının milli şüurunun oyanması və milli birliyinin möhkəmlənməsi zərurəti dövrün, zamanın mürəkkəbliyindən irəli gələn əsas tələblərdən biri idi. Bu isə özlüyündə məzlum xalqların zamanın tələbinə səs verməsi deməkdi. Bununla da ictimai fikir bir sıra zəruri, ciddi irəliləyişlərin olacağını öncədən gördüyü üçün cəmiyyətin inkişafının tələbi, zamanın irəli sürdüyü və onun mahiyyətini təyin edən amillərdən biri kimi ümmətçilikdən millətçiliyə

keçidə yol aldı. O, imperiyanın müsəlmanlarla bağlı milli məsələni yada salmaması və ya onu imperiyaya xas olan tərzdə "əritmək" istəməsi ilə barışa bilməzdi. Bu dövrdə Ağaoğlunun da millətçiliklə bağlı görüşlərinin inkişafı onun bu sahədəki fəaliyyətinin ciddiyyətindən xəbər verirdi. O, yazırdı ki, məqsədi "türk xalqlarının birliyini təmin etmək, türklərə elm və irfan qazandırmaq, türk dilində məktəb və digər elm ocaqları açmaqdır" [3, s.23]. Onun "bu arada milləti oyandırma mövzusunda yazıları fasiləsiz davam edirdi, bildirirdi ki, "türklərin birlik fikrini saxlamaq məqsədiylə məzhəb çatışmasını və özəlliklə sünni-şiə düşmənçiliyini qaldırmağa çalışmaq vacibdir" [10, s.188].

Ağaoğluda islamçılıqdan türkçülüyə-qərbləşməyə keçid meylləri müşahidə olunmaqda idi. Bu dövrdə hələ milli amalından xəbərdar olmayan, milli şüuru oyanmamış Rusiyadakı müsəlmanların bir-birilərinə ögeylik-doğmalıqdan irəli gələn təhlükələr var idi. Bu vəziyyət Rusiyadakı müsəlmanların sünni-şiə, yəni məzhəb ayrılığı ilə üz-üzə qalmasına, milli birliyin yaranmasına ən böyük təhlükə idi. Rusiyanın imperiya siyasəti bunu dəstəkləyirdi. Məhz Əhməd bəy Ağaoğlu kimi milli aydınlarımız türklük identifikasiyasını-türk milli kimliyini hiss edilən dini ayrıçılıqdan yaxa qurtarmaqda ən mühüm amil hesab edirdilər. Onlar "Rusiya imperiyasının müstəmləkəsi olan Azərbaycanda və digər türk dövlət və topluluqlarında" [3, s.3], müsəlmanların arasındakı məzhəb, təfriqə ayrı-seçkiliyindən yaxa qurtarmaq, onu aradan qaldırmaq üçün vahid milli birlik-türklük ideyasını irəli sürüb, eləcə də müsəlmanların birliyi uğrunda fədakar mücadiləyə hazırlandılar. Belə hesab olunur ki, "Azərbaycanda modern milli identiklik axtarışı XIX əsrin ikinci yarısından etibarən başlamış və əsrin sonunda ümmət anlayışından millət anlayışına keçid önəmli ölçüdə tamamlanmıştır. Bu illərdə türklük təməl kimlik olarak ön plana çıxmışdır" [22, s.429]. "Azərbaycan xalqının müsəlman bir toplum olaraq qeyri-müsəlman bir idarəçilik altında olması, dini ayrı-seşkiliyə və haqsızlıqlara uğraması da milli kimlik axtarışının sürətlənməsinə yol açmışdır" [13, s.523].

XX əsrin başlanğıcında Rusiya hökuməti bir sıra güzəştlərə getməyə məcbur qaldı, bununla da Azərbaycanda milli kimlik uğrunda yeni axtarışlar başlanıldı. "Çar Rusiyasının Azərbaycandakı təhsil sistemi onun müstəmləkəçilik siyasətinin strateji mexanizmi olduğu üçün azərbaycanlıların ana dilində təhsil almalarına imkan verilmirdi" [13, s.182]. "Türkcə təhsil qadağan edilmişdi və hətta türk dilində danışmağa belə hökumət tərəfindən maneələr törədilirdi" [6, s.218]. Ağaoğlu da Qafqaz müsəlmanlarının hüquqlarının müdafiəçisi kimi çıxış edir, İslam dini daxilindəki məzhəb ayrı-seçkiliyinin aradan qaldırılmasının Rusiya imperiyasındakı bütün müsəlmanların həyatında və gələcək talelərindəki əhəmiyyətli rolunu əsaslandırırdı. O, "öncə Əli bəy Hüseynzadə ilə birlikdə türkcə ilk gündəlik qəzet olan "Həyat"ı, daha sonra isə müstəqil olaraq gündəlik "İrşad" qəzetini çıxarmağa başlamışdı. Hər iki qəzetdə o, çar Rusiyasına qarşı və türklərin siyasi hüquqları uğrunda mübarizə, türklər arasında birlik yaratmaq məqsədi ilə sünni-şiə düşmənçiliyinə son qoymaq qayəsini ön plana çəkmişdir" [11, s.248]. "Ağaoğlu bu dövrün son təmsilçilərindən biri kimi bir yandan Azərbaycan xalqına, digər yandan bütün türk dünyasına milli identiklik qazandırmaq üçün pantürkizmdən türk milliyyətçiliyinə, qərbçilikdən liberalizmə uzanan uzun sürən bir savaşın içində olmuşdur" [19]. Bu dönəmdə "Türklük" və "Azərbaycanlılıq" iki təməl kimlik olaraq ön plana çıxmışdır" [22, s.429]. "Bu səbəbdən Azərbaycan türklüyünü oyanmağa, maariflənməyə, milli və insani haqlarını qorumağa dəvət edən Əhməd bəy, Rus hökuməti tərəfindən təhlükəli və zərərli sayılmışdır" [7, s.162]. "Bütün siyasi qadağalara, ideoloji basqılara həyatı məhrumiyyət və təhlükələrə qalib gələrək, o, bu milli tarixi missiyanı şərəflə yerinə yetirmişdir" [15, s.18].

XIX əsrin sonlarında- XX əsrin əvvəllərində Azərbaycanda milli identiklik ziyalılar arasında mövqe qazanmışdı. Hətta XX əsrin əvvəllərində belə Azərbaycan üçün türk identikliyi qeyri-adi idi. Milli şüurun formalaşması prosesində türklük milli şüuru, xüsusilə də Azərbaycan türklüyü-identikliyi özlüyündə onu göstərirdi ki, onlar özlərindən əvvəlki sələflərindən tamamilə fərqlənirdilər. Onların fəaliyyətlərində ilhamverici amil artıq siyasi ideyaların irəli sürülməsində özünü göstərirdi. Ağaoğluda XX əsrin başlanğıcında getdikcə türk təəssübkeşliyi ortaya qoyulurdu. Bu dövrdə Ağaoğlu türklərin müsəlman dünyasının tarixindəki danılmaz tarixi xidmətlərini, orta əsrlər dövründə bütün müsəlman dünyasına dağıdıcı yürüşlər edən Avropanın birləşmiş qüvvələrinə-səlibçilərə qarşı sarsıdıcı zərbələr endirən, onları Şərqdən qovub çıxaran türklərin İslam aləminin ümid-pənahı olduğunu göstərirdi: "Əgər İslam səlib yürüşlərinin qarşısında duruş gətirmişdisə, əgər o, qüvvətli

dini təbliğatlarla müşayiət olunan sürətli müstəmləkə fütuhatı dövründə birdəfəlik yoxa çıxmamışdısa, onlar məhz türk-tatarların sayəsində mümkün olmuşdur" [3, s. 328].

Ağaoğlunun qənaətinə görə, bu dövrdəki türk-müsəlman birliyinin yetirdiyi qəhrəmanlar və onların əfsanəvi qəhrəmanlıqları danılmazdır. Daha sonrakı dövrlərdə də türk-tatar xalqları "Konstantinopoldan tutmuş Çinə və Hindistana qədər, Şərqi Türküstandan tutmuş Afrika Tripolisinə qədər bütün müsəlman aləmində hakim xalqlar" [3, s.329] olmuşlar. Bütün çətinliklərə baxmayaraq, Qərbin böyük zorakı gücü qarşısında Şərqi və müsəlman aləmini ümidsiz qoymayan, onları xilas edən yenə də türklər olmuşlar: "ilk səlib yürüşlərindən başlayaraq bu günə qədər Qərbə qarşı uzun və ağır mübarizəni aparanlar da türk-tatarlar olmuşdur" [3, s.329].

Ağaoğlunun fikrincə, türklər "müsəlman dünyasını az-çox müdafiə etmiş, onu tam parçalanmaqdan qorumuşlar" [3, s.329]. Ağaoğlu böyük təəssüf hissi ilə yazırdı ki, "bu xalq hələ də bir ağ günə çıxmayıb" [3, s.329), lakin o, yenə də türklərin gözəl gələcək quracaqlarına tam əminliklə inanaraq deyirdi ki, onların "bütün həyatı hələ irəlidədir" [3, s.329]. Ağaoğlu türk nəsillərinin fəxri olan dünyaca şöhrətli görkəmli xadimləri tanıtdırır və onları dünya mədəniyyətinin, elminin, incəsənətinin inkişafı və çiçəklənməsindəki əvəzsiz xidmətlərini göstərirdi, Avropanın dünyaya qəddar kimi tanıtmaq isdədiyi türk xaqanlarının elmin, ədəbiyyatın, incəsənətin inkişafına himayədar olduqlarını bildirirdi.

Ağaoğlu milli kimlik problemi ilə bağlı bildirirdi ki, "İslamın xarici və daxili qüvvələrinin təsiri ilə durğunluq mərhələsi XVII-XVIII əsrləri əhatə edir" [3, s.328]. Belə tarixi dövrləşmədən sonra o, İslam aləminin XII əsrdən bu günə qədərki geriləməsinin bir səbəbini də türklərlə əlaqələndirirdi. Ağaoğlu göstərirdi ki, "türk-tatarlar XII əsrdən indiyə qədər İslamın istinadgahı olmuşlar" (Ağaoğlu9, 328). Burada türklərin və türklüyün İslam tarixindəki mühüm xidmətləri göstərilərkən İslamın nədən getdikcə tənəzzül etməsi fikri ortaya gətirilirsə, digər tərəfdən isə türklərin böyük rolu önə çıxarılırdı. Ağaoğlunun fikrincə, "tam əminliklə demək mümkündür ki, əgər türk-tatarlar olmasaydı, hazırkı halında İslam da mövcudluğunu qoruya bilməzdi" [3, s.328].

Ağaoğlu türkçülüklə bağlı əsərlərində türklərin Şərqdə oynadığı əsas rolu vurğulayarkən, diqqəti onların tarixən böyük qüdrətinə yönəldir və göstərirdi ki, Şərqin ən önəmli parçası türklərin əlində olmuşdur. Ağaoğlu tarixin səhifələrini vərəqləyib türklərin qüdrətli, nəhəng dövlətlər-imperiyalar qurduqlarını göstərir, onlara qarşı aşağılayıcı iddiaların əsassızlığını subut edir. Müəllif burada özünün türkçülük əhval-ruhiyyəsini əks etdirərək, Balkanlardan Çinin hüdudlarına qədər uzanan, "bu geniş dünyanın sahibləri" olan türklərin yaratdıqları türk dövlətlərinin adlarını sıralayırdı. Orta əsrlərdən ta yeni dövrədək türklərin tarix salnaməsini tədqiq edən Ağaoğlu göstərirdi ki, bu birliyin-türk ellərinin vəhdətinin qayğısını çəkməyənlərin və bu birliyə səy göstərməyənlərin gec-tez nəticədə necə böyük fəlakətlərə yol açdığını qocaman tarix çox sonralar sübuta yetirdi. O, təəsüflə yazırdı ki, bu bir xəta idi və bu qəflət türk üçün fəlakətli bir tale yazdı. Ağaoğlu türklərin şanlı tarixində hansı səbəblərdən, hansı problemlərlə üzləşib toqquşmalarını, bir dövlətin o biri türk dövlətini süquta uğratmasını göstərir. O, öz baxışlarında bu sübutu ilə ondan ibrət dərslərini öyrənməyin vacibliyini qeyd edirdi. Ağaoğlunun türkçülük baxışları, türkçülüyü, türk millətçiliyi hər şeydən əvvəl, Rusiyanın imperiya siyasətinin açıq şəkildə onun xalqına, millətinə və vətəninə gətirdiyi sonsuz saydakı bəlaların nəticələrinin sosial həyatda özünü qabarıq büruzə verməsinin nəticəsində formalaşmışdı. Bu, Azərbaycan türkləriylə birlikdə müsəlman türklərinə hakim çar imperiyasının daha çox təhlükə yaratması, bütün türk-müsəlmanların sabahkı gələcək həyatları üçün heç bir əminliyin olmamasından irəli gəlirdi. Bu səbəbdən milli kimliyin axtarışı, türk kimliyinə sahiblik istəyi məhz Rusiya imperiyasının türklərə-müsəlmanlara daha böyük təhlükə mənbəyi olduğuna bir sübut idi. Yəni imperiyanın onlara qarşı səciyyəvi siyasəti belə nəhəng qüvvəyə və onun mənfur düşmənçiliyinə qarşı türklərin vahid birliyinin yeganə dirəniş gücü yarada biləcəyinə dərin inam yaradırdı. Belə təhlükənin yaxınlığı onda milli hisslərin-türkçülüyün yaranmasını bir daha gücləndirdi və sürətləndirdi. Doğma vətənində Ağaoğlunun fəaliyyəti istər-istəməz onun öz xalqı, milləti üçün, eləcə də bütün türk-müsəlman ellərində milli-mənəvi oyanışın həsrətini yaşadırdı. Ağaoğlu milliyyətçilik düşüncəsinə keçidlə türk milliyyətçiliyinə möhkəmliklə bağlanmışdı. Əvvəlcə bir şiə aydını kimi görünən Ağaoğlu hələ milliyyətçiliyi aydınlıqla vurğulaya bilməzdi. Ona görə də

Ağaoğlu vətəninə dönənə qədər, xüsusilə də XX yüzilliyin başlanğıcındakı yenilikçilik havası onu artıq gözlənilə biləcək türkçülüyə keçidi üçün əlverişli şərait yaratmış oldu. "Milli kimliyin başlıca ünsürləri-tərkib hissələri isə türklük, Azərbaycançılıq, müsəlmanlıq və çağdaşlıq-müasirlik olaraq tamamlandı" [22, s.437]. Bütün bunlar "sübut edir ki, tarixini, vətənini, millətini, azadlığı və ədaləti sevənlər heç vaxt məğlub olmur, ölmür, mənsub olduğu millətin mənəvi yaddaşında əbədi yaşayırlar" [15, s.18].

Ağaoğlu öz yazılarında müsəlmanların cəhalətdən xilasının yollarını göstərirdi. Onun yaşadığı sosial-siyasi mühit özlüyündə bu oyanışın vacibliyini qətiyyətlə gətirib ortaya qoymuşdu. Bu oyanış bütün müsəlmanlar üçün həyatda yaşamaq, var olmaq mücadiləsi üçün vacib idi. Azərbaycan ziyalılarından biri kimi Ağaoğlu xalqını oyandıracaq, sonrakı mübarizəyə hazırlayacaq, eləcə də, onu qoruyacaq, müdafiə edəcək ideyalar-prinsiplər irəli sürürdü. Bu ideyalar gündən-günə daha sürətlə inkişaf edən dünyanın gedişinə, zəmanəyə, tarixi inkişafa uyğun olub, bütün türk-müsəlman cəmiyyətlərinin daha geniş, əhatəli şəkildə oyanışına yol açacaqdır. Bununla da vahid birliyi yaranacaq bütün türklər-müsəlmanlar əvvəlcə cəhalətin, sonra isə imperiya müstəmləkəçiliyinin bütün ağrı, acı köləliyindən birdəfəlik qurtulub, azadlığa qovuşub, rahatlıqla azad nəfəs alacaq və Rusiya imperiyasındakı müsəlmanlar hər iki əsarətdən tamamilə xilas olub bundan sonra dünyanın tərəqqisinə qoşulacaqlar.

Öz fəaliyyətində daim Azərbaycan xalqının milli identifikliyi, milli özünəməxsus xüsusiyyətlərini daha qabarıq şəkildə tədqiq edən Əhməd bəy Ağaoğlu türkdilli xalqların və müsəlmanların milli oyanışı məsələsini gündəmə gətirir və bütün yaradıcılığı boyu sadalanan məsələlərlə bağlı tədqiqatlar aparır. Əhməd bəy də digər ziyalılarımız, maarifçilərimiz kimi müsəlman xalqlarının və Şərqdə yaşayan türkdilli xalqların milli oyanışdan və inkişafdan geri qalmasının, daha da sürətlə Qərb ölkələrindəki kimi inkişaf etməməsinin səbəbini burada baş alıb gedən təhsilsizlik, savadsızlıq, cəhalətdə görür və öz əsərlərində bu məsələləri geniş şəkildə tənqid atəşinə tuturdu. O tənəzzül və inkişafdakı ləngimənin səbəbləri arasında Şərq ölkələrində mövcud olan sterotiplər və mühafizəkar adət-ənənələrin də rolunu dərk edir və bundan çıxış yolu axtarırdı.

Qərb və Şərq ölkələrindəki inkişaf və tərəqqi məsələlərini müqayisə edən Əhməd bəy Ağaoğlu şərq ölkələrindəki geriliyin, rəzalətin və təhsilsizliyin səbəblərini axtararaq yazırdı: "XIX əsrin sonu XX əsrin əvvəllərində Qərbdə renesans baharı bütün çiçəklərini və meyvələrini vermişdir. İnsanlarda qəribə bir yaşamaq eşqi və zövqü doğmuşdur. Hər kəs irəliyə doğru gedir, yürüyür, çalışır və vuruşur. Fikir və zövq əski soyuq buz qabıqlarını yırtmış, parçalamış və qaynayan bir sancaqlıqla hər tərəfə döğru fışqırır. Kilsə və katolik dini artıq o əski əzəmət və ehtişamını qeyb etmiş, içdən gələn fikirlərə və hisslərə yer vermək, millətlərin zövqlərinə və duyğularına hörmət etmək məcburiyyətində qalmışdır. Onunla bərabər feodalizmin də əski qalıqları yıxılmaq üzrədir. Xülasə, Şərq aspektində araşdırmaq istədiyimiz bu dövrdə Qərbdə bambaşqa zehniyyətlə silahlanmış, bambaşqa bir təfəkkür və təhəssüz tərzi daşıyan yeni bir insan zühur etmiş və yeni bir yol və iz üzərində yürüməyə başlamışdır" [14, s.122].

Öz fəaliyyətində daim Azərbaycan xalqının milli identifikliyi, milli özünəməxsus xüsusiyyətlərini daha qabarıq şəkildə tədqiq edən Əhməd bəy Ağaoğlu türk xalqlarının və müsəlmanların milli oyanışı məsələsini gündəmə gətirir və bütün yaradıcılığı boyu sadalanan məsələlərlə bağlı tədqiqatlar aparır. Əhməd bəy də digər ziyalılarımız, maarifçilərimiz kimi müsəlman xalqlarının və Şərqdə yaşayan türkdilli xalqların milli oyanışdan və inkişafdan geri qalmasının, daha da sürətlə Qərb ölkələrindəki kimi inkişaf etməməsinin səbəbini burada baş alıb gedən təhsilsizlik, savadsızlıq, cəhalətdə görür və öz əsərlərində bu məsələləri geniş şəkildə tənqid atəşinə tuturdu. O tənəzzül və inkişafdakı ləngimənin səbəbləri arasında Şərq ölkələrində mövcud olan sterotiplər və mühafizəkar adət-ənənələrin də rolunu dərk edir və bundan çıxış yolu axtarırdı.

Əhməd bəy Ağaoğlu özünün bütün şüurlu həyatını XX əsrin əvvəllərində dərin böhran keçirən şərq ölkələrinin, o cümlədən, müsəlman xalqlarnın geridə qalmasının obyektiv və subyektiv tarixi səbəblərini araşdırmağa həsr etmişdi. O, türk-islam xalqlarını cəhalətdən qurtarmaq üçün onların ictimai-siyasi həyatında əlverişli mühitin yaradılmasını təklif edirdi. Bunun üçün isə Avropa dəyərlərini mənimsəmək lazım idi. Türk dünyasının əsl vətənpərvər oğlu kimi Ə.Ağaoğlu şərqdə

yeniləşmə, avropalaşma-modernləşmə hərəkatının ön sıralarında türklərin olacağını qeyd edirdi. Onun fikrinə görə, Asiyada yaponlardan sonra ən sivilizasiyalı, mədəni xalq türklərdir. Bu baxımdan, Ə.Ağaoğlu öz əqidə yoldaşları Y.Akçuraoğlu və Ə.Hüseynzadə ilə birlikdə siyasi türkçülüyün banisi hesab edilə bilər. Fikrimizcə, şərqdə ilk dəfə qadınlara kişilərlə bərabər hüquq verilməsi ideyası da Ə.Ağaoğluya məxsusdur. Onun müəllifi olduğu "İslama görə və islamda qadın", "Sərbəst insanlar ölkəsində" əsərləri bunun subutudur. Yəni, XX əsrin əvvəllərində Əhməd bəy Ağaoğlunun Azərbaycan xalqının milli identikliyi və milli kimliyi uğrunda apardığı mübarizə əsrin sonlarında xalqımızın azadlıq mübarizəsində mühüm rol oynamış və milli dövlətçiliyimizin formalaşmasına öz töhfəsini vermişdir. Bu baxımdan Əhməd bəy Ağaoğlu yaradıcılığı dövlətçiliyimiz və fəlsəfi fikrimizi tədqiq etmək baxımından həmişə aktualdır.

## ƏDƏBİYYAT


1. Akalın Gülsərən. Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu. Bakı: AzAtaM, 2004, 164 səh.
2. Akçura Yusif. Türkçülük, Türkçülüğün Tarihi Gelişimi, İlgi Kültür Sanat, Ankara: 2015.
3. Ağaoğlu Əhməd bəy. Seçilmiş əsərləri: Ön sözün, izah və şərhlərin müəllifi Vilayət Quliyev. Bakı: Şərq-Qərb, 2007. 392 səh.
4. Asker Ali. Mübariz ziyalı və hüquqçu kimi Əhməd bəy Ağaoğlu şəxsiyyəti. "Azərbaycan Şərqşünaslıq Elminin İnkişaf Yolları", Akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları, 27-28 iyun 2013 Bakı, 846 səh. (s. 624-626).
5. Asker Ali. Azerbaycan'da Milli Kimlik İnşasında Sosyo-Ekonomik Etkenler ve Millet Olgusunun Fikri Temelleri (19. Yüzyılın Sonu–20. Yüzyılın Başı)". Yeni Türkiye, 75, 2015: s.516-535.
6. Babaşlı Memmedali (2007). Çarlık Rusyası Döneminden Günümüze Azerbaycan'da Din-Devlet İlişkileri. Uluslararası Türk Dünyasının İslamiyete Katkıları Sempozyumu, Isparta: Süleyman Demirel Üniversitesi Yayınları, s. 217-224.
7. Georgeon François. "Azerbaycanlı Bir Entelektüelin Ortaya Çıkışı: Ahmed Ağaoğlunun Fransa Yılları 1888-1894", Toplumsal Tarih, S. 8, Ağustos 1994, s.8-21.
8. Hekimoğlu Sefa Fuat Vecihi. Gazeteci Kimliğiyle Ahmet Ağaoğlu. Bitlis Eren Üniversitesi, İİBF, Akademik İzdüşüm Dergisi, Cilt: 3 Sayı:1 Ocak 2018, ss. 47-59.
9. İslam ansiklopedisi, cilt 1, Ağaoğlu Ahmet makalesi. İstanbul: Türkiye Diyanet Vakfı, 1988, s.464-466.
10. Jorjon Fransua. Azərbaycanlı intellektualın ilk addımları: Əhməd Ağaoğlu Fransada (1888-1894). Mədəniyyət dünyası, VII buraxılış, Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2003, s.16-27.
11. Mirəhmədov Əziz. Əhməd bəy Ağaoğlu. Bakı: Ərgünəş 2014, 264 s.
12. Mirəhmədov Əziz. Əhməd bəy Ağayev ("Fikrin karvanı" kitabında). Bakı: Yazıçı, 1984, s.80-95.
13. Mirəhmədov Əziz. Təqsirimi yumaq istəyirəm (müsahibə). Ədəbiyyat qəzeti, 21 fevral 1992-ci il, № 8 (2807). Kimə və nə vaxt verilməsi qeyd edilməyən eyni mövzulu digər bir müsahibənin 9 makina səhifəsindən ibarət fərqli variantı Əziz Mirəhmədovun şəxsi arxivindədir.
14. Özcan Ufuk. Ahmet Ağaoğlu ve rol değişikliği (Yüzyıl dönümünde batıcı bir aydın). İstanbul: Donkişot yayinlari, 2002, 280 s.
15. Qurbanov Şamil. Cəmaləddin Əfqani və türk dünyası. Bakı: Azərnəşr, 1996, 220 s.
16. Sakal Fahri. Ağaoğlu Ahmed Bey. Ankara: Türk Tarih Kurumu Basımevi, 1999, 248 s.
17. Süleymanlı Mübariz. Əhməd Ağaoğlunun "Üç mədəniyyət" əsəri. Şərq fəlsəfəsi problemləri (Beynəlxalq elmi-nəzəri jurnal), Bakı: AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, № 1-2, 2004, s.57-66.
18. Məmmədov Xəqani. Aydınlarımızın İstiqlal Mücadiləsi. Bakı: 1999.
19. Sadoğlu Hüseyn. Ahmet Ağaoğlu: Bir Türkçünün Trajik Öyküsü. Türk Yurdu Dergisi Ocak 2011 - Yıl 100 - Sayı 28.

20. Süleymanlı Mübariz. İslamın Elm və Mədəniyyət Dini Kimi Şərhində Əhməd Ağaoğlunun Mövqeyi. Türk Dünyası İncelemeleri Dergisi. Cilt: VII, Sayı 1, Sayfa: 137-141, İzmir 2007/
21. Swietochowski Tadeusz. Müslüman cemaatten ulusal kimliğe Rus Azerbaycanı 1905-1920 (Türkçesi: Nuray Mert). İstanbul: Bağlam yayınları, 1988.
22. Turan Refik. Kuzey Azerbaycan'da modern ulusal kimliğin gelişim sürecine genel bir bakış. TAED-61, - Türkiyat Araştırmaları Enstitüsü Dergisi- Ocak- 2018 Erzurum, səh. 429-461.

## SUMMARY

**Bagir Babayev**

## NATIONAL IDENTITY IN THE WORLDVIEW OF AHMED BEY AGHAOGLU

In order to free themselves from the violent pressure of the Russian Empire and the Soviet-communist regime, to gain freedom for their people and homeland, such national figures as Ahmed bey Aghaoglu devoted all their creative activities to worthy service to the Homeland of Azerbaijan and the peoples living in Muslim geography as a whole. From this point of view, Aghaoglu's legacy has made up the bright pages of the chronicle of the freedom of our people.

At the beginning of the XX century, national ideas began to appear, including Turkism. The historical baton in the formation of Azerbaijanis as a nation, started in the XIX century by Mirza Fatali Akhundzade, Hasan-bey Zardabi, was continued by Ahmed bey Aghaoglu, Ali bey Huseynzade, who with their creative activity in search of national identity broke the unshakable antiquity of religious identity until then. At the end of the XIX - beginning of the XX century in Azerbaijan, Ahmed bey Aghaoglu and Ali bey Huseynzade played a decisive role, rendering great services first in spreading Islamist ideology, and then in creating and shaping political Turkism throughout the Turkic world.

Ahmed bey Aghaoglu constantly explores the national identity of the Azerbaijani people, its national characteristics, raises the issue of national awakening of the Turkic peoples and Muslims. His struggle for the national identity of the Azerbaijani people at the beginning of the XX century played an important role in the liberation struggle of our people at the end of the century and contributed to the formation of our national statehood. From this point of view, Agaoglu's work is always relevant from the point of view of studying our statehood and philosophical thought.

***Key words:*** *Ahmed bey Aghaoglu, Russian Empire, national ideas, national identity, Turkism, Turkic-Muslim peoples*

## РЕЗЮМЕ

**Багир Бабаев**

## НАЦИОНАЛЬНАЯ ИДЕНТИЧНОСТЬ В МИРОВОЗЗРЕНИИ АХМЕД БЕКА АГАОГЛУ

Чтобы освободиться от насильственного давления Российской империи и советско-коммунистического режима, обрести свободу своему народу и родине, такие национальные деятели, как Ахмед бек Агаоглу, посвятили всю свою творческую деятельность достойному служению Родине Азербайджану и народам, живущим в мусульманской географии в целом. С этой точки зрения наследие Агаоглу составило яркие страницы летописи свободы нашего народа.

В начале XX века стали появляться национальные идеи, в том числе тюркизм. Историческую эстафету в формировании азербайджанцев как нации, начатую в XIX веке Мирзой Фатали Ахундзаде, Гасан-беком Зардаби, продолжили Ахмед бек Агаоглу, Али бек Гусейнзаде, которые своей творческой деятельностью в поисках национальной идентичности сломали до тех пор непоколебимую древность религиозной идентичности. В конце XIX - начале XX века в Азербайджане Ахмед бек Агаоглу и Али бек Гусейнзаде сыграли решающую

роль, оказав большие услуги сначала в распространении исламистской идеологии, а затем в создании и формировании политического тюркизма во всем тюркском мире.

Ахмед бек Агаоглу постоянно исследует национальную идентичность азербайджанского народа, его национальные особенности, поднимает вопрос национального пробуждения тюркских народов и мусульман. Его борьба за национальную идентичность азербайджанского народа в начале XX века сыграла важную роль в освободительной борьбе нашего народа в конце века и внесла свой вклад в формирование нашей национальной государственности. С этой точки зрения творчество Агаоглу всегда актуально с точки зрения изучения нашей государственности и философской мысли.

***Ключевые слова:*** *Ахмед бек Агаоглу, Российская империя, национальные идеи, национальная идентичность, тюркизм, тюрко-мусульманские народы*

***Məqaləni çapa təqdim etdi:*** *fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 35-38
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 35-38
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 35-38

**ATİLLA ÖZTÜRK**
**TURAL HÜSEYNOV**
**NURLAN İSMAYILOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 342.**

# LEGİTİMLİK ANLAYIŞININ HÜQUQİ VƏ SOSİAL-SİYASİ TƏRƏFLƏRİ

*Bu məqalədə legitimlik anlayışının sosial, siyasi və sosial-siyasi tərəfləri müxtəlif qaynaqlara istinad edərək tədqiq edilmişdir. XXI əsrdə legitimlik anlayışına və bu anlayışla bağlı siyasi, sosial və hüquq ədəbiyyatlarında mövcud olan fikirləri ümumiləşdirərək legitimlik anlayışının mövcud əhəmiyyətini, o cümlədən iqtidar və hakimiyyət anlayışlarını bu konteksdə tədqiq etmiş, iqtidarların hakimiyyətə gedən yolda keçməli olduqları prosedurları və legitim hakimiyyət anlayışı yeni bir formada ələ alınmışdır. Məqalə hər keçən gün aktivliyi daha çox hiss olunan legitimliklə bağlı fərqli bir yanaşma metodunu ortaya çıxarmaq məqsədi daşıyır. Bu səbəbdən də məqalə nəinki hüquqi, eyni zamanda sosial, siyasi və sosial-siyasi anlayışları özündə ehtiva edərək legitimlik anlayışına ən azı nəzəri səviyyədə ümumilikdə qəbul edilmişə yaxın anlayış verməyi hədəfləyir. Bu hədəfə doğru legitimlik anlayışı ilə yanaşı iqtidar, hakimiyyət, legitim-hakimiyyət anlayışları da tədqiqatın əsas hədfləri olmaqla legitimlik anlayışının daha yaxşı anlaşılması üçün əsas ola bilər. Heç təsadüfi deyil ki, iqtidar-hakimiyyət münasibətləri giriş hissədə də qeyd edildiyi kimi hipotezik-dedaktik bir üsulla ələ alınmış və ümumi nəticəyə gəlmək üçün adları qeyd edilən anlayışlarda tədqiqatın bir parçası rolunu oynamışlar. Eyni zamanda iqtidar-hakimiyyət anlayışı da legitimlik anlayışı içərisində dəyələndirilərək hakimiyyətin legitimlikdən qaynaqlanan yanaşması da tədqiq edilmişdir.*

***Açar sözlər:*** *Legitimlik, sosoial, siyasi, iqtidar, hakimiyyət*

## GİRİŞ

Legitimliyin sosial elmlər üzrə ədəbiyyatlarda üzərində ən çox mübahisə edilən mövzulardan biri olmasına baxmayaraq, siyasi sistem üzərindəki təsirləri barədə ümumi bir uzlaşmadan bəhs etmək çətindir. Konstitusiyaların legitimlik problemi isə ümumi olaraq legitimlik anlayışı qədər müzakirə mövzusu olmasa da, son zamanlarda üzərində düşünülməyə və danışılmağa başlanılan əsas mövzulardan biridir. Xüsusilə Şəqi Avropa və keçmiş Sovetlər İttifaqındakı komunist rejimlərin dağılmasından sonra qəbul edilən yeni konstitusiyaların gələcəyinin müzakirə edildiyi bir şəraitdə legitimlik anlayışına tez-tez müraciət edilir və anlayışın əhəmiyyəti post-komunist siyasət və hüquq laborotoriyalarında müzakirələrə səbə olur. Konstitusiyaların legitimliyi problemi sadəcə yeni konstitusiyalar üçün deyil, daha köhnə konstitusiyalar üçün də önəm kəsb edir. Bu gün köhnə konstitusiyaların qarşı-qarşıya olduğu dəyişiklik zərurəti diqqətləri bir daha legitimlik anlayışı və konstitusiyaların legitimlik problemi üzərinə kökləyir.

Bu məqalədə ümumi olaraq legitimlik anlayışı üzərində danışılacaqdır. Məqalədə legitimlik anlayışı ilə yaxından əlaqəli iqtidar və hakimiyyət anlayışlarını izhar edərək iqtidar, hakimiyyət və legitimlik arasındakı əlaqəyə müraciət edəcəyik.

Bu məqalə hipotezik-didaktik bir üsulla legitimlik anlayışını açıqlmağı hədəfləyən ətraflı bir çalışmanın ilk mərhələsidir. Məlum olduğu kimi, hipotezik-didaktik üsulla elmi məlumata üç mərhələdən keçməklə çatmaq mümkündür:
- ümumi bir hipotezanın ortaya qoyulması;
- bu hipotezadan yola çıxaraq bəlli bir düşüncənin formasiya edilməsi;
- bu formasiyanın və ya formasiyaların nəzəri və ya praktiki yolla test edilməsi.

Bu məqalədə inkşaf etdirilən hipoteza və formasiyaların məqalənin sonrakı hissələrində konkret hadisələrdə sınaqdan keçirilməsinin və ya ən azından bu mövzuda bir müzakirənin açılmasının legitimlik anlayışının anlatik bir çərçivəyə salınmasına köməklik göstərəcəyinə ümid edir və bu anlayışın yeni konstitusiya axtarışlarının gündəmdə olduğu ölkələrdə konstitusiyaların yaşaması üçün böyük önəm daşıyacağına, daha yaxşı anlaşılmasına köməklik edəcəyinə inanırıq.

## İQTİDAR VƏ HAKİMİYYƏT, İQTİDAR-HAKİMİYYƏT- LEGİTİMLİK MÜNASİBƏTLƏRİ

Legitimlik anlayışının mənasını verməmişdən öncə, bu anlayışla yaxın əlaqəli olan iki anlayışın üzərində dayanmaqda fayda var. Bunlardan birincisi iqtidar, ikincisi isə hakimiyyət anlayışlarıdır. İqtidar geniş mənası ilə "iqtidar mövcud olmadığı halda, müəyyən şəxs və qrupların hər hansı bir əməli etməyəcəkləri halda həmin hərəkətləri etdirən gücdür". İqtidar sahibləri və ya iqtidarı əllərində tutanlar siyasi plüralizm və ya etiraz ilə qarşılaşsalar belə iradələrini tətbiq etmək imkanına sahibdirlər. Qısaca olaraq iqtidar bir şəxsin və ya bir qrupun digərlərinə nəzarət etmək bacarığını ehtiva edir. Bu mənası ilə iqtidar müxtəlif sosial və siyasi münasibətlərdə mövcudur. Məsələn, patriarxal bir ailədə ata digər ailə üzvləri üzərində belə bir xüsusiyyətə malikdir. Eyni zamanda ictimai birlik, həmkarlar ittifaqı və ya siyasi partiya kimi təşkilatlanmalarda da belə bir iqtidarın varlığından bəhs etmək mümkündür. Ancaq siyasi iqtidar özündə güc tətbiqetmə inhisarını cəmləşdirdiyindən digərlərindən fərqlənir. Başqa bir sözlə nə ictimai birlik rəhbəri, nə həmkarlar ittifaqı sədri, nə də ki, siyasi partiya lideri öz qərarlarını tətbiq etmək üçün legitim olaraq güc istifadə etməyə səlahiyyətli deyildir. Əslində isə güc istifadə etmə inhisarını əlində tutan tək qurum dövlətdir. Dövlət qanunlara itaət etməyən vətəndaşları bəlli şərtlər və bəlli qaydalar çərçivəsində güc istifadə edərək bu qanunlara uyğun hərəkət etməyə məcbur edə bilər.

Siyasi iqtidar güc inhisarını özündə ehtiva etdiyi halda belə, bu siyasi iqtidarın sadəcə gücə dayandığı mənasına gəlməz. Tarixi hadisələr bizə göstərmişdir ki, heç bir siyasi iqtidar davamlı olaraq həqiqi güc istifadəsi və ya güc istifadəsi təhdidi ilə mövcud ola bilməz. Real gücə malik rejimlər qərar və əmrlərini güc vasitəsi ilə tətbiq edə bilərlər, fəqət nəticədə qeyri-sabitliyə qərq olmaq riski ilə qarşılaşa bilərlər. Bu səbəbdən idarəedicilər idarəetməni davam etdirə bilmək üçün iqtidarlarını legitim dayaqlar üzərində qurmağa, başqa sözlə iqtidarlarını hakimiyyətə çevirməyə məcburdurlar. Bu son ifadədən aydın olduğu kimi nəzərdən keçirəcəyimiz ikinci anlayış olan hakimiyyət əslində iqtidarın xüsusi bir formasını, yəni, "legitim iqtidarı" ifadə edir. Hakimiyyət sahibləri də iqtidar kimi qərar və əmrlərini plüralistlər və ya etiraz edənlər olmadan tətbiq edə bilirlər. Ancaq bu halda qərar və qaydalara əməl etməyə razı olanlar hakimiyyətlərin idarəetmə hüququnu tanıyır, yəni idarəedilənlər idarəedənlərin hakimiyyətini öz istəkləri ilə qəbul edirlər. Bu çərçivədə hakimiyyət ən ümumi mənası ilə idarəetmə hüququ kimi ifadə edilə bilər. Hakimiyyət güclə dəstəklənmiş olsa da, təməl olaraq idarəedilənlərin razılığına əsaslanır. Elə isə legitimlik idarəedilənlərin idarəedənlərə razılığını bildirən təməl ünsür olaraq qarşımıza çıxır və legitim iqtidar hakimiyyət adını alır. Bu qısa müqayisə bizə mövzumuzla bağlı çox önəmli anlayışları- iqtidar, hakimiyyət və legitimlik anlayışları və bu anlayışların arasındakı münasibətlər haqqında bir fikir yaradır, fəqət bu legitimlik anlayışının mənasını tam olaraq dəqiqləşdirmək üçün kifayyət etmir. Bir sıra praktik və nəzəri problemlər hamılıqla qəbul edilə bilən bir anlayışın ortaya çıxarılmasını çətinləşdirir. Praktiki sahədə Rodney Barkerin işarə etdiyi kimi "bu gün demək olar ki, hər cür sosial münasibətdə legitimlik anlayışına müraciət edilir, bu isə istər-istəməz anlayışın məna yükünü netləşdirmir. Nəzəri olaraq bu vəziyyət praktiki vəziyyətdən elə də çox fərqlənmir. Sosial və hüquq ədəbiyyatlarında da legitimlik anlayışı fərqli siyasi, hüquqi məktəblər tərəfindən fərqli anlaşılır və anladılır.

## NƏTİCƏ

Yuxarıda qeyd edilənləri nəzərə alaraq belə qənatə gələ bilərik ki, iqtidarların hakimiyyət statusu daşıması idarə edilənlərin arzuladığı konstitusion təsisatları qurmasından və ya siyasi mədəniyyəti idarəedilənlərin arzuladığı təsisatlardan daha faydalı model qurmaqdan asılıdır. İqtidar legitim olduqda hakimiyyət statusu əldə edir ki, bu da öz növbəsində qəbul edilmiş hüquqi aktların

tələblərini pozan qüvvələrə qarşı güc tətbiq etmək imkanını legitim edir. Belə ki, iqtidarın hakimiyyət statusuna yüksəlməsi onu legitim gücə çevirir və idarə olunanları könüllü olaraq bu gücə tabe olmağa sövq edir.

## ƏDƏBİYYAT

1. Ball, Terence, "Power," The Blackwell Encyclopedia of Political Thought içinde, David Miller, Janet Coleman, William Connolly, Alan Ryan (der..), Blackwell, Oxford, 1993.
2. Barker, Rodney, Political Legitimacy and the State, Clarendon Press, Oxford, 1990.
3. Dahi, Robert A., Modern Political Analysis, 2. Baskı, Prentice-Hall, Inc., Englewood Cliffs, New Jersey, 1970
4. Friedman, Lawrance M., The Legal System, A Social Science Perspectivə , Russell Sage Foundation, New York, 1975.
5. Friedman, Richard B., "Authority," The Blackwell Encyclopedia of Political Thought içinde, David Miller, Janet Coleman, William Connolly, Alan Ryan (der.), Blackwell, Oxford, 1993.

## SUMMARY

**Atilla Ozturk**
**Tural Huseynov**
**Nurlan Ismayılov**

**LEGAL AND SOCIO-POLITICAL ASPECTS OF THE CONCEPT OF LEGITIMACY**

The article discusses the social, political and socio-political aspects of the concept of legitimacy referring to various sources. Summarizing the concept of legitimacy in the XXI century and the existing views related with this concept in political, social and legal literature, as well as the concept of power and authority, are studied. The article aims to reveal a different approach method to legitimacy, getting more active day by day. For this reason, the article targets at least theoretically, to bring the concept of legitimacy closer to the generally accepted concept comprising not only legal, but also social, political and socio-political concepts. Along with the concept of legitimacy in relation to this goal, the concepts of power, authority, and legitimacy-authority can be the main goals of the study and can become the basis for a better understanding of the concept of legitimacy. It is no coincidence that the relationship of power and authority, as noted in the introduction, is discussed in a hypothetical-didactic vein and played a certain role in the study of these concepts in order to come to a general conclusion. At the same time, the concept of power and authority is raised within the framework of the concept of legitimacy, and the concept of power derived from legitimacy is studied.

***Key words:*** *legitimacy, social, political, authority, power*

## РЕЗЮМЕ

**Атилла Озтюрк**
**Турал Гусейнов**
**Нурлан Исмаилов**

**ПРАВОВЫЕ И СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ АСПЕКТЫ ПОНЯТИЯ ЛЕГИТИЗАЦИИ**

В данной статье рассматриваются социальные, политические и социально-политические аспекты понятия легитимности со ссылкой на различные источники. Обобщая понятие легитимности в XXI веке и взгляды на это понятие в политической, социальной и юридической литературе, исследуется современное значение понятия легитимности, в том числе понятий власти и авторитета в этом контексте, процедур, которые должен пройти. Статья направлена на разработку иного подхода к легитимности, который с каждым днем становится все более

активным. По этой причине в статье ставится задача хотя бы теоретически приблизить понятие легитимности к общепринятым не только юридическим, но и социальным, политическим и общественно-политическим понятиям. Наряду с понятием легитимности по отношению к этой цели понятия власти, авторитета, легитимности-авторитета могут быть основными целями исследования и могут стать основой для лучшего понимания понятия легитимности. Не случайно отношения власть-государство, как отмечалось во введении, были превосходны в гипотетико-дидактическом плане и сыграли свою роль в изучении тех понятий, названия которых упоминаются для того, чтобы прийти к общему выводу. В то же время понятие власти и авторитета возвышается в рамках понятия легитимности, и изучается понятие власти, производной от легитимности.

***Ключевые слова:*** *легитимность, социальная, политическая, власть, правительство*

---

***Məqaləni çapa təqdim etdi:*** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yusif Hüseynov*
***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 39-47
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 39-47
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 39-47

**GÜNEL MƏLİKLİ**
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu*

**UOT: 342.5.**

# ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEVİN DÖVLƏT TƏHLÜKƏSİZLİYİNDƏ UĞURLU FƏALİYYƏTİ

*Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Yeni dövrün görkəmli siyasətçisi və dövlət xadimi kimi möhtərəm Prezident İlham Əliyev üçün böyük siyasətdə, beynəlxalq münasibətlərdə, ölkədaxili məsələlərin həllində, dövlət idarəçiliyində ulu öndər Heydər Əliyevin siyasi təlimi möhkəm təməl, ən etibarlı bünövrədir. Gənc dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi, ümumilikdə rasional davranış modeli sayəsində mümkün olub. İlham Əliyevin siyasi kursunda təhlükəsizlik strategiyasının təmin edilməsində dövlətçilik ənənələrinə sadiqlik prinsipi başlıca yer tutur. 44 günlük Vətən müharibəsində qələbənin əldə olunmasında müzəffər Ali Baş Komandanın tapşırıqları, həmçinin müharibə dövründə və ondan sonrakı dövrdə diplomatik əlaqələrin düzgün qurulması hesabına region və dünya miqyasındakı aparıcı dövlətlərlə aparılan danışıqlarda milli maraqlarımızın tam təmin olunmasına gətirib çıxarması, ən nəhayət Türkiyə ilə Azərbaycan arasında bütün sahələri ehtiva edən Şuşa Bəyannaməsinin imzalanması Prezident İlham Əliyevin uğurlu siyasi strategiyasının nəticəsidir.*

***Açar sözlər:*** *ali baş komandan, dövlət, milli təhlükəsizlik, liderlik keyfiyyətləri, xalq, inkişaf strategiyası, hərbi təhlükəsizlik, vətən müharibəsində qələbə*

Hər bir dövlətin təhlükəsizliyinin təmin edilməsi ilk növbədə onun müstəqilliyinin möhkəmləndirilməsi, beynəlxalq və regional səviyyədə milli maraqların qorunması və bu məqsədlə elmi-texniki tərəqqinin nailiyyətlərindən yararlanması, əhalinin rifah halının yüksəldilməsi ilə bağlıdır. Qeyd etmək lazımdır ki, dövlətin milli təhlükəsizlik siyasətini əks etdirən bu konsepsiya Azərbaycan dövlətinin beynəlxalq və regional siyasi fəaliyyətinin əsaslarını təşkil edir. Bu gün dövlətin təhlükəsizliyinin təmin edilməsi müasir Azərbaycan hökumətinin də əsas inkişaf hədəflərindən biridir. Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlində Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Hər gün Azərbaycanın müxtəlif yerlərindən Naxçıvana nümayəndələr yollanır, teleqram-teleqram ardınca göndərilir, Heydər Əliyevi dar ayaqda xalqının harayına çatmağa dəvət edirdilər. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək istəyirdi. Belə bir ağır, çıxılmaz vəziyyətdə Azərbaycan xalqı yeganə ümidini Heydər Əliyevə bağladı, ölkənin düşmüş olduğu ağır bəlalardan yalnız onun zəkası sayəsində xilas ediləcəyinə inanırdı. Tarixi prosesləri araşdırdıqca bir daha aydın olur ki, Heydər Əliyevin 1993-cü ilin 15 iyununda Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı bizi milli müstəqilliyimizi itirmək təhlükəsindən xilas etdi.[2]

1993-cü ildə Azərbaycan hökumətində olan insanlar həmin dövrdə yeganə düzgün qərar qəbul etdilər - Heydər Əliyevi hakimiyyətə dəvət etdilər. Respublikada hakimiyyət dəyişikliyindən qısa

müddət əvvəl siyasi qüvvələr ölkənin şimal və cənubundakı milli separatizm toxumlarını yaydılar. Eyni zamanda ermənilər daha da aktivləşdilər. Bütün bunlarla yanaşı ruslara və rusdilli xalqlara qarşı dözümsüzlük mühiti süni şəkildə yaradılmışdı. Ulu öndər Heydər Əliyev mövcud siyasi qüvvələrin niyyətlərini qabaqcadan görüb dərk etməyə müvəffəq oldu və qısa bir müddətdə ortaya çıxan bütün problemləri həll etdi. Müasir tariximizin 35 ilə yaxın bir mərhələsi Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlıdır. Bu illər ərzində Azərbaycanda bütün sahələrdə misli görünməmiş quruculuq işləri aparılmışdır. Azərbaycan xalqının uzun illər həsrətində olduğu dövlət müstəqilliyinə yenidən qovuşmasından ötən 12 il ərzində ölkəmiz, xalqımız bir sıra ağır sınaqlara məruz qalmış, çox böyük çətinliklərə sinə gərmiş, Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarının bir hissəsini müvəqqəti itirmiş, bir milyonadək soydaşımız doğma yurd-yuvasından didərgin salınmışdır. Bütün bunlara baxmayaraq, müstəqilliyimizi qoruyub saxlaya, dövlətçiliyimizi möhkəmləndirə bilmişik. Ölkəmizdə geniş islahatlar aparılmış, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi getmiş, Azərbaycanın beynəlxalq nüfuzu artmış və o, dünya birliyində layiqli yerini tutmuşdur. Bütün bunlar xalqımızın həqiqi lideri, dünya miqyaslı müdrik dövlət xadimi Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasəti, gecəli-gündüzlü gərgin fəaliyyəti nəticəsində mümkün olmuşdur. Məhz buna görə zəmanəmizin ən tanınmış dövlət başçıları və siyasətçiləri Heydər Əliyevi dünya miqyaslı siyasi xadim, fenomenal rəhbər kimi qiymətləndirirlər [1, s.2]. “Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” - ulu öndər Heydər Əliyevin ifadəsi cənab İlham Əliyevin bütövlükdə xarakter cizgilərini, onun imkan və potensialını, böyük qabiliyyət və bacarığını ifadə edirdi. Yeni dövrün görkəmli siyasətçisi və dövlət xadimi kimi möhtərəm Prezident İlham Əliyev üçün böyük siyasətdə, beynəlxalq münasibətlərdə, ölkədaxili məsələlərin həllində, dövlət idarəçiliyində ulu öndər Heydər Əliyevin siyasi təlimi möhkəm təməl, ən etibarlı bünövrədir. Ümummilli liderin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələbləri və reallıqlarına müvafiq surətdə uğurla davam etdirilir [2].

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Azərbaycan cəmiyyətinin cənab İlham Əliyevi ulu öndər Heydər Əliyevin strateji islahatlar kursunun layiqli davamçısı kimi görməsi, əslində, bir sıra reallıqlarla şərtlənirdi. Belə ki, Moskva Beynəlxalq Münasibətlər İnstitutu kimi bütün dünyada məşhur bir ali təhsil müəssisəsində diplomatiya elminin incəliklərinə dərindən yiyələnən, bu sahədəki nəzəri biliklərini Heydər Əliyevin siyasət və idarəçilik məktəbində qazandığı təcrübi vərdişlərlə zənginləşdirərək təcrübəli, peşəkar dövlət adamı kimi formalaşan cənab İlham Əliyevin yüksək intellekti, istedadı, şəxsiyyəti, dövlətçilik təfəkkürü ümumi vəhdət təşkil edir. Prezident İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli təqdim etdi, demokratiyanın istismarçı siyasi vasitə deyil, milli mədəniyyətimiz və mentalitetimizlə, eyni zamanda, müsəlman sosial-psixoloji kimliyimizlə uzlaşan bir dəyər və yaşam tərzi olduğunu sübut etməklə intellektual əsaslarda yeni demokratik modernist cəmiyyət formalaşdırdı, “neft kapitalını intelektual kapitala çevirək” devizi ilə kreativ gənclik yetişdirmək məsələsini strateji vəzifə kimi müəyyənləşdirməklə Azərbaycanın gələcək inkişafını təmin etdi. Şübhəsiz, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. O da həqiqətdir ki, ulu öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub. Gənc dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi, ümumilikdə, rasional davranış modeli sayəsində mümkün olub. Prezident İlham Əliyev şəxsiyyəti modern cəmiyyətdə lider obrazının ən mühüm cəhətlərini özündə birləşdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə son 18 ildə Azərbaycanın keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyduğu heç kimdə şübhə doğurmur. Ölkə rəhbərinin dövlətçilik təfəkkürünü, idarəçilik səriştəsini səciyyələndirən əsas amillər inkişaf, tərəqqi, siyasi sabitlik, sosial rifah, firavan həyat və güclü müasir Azərbaycandır [5].

Ali Baş Komandan İlham Əliyev dəfələrlə bildirirdi ki, iqtisadi, hərbi nöqteyi-nəzərdən Ermənistan ilə Azərbaycan müqayisəedilməz səviyyədədir. Sadəcə olaraq, xarici maliyyə, hərbi və

siyasi dəstək hesabına Ermənistan hələ ki, Azərbaycan torpaqlarını işğal altında saxlayır: "Bizim torpaqlarımızı işğal edən təkcə Ermənistan deyil. Bizim torpaqlarımızı işğal edən Ermənistanın havadarları, erməniпərəst, islamofob siyasətçilər, antiazərbaycan qüvvələrdir. Ermənistan bizim torpaqlarımızı işğal edə bilərmi? Azərbaycan Ordusu hücuma keçsə bir həftə ərzində Ermənistanda daş üstündə daş qalmaz. Bu da reallıqdır və yenə də deyirəm, biz real dünyada yaşayırıq, öz tədbirlərimizi görürük və gün gələcək Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək. Hələ ki, biz bu istiqamətdə bütün hazırlıq işlərini görürük" [9].

Ali baş komandan – dövlətin silahlı qüvvələrinin ali rəhbər şəxsidir. Bu ifadə ilk dəfə rəsmi dövriyyəyə XVII əsrdə İngiltərənin, Şotlandiya və İrlandiyanın kralı I Karl tərəfindən gətirilmişdir. O zaman bu vəzifənin sahibi yalnız hərbi komandan funksiyasına malik idi və ölkəsinin hərbi qüvvələrinin baş komandanı idi. Yəni bu vəzifənin sahibi siyasi rəhbərliyi özündə birləşdirmirdi. Uzun müddət Qərbdə ali baş komandan vəzifəsi yalnız hərbi səlahiyyətləri özündə birləşdirən bir vəzifə idi. Çar Rusiyası ordusunda da bu vəzifə ilk dəfə məhz qoşunların baş komandanı mənasında tətbiq edilmişdi. Və bu vəzifə sahibi çar tərəfindən təyin edilirdi. [8 s.19] Hər bir dövlətin silahlı qüvvələrinin ali baş komandanının hüquqi statusu ilk növbədə həmin dövlətin konstitusiyasında öz əksini tapır. Konstitusiyanın uyğun maddəsində dövlətin prezidentinin və ya digər ali məqamlı şəxsinin eyni zamanda həmin dövlətin silahlı qüvvələrinin ali baş komandanı olması isbat olunur. Bu status dövlətin silahlı qüvvələri haqqında qanunda və dövlətin müdafiəsinin əsasları haqqında qanunda da öz əksini tapa bilər. Dövlət rəhbərinin ali baş komandan olması statusunun ikili tərəfi vardır. Birinci tərəf ondan ibarətdir ki, dövlət rəhbəri ölkənin silahlı qüvvələrini, o cümlədən ölkənin hərbi təşkilatını təşkil edən strukturlar üçün ən ali idarəetmə səlahiyyətlərinə malikdir. İkinci tərəf isə ondan ibarətdir ki, ölkə prezidenti silahlı qüvvələrin və qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi strukturların hər biri üzərində ayrı-ayrılıqda müstəqim ali idarəetmə səlahiyyətlərinə malikdir [8 s.23].

Dövlət rəhbərinin Ali baş komandanlıq statusu ölkə konstitusiyasında bəyan olunur, amma bu statusun hansı səlahiyyətlərə malik olması daha çox müdafiə haqqında və ya müvafiq qanunlarda açıqlanır. Dövlət rəhbərinin ali baş koman kimi ölkənin qanunvericilik aktlarında öz əksini tapan səlahiyyətləri ümumən aşağıda göstərilənlər kimi ifadə oluna bilər:

- dövlətin hərbi siyasətinin əsas istiqamətlərini müəyyən edir, hərbi təhlükəsizliyin təmin edilməsi üçün zəruri tədbirləri həyata keçirir, səlahiyyətləri çərçivəsində dövlətin silahlı qüvvələrinin və qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələrinin vəziyyətinə və təminatına məsuliyyət daşıyır;
- dövlətin hərbi doktrinasını təsdiq edir;
- silahlı qüvvələrə, qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birlik və birləşmələrə, hərbi orqanlara, habelə müdafiə məsələləri üzrə tabelikdə olan icra hakimiyyətinə rəhbərlik edir;
- dövlətə qarşı təcavüz baş verdikdə və ya real təcavüz təhlükəsi yarandıqda, silahlı münaqişə başladıqda tam və ya qismən səfərbərlik elan edir, ölkə ərazisində və ya onun bir hissəsində hərbi vəziyyət tətbiq edir;
- müharibə dövrünün hüquq – normativ aktlarının qüvvəyə minməsini təmin edir və onların fəaliyyətini dayandırır, müharibə dövrü üçün icra hakimiyyəti orqanları yaradır və onları ləğv edir;
- silahlı qüvvələrin, qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələrin quruculuq və inkişaf planlarını, konsepsiyalarını, silahlı qüvvələrin tətbiqi planını və onların səfərbərlik planını, bütün səviyyələrdə olan dövlət hakimiyyət orqanlarının, yerli idarəetmə orqanlarının və ölkə iqtisadiyyatının hərbi şəraitə keçirilməsi planını, dövlət və səfərbərlik ehtiyatlarının maddi ehtiyatlarının yaradılması planını və müdafiə məqsədilə ölkə ərazisinin (və ya onun bir hissəsinin) əməliyyat təchizatının dövlət proqramını təsdiq edir;
- silahlanmanın və hərbi sənaye kompleksinin inkişafının dövlət planının hazırlanmasını təşkil edir, təsdiqləyir və sonra da onun icrasına rəhbərlik edir;
- ali hərbi rütbələr verilməsi haqqında sərəncamlar imzalayır, ştatla ali hərbi rütbələrə uyğun gələn vəzifələrə təyinatlar aparır və onları vəzifədən azad edir;

- silahlı qüvvələrin və qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələrin və orqanların strukturunu və tərkibini, onların ştat sayını təsdiq edir;
- ölkə vətəndaşlarının müvafiq qanunvericilik üzrə hərbi xidmətə çağırışı və xidməti başa vuranların ehtiyata buraxılması haqqında sərəncam verir;
- müdafiə nazirliyinin, baş qərargahın və qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələrin idarəetmə orqanlarının əsasnamələrini təsdiq edir;
- ərazi müdafiəsinin əsasnaməsini və mülki müdafiənin planını təsdiq edir, mülki və ərazi müdafiəsisinin  təşkilini və vəzifələrini müəyyənləşdirir;
- danışıqlar aparır və hərbi təhlükəsizlik üzrə beynəlxalq müqavilələri, sülhün və beynəlxalq təhlükəsizliyin qorunması üçün nəzərdə tutulan əməliyyatlarda silahlı qüvvələrin iştirakı haqqında, habelə hərbi əməkdaşlıq haqqında müqavilələri imzalayır;
- hərbi təhlükəsizliyin təmin edilməsi üzrə xərclər smetasını müəyyənləşdirir və təsdiq üçün təqdim edir, nəzərdə tutulmuş smeta xərclərindən istifadə edilməsi qaydasını müəyyənləşdirir;
- hərbi təhlükəsizliyin təmin edilməsi üzrə qanunları və digər normativ-hüquqi aktları təsdiq edir;
- ali hərbi təhsil ocaqlarının təsis edilməsi və ləğv edilməsi haqqında qərar qəbul edir;
- silahlı qüvvələrin və qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələrin şəxsi heyətinin sosial vəziyyətinin yaxşılaşdırılması, dövlət mükafatları ilə mükafatlandırılması haqqında qərar qəbul edir;
- hərbi təhlükənin artdığı və ya hərbi müdaxilənin qarşısının alındığı dövrdə dövlətin hərbi təşkilatı vasitəsilə strateji idarəetməni həyata keçirir;
- silah və hərbi texnikanın, strateji materialların və ölkə daxilində istehsal olunan ikili xarakterli məhsulların ixrac edilməsi üzərində nəzarəti təşkil edir;
- cinayət məsuliyyətinə cəlb edilmiş hərbi qulluqçuların əfvi ilə bağlı qərarlar qəbul edir;
- hərbi təhlükəsizliyin təmin edilməsi üçün konstitusiya və digər qanunvericilik aktları çərçivəsində digər səlahiyyətləri həyata keçirir [8, s.23-26].

"Müdafiə haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində də Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olması bəyan edilir və Ali Baş Komandan kimi onun səlahiyyətlərinin bunlardan ibarət olması bildirilir: Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə hərbi doktrinanın layihəsini, silahların və hərbi texnikanın dövlət inkişaf  proqramını təqdim edir; Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır; Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali komanda heyətini vəzifəyə təyin və vəzifədən azad edir; ali hərbi rütbələr verir; hərbi quruculuğun konsepsiyasını, Silahlı Qüvvələrin ümumi strukturunu və sayını təsdiq edir;

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi məktəblərini, ali məktəblərin hərbi kafedralarını və elmi tədqiqat təşkilatlarını yaradır və ləğv edir və  s. [8, s.31- 33].

Dövlətin iqtisadi potensialının tükənməsi, yaxud qeyri-səmərəli istifadəsi, milli iqtisadiyyatın digər ölkələrdən maliyyə və texnoloji asılılığının yaranması, boru kəmərlərinin, digər kommunikasiyaların və nəqliyyat dəhlizlərinin fəaliyyətinin pozulması; iqtisadi əlaqələri nizamlayan dövlət sisteminin pərakəndəliyi, iqtisadiyyatın qeyri-mütənasib inkişafı; ölkənin dünya iqtisadiyyatından təcrid olunması; təbii və maddi sərvətlərin talan edilməsi və səmərəsiz istifadəsi; investisiya aktivliyinin zəifləməsi və s. milli təhlükəsizliyə iqtisadi sahədə əsas təhdidlər, Azərbaycan Respublikasına qarşı təcavüz və gücün tətbiqi və ya tətbiq edilməsi hədəsi, ölkənin müdafiə qabiliyyətinin zəifləməsi; digər ölkələr tərəfindən respublikanın hərbi konfliktlərə, regional münaqişələrə cəlb edilməsi; xarici ölkələrin Azərbaycan  ilə sərhədlərinin yaxınlıqlarında yaranmış qüvvələr nisbətini pozan qoşun qruplaşmalarının artırılması; ölkəmiz ilə qonşu olan dövlətlərdə hərbi-siyasi vəziyyətin qeyri-sabit olması, həmsərhəd dövlətlərin ərazisində ölkəmizə qarşı düşmənçilik siyasətini yeridən digər dövlətlərin qoşunlarının yerləşdirilməsi; Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi və iqtisadi potenisalının, hərbi hazırlığının və döyüş qabiliyyətinin zəiflədilməsinə yönəlmiş fəaliyyət;

dövlət sərhədəlrindəki ərazilərə, obyektlərə və qurğulara basqın edilməsi, sərhəd münaqişələri və silahlı fitnəkarlıq və s. isə hərbi sahədə əsas təhdidlərdir [4, s.187].

Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinin təmin olunması üçün görülən əsas tədbirlər aşağıdakılardır:

- Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin hərbi hazırlıq səviyyəsinin və döyüş qabiliyyətinin artırılması, mövcud hərbi ehtiyatların səfərbərlik üçün hazır vəziyyətdə saxlanılması;
- hərbi-sənaye kompleksinin inkişafı, müasir silah və hərbi-texniki nailiyyətlərin tətbiq edilməsi;
- Azərbaycan Respublikasının dövlət sərhədləri yaxınlığında əlverişli qüvvələr nisbətinin yaranmasının əldə olunması;
- Azərbaycan Respublikasının dövlət sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi;
- kütləvi qırğın silahlarının işlənib hazırlanmasının, istehsalının, yayılmasının, ehtiyatlarının yaradılmasının və tətbiqinin qarşısının alınması istiqamətində fəaliyyət göstərilməsi;
- hərbi təhsil sisteminin inkişaf etdirilməsi, Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin ixtisaslı kadrlarla təminatı işinin yaxşılaşdırılması.
- hərbi xidmət əleyhinə cinayətkarlığa qarşı mübarizə aparılması;
- Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinin təmin olunması məqsədilə xarici ölkələr və beynəlxalq təşkilatlarla əməkdaşlığın həyata keçirilməsi;
- kütləvi qırğın silahlarının komponentlərinin və texnologiyalarının, onları hədəfə çatdırma vasitələlərinin, yeni hərbi istehsal texnologiyalarının qanunsuz yayılmasında ölkə ərazisinin tranzit kimi istifadə edilməsinin qarşısının alınması;
- Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi və iqtisadi potensialının, döyüşə hazırlığının və döyüş qabiliyyətinin zəiflədilməsinə yönəlmiş fəaliyyətin aşkarlanması, qabaqlanması və qarşısının alınması;
- müdafiə kompleksi sahəsində strateji əhəmiyyətli obyektlərin, həmçinin hərbi maraqlar baxımından əhəmiyyət kəsb edən elmi-texniki araşdırmaların və bu fəaliyyətin nəticələrinin, o cümlədən məlumatların, sənədlərin və proqram təminatı vasitələrinin təhlükəsizliyinin təmin edilməsi.
- Hərbi və hərbi-texniki müqavilələrin bağlanmasında və yerinə yerilməsində Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması tələbləri mütləq nəzərə alınır.
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr istisna olmaqla, ölkə ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə, habelə hərbi qüvvələrin, silah, hərbi texnika, kütləvi qırğın silahı komponentləri və texnologiyalarının tranzit daşımalarına yol verilmir [7, s.18-19].

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması tələbləri mütləq qaydada bu kimi hallarda nəzərə alınmalıdır: ölkənin inkişaf istiqamətlərinin, sosial-iqtisadi mərhələlərinin strateji planlaşdırılması zamanı; qanunların və digər normativ hüquqi aktların hazırlanması, qəbulu və icrası zamanı və s. [7, s.22-23].

Uğurlu fəaliyyətin zəmanətverici faktoru kimi Prezident İlham Əliyev ölkədə sabitliyi qorudu. Bunun üçün, ilk növbədə, qarşılıqlı münasibətləri tənzimləyən vətəndaş həmrəyliyini, dinamik inkişafı təmin etmək üçün cəmiyyətdə sağlam mənəvi mühiti, vətəndaşlar arasında dövlətə və dövlətçiliyə etibar, inam, öz ölkəsini sevmək, sərhədlərini göz bəbəyi kimi qorumaq, onunla qürur duymaq və uğrunda döyüşmək duyğusu və hissi yaratdı.

Bunlar bütünlüklə İlham Əliyevi parlaq qələbəyə aparan sistemli strategiya idi. Əlbəttə, bütün uğurların əldə olunmasında "İlhamla irəli!"- devizi, sabaha, gələcəyə inam hissi dayanırdı. Prezident seçildiyi ilk gündən İlham Əliyev praqmatik dövlət xadimi kimi iqtisadiyyatın bütün sferalar üzrə inkişafına nail olmağın zəruriliyini bəyan edərək ölkənin neft gəlirlərindən asılılığının aradan qaldırılması və qeyri - neft sektorunun inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atdı. Ölkədə qeyri-neft sektorunda iqtisadi dirçəlişə nail olunması istiqamətində sahibkarlıq ənənələrinə yiyələnilməsinə geniş meydan verilməsini, onlara səmərəli dövlət qayğısının həyata keçirilməsinə şərait yaradılmasını

prioritet istiqamətlərdən biri kimi bəyan etdi. Habelə ölkədə kənd təsərrüfatı sahəsində dinamik inkişafa nail olunmasını, ənənəvi əkinçilik və heyvandalığın, məşğulluq vərdişlərinin bərpa olunmasında təxirəsalınmaz işləri reallaşdırmaq üçün əlverişli mühit formalaşdırıldı. Ən əsası, 44 günlük Vətən müharibəsində şanlı Azərbaycan Ordusunun qələbəsi təmin olundu.

2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri qısa müddət ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. Öz torpaqlarında Vətən müharibəsinə qalxan Azərbaycanın gücünü təkcə məğlub, işğalçı Ermənistan deyil, bütün dünya gördü. Rəşadətli Ordumuz Vətən torpaqlarından işğalçı vətənsizləri qovaraq Azərbaycanın ərazi bütövlüyünü, toxunulmazlığını təmin etdi. Qüdrətli Azərbaycan Ordusu Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm zəfər tarixi yazdı. [2] Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev noyabrın 10-da xalqa tarixi bir müraciət etdi. O, bir daha vurğuladı ki, xalqımız mənə inanırdı, ona görə də dəfələrlə demişdim ki, nəyi necə və nə vaxt eləməyin məqamını mən yaxşı bilirəm. Xalqın bu inamına arxalanaraq Ali Baş Komandan kimi ölkə başçısı İlham Əliyev həmin günün gəlib çatdığını bəyan etdi və möhtəşəm qələbəmizin əsas memarı kimi tarix yazdı. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin tükənməz enerjisi, qətiyyəti, möhkəm iradəsi Azərbaycan xalqının iradəsinin, arzu və istəklərinin reallaşdırılmasına zəmin yaratdı. Azərbaycanın hərbi-siyasi və diplomatik sahədə uğurları birbaşa İlham Əliyev fenomenal istedad sahibi olmasının göstəricisidir. 44 günlük Vətən müharibəsində qələbənin əldə olunması müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin uğurlu strategiyasının nəticəsidir. Xoşbəxt o xalqdır ki, onu inkişaf etdirən liderləri olur. Cənab İlham Əliyev xalqın alternativsiz lideri, xilaskarıdır. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri qısa müddət ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. Dövlət başçısı demişdir: “Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir “dəmir yumruq” yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim “dəmir yumruğ”umuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu “dəmir yumruq” düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın “dəmir yumruğ”u onların belini qıracaq. Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq.” Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun düşmənə vurduğu sarsıdıcı zərbələr, uğurlu döyüş əməliyyatları, qazanılmış qələbələr ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin tam bərpa olunmasını təmin edib. Bu sözlər Prezident İlham Əliyevin xalqa müraciətindəndir: “...İndiki vəziyyətdə birinci günahkar Ermənistan rəhbərliyidir. Eyni zamanda, bu məsələyə biganə yanaşan və daim Ermənistanın tərəfini saxlayan və bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin dairələridir. Azərbaycan özü bu məsələni həll edir və mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq, kim-kimdir?! Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir”. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdi, Cəbrayıl, Qubadlı, Füzuli, Zəngilan rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir hissəsini işğaldan azad etdi. 5 şəhər, 4 qəsəbə, 286 kənd, çox sayda strateji yüksəklik erməni işğalçılarından təmizləndi. 28 illik işğaldan sonra Şuşa – Qarabağın tarixi paytaxtı, işğaldan azad edildi. İkinci Qarabağ müharibəsi Azərbaycan xalqı üçün həqiqətən Vətən müharibəsi idi. Biz öz Vətənimizi müdafiə etdik, torpaqlarımızı işğalçılardan azad etdik. Hər birimiz 44 gün ərzində baş verənləri məhz belə qəbul etdik. Azərbaycanda insanlar döyüşə getmək arzusu ilə hərbi komissarlıqlara üz tuturdular. Azərbaycan əsgərləri və zabitləri misilsiz cəsarət və qəhrəmanlıq nümayiş etdirərək, düşməni dəhşətə gətirirdilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında bildirdi: “Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Öz ordularını müasir

standartlara, müasir tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq. Bizim Qələbəmiz təkcə xalqımızın qələbəsi deyil, bütün türk dünyası bizim qələbəmizlə fəxr edir".

Xalqımız öz dövlət başçısının xalqın, dövlətin maraqları naminə dünyanı qarşısına alacaq qədər böyük qətiyyətini bir daha gördü. Cənab Prezidentin televiziya kanallarına verdiyi müsahibələr dünyanın dörd tərəfinə yayılan haqq səsimiz idi. Cənab Prezidentin dediyi kimi "Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan hərbi birləşmələrinin heç bir hədəfi, heç bir məqsədi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və torpaqlarımızı işğaldan azad edəcəyik".

Ümumilikdə, Azərbaycan Prezidentinin "Əl-Cəzirə", "Əl-Ərəbiyyə", "TRT Haber", "Pervıy Kanal", "CNN-Türk, "Evronyus" televiziya kanallarına verdiyi müsahibələrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, habelə cəbhə zonasındakı son hərbi əməliyyatlarla bağlı aydın, səlis, qətiyyətli fikirləri ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması baxımından müstəsna əhəmiyyət kəsb edir. Möhtəşəm zəfər paradı, qalib ordu, qalib xalq, qalib prezident birliyinin simvolikasına çevrildi [5].

Cənab Prezident İlham Əliyev Zəfər Paradında bəyan etdi: "...Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyinə qaldırılmış bayraq gətiriləcəkdir. Demişdim ki, gün gələcək və bu gün işğal altında olan torpaqlarda qaldırılan Azərbaycan Bayrağı Azadlıq meydanına gətiriləcəkdir. Bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik. Mən deyirdim ki, bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Deyirdim ki, müharibə variantı heç vaxt istisna olunmur. Nəinki deyirdim, bütün bu illər ərzində bütün gücümüzü səfərbər edib ölkəmizi gücləndirirdik, güc toplayırdıq - həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm iqtisadi məsələlərin həllində, ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsində, ordu quruculuğunda güc toplayırdıq. Bu gücü dəmir yumruq formasına gətirdik, düşmənin belini qırdıq və bu gün biz yeni reallıq yaratdıq. Əgər hətta bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır". 2020-ci il dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində ölkəmizin hərbi-siyasi müstəvidə qazandığı uğurlardan bəhs etmişdir: "Biz müharibə zamanı təqribən 5 min kvadratkilometrə yaxın ərazini döyüş meydanında azad etdik, müharibə yolu ilə azad etdik. Eyni zamanda, təxminən bir o qədər – 5 min kvadratkilometrə yaxın ərazini artıq sülh yolu ilə qaytardıq. Əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki, kapitulyasiya aktına imza atacaqdı" [4].

Prezident İlham Əliyev ölkə iqtisadiyyatını inkişaf etdirərək, 30 il ərzində xarabazara çevrilmiş Qarabağ torpaqlarını yenidən dirçəldərək Azərbaycanı yeni zirvələrə doğru aparmaqdadır [6].

44 günlük Vətən müharibəsində qələbənin əldə olunmasında müzəffər Ali Baş Komandanın tapşırıqları, həmçinin müharibə dövründə, ondan sonrakı dövrdə diplomatik əlaqələrin düzgün qurulması hesabına region və dünya çapındakı aparıcı dövlətlərlə aparılan danışıqlarda milli maraqlarımızın tam təmin olunmasına gətirib çıxarması, ən nəhayət Türkiyə ilə Azərbaycan arasında bütün sahələri ehtiva edən Şuşa Bəyannaməsinin imzalanması Prezident İlham Əliyevin uğurlu siyasi strategiyasının nəticəsidir. [2s.9] Ali Baş Komandan, Prezident İlham Əliyevin uğurlu strategiyasının nəticəsində Azərbaycanın azad edilmiş torpaqlarına bundan sonra həyat qayıdacaq.

## NƏTİCƏ

Bəli nəticə olaraq qeyd edə bilərik ki, İlham Əliyevin siyasi kursunda təhlükəsizlik strategiyasının təmin edilməsində dövlətçilik ənənələrinə sadiqlik prinsipi başlıca yer tutur.

Bir sözlə Azrəbaycan Respublikasının Prezidenti İlham Əliyev vəzifəsinə başladığı ilk gündən Ulu öndərin uğurlu hərbi siyasətini layiqincə davam etdirməkdədir. Dövlət Sərhəd Xidmətinin mövcud vəziyyəti, imkanları və gücü bunu deməyə kifayət qədər əsas verir. Eyni zamanda bu qoşun növündə xidmət edən hərbi qulluqçular da istər ataş dövründə, istərsə də 44 günlük 2-ci Qarabağ savaşında onlara göstərilən etimadı öz qəhrəmanlıqları ilə doğrultdu.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası.Vətənə, xalqa və dövlətə sədaqət andı. Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi. 31 oktyabr 2003-cü il. http://files.preslib.az/site/ialiyev/2003.pdf
2. Məlikli G. Ulu öndər Heydər Əliyev xilaskarlıq missiyası ilə Azərbaycanın müstəqilliyini qorudu\ https://ikisahil.az/post/226978-ulu-onder-heyder-eliyev-xilaskarliq-missiyasi-ile-azerbaycanin-musteqilliyini-qorudu
3. Məlikli G. Azərbaycanda erməni separatizmi\\ Respublika qəzeti 19 yanvar 2022
4. Məlikli G. Milli Təhlükəsizlik anlayışı. // Müasir dövrün aktual problemləri. Buraxılış №3, 2010.
5. Məlikli G. Prezident İlham Əliyev–alternativsiz lider, qüdrətli sərkərdə\https://xalqqazeti.com/mobile/az/news/89147
6. Məlikli G. Prezident İlham Əliyev Azərbaycanı yeni zirvələrə aparırhttps://xalqqazeti.com/az/news/92677
7. Milli Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun Nəşriyyatı-201.
8. Süleymanov M. Azərbaycanda Ali Baş Komandanlıq İnstitutunun Heydər Əliyev mərhələsi. Bakı: Elm və təhsil, 2018.
9. Zaman E. “İki sahil” 30 iyun 2017-ci il.


## SUMMARY

**Gunel Malikli**

### THE STATE OF THE COMMANDER-IN-CHIEF, ILHAM ALIYEVIN SUCCESSFUL OPERATION IN SECURITY

The constant occupation of Azerbaijani lands by the armed forces of Armenia in the late 1980s and early 1990s, the aggravation of the political situation and the deterioration of the social situation of the population demanded a leader capable of saving the country from these troubles and leading the people. For President Ilham Aliyev, as a prominent political and statesman of the new era, the political training of the great leader Heydar Aliyev in big politics, international relations, domestic issues, public administration is a solid foundation, the most reliable foundation. The strength of the foundations of the young state and the effectiveness of the strategy being implemented became possible thanks to the leadership qualities, intellect, political will and foresight of President Ilham Aliyev, in general, a model of rational behavior. In the political course of Ilham Aliyev, the principle of adherence to the traditions of statehood plays a key role in ensuring a security strategy. The tasks of the victorious Supreme Commander in victory in the 44-day Patriotic War, as well as the correct and correct establishment of diplomatic relations during and after the war, will lead to the full realization of our national interests in negotiations with the leading countries of the region and the world. The signing of the Shusha Declaration is the result of the successful political strategy of President Ilham Aliyev.

***Key words:*** *supreme commander-in-chief, state, national security, leadership qualities, person, development strategy, military security, victory in war.*

**РЕЗЮМЕ**

**Гюнель Маликли**

**СОСТОЯНИЕ КОМАНДУЮЩЕГО ИЛЬГАМА АЛИЕВИНА УСПЕШНАЯ РАБОТА В БЕЗОПАСНОСТИ**

Постоянная оккупация азербайджанских земель вооруженными силами Армении в конце 1980-х - начале 1990-х годов, обострение политической ситуации и ухудшение социального положения населения потребовали лидера, способного спасти страну от этих бед и повести за собой народ. Для Президента Ильхама Алиева как видного политического и государственного деятеля новой эпохи политическая подготовка великого лидера Гейдара Алиева в большой политике, международных отношениях, внутренних вопросах, государственном управлении является прочным фундаментом, самым надежным фундаментом. Прочность основ молодого государства и эффективность реализуемой стратегии стали возможными благодаря лидерским качествам, интеллекту, политической воле и дальновидности Президента Ильхама Алиева, в целом модели рационального поведения. В политическом курсе Ильхама Алиева принцип приверженности традициям государственности играет ключевую роль в обеспечении стратегии безопасности. Задачи победившего Верховного Главнокомандующего в победе в 44-дневной Отечественной войне, а также правильное и правильное установление дипломатических отношений во время и после войны приведут к полной реализации наших национальных интересов в переговорах с ведущих стран региона и мира.Подписание Шушинской декларации является результатом успешной политической стратегии Президента Ильхама Алиева.

***Ключевые слова:*** *верховный главнокомандующий, государство, национальная безопасность, лидерские качества, человек, стратегия развития, военная безопасность, победа в войне.*

---

***Məqaləni çapa təqdim etdi:*** *fəlsəfə üzrə elmlər doktoru, dosent Qərib Allahverdiyev*
***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 48-53
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 48-53
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 48-53

**RİZVAN ABASOV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*rizo_04@mail.ru*

**UOT: 316.3**

# AZƏRBAYCANIN ELEKTORAL SOSİOLOGİYASINDA EXIT-POLL TƏDQİQATININ MÜASİR PROBLEMLƏRİNƏ DAİR

*Elektoral tədqiqatın xüsusi növü olan exit-poll tədqiqatı təhlil olunur. Azərbaycan reallığında keçirilmiş exit-pollun nəticələri illərlə rəsmi nəticələrdən nə dərəcədə fərqləndiyi müqayisəli şəkildə təqdim edilir. Exit-poll tədqiqatı zamanı nəticələrə təsir göstərəcək faktorların, seçki dairələrində məntəqələrin, məntəqələrdə respondentlərin seçilməsi, intervyuerlərin hazırlığı və s. məsələlərin metodik xüsusiyyətləri öz əksini tapır.*

*Yeri gəlmişkən, bir çox ölkələrdə exit-pollar mahiyyətinə görə bir oyuna bənzəyən seçki proseslərinə daha artıq maraq qatmaq üçün telekampaniyalar tərəfindən sifariş edilir. Bizdə isə bütün MDB məkanında olduğu kimi belə bir prinsip mövcuddur: "Əgər mümkün olmayan çox arzuolunandırsa, niyə də olmasın?!". Elə ona görə də ölkə daxilində çox da tez-tez rast gəlinməyən məlumatların qəbul olunmasında çəpliklər və ya onların zorla tətbiqi baş verir.*

*Dünya ölkələrində olduğu kimi, bir çox tədqiqatçıların da qeyd etdikləri kimi, müasir sosiologiyada exit-pollda əsas problem respondentlərin seçilməsi ilə bağlıdır ki, burada günorta vaxtı seçicilər eyni vaxtda səsvermə prosesinə qatıldığından seçmə addımını yadda saxlamaq bir qədər problemli olur. Digər problem kimi respondentin sorğudan imtina etməsidir. Üçüncü problem kimi exit-poll keçirilən zamanı inzibati təşkilatlar tərəfindən süni yaradılan problemlərdir. Bu problemlərin hər biri ümumilikdə tədqiqatın nəticələrinə mənfi təsir göstərir.*

***Açar sözlər:*** *sosioiloji tədqiqat, elektoral tədqiqat, seçki dairəsi, exit-poll, intervyüer.*

Son dövrlərdə bizim siyasi landşaftımızın ayrılmaz atributuna çevrilən fenomenlərdən biri də exit-polldur. Seçkilər ərəfəsində ən çox müzakirə olunan məsələlərdən biri də exit-poll tədqiqatıdır. Çox vaxtı bu metodu seçkilərin şəffaflığına, demokratikliyinə nəzarət mexanizmi kimi təqdim edirlər ki, bu da onun nəzarətedici funksiyaya malik olmasından irəli gəlir. Eyni zamanda, ekzit-pollun nəticələrinin qəbul edilməsinin özü, əhalinin siyasi sistemə münasibətinin proqnozu kimi qiymətləndirilə bilər. Burada əsas məsələlərdən biri seçkinin nəticələrinin ictimaiyyət tərəfindən etibarlı qəbul edilməsidir və bu etibarlılığın səviyyəsi öz növbəsində mövcud hökumətin leqitimliyini müəyyənləşdirir.

Seçki İnstitutuna yüksək inam olan vəziyyətlərdə exitpoll tədqiqatlarından seçkilərin nəticələrinə nəzarət mexanizmi kimi istifadə etmək məsələsi gündəmdə olmur. Belə vəziyyətlərdə məsələ tamamilə fərqli bir düzəm alır və bu prosesdə problem obyekti seçki prosesi deyil məhz, exitpoll tədqiqatını həyata keçirən şirkət və onun istifadə etdiyi metodika olur.

Buna baxmayaraq Qərbdə ekzit-pollu, adətən, səslərin son mərhələdə hesablanmasında obyektivliyin etalonu kimi təqdim edir və bildirirlər ki, o, nəzarətetmə missiyasını həyata keçirir.
Halbuki bu, hər zaman belə olmur. Yaddan çıxarmaq olmaz ki, exit-poll seçkiləri "canlandırmaqdan" ötrü meydana gəlmişdir (Ötən əsrin 67-ci illərində ). İlk dəfə olaraq, 1967-ci ildə Kentukki ştatının (ABŞ) qubernatorunun seçkiləri zamanı seçicilərin səsverməsindən dərhal sonra sorğu keçirilib. Metodun yaradıcısı o zaman CBS televiziyasının Seçki və İctimai Rəy Mərkəzinin direktoru vəzifəsində çalışan Uorren Mitofski olub. [1, c. 112]. Ümumiyyətlə, o, bir şou elementidir, özü də ki totalizator və elektron birjalarda istifadə olunan mülahizələr kimidir. Bəli, beləlləri elə ABŞ-da da fəaliyyət göstərir və etibarlılıqda tanınmış sosioloji xidmətlərlə ciddi rəqabət aparırlar. Məsələn, İowa

Elektronic Markets (İEM) ("Ayova ştatının elektron bazarı") seçkilərin nəticələrini proqnozlaşdırmağa imkan verir. Bu bazar hamıya gələcək seçkilərdə bu və ya digər namizəd haqqında təsəvvürlər əsasında fyucers müqavilələrini alıb-satmağa imkan verir. ABŞ ekspertlərinin təsdiq etdiklərinə görə, İEM dəqiqliyinə görə ictimai rəy haqqında sorğuları geridə qoyur. Belə ki, 1988–2000-ci illərdəki prezident seçkilərinə hazırlıq prosesində ictimai rəyin 596 zondaj nəticələri açıqlanmışdır. İEM bazarında bu nəticələr dərc edilən gün mülahizələrin 75%-i daha dəqiq çıxdı (1, s.31).

"New Futures" və "Trade Sports" birjalarında 2003-cü ildə İraqda kütləvi qırğın silahının tapılıb-tapılmaması və ya Ariel Şaronun Yasir Ərəfatdan daha artıq hakimiyyətdə qalıb-qalmayacağı haqqında mərclər keçirilirdi (2, s.37). Bir sözlə, proqnozların təhlil alətlərinin arsenalı rəngarəngdir.

Yeri gəlmişkən, Qərbdə exit-pollar mahiyyətinə görə bir oyuna bənzəyən seçki proseslərinə daha artıq maraq qatmaq üçün telekampaniyalar tərəfindən sifariş edilir. Bizdə isə bütün MDB məkanında olduğu kimi belə bir prinsip mövcuddur: "Əgər mümkün olmayan çox arzuolunandırsa, niyə də olmasın?!". Elə ona görə də ölkə daxilində çox da tez-tez rast gəlinməyən məlumatların qəbul olunmasında çəpliklər və ya onların zorla tətbiqi baş verir.

Hələ ki reallığa uyğunlaşmaq məcburiyyətindəyik. Təbii bir sual yaranır: Sorğunun nəticələrinin həqiqi və ya aldadıcı olmasını necə ayırd etmək olar? Bunu bilmək vacibdir ki, bəzi incəlikləri anidən mənimsəmək mümkün deyil. Bunun üçün yüksək hazırlıq vacib şərtdir. Etibarlı sorğu ilə bağlı olan vəziyyət də elə bu cür baş verir. Lakin güman edək ki, zaman keçdikcə hər şey öz axarına düşəcəkdir. Əslində, reallıq necədir? "Rəy" Monitorinq Mərkəzi tərəfindən 2008, 2013 və 2018-ci illərdə prezident seçkilərində, 2010 və 2015-ci illərdə parlament seçkilərində, Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə 2016-cı ilin sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsində (referendumda) exit-poll tədqiqatı həyata keçirilmişdir.

Qeyd etdiyimiz kimi, exit-poll sosioloji sorğunun fərqli (dəyişdirilmiş) növlərindən biridir və təbii ki, belə sorğuların prosedur və şərtlərinə müvafiq şəkildə həyata keçirilir. Prinsipial fərq ondan ibarətdir ki, burada məsələ təkcə vətəndaşların sirr saxlamaq hüququnda olduqları rəylərinin öyrənilməsi ilə məhdudlaşmır. Ümumilikdə, "Exit-poll seçkilərin nəticələrini hamıya məlum olmamışdan bir neçə saat əvvəl öyrənmək üçün çox bahalı üsuldur". Bu tərif bu cür tədqiqatların əlavə imkanlarını bir kənara qoyaraq, exit-poll-un əsas mahiyyətini açıq şəkildə ifadə edir. (3).

Tədqiqatçıların qeyd etdikləri kimi, müasir sosiologiyada exit-pol-da əsas problem respondentlərin seçilməsi ilə bağlıdır ki, burada günorta vaxtı seçicilər eyni vaxtda səsvermə prosesinə qatıldığından seçmə addımını yadda saxlamaq bir qədər problemli olur. Digər problem kimi respondentin sorğudan imtina etməsidir. Üçüncü problem kimi exit-poll keçirilən zamanı inzibati təşkilatlar tərəfindən süni yaradılan problemlərdir. Bu problemlərin hər biri ümumilikdə tədqiqatın nəticələrinə mənfi təsir göstərir.

Məhz bu vacib məqam bir çox hallarda exit-polun əhəmiyyətini müəyyənləşdirir: cavabdan imtina hallarının çoxluğu və yaxud respondentlərin qeyri-səmimiliyi onun dəqiqliyini əhəmiyyətli dərəcədə azalda bilər (Cədvəl 1).

**Diaqram 1. Exit-pollda imtinalar (%-lə)**




Məhz bu səbəbdən ilkin mərhələni uğurla keçmək tədqiqatın mühüm məqsədlərindən biridir. Əgər intervyuer (müsahibə götürən) təqdimatı və anketi doldurmağa dəvəti əminliklə və inandırıcı

şəkildə aparmırsa, onda respondentin cavabdan qaçmaq şansı daha çox olur. İntervyuer cəld və əminliklə özünü təqdim etməli, doldurmaq üçün anketi respondentə verməlidir. İntervyuer əvvəlcədən öz xarici görünüşü və davranış tərzi ilə seçki məntəqəsinə daxil olarkən artıq onu müşahidə etmiş potensial respondenti ona qarşı olan xeyirxah münasibətə və məqsədlərinin ciddi olmasına inandırmalıdır.

Təcrübə göstərir ki, respondentlərin səmimiliyi və sorğudan imtina etmələri məhz intervyuerin təqdimat nitqini nə dərəcədə çevik, əvvəlcədən hazırlanmış, əmin şəkildə və xoş təbəssümlə söyləməsindən birbaşa asılıdır (Daha təcrübəli və peşəkar intervyuerlərdə imtina sayları kifayət qədər azlıq təşkil edir). İntervyuer hətta zahirən “mənə imtina etməzlər” fikrində olduğunu nümayiş etdirməlidir (diaqram 1).

**Diaqram 2. Exit-polda respondentlərin intervyuerlərin təcrübəsinə görə imtinaların sayı %-lə ("Rəy" Monitorinq Mərkəzinin keçirdiyi exit-polun nəticələri əsasında)**




Diaqram 2-də "Rəy" Monitorinq Mərkəzi tərəfindən 2008, 2013 və 2018-ci il prezident seçkilərində həyata keçirilmiş exit-poll tədqiqatında imtinaların faizlə ifadəsi verilmişdir. Cədvəldən göründüyü kimi, intervyuerlərin təcrübəsi artdıqca, sorğularda olan imtinaların sayı azalır. Bu tendensiya hər üç prezident seçkisində eyni qaydada müşahidə edilmişdir.

Dünya təcrübəsi göstərir ki, exit-poll keçirilmədən öncə iştirakçıları xüsusi təlim və təlimatlandırma keçmiş sorğu şəbəkəsi yaradılmalıdır. İctimai rəy zondajlarının keçirilməsində təcrübəsi olanlara daha böyük üstünlük verilməli və supervayzer (qrup rəhbəri) kimi isə yalnız müvafiq təcrübəsi olan şəxslər işə cəlb olunmalıdır. Seçki günü daxil olmuş informasiyanın işlənməsi çevik şəkildə həyata keçirilməlidir. Nəticələr Mərkəzi Seçki Komissiyasının ilkin nəticələrindən əvvəl verilməlidir. Əks halda sosioloji məlumat öz aktuallığını itirə bilər. Həmçinin əldə edilən məlumatlardan ikinci dərəcəli təhlillər üçün istifadə etmək olar. Qeyd edək ki, Azərbaycanın seçki qanunvericiliyinə görə, seçkilərin keçirilməsinə 24 saat qalmış bütün kütləvi informasiya vasitələrində hər növ təbliğat üsulları qadağan edilir. Bu baxımdan exit-poll keçirən təşkilatlar seçkinin nəticələri ilə bağlı məlumatları yalnız səsvermə prosesi başa çatandan sonra yaymaq hüququna malikdirlər.

Exit-polun seçmə hesablamalarında seçicilərin ümumi cəmi müəyyən edilmiş, daha sonra sorğu nöqtələrinin (seçki məntəqələri) müəyyənləşdirilməsi zamanı çoxpilləli seçmədən istifadə edilmişdir. Mərkəzi Seçki Komissiyasının (MSK) məlumatına görə, dairə seçki komisiyalarının sayı 125, məntəqə seçki komissiyalarının sayı isə 5641-dir. MSK-nın son göstəricilərinə əsasən bu məntəqələrdən yalnız 5426-sı daimi seçki məntəqəsidir. Seçmə prosesində baza kimi məhz bu daimi məntəqələr əsas götürüləcək. Tədqiqat zamanı exit-poll tədqiqatı məhz seçki məntəqələrində həyata

keçirildiyindən bu regionlarda əhalinin sayına uyğun olaraq məntəqələrin sayında da faizlə öz əksini tapır (nəzərə almaq lazımdır ki, Azərbaycanda seçkilər majoritar qaydada keçirilir və seçki dairələrində səsvermə hüququna malik qeydə alınmış seçicilərin sayı 30.000-dən 52.000-dək variasiya edir). İlkin mərhələdə Azərbaycanın bölgələri üzrə bölüşdürmə həyata keçirilir. Bu mərhələdə ilkin olaraq dairələr, daha sonra isə seçilmiş dairələr üzrə məntəqələr seçilir. Seçmənin bu cür keçirilməsi tədqiqat xarakteri baxımından bir çox üstünlüklərə malikdir. Belə ki, bu metoddan istifadə etməklə dairələr üzrə seçki aktivliyini və seçicinin portretini yaratmaq daha asan olur (Hansı dairədə "X" namizədə kimlər səs verib? Onun elektoratının sosial demoqrafik göstəriciləri necədir? Hansı keyfiyyətlərə görə məhz bu namizədə səs veriblər? və s.). Dairələr və məntəqələr müəyyənləşdirildikdən sonra növbəti mərhələdə respondentlərin seçimi həyata keçirilir. Tədqiqat zamanı hər 10 və ya 15, 20-i respondentdən birinin seçilməsi əsaslandırılmış şəkildə həyata keçirilir. Bu seçim qaydası ciddi şəkildə bütün tədqiqat boyu gözlənilir. Bu prosesə mərkəzin bu işə təhkim edilmiş işçiləri nəzarət edir. Seçmə addımı müəyyənləşdikdən sonra başlanğıc respondent müəyyənləşir. Birinci respondentin müəyyənləşməsi bu qayda üzrə aparılır. BR = Seçmə addımı "X" təsadüfi rəqəm (bu rəqəm 0-dan 1-ə qədər olur və təsadüfi rəqəmlər cədvəlindən seçilir). Bütün məntəqələrdə məhz, həmin birinci seçici sorğu olunur. Bu tədqiqatın incə məqamlarından biridir. Tədqiqatın nəticələri məhz seçmənin tələblərinə nə dərəcədə düzgün riayyət olunmasından birbaşa asılıdır.

Seçmə səsvermə günü seçki məntəqlərinə gələn Azərbaycanın (18 yaşdan yuxarı) representativ əhalisini əhatə edir. Seçilmiş seçki məntəqələri açılan dəqiqədən etibarən saat 19.00-dək seçicilər seçməyə müvafiq olaraq sorğu olunacaqlar. Seçmənin statistik xətası 1,8% təşkil edir. Beləliklə, proqnozlaşdırılan təsadüfi xəta 95% gümanla müxtəlif bölgələr üçün hər bir region üzrə sorğuya cəlb olunanların son sayından asılı olaraq 1,0%-dən 2,5-dək təşkil edəcək. (Məsələn, əgər bölgədə 3000 nəfər sorğuya cəlb olunubsa, xəta + 2,0% təşkil edəcək və s.)

Sorğu anketi Azərbaycan dilində təqdim olunur. Xüsusi blank respondentlərin imtina cavablarını qeydə almaq üçün nəzərdə tutulur. Sorğu şəbəkəsinin iştirakçılarında anketlər, respondentlərin imtina və fövqəladə halları qeydə almaq üçün blanklar, məntəqədə əldə olunmuş nəticələrin hesablanması və daha sonra informasiyanın ötürülməsi, təşkilatçıların telefon nömrələri olan yaddaş kitabçaları, məntəqə seçki komissiyasının sədrinə məktub-müraciət, təşkilatın vəsiqələri, şəxsiyyət vəsiqəsi, mobil telefon olmalıdır.

Sorğunun nəticələri mobil əlaqə vasitəsilə Mərkəzə gün ərzində 5 dəfə - saat 10-da, 12-də,14-də, 16-da və 19-da verilir. Prezident seçkilərində "Rəy" Monitorinq Mərkəzi tərəfindən keçirilən exit-pollun ümumi nəticələri diaqram 3-də verilir.

**Diaqram 3. "Rəy" Monitorinq Mərkəzinin keçirdiyi exit-poll tədqiqatının ümumi nəticələri (MSK-nın rəsmi nəticələri ilə müqayisədə %-lə)**




Diaqram 3-dən göründüyü kimi, Rəy Monitorinq Mərkəzinin 2008-ci ildə həyata keçirdiyi exit-poll tədqiqatında göstəricilər rəsmi rəqəmlərdən bir qədər fərqlənsə də, ümumi mənzərəyə elə bir təsir göstərmir. Təbii ki, Mərkəz növbəti exit-poll tədqiqatında seçmə metodunda və ümumi tədqiqat prosedurunda müəyyən korrektələr etmişdir. Bu korrektələr edildikdən sonra növbəti exit-poll tədqiqatlarında göstəricilər, demək olar ki, rəsmi göstəricilərə yaxınlaşmışdır (bax: diaqram 3).

**Diaqram 4. Seçicilərin seçki prosesində iştirakı ("Rəy" Monitorinq Mərkəzinin və MSK-nın göstəriciləri əsasında)**




Diaqram 4-dən göründüyü kimi, ilk tədqiqatda exit-polun nəticələri rəsmi göstəricilərdən fərqlənsə də, növbəti tədqiqatlarda bu göstəricilər bir-birinə yaxınlaşır və onlar arasında elə də böyük fərq müşahidə edilmir.

Beləliklə, bütün sadaladığımız məqamlar, bir daha bizə deməyə əsas verir ki, istənilən tədqiqat prosesi mükəmməl bir alət deyil və təcrübələr əsasında daim təkmilləşməkdədir. Təbii ki, bu proses də istisna deyildir.

## ƏDƏBİYYAT

1. Докторов Б. Прямые продолжатели дела отцов-основателей: Уоррен Митофски и Джозеф Ваксберг // Соц. реальность. 2007. Вып. 1. С. 109–120.
2. Почепцов Г.Г. Паблик рилейшнз, или Как успешно управлять общественным мнением. М.: Центр, 1998;
3. N. Moon. The managing director of GfK NOP Social Research. Конференция ВЦИОМ при участии ЦИК РФ «Экзитполлы в России и СНГ: теория и практика электоральных исследований», апрель 2011, Москва.

## SUMMARY

**Rizvan Abasov**

**ON MODERN PROBLEMS OF EXIT-POLL RESEARCH IN AZERBAIJAN's ELECTORAL SOCIOLOGY**

The article deals with exit-poll research which is a special type of electoral research. The distinctive comparison between the results of exit-polls held in the reality of Azerbaijan and official results over the years is clarified. Methodological features of some issues such as selection of polling stations in the constituencies, respondents in the polling stations, preparation of interviewers and factors that can affect the results during the exit-poll survey are analyzed.

It is worth to mention that, in many countries exit polls are ordered by TV companies for making the game-like election process more interesting.There is a principle in our country, as in the whole CIS: "If the impossible is very desirable, why not ?!". That is why there are inconsistencies or

forced use of information in the reception of information, which is not very common in the country. As noted by many researchers around the world, the main problem in exit polls in modern sociology is the selection of respondents, where it is difficult to remember the selection process because voters participate in the voting process at noon. Another problem is the refusal of survey by respondents. The third one is the artificially created problems by administrative organizations during exit polls. Each of these problems has a negative impact on the results of the study in general.

***Key words:*** *sociological research, electoral research, constituency, exit poll, interviewer.*

## РЕЗЮМЕ

**Ризван Абасов**

## О СОВРЕМЕННЫХ ПРОБЛЕМАХ ИССЛЕДОВАНИЯ EXIT-POLL В ЭЛЕКТОРАЛЬНОЙ СОЦИОЛОГИИ АЗЕРБАЙДЖАНА

Анализируются экзитпол-исследования как особый вид электоральных исследований. Результаты экзитполов, проведенных в реалиях Азербайджана насколько они отличаются от официальных результатов по годам., представлены в сравнительном виде. Факторы, которые повлияют на результаты опроса при исследовании - выбор избирательных участков в округах, респондентов на избирательных участках, подготовка интервьюеров и т.д. отражены методологические особенности проблемы.

Кстати, во многих странах экзитполы заказывают телекомпании, чтобы добавить интереса к избирательному процессу, который по сути является игрой. У нас принцип, как и во всем СНГ: "Если невозможное очень желательно, то почему бы и нет?!". Именно поэтому при получении информации,имеют место нестыковки или вынужденное использование информации, что не очень распространено в стране.

Как отмечают многие исследователи во всем мире, основной проблемой экзит-поллов в современной социологии является подбор респондентов, где сложно запомнить процесс отбора, поскольку избиратели участвуют в процессе голосования в одно и то же время во второй половине дня. Другая проблема заключается в том, что респондент отказался от опроса. Третья проблема – это проблемы, искусственно созданные административными организациями в ходе экзитполов. Каждая из этих проблем негативно сказывается на результатах исследования в целом.

***Ключевые слова:*** *социологическое исследование, электоральное исследование, избирательный округ, экзитпол, интервью.*

---

***Məqaləni çapa təqdim etdi:*** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yusif Hüseynov*

***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*

***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 54-63
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 54-63
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 54-63

**ДЖАХАНГИР ГАДЖИЕВ**
*Бакинского Государственного Университета*

**UOT: 930.85.**

# ИСТОРИЯ СТАНОВЛЕНИЯ ПРАВА СОБСТВЕННОСТИ (НА ЗЕМЛЮ) В АЗЕРБАЙДЖАНЕ

*Право собственности юридически определяется как возможность владеть, использовать и распоряжаться определенными источниками или товарами. История прав собственности в Азербайджане восходит к СССР. В статье представлена информация о праве собственности в Азербайджане во времена СССР, а также о законах, принятых после обретения независимости. В то же время, ссылаясь на Конституцию Азербайджанской Республики, обсуждаются права собственности в Азербайджане и его история. Приветствуются шаги, предпринятые общенациональным лидером Гейдаром Алиевым и его достойным преемником, Президентом Ильхамом Алиевым в этой области.*

***Ключевые слова**: Азербайджан, право собственности, история, СССР, Конституция.*

Права собственности существуют во всем мире. В каждой стране действует собственное законодательство о правах собственности. Хотя наполеоновский кодекс был одним из первых правительственных актов современности, в которых понятие абсолютной собственности было введено в статут, защита прав личной собственности присутствовала в средневековом исламском праве и юриспруденции, и в более феодальных формах в судах общего права. средневековой и ранней современной Англии. Таким образом, конституция и законы каждой страны содержат положения о применении прав собственности. Азербайджанская Республика также входит в число стран, где права собственности строго защищены. Есть разные подходы к вопросу о правах собственности. Таким образом, существуют разные правила в законодательстве государств, относящихся к общей (англо-саксонской) правовой системе и континентальной (романо-германской) правовой системе. В государствах с общей правовой системой, как правило, образование, передача и прекращение прав собственности и других прав на недвижимое имущество, а также ограничение этих прав государством не регистрируются. В государствах континентальной правовой системы, в том числе в Азербайджанской Республике, право собственности и другие права на недвижимое имущество, их возникновение, передача и прекращение, а также ограничение этих прав определяются государственной регистрацией. Историю прав собственности в Азербайджане можно разделить на три периода:

1. История прав собственности до Азербайджанской Демократической Республики;
2. История прав собственности в Азербайджанской Демократической Республике и в советский период;
3. История прав собственности в Азербайджане после обретения независимости.

## История прав собственности до Азербайджанской Демократической Республики

Прежде чем рассматривать вопросы, связанные с имущественными правами в Азербайджанской Республике и историей ее становления, необходимо понять, что такое собственность. В системах гражданского права собственностью называется движимое инедвижимое имущество.

Право собственности - это право экономического агента принимать решения о товаре или источнике из определенного класса незапрещенных или разрешенных решений.

Юридически под собственностью также понимается возможность владеть, использовать и распоряжаться определенными ресурсами или товарами. Владение, пользование и распоряжение имуществом являются отдельными полномочиями собственника, которые вместе составляют основу прав собственности. Права собственности являются предметом исследования как в юриспруденции, так и в экономике, но экономическое определение собственности не всегда согласуется с юридическим определением. Права собственности в основном связаны с недвижимым и движимым имуществом, а применяются к существующей собственности, а так же к материальным и нефизическим активам.

Существуют различные подходы к вопросу о возникновении права на собственность. Таким образом, в законодательстве государств, принадлежащих к общей (англо-саксонской) правовой системе и континентальной (романо-германской) правовой системе, существуют разные правила.В государствах общей правовой системы, как правило, образование, переход и прекращение права собственности и других прав на недвижимое имущество, а также ограничение этих прав государством не регистрируются.

Изучаются социальная структура, административно-уголовные органы, судебная система и основные черты права государств, существовавших в Азербайджане в истории права Азербайджана. Право собственности существовало в Азербайджане с древних времен. Например, в древнем государстве Албания право собственности признавало собственника единоличным владельцем движимого и недвижимого имущества. Собственник имел право распоряжаться имуществом по своему желанию, а также имел право подарить имущество, отдать во временное пользование и так далее. В период раннего феодализма преобладала форма государственной собственности. Однако в некоторых провинциях Атропатена и Албания распределение государственных земель между членами правящей династии повлияло на развитие частной собственности на землю.

Феодальная земельная собственность сформировалась в конкуренции с государственной и общинной формами собственности. Государственная собственность на землю включала государственные земли (а также земли местного самоуправления) наряду с государственной собственностью. В ранний период феодализма (III-V вв.) Господствовала государственная форма собственности на землю. Это означало земли правителя государства. Однако позже государственные земли также сыграли важную роль в поддержании армии, государственного аппарата и местных структур.

**Права собственности в Атропатене.** В то время основным владельцем земли был шах. С отменой рабской системы и возникновением феодальных отношений наряду с традиционной общинной собственностью развивалась и частная собственность. Храмовые и церковные земли были расширены согласно новым условиям. Дастакертские земли, принадлежавшие дворянам, находились в распоряжении собственника. Эти земли можно было передать в дар и продать. Хостакская земельная собственность была условным владением землей, отдаваемой дворянам для прохождения военной службы.

**Права собственности в Албании.** В Албании существовали разные формы собственности на землю:

- государственная собственность;
- обычная собственность на землю;
- частная собственность;
- имущество религиозных организаций;
- общественная собственность.

**Права собственности после арабской оккупации Азербайджана.** В мусульманском праве есть ограниченное количество положений о собственности на землю. Этот закон лишь нормализует особенности и правила приобретения бесхозяйных и неиспользуемых земель. Формы приобретения собственности на землю становятся предметом мусульманского права, когда они вызывают установление, изменение или прекращение любых общественных отношений, предусмотренных законом, а затем становятся предметом гражданского права.

Мусульманские юристы признают право собственности на землю, как это было раньше, и регулируют ее только тогда, когда она меняется. В остальном собственность не регулируется мусульманским законодательством. Если собственник такой земли исчез во время оккупации новых земель, можно говорить о новом владении этой землей. В то время в деревнях были земли, пастбища, сенокосы, луга, пастбища, леса, оросительные канавы, кладбища и другие общинные земли. Каждый член общины имел право общей собственности на эти земли.

В X-XII веках Азербайджан также имел право собственности. Например, Закон Михтара Коша сосредоточен на отношениях прав собственности. Признавалось право крупных феодалов владеть природными ресурсами и полезными ископаемыми. В соответствии с безусловным правом князей и правителей на землю они владели природными ресурсами - медью, оловом, железной рудой, солью, нефтью и другими полезными ископаемыми, добытыми на этой земле.

В средние века в Азербайджане было очень мало изменений прав собственности. Во время правления царской России царь Николай I издал 6 декабря 1846 года указ о признании и закреплении привилегий и прав азербайджанских феодалов. Указ подтвердил право частной собственности бея и аги. Помимо указа от 6 декабря 1846 г., согласно «Крестьянскому уставу», опубликованному 20 апреля 1847 г. и 28 декабря того же года, подчиненными крестьянами назывались различные категории крестьян, проживавшие на землях бека и аги. При этом закон давал право каждому мужчине старше 15 лет получить 5 десятин земли.

Крестьянская реформа регулировалась Законом от 14 мая 1870 г., подписанным царем. Во-первых, реформа подтвердила право землевладельцев, беев и агхов владеть землей в соответствии с указами от 6 декабря 1846 г., 20 апреля 1847 г., 28 декабря и 8 июня 1851 г. С другой стороны, высшие классы сохранили право на получение земельных паев. Право собственности на земли, используемые крестьянами, было установлено как право помещиков. Во второй половине XIX века проявились буржуазные отношения в области гражданского права. Каждый рожденный считался субъектом гражданского права. С 21 года человек имел полные гражданские права. Право собственности на земли, переданные крестьянам, принадлежало владельцам этих земель.

Azərbaycan Respublikasının Prezidenti, Ali baş komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi zəfər geosiyasi arenada əsaslı dəyişikliklərin səbəbi olub. Bu prosesin nəticəsində dəhliz tarixi Azərbaycan torpağı olan Zəngəzurdan keçərək, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasını birləşdirəcək, həmçinin Türkiyə ilə də yollarımızı qovuşduracaqdır. Beləliklə, yeni birləşdirici dəhlizin əhəmiyyəti aydın nəzərə çarpır.

Həmçinin, müxtəlif dövlətlərin bu məsələlərə yanaşması və münasibəti, qlobal və regional əməkdsşlıq fonunda dəhlizin yeni reallıqlar meydana gətirməsi və bunun nəticəsində Azərbaycanın müstəqil dövlət kimi fəaliyyətinin məzmunu kimi məsələlərin gündəmə gəlməsi danılmazdır. Bununla belə, həmin bucaq altında baxdıqda Zəngəzur dəhlizinin reallaşdırılmasının geosiyası analizi də çox aktualdır.

Aparılan araşdırmalara görə, analitiklər bu məsələ ilə bağlı öz düşüncələrini ifadə edir və gələcəyə dair müəyyən proqnozlar verirlər. Maraqlıdır ki, proqnozların mütləq çoxluğunun səbəbi odur ki, Zəngəzur dəhlizinin regional əməkdaşlıq sahəsində müstəsna rol oynayacağına böyük inam vardır. Bütün bunlarla yanaşı Zəngəzur dəhlizinin geoiqtisadi, geosiyasi, nəqliyyat və coğrafi aspektlərdə təhlilin zəruriliyi daha qabarıq şəkildə nəzərə çarpır.

Ötən ilin sentyabrın 27-də Azərbaycanla Ermənistan arasında başlamış və 44 gün davam etmiş ikinci Qarabağ müharibəsi Azərbaycanın şanlı qələbəsi ilə başa çatdıqdan sonra təhlilçilər arasında daha çox müzakirə olunan məsələlər üzrə Zəngəzur dəhlizi mühüm yer tutur.

Dünyanın görkəmli dövlət xadimləri, siyasətçiləri və aspektləri Zəngəzur dəhlizi ilə əlaqədar öz fikir və ideyalarını bildirirlər. Bunların heç biri əbəs yerə deyil. Ona görə ki, Zəngəzur dəhlizi həm tarixi konteksdə, həm müasir geosiyasi reallıqlar prizmasından, həm də Cənubi Qafqazda əmin-amanlıq və əməkdaşlığın bərpa olunmasında mühüm əhəmiyyət kəsb edir. Bu məsələ ilə bağlı baş verən hadisələr göstərir ki, o çoxparametrli və müxtəlif sahələri özündə birləşdirən faktorlarla əlaqəlidir.

Eyni zamanda burada siyasi, ideoloji, geosiyasi, iqtisadi, coğrafi, sosial-mədəni, hüquqi və təhlükəsizlik məqamları bir-birini tamamlayır. Elə bu baxımdan Zəngəzur dəhlizinin reallaşdırılması mühüm hadisə olmaqla müxtəlif vacib faktorlara söykənir.

Tarixən ticari-iqtisadi və mədəni-mənəvi əlaqənin əsas yollarından biri də qədim Azərbaycan torpağı Zəngəzurdur. Bu əhəmiyyətli məkan keçən əsrin 20-ci illərindən 2020-ci ilədək türk dünyasını ayıran, azərbaycanlı qardaşları bir-birindən təcrid edən, bölgə xalqlarının bir-biri ilə əlaqələrini kəsən, dünya ticarətinin bu ərazidəki yoluna ciddi əngəl törədən maneəyə çevrilmişdi. Məhz elə bu səbəblərə görə ikinci Qarabağ müharibəsinin Zəngəzur məsələsində nəinki region, həmçinin bütün dünya, bu qəbildən türk dünyası üçün açdığı yeni imkanları tam təsəvvür etmək mümkündür.

Bütün bunlarla yanaşı Azərbaycan rəhbərliyinin Qarabağın yenidənqurulması, bərpası və ölkəyə reinteqrasiyası üçün qətiyyətli addılmar atması çox mühüm faktordur. Buna görə də Azərbaycan dövləti bərpa prosesi üçün 1,3 milyard dollar həcmində vəsait ayırıb. Bununla paralel olaraq dünyanın müxtəlif ölkələrinə mənsub olan şirkətlərin bərpa işlərində iştirakını təmin edir. Ha-hazırda bir neçə dövləti təmsil edən şirkətlər müxtəlif sahələrdə fəaliyyətə start veriblər. Əsasən gündəmdə olan layihələrə “ağıllı şəhər”, “ağıllı qəsəbə”, “ağıllı kənd”-i göstərmək olar. Bununla belə yolların çəkilməsi, hava limanlarının tikilməsi, turizm sektoru ilə bağlı işlərin görülməsi, müxtəlif istehsal müəssisələrinin qurulması, təbii ehtiyatlardan istifadənin intensivləşdirilməsi və.s kimi mühüm proqramlar reallaşmaqdadır.

Maliyyə və iqtisadi aspekti ilə yanaşı, bu prosesin çox önəmli tranzit-logistika və geosiyasi cəhəti də vardır. Ona görə ki, əgər dünyanın müxtəlif ölkələri yenidənqurma və həmçinin bərpa işlərinə böyük istəklə təməl qoyublarsa, bununla bərabər mütləq sabit, təhlükəsiz, münasib hərəkət dəhlizinə də ehtiyac da artır. Bu nöqteyi-nəzərdən Zəngəzur dəhlizi bu bağlılıqla da bütün dünya üçün strateji və mühüm əhəmiyyətə malikdir. Toxunulan məsələlərə dair söylənilən fikirlər əsasında Zəngəzir dəhlizini ekspertlərin beynəlxalq əməkdaşlıq lahiyələri və onların reallaşması ilə birbaşa bağlılığı olan nəqliyyat marşrutları ilə əlaqələndirmələri tamamilə məntiqli, zəruri və mühümdür.

Müharibənin nəticələrindən biri də əlbəttə ki, bu gün müzakirə mövzusu olan Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizi tarixi nəaliyyətdir. Üçtərəfli bəyanatda xüsusilə bu məsələnin əks olunması bizim, eyni zamanda, böyük siyasi qələbəmizdir. Hazırda Zəngəzur dəhlizinin fəaliyyəti istiqamətində fəal işlər aparılır, bir çox təkliflər var, artıq bir çox nəqliyyat-kommunikasiya layihələri masa üzərindədir, müzakirə edilir və bu, bizim növbəti tarixi uğurumuz olacaqdır.

Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Müstəqillik illərində biz bir amalla yaşayırdıq ki, doğma torpağımızı düşmənin əlindən alaq, işğaldan azad edək və ərazi bütövlüyümüzü bərpa edək və ərazi bütövlüyümüzü bərpa edək. Biz buna nail olduq, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfəri tarixi əhəmiyyət ifadə edir. Çünki bu səfər çərçivəsində Azərbaycan-Türkiyə qardaşlığını nümayiş etdirən və regionun gələcək inkişafında əhəmiyyətli rola malik addımlar atıldı.

Füzuli Beynəlxalq Hava Limanının açılışının Azərbaycan və Türkiyə prezidentləri tərəfindən birgə şəkildə həyata keçirilməsi rəmzi məna daşıyır. Çünki tarixən türk torpağı olan Qarabağın işğaldan azad edilməsi Azərbaycan qədər Türkiyənin də qələbəsi idi. Türkiyənin vətən müharibəsi dövründə Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək bunu bir daha təsdiq edir. Bu hava limanı eyni zaman Zəngəzur dəhlizinin də önəmini artıracaq.

Zəngəzur dəhlizinin bərpası sadəcə Azərbaycanın deyil eyni zamanda regionun iqtisadi inkişafına töhvələr verəcək. Bu dəhlizin vasitəsilə Naxçıvan Muxtar Respublikasının Azərbaycana quru yolla birləşdirilməsi nəticəsində diyarımız Azərbaycan iqtisadiyyatına inteqrasiya edəcək.

Strateji məkan olaraq məsələnin bu aspekti üzərində daha dərindən yanaşılmasına ehtiyac vardır. Beləliklə, Azərbaycan ərazisi beynəlxalq layihələr üçün sözün əsl mənasında regionun nəqliyyat qovşaqlarının məlhəmi rolunu oynayır. Avropa ilə Asiyanı bir-birinə qovuşduran əhəmiyyətli və strateji məkan statusuna malik ola bilər. Təcrübələrə əsaslanaraq deyə bilərik ki, faktiki olaraq, dünyanın böyük gücləri artıq Zəngəzur dəhlizinin bu fəaliyyət dairəsini qəbul edib və ona dəstək ifadə edirlər.

Naxçıvan Muxtar Respublikası həm ölkəmiz həm də ümumilikdə, bütün türk dünyası üçün çox mühüm geostrateji əhəmiyyətə malik mühüm məkandır. Onu da bildirək ki, Zəngilan ilə Naxçıvan arasında dəmir yolu xəttinin və həmçinin avtomobil magistrallarının tikintisi muxtar respublikamızda

transmilli nəqliyyat layihələrinin və fəaliyyətlərinin həyata keçirilməsinə əlverişli çərait yaradacaq. Bu isə qədim diyarın geosiyasi önəmini daha da artırmaqla birlikdə, bir sıra əhəmiyyətli məsələlərdə böyük uğurlar qazanmağa gətirib çıxaracaqdır.

Naxçıvan Muxtar Respublikasının bir keçid koridoru rolunu oynaması Zəngəzur dəhlizinin açılması ilə bağlıdır. Yəni Türkiyədən Orta Asiyaya, Orta Asiyadan Türkiyəyə, oradan da Avropaya qədər uzanan yol həm Azərbaycanı, həm də Naxçıvan Muxtar respublikasını yeni keçid mərkəzlərindən birinə çevirəcək. Əlbəttə ki, bu məsələnin kifayət qədər geosiyasi və iqtisadi əhəmiyyəti olacaq. Ona görə ki, Ermənistanın işğalçı siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikası uzun illər blokada şəraitində yaşamışdır.

Bunun nəticəsində Azərbaycanın iqtisadiyyatında Zəngəzur dəhlizinin böyük rolu olacaq. Bu dəhlizin ən üstün cəhətlərindən biri də odur ki, o sadəcə Azərbaycanla Naxçıvan arasındakı nəqliyyat əlaqələrinin şaxələndirilməsinə deyil, eyni zamanda Xəzər və Aralıq dənizlərindən başlayaraq Mərkəzi Asiya və Cənub Şərqi Asiya ilə Avropa arasındakı nəqliyyat-logistika xətti olacaq. Zəngəzur dəhlizi Azərbaycanı həm Türkiyə ilə, həm də ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirəcək.

Həyata keçirilən layihələrin Azərbaycan və Türkiyənin regionda önəmini daha da artıracağı gözləniləndir. Beləliklə, günü-gündən daha da güclənən Azərbaycan-Türkiyə birliyi regionda təhlükəsizliyin, sülhün və əməkdaşlığın əsasını təçkil etməkdədir.

Azərbaycan, Rusiya və Ermənistan prezidentləri tərəfindən imzalanan 10 noyabr bəyanatı Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə quru yolla əlaqəsinin təmin edilməsini özündə əks etdirir. Hazırda gündəmdə olan məsələlərdən biri də Zəngəzur dəhlizinin açılmasıdır. Bu dəhlizin istifadəyə verilməsi nəticəsində Azərbaycan iqtisadiyyatına və regionuna təsiri ilə bağlı “Report”a çərh edilib.

Zəngəzur dəhlizinin açılması türkdilli ölkələrin iqtisadiyyatına müsbət təsir göstərəcək, həmçinin şərq-qərq və şimal-cənub nəqliyyat dəhlizlərinin əhəmiyyətinin artmasına stimul verəcək.

Bu dəhliz 1,1 trilyon ABŞ dollarından çox nominal ÜDM-I olan türkdilli ölkələri iqtisadi baxımdan birləşdirməklə bərabər, Azərbaycanın strateji əhəmiyyətini də artıracaq.

Bu isə Azərbaycanı Naxçıvanın təminatı məsələsində başqa ölkələrdən asılı vəziyyətə salmışdı. Bu o deməkdir ki, Azərbaycan Naxçıvanın təminatını həm Türkiyədən, həm də İrandan həyata keçirirdi. İndi isə birbaşa koridorun olması nəticəsində Naxçıvanın həm təbii qaz, həm elektrik enerjisi, həm də digər vasitələrlə təminatında birbaşa keçid rolunu oynayacaqdır.

Habelə, Naxçıvanın gələcəkdə daha çox mühüm və iqtisadi imkanlar qazanmasına şərait yaradacaq məsələlərdən biri də yerüstü nəqliyyatın, yəni həm dəmiryollarının, həm də avtomobil yollarının açılışdır. Lakin qeyd etdiyimiz kimi, bu məsələyə yalnız dar çərçivədə, yəni Naxçıvanla Azərbaycanın arasında bir keçid məntəqəsi, bir körpü kimi baxmaq düzgün yanaşma deyil. Bu dəhlizə ümumilikdə şərq ilə qərbi bir-birinə qovuşduran körpü kimi baxmaq daha doğrudur. Zəngəzur dəhlizi layihəsinin reallaşdırılmasının mühüm nəticələrindən biri də odur ki, bununla Azərbaycan bir nəqliyyat hesabına çevrilmə yolunda atdığı addımları daha da genişləndirə bilər. Həmçinin bu layihə daha da müsbət nəticələr verə bilər.

Naxçıvan Muxtar respublikası 30 il blokada şəraitində yaşadığı üçün bu dövr ərzində özünün möhkəm iqtisadi əsaslarını yaradıb. Belə ki, burada avtomobil və dəmir yolları yenidən qurulub, tikinti və nəqliyyat infrastrukturu tamamilə yenilənib, mühüm sənaye və kənd təsərrüfatı müəssisələri yaradılıb. Muxtar respublikada yaradılan istehsal müəssisələrinin demək olar ki, hamsının yerli xammalın emalı və istehsalı bazarının üzərində qurulmasına imkan yaradan səbəb bu bölgənin mühüm faydalı qazıntı yataqları ilə zəngin olması və kənd təsərrüfatının hərtərəfli inkişafıdır. Bunun nəticəsində isə ötən dövr ərzində burada mühüm aqrar-sənaye istehsalına nail olunub. Yəni, bu o deməkdir ki, Naxçıvanın ixrac potensialı xeyli artıb. Təbii ki, muxtar respublikanın xarici ticarət dövriyyəsinin həcminin artmasında Zəngəzur dəhlizinin açılmasının payı danılmazdır. Ona görə ki, daşınma xərclərinin aşağı düşməsi nəticəsində muxtar respublikanın ixrac potensialı daha da genişlənəcək. Burada vacib istiqamətlərdən biri də yerli xidmətlərinin ixracı ilə əlaqədardır.

Məlumdur ki, imkanlardan asılı olaraq milli iqtisadiyyatlar beynəlxalq xidmətlər bazarına müxtəlif növdə xidmətlər təkıif edə bilərlər. Bu xidmətlərə rabitə, tikinti, nəqliyyat, maliyyə, turizm və səyahət, biznes və.s aid etmək olar. Bu sahələrin özü də özünda çoxsaylı xidmət növlərini

birləşdirir.

Nümunə olaraq reklam və bazar araşdırmaları, mühasibatlıq, hüquq, ictimai əlaqələr, bank əməliyyatları, İT xidmətləri və.s göstərmək olar. O cümlədən bank-maliyyə, rabitə, tikinti və digər sahələr üzrə də muxtar respublikanın əməkdaşlıq əlaqələrini genişləndirəcək.

İnvestisiya cəlbediciliyinə də diqqət yetirərək onu da qeyd edə bilərik ki, Muxtar respublika ənənəvi sahələrlə yanaşı, yenilikçi investisiya layihələri (texnologiya parkalrı, bərpası mümkün olan enerji mənbələri, ağıllı regional idarəetmə mərkəzləri və.s) üçün də məqsədəuyğundur və artıq bu sahədə müəyyən təcrübələr var, buna görə də biznes maraqlarının artacağı da gözlənilləndir.

Eyni zamanda yerli mütəxəssislərin müxtəlif sahələr üzrə yetişməsi yeni biznes layihələrinin həyata keçirilməsinə stimul verir. Bütün bu amillər isə muxtar respublikanın yaxın gələcəkdə iqtisadi əlaqələr ilə bərabər, xidmət sektorunda da əməkdaşlığının inkişafına öz töhfəsini verəcək.

Bu danılmaz faktdır ki, bu dəhlizin açılması nəticəsində Zəngəzur dəhlizi Naxçıvan, oradan da İstanbula uzanan yol, Naxçıvan yeni tranzit qovşağa çevirəcək. Bununlada, diyarımızın Şərq qapısı kimi iqtisadi-tranzit önəmi daha da artacaq və bunlar muxtar respublikamızın sosial-iqtisadi inkişaf yönümündən daha böyük nailiyyətlər qazanmasına vəsilə olacaq.

Zəngəzur dəhlizinin əhəmiyyəti haqqında Azərbaycan Respublikasının Prezidenti öz çıxışında bildirmişdi! "Biz müstəqilliyimizin 30 illiyini Qələbə qazanmış, Zəfər çalmış xalq kimi, dövlət kimi qeyd edəcəyik. Müstəqilliyimizin mphkəmləndirilməsi işində bundan sonra da fəaliyyət göstəriləcəkdir. Bu, əbədi prosesdir. Müstəqillik deyəndə təbii ki, mən real müstəqilliyi nəzərdə tuturam. Burada da Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, tam müstəqil şəkildə öz daxili, xarici siyasətini aparır, öz dostlarını özü seçir, heç kimin qabağında baş əymir, heç kimə hesabat vermir. Ancaq Azərbaycan xalqının iradəsi Prezident kimi mənim üçün əsas məsələdir".

Dövlət başçısının sözlərinə görə, son illərin tarixi göstərdi ki, bütün cəhdlərə baxmayaraq, heç kim Azərbaycanı öz müstəqil yolundan döndərə bilmədi: "Nə qədər cəhdlər göstərildi ki, bizi bu və ya digər avantüraya cəlb etsinlər, bizi təhrik etsinlər, hətta bəzi dost ölkələrlə bizim aramıza girsinlər. Bu cəhdlər çox olub. Sadəcə olaraq, geniş ictimaiyyət bundan xəbərsizdir. İstisna edilmir ki, bundan sonra da çox olacaq. Ancaq biz müstəqil siyasət apararaq bütün bu cəhdləri alt-üst edirik. Buna görə müstəqilliyin bundan sonra da möhkəmləndirilməsi işində partiyamız və bütün cəmiyyətimiz fəal olmalıdır.

## ƏDƏBİYYAT

1. https://ordu.az/az/news/184167/naxcivan-dehlizi-yeni-ipek-yolu-olacaq 15.02.2021
2. https://modern.az/Naxçıvan dehlizi-perspektivlər,yeni layihələr. 13.02.2020
3. www.iqtisadiyyat.com. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! №7(1157) 18-24 fevral 2021.

## SUMMARY

**Nuriyye Ibrahimova**

### EFFECT OF ZANGAZUR CORRIDOR ON NAKHCHIVAN ECONOMY

This article discusses that the restoration of Zangazur corridor will contribute not only to economic development of Azerbaijan, but also to the economic progress of the region. Thus, as a result of the land connection of Nakhchivan Autonomous Republic to Azerbaijan through this corridor,our country will integrate into the economy of Azerbaijan.

Nakhchivan Autonomous Republic is a vital place of great geostrategic importance for both our country and the Turkic world as a whole.

I must also note that the construction of the railway and highway between Zangazur and Nakhchivan will create favorable conditions for the implementation of transnational transport projects

in our Autonomous Republic. This will further increase the geopolitical importance of the ancient land and lead to great success in a number of important issues.

***Key words***: *Geostrategic, highway, regional, transnational, integration*

**РЕЗЮМЕ**

**Нурия Ибрагимова**

**ВЛИЯНИЕ ЗАНГЕЗУРСКОГО КОРИДОРА НА НАХЧЫВАНСКОГО ЭКОНОМИКУ**

В статье повествование Зангезурского коридора осуществляется не только с точки зрения Азербайджана, но и в том же время дачи своих достижений в экономическое развитие региона.

Так как посредством этого коридора Нахчыванская Автономная Республика будет соединена с другими территориями Азербайджана сушей, в результате чего произайдëт интеграция экономик региона и страны.

Нахчыванская Автономная Респкблика относится к пунктам важный стратегической значимости как для нашей страны, так для всего туркского мира. Нужно также отметить, что строительство железный дорог и автомагистрали между Зенгиланом и Нахчываном создаст благотворительные условие для претворения в жизнь транснационального транспортного проекта в регионе.

Это фактор наряду с повышением геополитической значимости старинной земли, приведëт к большим удачам во многих значимых вопросах.

***Ключевые слова:*** *геостратегический, магистраль, регион, транснациональный, интеграция*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 76-86
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 76-86
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 76-86

**MEHDİ BAĞIROV**
*Naxçıvan Dövlət Universiteti*
**MƏSUD FƏRƏCOV**
*Azərbaycan Dövlət Aqrar Universiteti*

**UOT: 33.**

# BİTKİÇİLİK – AQRAR SAHƏNİN MÜHÜM İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

***Tədqiqatın məqsədi*** *– mövcud şəraitdə ölkənin iqtisadi sisteminin aparıcı sahəsi olan kənd təsərrüfatının vəziyyətinə aydınlıq gətirilməsi, bitkiçilik istiqamətində istehsal vəziyyətinin qiymətləndirilməsi və təhlili, onun inkişaf strategiyasının öncül yönlərinin dəqiqləşdirilməsi və inkişafı istiqamətində məqsədyönlü təkliflərin hazırlanması.*

***Tədqiqatın metodologiyası*** *– müşahidə, qruplaşdırma və yekunlaşdırma, müqayisəli təhlil metodlarından istifadə olunması.*

***Tədqiqatın nəticələri*** *– ölkənin bitkiçilik istiqaməti üzrə müqayisəli araşdırma və təhlillərin aparılması, müxtəlif zaman kəsiklərini əhatə edən əlaqəli informasiyaların qarşılaşdırılması və situativ araşdırmalar əsasında səmərəli kombinasiyaların müəyyən edilməsi, uyğun təklif və tövsiyyələrin açıqlanması.*

***Tədqiqatın praktiki əhəmiyyəti*** *– respublikanın 1992-2020-ci illəri əhatə edən, bitkiçilik sahəsinə aidiyyatı ilə seçilən mühüm göstəricilərin dövrlər üzrə vəziyyətinə aydınlıq gətirilməsi, bu zaman əsaslı təsir faktorlarının aydınlaşdırılması.*

***Tədqiqatın orijinallığı və elmi yeniliyi*** *– aqrar sahədə (konkret halda bitkiçilikdə) istehsal edilən əmtəələrin əhalinin ərzaq ehtiyaclarını nə dərəcədə qarşılamasının təcrübi məlumatlar əsasında sərgilənməsi, ərzaq təhlükəsizliyinin təmin edillməsi üzrə addımların real şəraitə uyğun sistemləşdirilməsinin həyata keçirilməsi və bu sahədə iqtisadi sistemin tələblərinin müəyyənləşdirilməsi, müvafiq tədqiqat mərhələlərinin kompleks şəkildə həyata keçirilməsi.*

***Açar sözlər:*** *aqrar sahə, bitkiçilik, sahəvi idarəetmə, bitkiçilik məhsulları təminatı, məhsuldarlıq*

Azərbaycan Republikasının sosial-iqtisadi inkişafının təmin edilməsi onun qarşısında qoyulmuş vəzifələri nəzəri cəhətdən sistemləşdirməkdə və təcrübədə həyata keçirməkdədir. Bu baxımdan əhalinin ərzaqla təmin olunması və ərzaq təhlükəsizliyinin bərqərar edilməsi mühüm məsələ kimi çıxış etməkdədir. Bəhs olunan yönlər aqrar sahənin əhəmiyyətini artırır, qida təminatı sahəsində bolluğun yaradılmasında zəruri şəraiti formalaşdırır.

Aqrar sahə özünün dəyərcə dövriyyəsi nisbətən az olan, amma növ-çeşid tərkibi kifayət qədər geniş olan sahədir. Onu tərkib elementləri olaraq ilk mərhələdə bitkiçilik və heyvandarlıq çıxış edirlər ki, sonrakı mərhələlərdə də onlar özlərinin daxili tərkib elementlərinə bölüşdürülür. Əsas (təməl) sahələrin hər biri özünün fəaliyyət vəzifələri, üsulları və vasitələri ilə fərqlənməkdədir.Digər tərəfdən, özünün ən böyük risklilik payı ilə fərqlənən bu sahələr məhsul istehsalı prosesində kompleks qaydada iştirak etməklə fəaliyyətini düzənləmiş olur. [1; 43]

Məqalədə aqrar sahənin mühüm daxili tərkib elementi olan bitkiçilik sahəsi haqqında iqtisadi-təşkilati yanaşma təmin ediləcəkdir. Deyilənlərlə yanaşı, məhsuldarlıq, səmərəlilik, "torpaqların keyfiyyəti – bitkiçilik məhsullarının həmin torpaqlarda əkin üçün seçilməsi" tandemi kimi mühüm bitkiçilik məsələləri də özünün əhəmiyyətini qorumaqdadır.

## BİTKİÇİLİK İSTEHSALATLARININ MAHİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ

*Bitkiçilik* - aqrar sahənin mühüm fəaliyyət istiqaməti, geniş və rəngarəng istehsalat tərkibinə malik olan yöndür. Bu sferada çoxsaylı iqtisadi, təşkilati, idarəetmə, təbii iqlim, ərazi-yerquruluşu və digər elementlərin məcmu şəklində ifadəsi təşəkkül tapmışdır. Bununla belə, qeyd olunan məsələlərə sistemli, müfəssəl yanaşma "nəzəri əsaslar – təcrübi təsdiq" tandemi əsasında mümkündür. Deyilənlərə əyani şəkildə diqqəti təmin etmək üçün bitkiçilikdə mühüm göstəricilərdən olan əkin sahələrinə müxtəlif prizmalardan yanaşmaq lazımdır. Bu sırada "üfuqi" (daxili tərkib elementlərinə görə) və "şaquli" (inzibati-iqtisadi vahidlər və onların tərkib elementləri üzrə) araşdırma və qiymətləndirmələr, deyilən-
lərin əsasında isə zəruri təhlil hesablamaları həyata keçirmək zəruridir. [3:76]

Deyilənlərin təcrübədə təsdiqlənmə yollarına aydınlıq gətirmək məqsədilə cədvəl 1 əsasında ilkin araşdırmamızı həyata keçirək.

Cədvəl 1. Kənd təsərrüfatı bitkilərinin əkin sahələri, bütün təsərrüfat kateqoriyaları üzrə, min ha

| İllər | Cəmi | o cümlədən | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Dənli və dənli paxlalı bitkilər | Texniki bitkilər | | | Kartof, tərəvəz və bostan bitkiləri | | | | Yemlik bitkiləri |
| | | | Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | | | |
| | | | | Pambıq | Tütün | | Kartof | Tərəvəz | Bostan bitkiləri | |
| **1992** | 1357,1 | 633,2 | 254,4 | 233,7 | 16,2 | 60,2 | 18,8 | 33,7 | 7,7 | 409,3 |
| **1995** | 1207,9 | 609,4 | 227,0 | 210,4 | 8,0 | 49,4 | 16,0 | 27,6 | 5,8 | 322,1 |
| **2000** | 1041,5 | 648,2 | 118,2 | 101,2 | 8,1 | 136,1 | 52,5 | 56,8 | 26,8 | 139,0 |
| **2005** | 1327,9 | 802,3 | 132,0 | 112,4 | 2,8 | 179,7 | 70,7 | 78,9 | 30,1 | 213,9 |
| **2010** | 1583,9 | 968,0 | 52,6 | 30,2 | 1,4 | 178,8 | 65,8 | 81,1 | 31,9 | 384,5 |
| **2015** | 1585,4 | 952,1 | 38,7 | 18,7 | 1,4 | 166,0 | 61,0 | 77,2 | 27,8 | 428,6 |
| **2016** | 1628,3 | 997,5 | 73,6 | 51,4 | 2,4 | 163,1 | 62,8 | 73,9 | 26,4 | 394,1 |
| **2017** | 1665,7 | 977,2 | 180,9 | 136,4 | 3,2 | 151,5 | 58,8 | 69,3 | 23,4 | 356,1 |
| **2018** | 1738,0 | 1083,1 | 159,0 | 132,5 | 3,4 | 149,7 | 59,3 | 69,5 | 20,9 | 346,2 |
| **2019** | 1717,1 | 1072,3 | 130,2 | 100,1 | 3,1 | 147,7 | 56,9 | 69,4 | 21,4 | 366,9 |
| **2020** | 1630,9 | 989,1 | 122,0 | 100,3 | 3,1 | 143,6 | 57,0 | 66,6 | 20,0 | 376,2 |

Mənbə: stat.gov.az/ farming

Cədvəl 1-in məlumatlarından ilk nəzərə çarpan reallıq - əkin sahələrinin həcmlərinin "dalqavari" hərəkətlənməsidir. Cədvəldə ilkin zaman ifadəsinin 1992-ci il kimi qəbul edilməsi ölkəmizin 1991-ci ildə müstəqillik əldə etməsindən sonra ilk bütöv il nəticələri haqqında məlumaın əldə olunması məqsədini güdməkdədir. Statistik məlumatlar üzrə qiymətləndirmə aparılarkən aydın olmuşdur, əkin sahələrinin ümumi həcmi 1992-ci ilə nisbətən 2020-ci ildə 273,8ha (1630,9 – 1357,1) və ya 20,2% (1630,9:1357,1) artmışdır.

Bununla belə əkin sahələrinin illər üzrə dinamika hərəkətlənmələrinə diqqət yetirdikdə görürük ki, cəmi əkin sahələrinin həcmin geriləmə bir neçə zaman kəsiyini qarşılamaqdadır: 1992-ci illə müqayisədə 1995-ci ildə geriləmə 11% (1207,9:1357,1 – 100%), 1995-ci ilə nisbətdə 2000-ci ildə geriləmə 13,8% (1041,5 : 1207,9 – 100%), 2018-ci illə müqayisədə 2019-cu ildə geriləmə 1,2% (1717,1 : 1738,0 - 100%), 2019-cu illə müqayisədə 2020-ci ildə geriləmə 5,0% (1630,9 : 1717,1 – 100%) təşkil etmişdir.

Əslində, mövcud olan mütləq kənarlaşmalar eyni zamanda törəmə xarakteri daşımaqdadır. Yuxarıda ifadə edilən hər dörd geriləmə halı üzrə mütləq kənarlaşma 422,7 min ha (149,2 + 166,4 + 20,9 + 86,2) sadə ifadə olunan rəqəm kimi göstərilməməlidir. Həmin həcm ölkə üzrə istehsal olunan bitkiçilik məhsulunun, toxumluq əkinlər üçün xammalın, heyvandarlıq üçün yemlik bitkilərinin əkin ərazisidir və s.

Oxşar qaydada konkret bitkiçilik məhsullarının ümumi və fərdi şəkildə nisbətlərinin müəyyən edilməsidir. Bu məqsədlə 1992-ci ilə nisbətən 2020-ci ildə əkin sahələrinin kənarlaşmaları aşağıdakı kimidir:

- ✓ *Dənli və dənli paxlalılıar bitkilər üzrə*: mütləq kənarlaşma +355,9 min hektar (989,1 – 633,2), nisbi kənarlaşması +56,2% (989,1 : 633,2);

- ✓ *Kartof, tərəvaz və bostan bitkiləri üzrə* (cəmi): mütləq kənarlaşma +83,4 min hektar (143,6 – 60,2), nisbi kənarlaşma +2,4 dəfə (143,6 : 60,2);
- ✓ *Kartof üzrə*: mütləq kənarlaşma +38,2 min hektar (57,0 – 18,8), nisbi kənarlaşma +3 dəfə (57,0 : 18,8);
- ✓ *Tərəvaz üzrə*: mütləq kənarlaşma +32,9 min hektar (66,6 – 33,7), nisbi kənarlaşma +97,6% (66,6 : 33,7);
- ✓ *Bostan bitkiləri üzrə*: mütləq kənarlaşma +12,3 min hektar (20,0 – 7,7), nisbi kənarlaşma 2,6 dəfə (20,0 : 7,7);
- ✓ *Texniki bitkilər üzrə* (cəmi): mütləq kənarlaşma -132,4 min hektar (122,0 - 254,4), nisbi kənarlaşması -52,0% (122,0 : 254,4 – 100%);
- ✓ *Rambıq üzrə*: mütləq kənarlaşma -133,4 min hektar (100,3 - 233,7), nisbi kənarlaşma -57,1% (100,3 : 233,7 – 100%);
- ✓ *Tütün üzrə*: mütləq kənarlaşma -13,1 min hektar (3,1- 16,2), nisbi kənarlaşma 80,9% (3,1 : 16,2 – 100%);
- ✓ *Yemlik bitkiləri üzrə*: mütləq kənarlaşma -33,1 min hektar (376,2 – 409,3), nisbi kənarlaşma -8,1% (376,2 : 409,3 – 100%).

Dinamika sıralarının ilk və son zaman ifadələrinin qarşılaşdırılması araşdırma obyektlərinin heç də ancaq ardıcıl artan templərlə hərəkət etdiyini göstərmir. Belə ki, "*dənli və dənli paxlalı bitkilər*" üzrə göstərici 1992-ci illə müqayisədə 1995-ci ildə 3,8% (609,4 : 633,2 – 100%), 2010-cu illə müqayisədə 2015-ci ildə 1,6% (952,1: 968,0 – 100%), 2016-cı illə müqayisədə 2017-ci ildə 2,0% (977,2 : 997,5 – 100%), 2018-ci illə müqayisədə 2019-cu ildə 1,0% (1072,3 – 1083,1 – 100%) və 2019-cu illə müqayisədə 2020-ci ildə 7,8% (989,1 : 1072,3 – 100%) geriləmə müşahidə olunmuşdur. Digər tərəfdən, "şaquli" qaydaya baxdıqda bütün sütunlarda belə dalğalanmalar mövcuddur, eyni zamanda 1992-ci illə müqayisədə 1995-ci ilin bütün göstəricilərində "üfuqi" şəkildə gerimələ mövcud olmuşdur.

Əkin sahələri ilə yanaşı istehsal fəaliyyətini xarakterizə edən ikinci göstərici faktiki istehsal, bizim tədqiqat obyektimizdə isə bitkiçilik məhsullarının növlər üzrə istehsalı cinsi ifadədə təşkil etməkdədir. Bunun üçün cədvəl 2-yə müraciət etmək onun göstəricilərindən əyani şəkildə istifadə etmək zəruridir.

Cədvəl 2.Bitkiçilik məhsullarının növlər üzrə istehsalı,
bütün təsərrüfat kateqoriyaları üzrə, min ton

| İllər | Dənlilər və dənli paxlalılar | Pambıq | Tütün | Kartof | Tərəvəz | Bostan məhsulları |
|---|---|---|---|---|---|---|
| **1992** | 1337,2 | 336,3 | 52,3 | 156,0 | 555,1 | 50,1 |
| **1995** | 921,4 | 274,1 | 11,7 | 155,5 | 424,1 | 41,9 |
| **2000** | 1540,2 | 91,5 | 17,3 | 469,0 | 780,8 | 261,0 |
| **2005** | 2126,7 | 196,6 | 7,1 | 1083,1 | 1127,3 | 363,8 |
| **2010** | 2000,5 | 38,2 | 3,2 | 953,7 | 1189,5 | 433,6 |
| **2015** | 2999,4 | 35,2 | 3,5 | 839,8 | 1275,3 | 484,5 |
| **2016** | 3065,1 | 89,4 | 3,6 | 902,4 | 1270,6 | 464,8 |
| **2017** | 2928,8 | 207,5 | 5,3 | 913,9 | 1405,6 | 438,1 |
| **2018** | 3309,2 | 233,6 | 6,3 | 898,9 | 1521,9 | 401,9 |
| **2019** | 3538,5 | 295,3 | 6,0 | 1004,2 | 1714,7 | 447,6 |
| **2020** | 3257,1 | 336,8 | 6,9 | 1037,6 | 1738,9 | 448,1 |

Mənbə: stat.gov.az/ farming

Cədvəl 1-də olduğu kimi, cədvəl 2-də də 1992-ci ilə nisbətən 1995-ci ildə istehsalın bütün göstəriciləri geriləmişdir. Bununla belə dinamika sırasının ilk ($x_{min}$) və son ($x_{max}$) göstəricilərin müqayisəsi kənd təsərrüfatının (bitkiçiliyin) əsas məhsullarının vəziyyətindəki dəyişmələrə qiymət

verməyə əsas yaradacaq. Deyilənləri əsas götürərərək qeyd edə bilərik ki 1992-ci illə müqayisədə 2020-ci ildə:

1. *Dənli və dənli paxlalılar üzrə*: mütləq kənarlaşma +1919,9 min ton (3257,1 – 1337,2), nisbi kənarlaşma +2,4 dəfədir (3257,1 : 1337,2);

2. *Pambıq üzrə*: mütləq kənarlaşma +0,5 min ton (336,8 – 336,3), nisbi kənarlaşma +0,2%-dir (336,8 : 336,3);

3. *Tütün üzrə*: mütləq kənarlaşma -45,4 min ton (6,9 – 52,3), nisbi kənarlaşma -86,8%-dir (6,9 : 52,3 – 100%);

4. *Kartof üzrə*: mütləq kənarlaşma +881,6 min ton (1037,6 – 156,0), nisbi kənarlaşma +6,65 dəfədir (1037,6 : 156,0);

5. *Tərəvəz üzrə*: mütləq kənarlaşma +1183,8 min ton (1738,9 – 555,1), nisbi kənarlaşma +3,1 dəfədir (1738,9 : 555,1);

6. *Bostan məhsulları üzrə*: mütləq kənarlaşma +398,0 min ton (448,1 – 50,1), nisbi kənarlaşma +8,9 dəfədir (448,1 : 50,1).

Növbəti blokda müqayisə olunan dövrlər 1995 və 2020-ci illər təşkil etməkdədir. Belə ki, 1995-ci il Azərbaycanın müasir iqtisadi tarixində “tənəzzülün” son nöqtəsi kimi qiymətləndirilməkdədir və 1996-cı ildən başlayaraq ölkəmizin iqtisadi sistemində “təkamül başlanğıcı” kimi hesab olunmaqdadır. Bu baxımdan periodun ilk və son hәddlərinin müqayisəsi yeni kənarlaşmaların səviyyələrinə diqqəti çəkməkdədir. Deyilən situasiyanı nəzərə alaraq 1995-ci illə müqayisədə 2020-ci ildə bitkiçilik məhsulları üzrə kənarlaşmalar aşağıdakı kimidir:

1. *Dənli və dənli paxlalılar üzrə*: mütləq kənarlaşma +2335,7 min ton (3257,1 – 921,4), nisbi kənarlaşma +3,5 dəfədir (3257,1 : 921,4);

2. *Pambıq üzrə*: mütləq kənarlaşma +62,7 min ton (336,8 – 274,1), nisbi kənarlaşma +22,9%-dir (336,8 : 274,1);

3. *Tütün üzrə*: mütləq kənarlaşma -4,8 min ton (6,9 – 11,7), nisbi kənarlaşma -41,0%-dir (6,9 : 11,7 – 100%);

4. *Kartof üzrə*: mütləq kənarlaşma +882,1 min ton (1037,6 – 155,5), nisbi kənarlaşma +6,7 dəfədir (1037,6 : 155,5);

5. *Tərəvəz üzrə*: mütləq kənarlaşma +1314,8 min ton (1738,9 – 424,1), nisbi kənarlaşma +4,1dəfədir (1738,9 : 424,1);

6. *Bostan məhsulları üzrə*: mütləq kənarlaşma +406,2 min ton (448,1 – 41,9), nisbi kənarlaşma +10,7 dəfədir (448,1 : 41,9).

Cədvəl 2 əsasında həyata keçirilən hesablamalar da özündə illərin səviyyələri arasında tərəddüdləri ifadə etməkdədir ki, bu da illər üzrə kənarlaşmaların kəmiyyətlərini fərqləndirməkdədir.

Aqrar sahə üzrə fəaliyyəti birbaşa ifadə edən göstəricilər sırasında bitkilərin növlər üzrə məhsuldarlığı mühüm əhəmiyyət kəsb edir. Bu göstəricinin xüsusiyyəti ondan ibarətdir ki, onun müəyyən edilməsi həmin məhsul növünün ümumi istehsal həcminin onunn əkin sahələrinin həcminə olan nisbəti qaydasında hesablanmasıdır. Nəzəri formada qeyd olunanların təcrübi müstəvidə müəyyən olunması üçün cədvəl 3-ə müraciət edək.

Cədvəl 3. Kənd təsərrüfatı bitkilərinin növlər üzrə məhsuldarlığı, bütün təsərrüfat kateqoriyalar üzrə, sent/ha

| **İllər** | **Dənlilər və dənli paxlalılar** | **Pambıq** | **Tütün** | **Kartof** | **Tərəvəz** | **Bostan bitkiləri** |
|---|---|---|---|---|---|---|
| **1992** | 21,1 | 14,4 | 30,5 | 83 | 167 | 65 |
| **1995** | 15,1 | 13,0 | 14,6 | 97 | 157 | 73 |
| **2000** | 23,8 | 9,1 | 22,2 | 84 | 133 | 98 |
| **2005** | 26,5 | 17,5 | 25,7 | 149 | 140 | 121 |
| **2010** | 20,7 | 12,7 | 24,0 | 145 | 142 | 137 |
| **2015** | 31,5 | 18,8 | 25,4 | 136 | 158 | 174 |
| **2016** | 30,6 | 17,3 | 15,2 | 140 | 159 | 176 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **2017** | 29,8 | 15,3 | 16,6 | 150 | 155 | 187 |
| **2018** | 30,0 | 17,6 | 19,0 | 149 | 162 | 191 |
| **2019** | 32,1 | 29,5 | 19,3 | 169 | 176 | 209 |
| **2020** | 31,8 | 33,6 | 22,1 | 174 | 188 | 224 |

Mənbə: stat.gov.az/ farming

Hər hektardan alınan məhsul həcmi fərqli məhsullar üzrə fərqlidir. Haqqında bəhs olunan fərqlərin səviyyəsi dinamika vəziyyətində də öyrənilməlidir. Bu baxımdan 1992-ci ilə nisbətən 2020-ci ildə bitkilərin məhsuldarlığının mütləq və nisbi kənarlaşma səviyyələri aşağıdakı kimidir:

1. *Dənli və dənli paxlalılar üzrə*: mütləq kənarlaşma +10,7 sent/ha (31,8 – 21,1), nisbi kənarlaşma +50,7%-dir (31,8 : 21,1);
2. *Pambıq üzrə*: mütləq kənarlaşma +19,2 sent/ha (33,6 – 14,4), nisbi kənarlaşma +2,3dəfədir (33,6 : 14,4);
3. *Tütün üzrə*: mütləq kənarlaşma -8,4sent/ha (22,1 – 30,5), nisbi kənarlaşma -27,5%-dir (22,1: 30,5);
4. *Kartof üzrə*: mütləq kənarlaşma +91sent/ha (174 - 83), nisbi kənarlaşma +2,1 dəfədir (174 : 83);
5. *Tərəvəz üzrə*: mütləq kənarlaşma +21 sent/ha (188 – 167), nisbi kənarlaşma 12,6%-dir (188 : 167);
6. *Bostan məhsulları üzrə*: mütləq kənarlaşma +159 sent/ha (224 - 65), nisbi kənarlaşma +3,5 dəfədir (224 : 65).

Yuxarıdakı mütodologiyaya əsasən ikinci basiz nöqtəsi kimi 1995-ci il olaraq qəbul edilməsi məqsədəuyğundur. Bu zaman kənarlaşmaların yeni səviyyələri aşağıdakı kimi müəyyən olunacaqdır:

1. *Dənli və dənli paxlalılar üzrə*: mütləq kənarlaşma +16,7 sent/ha (31,8 – 15,1), nisbi kənarlaşma +2,1 dəfədir (31,8 : 15,1);
2. *Pambıq üzrə*: mütləq kənarlaşma + 20,6 sent/ha (33,6 – 13,0), nisbi kənarlaşma +2,6 dəfədir (33,6 : 13,0);
3. *Tütün üzrə*: mütləq kənarlaşma +7,5 sent/ha (22,1 – 14,6), nisbi kənarlaşma +51,4% -dir (22,1 : 14,6);
4. *Kartof üzrə*: mütləq kənarlaşma +77 sent/ha (174 - 97), nisbi kənarlaşma +79,4%-dir (174 : 97);
5. *Tərəvəz üzrə*: mütləq kənarlaşma +31 sent/ha (188 – 157), nisbi kənarlaşma +19,7 %-dir (188 : 157);
6. *Bostan məhsulları üzrə*: mütləq kənarlaşma +151sent/ha (224 - 73), nisbi kənarlaşma +3,1 dəfədir (224 : 73).

İki blokun kəmiyyətlərinin müqayisəsi göstərir ki, 1992-ci illə müqayisədə 1995-ci ilin bazasına əsaslanan hesablama 2020-ci ildə aşağıdakı mütləq kənarlaşmalara səbə olmuşdur: dənli və dənli paxlalılar üzrə +6,0 sent/ha (16,7 – 10,7), pambıq üzrə +1,4 sent/ha (20,6- 19,2), tütün üzrə +15,9 sent/ha (7,5- (-8,4)), kartof üzrə -14 sent/ha (77 – 91), tərəvəz üzrə +10 sent/ha (31 – 21), bostan məhsulları üzrə -8 sent/ha (151 – 159).

Aparılan hesablamalar səmərəlilik ifadəsində olan qeyri-müəyyənliyi aradan qaldırmaq niyyətini güdməkdədir. Bu məqsədlə tərəfimizdən tərtib olunan cədvəl 4-ə müraciət edək. Bu halda əkin sahələrini sabit qəbul edib, "məhsuldarlıq – ümumi məhsul" tandeminə aydınlıq gətirək.

Cədvəl 4.Bitkiçilkdə əkin sahələri, məhsuldarlıq və ümumi yığım üzrə real və artırılmış məhsuldarlıq göstəricisi əsasında hesablanması

| | Əkin sahələri, ***min ha*** | Məhsuldarlıq, ***sent/ha*** | Ümumi məhsul, ***min ton*** |
|---|---|---|---|
| | **İlkin göstəricilər (2020)** | | |
| Dənli və dənli paxlalılar | 989,1 | 31,8 | 3257,1 |

| | | | |
|---|---|---|---|
| Pambıq | 100,3 | 33,6 | 336,8 |
| Tütün | 3,1 | 22,1 | 6,9 |
| Kartof | 57,0 | 174 | 1037,6 |
| Tərəvəz | 66,6 | 188 | 1738,9 |
| Bostan məhsulları | 20,0 | 224 | 448,1 |
| İfadə edilən kənd təsərrüfatı məhsullarının çəki üzrə cəmi: | | | **6825,4 min ton** |
| | **II mərhələ göstəriciləri** (artırılmış məhsuldarlıq və ümumi yığım göstəriciləri, 1992-ci ilin bazasında) | | |
| Dənli və dənli paxlalılar | 989,1 | 31,8+10,7=42,5 | 4203,7 (fərq - 946,6) |
| Pambıq | 100,3 | 33,6 +19,2=52,8 | 529,6 (fərq – 192,8) |
| **Tütün** | **3,1** | **22,1-8,4=13,7** | **4,3 (fərq – (-2,6))** |
| Kartof | 57,0 | 174+91=265 | 1510,5 (fərq – 472,9) |
| **Tərəvəz** | **66,6** | **188+21=209** | **1391,9 (fərq – (-347))** |
| Bostan məhsulları | 20,0 | 224+159=383 | 766 (fərq – 317,9) |
| İfadə edilən kənd təsərrüfatı məhsullarının çəki üzrə cəmi: | | | **8406 min ton** (2020-ci ilin həqiqi göstəricisi ilə fərq - 1580,6 min ton) |
| | **II mərhələ göstəriciləri** (artırılmış məhsuldarlıq və ümumi yığım göstəriciləri, 1995-ci ilin bazasında) | | |
| Dənli və dənli paxlalılar | 989,1 | 31,8+17,6=49,4 | 4886,2 (fərq – 1629,1) |
| Pambıq | 100,3 | 33,6+20,6=54,2 | 543,7 (fərq – 206,9) |
| Tütün | 3,1 | 22,1+7,5=29,6 | 9,2 (fərq – 2,3) |
| Kartof | 57,0 | 174+77=251 | 1430,7 (fərq – 393,1) |
| **Tərəvəz** | **66,6** | **188+31=219** | **1458,5 (fərq – (-280,4))** |
| Bostan məhsulları | 20,0 | 224+151=375 | 750 (fərq – 301,9) |
| İfadə edilən kənd təsərrüfatı məhsullarının çəki üzrə cəmi: | | | **9078,3 min ton** (2020-ci ilin həqiqi göstəricisi ilə fərq – 2252,9 min ton) |

Mənbə :cədvə 3-ün məlumatları əsasında hazırlanmışdır

Cədvəl 4-dən göründüyü kimi, 2020-ci ilin real və artırılmış əmək məhsuldarlığı göstəriciləri (1992 və 1995-ci ilin bazaları əsasında) fərqlərlə əks etdirilməkdədir. əgər 1992-ci ilin bazasında aparılan hesablamalarda iki azalma göstəricisi (tütün və tərəvəz) üzrə ümumi həcmdə 349,6 min ton ifadəsində geriləmə müşayət olunursa, 1995-ci il bazasında göstərici sayı 1-ə, onunla bağlı geriləmə həcmi isə 280,4 min tona bərabər götürülür. Digər tərəfdən o da təsdiqlənir ki, artırılmış məhsuldarlıq həcmləri nəzərə alındıqda 1992-ci ilin bazasında aparılan hesablama 1580,6 min ton həcmində, 1995-ci il bazası əsasında hesablandıqda isə 2252,9 min ton kənarlaşmaya səbəb olur.

Yaddan çıxarmayaq ki, illər üzrə əkin sahələrinin kənarlaşmaları da ümumi məhsul ifasələrinə təsir etməkdədir. Digər tərəfdən isə məhsuldarlıq və əkin sahələri üzrə götəricilərin illər üzrə yerdəyişmələri əsasında fəaliyyətin intensiv və ya ekstensiv təşkil olunması haqqında bəhs etmək mümkündür.

Aqrar sahədə mühüm məhsul növlərindən birini yemlik bitkilər təşkil edir ki, bu da təcrübədə "bitkiçilik – heyvandarlıq" tandemi üzrə qarşılıqlı əlaqələrdən bəhs edir. Yəni, bitkiçilik məhsulundan heyvandarlıq istiqamətində istifadə olunur. Deyilənləri daha müfəssəl mənimsəmək üçün cədvəl 5-ə müraciət edək.

Cədvəl 5. Yemlik bitkilər, bütün təsərrüfat kateqoriyaları üzrə

| | 1992 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Silos və yaşıl yem üçün qarğıdalı** | | | | | | | | | | | |
| əkin sahəsi, min ha | 58,4 | 36,9 | 2,2 | 0,9 | 0,8 | 1,8 | 1,6 | 3,0 | 2,6 | 2,2 | 2,6 |
| məhsuldarlıq, sent/ha | 79 | 47 | 63 | 43 | 142 | 162 | 160 | 141 | 173 | 108 | 123 |
| Istehsal, min ton | 553,6 | 182,3 | 4,8 | 16,5 | 13,2 | 35,3 | 70,1 | 107,4 | 91,1 | 162,4 | 399,2 |
| **Kökümeyvəlilər** | | | | | | | | | | | |
| əkin sahəsi, min ha | 9,8 | 5,2 | 0,2 | 0,1 | 0,2 | 0,1 | 0,2 | 0,4 | 0,1 | 0,1 | - |
| məhsuldarlıq, sent/ha | 90 | 51 | 157 | 173 | 210 | 262 | 195 | 71 | 111 | 238 | - |
| Istehsal, min ton | 89,0 | 26,4 | 2,4 | 1,7 | 3,6 | 2,6 | 3,2 | 2,6 | 0,1 | 0,3 | - |
| **Cəmi yemlik bitkilər** | | | | | | | | | | | |
| əkin sahəsi, min ha | 68,2 | 42,1 | 2,4 | 1,0 | 1,0 | 1,9 | 1,8 | 3,4 | 2,7 | 2,3 | 2,6 |
| məhsuldarlıq, sent/ha | 94,2 | 49,6 | 30 | 182 | 168 | 199,5 | 407 | 323,5 | 337,8 | 707,4 | 123 |
| Istehsal, min ton | 642,6 | 208,7 | 7,2 | 18,2 | 16,8 | 37,9 | 73,3 | 110 | 91,2 | 162,7 | 399,2 |

Mənbə: stat.gov.az/ farming

Cədvəl məlumatlarından görünür ki, əmək məhsuldarlığı kifayət qədər geniş diapozona malikdir, onun intervalı 30 *sent/ha*-dan 707,4 *sent/ha* arasında tərəddüd edir ki, bu da mütərəqqi addım və vasitələrdən istifadə olunduğuna dəlalət edir.

Oxşar vəziyyət yemlik bitkilərinin əkin sahələrinin həcmlərində müşahidə olunur. Belə ki, həmin göstərici üzrə 67,2 min *ha*-dır (68,2 – 1,0).

İstehsal həcmindəki interval öz növbəsində 7,2 min tondan (2000) 642,6 min tonadək (1992) tərəddüd edir ki, bu da xüsusi kütlə hesabı ilə 89,3 dəfə nisbi kənarlaşma deməkdir.

Deyilənlərlə yanaşı ot istehsalı haqqında mütləq və nisbi məlumatların mövcudluğu da mühüm əhəmiyyət kəsb edir.

Cədvəl 6. Ot istehsalı, yaşıl kütlə ot hesabı ilə, bütün təsərrüfat kateqoriyaları üzrə, min ton və %-lə

| İllər | Cəmi | o cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | birillik otlar | | çoxillik otlar | | təbii və yaxşılaşdırılmış biçənəklər | |
| | | Mütləq ifadə | Ümumi həcmdə xüsusi çəki | Mütləq ifadə | Ümumi həcmdə xüsusi çəki | Mütləq ifadə | Ümumi həcmdə xüsusi çəki |
| **1992** | 2376,3 | 89,3 | 3,8 | 797,7 | 33,6 | 1489,3 | 62,6 |
| **1995** | 2298,4 | 53,7 | 2,3 | 533,9 | 23,2 | 1710,8 | 74,5 |
| **2000** | 3001,5 | 26,4 | 0,9 | 510,5 | 17,0 | 2464,6 | 82,1 |
| **2005** | 3455,3 | 42,5 | 1,2 | 1382,8 | 40,0 | 2030,0 | 59,8 |
| **2010** | 3908,6 | 9,7 | 0,3 | 2317,6 | 59,3 | 1581,3 | 40,4 |
| **2015** | 4712,8 | 34,7 | 0,7 | 2990,7 | 63,5 | 1687,4 | 35,8 |
| **2016** | 4496,7 | 21,3 | 0,5 | 2806,1 | 62,4 | 1669,3 | 37,1 |
| **2017** | 4209,7 | 28,3 | 0,7 | 2522,5 | 59,9 | 1658,9 | 39,4 |
| **2018** | 4263,7 | 23,1 | 0,5 | 2623,1 | 61,5 | 1617,5 | 38,0 |
| **2019** | 4792,1 | 30,6 | 0,6 | 3181,9 | 66,4 | 1579,6 | 33,0 |
| **2020** | 4595,8 | 33,7 | 0,7 | 2982,3 | 64,9 | 1579,8 | 34,4 |

Mənbə: stat.gov.az/ farming

Cədvəl 6-dan da göründüyü kimi, ot istehsalında bəzi illərdə (1995, 2016 və 2017-ci il) geriləmələrə baxmayaraq ümumilikdə istehsalın ahəngdarlığı qorunmuşdur. Bununla belə birillik ot istehsalında istehsalın xüsusi çəkisi 1992-ci ildə 3,8%-dən 2020-ci ildə 0,7%-dək enmişdir. Çoxillik otlar üzrə xüsusi çəki 1992-2005-ci illərdə 40% plankasını keçmədiyi halda, 2010-2020-ci illər arası bu göstərici əsasən 60%-dən yuxarı olmuşdur ki, bu da təbii və yaxşılaşdırılmış biçənəklərdən ot yığımı həcminin kəskin azalması deməkdir. Belə ki, 1992-ci ildə ot yığımının 62,6%, 1995-ci ildə 74,5%, 2000-ci ildə 82,1% təbii və yaxşılaşdırılmış biçənəklərin payına düşdüyü halda, 2010-cu ildən

başlayaraq müvafiq göstərici 40%-in altına düşməyə başlamışdır. Fikrimizcə belə hal ilk növbədə ölkənin heyvandalıq istehsalatları üzrə qəbul olunan yemləmə strategiyasındakı dəyişiklikdən, o cümlədən heyvanların yemlənməsində çoxillik otlara üstünlük verilməsindən irəli gəlməkdədir. Digər tərəfdən, otun məhsuldarlığına da xüsusi diqqət yetirilməlidir (cədvəl 7).

Cədvəl 7. Otun məhsuldarlığı, bütün təsərrüfat kateqoriyaları üzrə, sent/ha

| | **1992** | **1995** | **2000** | **2005** | **2010** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Birillik otların quru otu | 20,9 | 17,0 | 20,7 | 36,0 | 35,3 | 33,1 | 46,3 | 43,1 | 45,9 | 49,3 | 45,0 |
| Çoxillik otların quru otu | 35,3 | 29,8 | 49,0 | 62,4 | 61,3 | 73,5 | 73,8 | 76,1 | 80,3 | 93,6 | 86,0 |
| Təbii və yaxşılaşdırılmış biçənəklərin quru otu | 15,6 | 12,8 | 37,2 | 58,9 | 46,9 | 58,4 | 58,0 | 62,6 | 58,4 | 32,9 | 34,0 |

Mənbə: stat.gov.az/ farming

Çoxillik otlar üzrə üstünlük strategiyasına təsir edən amillərdən birini də onların məhsuldarlıq ifadəsinin yüksək olmasıdır. Müqayisə üçün qeyd edə bilərik ki, hətta çoxillik otların məhsuldarlıq ifadəsinin ən aşağı olduğu 1995-ci ildə (29,8 sent/ha) bir illik otlarla müqayisədə o, 75,3% (29,8 : 17,0), təbii və yaxşılaşdırılmış biçənəklərdən yığılan ot üzrə 2,3 dəfə (29,8 : 12,8) çox idi.

Bitkiçilik fəaliyyəti haqqında informasiyaların mühüm elementlərindən birini də onun iqtisadi və ya inzibati ərazi vahidləri üzrə göstəriciləridir. Bu baxımdan cədvəl 8-ə müraciət edək. Cədvəldə "ümumidən → xüsusiyə doğru" qaydasında "üfuqi" (dinamika şəklində) və "şaquli" (ölkə → region şəklində) araşdırma qurulmuşdur və əkin sahələri haqqında informasiyanı ümumiləşdirir.

Cədvəl 8. Kənd təsərrüfatı bitkilərinin cəmi əkin sahəsi, *ha*

| | **2000** | **2005** | **2010** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Azərbaycan Respublikası** | **1041542** | **1327922** | **1583874** | **1585389** | **1628306** | **1665710** | **1738040** | **1717054** | **1630935** |
| **Naxçıvan MR** | **37117** | **48810** | **59199** | **61414** | **61526** | **61531** | **61935** | **62970** | **63405** |
| Ölkə miqyasında regionun xüsusi çəkisi, % | **3,6** | **3,7** | **3,7** | **3,9** | **3,8** | **3,7** | **3,6** | **3,7** | **3,9** |
| Naxçıvan şəhəri | - | - | 2082 | 2095 | 2095 | 2095 | 2095 | 2095 | 2095 |
| Babək rayonu | 13096 | 15018 | 15649 | 16172 | 16172 | 16172 | 16172 | 16172 | 16172 |
| Culfa rayonu | 3734 | 6840 | 7934 | 7718 | 7718 | 7718 | 7718 | 8213 | 8213 |
| Kəngərli rayonu | - | 5636 | 6858 | 8152 | 8256 | 8261 | 8665 | 9205 | 9567 |
| Ordubad rayonu | 2295 | 3038 | 3820 | 3933 | 3937 | 3937 | 3937 | 3937 | 3937 |
| Sədərək rayonu | 379 | 2250 | 3522 | 3574 | 3574 | 3574 | 3574 | 3574 | 3647 |
| Şahbuz rayonu | 1492 | 1990 | 2521 | 2655 | 2659 | 2659 | 2659 | 2659 | 2659 |
| Şərur rayonu | 16121 | 14038 | 16813 | 17115 | 17115 | 17115 | 17115 | 17115 | 17115 |

Mənbə: stat.gov.az/ farming

Azərbaycan Respublikası ilə müqayisədə Naxçıvan MR-də 2000-2020 illəri əhatə edən cədvəldə əkin ashələrinin həcmində heç bir geriləmə baş verməmişdir (ölkə üzrə 2018-ci illə müqayisədə 2019-cu ildə geriləmə olmuşdur – 20986 ha, və ya 1,2%). Naxçıvan regionu üzrə vəziyyəti daha aydın təsvir etmək üçün aşağıdakı diaqrama müraciət edək. Onun əsas məzmunu – region əkin sahələrinin ölkənin əkin sahələrinin ümumi həcmində ifadə etdiyi xüsusi çəkidir.

Diaqram 1.




“Region – ölkə” üzrə qarşılaşdırmanın nisbi ifadəsindən də göründüyü kimi, bu dəyişmə kəmiyyəti 3,6% ilə 3,9% arasında tərəddüd edir. Bu isə istehsal proporsiyalarında bəlli ahəngdarlığın qorunmasından, kəskin “fəaliyyətin” olmamasından xəbər verir.

## NƏTİCƏ.

Məqalədə ölkəmizin aqrar sahəsinin bitkiçilik istiqaməti ərzaq bolluğunun formalaşmasının və ərzaq təhlükəsizliyinin təmin edilməsinin mühüm yönlərindən biri qiymətləndirilməkdədir. Bitkiçilk üzrə vəziyyətin qiymətləndirilməsi onun real kəmiyyət-keyfiyyət ifadələri əsasında həyata keçirilməkdədir. Bitkiçilik bir tərəfdən müstəqil istehsal istiqaməti olduğu halda, digər tərəfdən heyvandarlıqla məcmu halında vahid aqrar sektorun istər təməllərini, istərsə də kifayət qədər geniş məhsul növlərinin istehsalı və reallaşdırma sisteminə malik quruluşdur. [6; 129]

Bitkiçilik özündə idarəetmə, iqtisadi, təşkilatlanma, təchizat-tədarük, logistika, mühasibat uçotu və hesabat, maya dəyərinin müəyyən edilməsi, aqronomluq və digər sistemləri birləşdirən vahid müstəvini təmsil etməkdədir. Bununla yanaşı təbii iqlim və yerquruluşu məsələlərinə aid istiqamətlər də kənarda qalmamalıdır.

Bitkiçilik ölkənin tənzimləmə sistemində mühüm obyektlərdən biridir. Onun vasitəsilə istər istehsalı nizamlamaq, istər onu stimullaşdırmaq, istərsə də çoxsaylı əlaqəli istehsal-texniki məsələləri həll etmək vəzifələri qarşıya qoyulmuşdur. Bu əsasda bir tərəfdən zəruri iqtisadi göstəricilərin hesablanması, onların səviyyələrinin zaman və məkan ifadələrində müəyyən edilməsi, onlar üzərində müqayisəli təhlil və qiymətləndirmə işlərinin aparılması (məsələn, fəaliyyətin səmərəlilik göstəricilərinin müəyyən edilməsi), digər tərəfdən isə hasil edilmiş məhsulun qorunması, mühafizə edilməsi və fəaliyyət göstərən sahibkarların gözlənilməz hadisələrdən qorunması (məsələn, sığortalanma tədbirləri) öz əhəmiyyətini qorumaqdadır.

## ƏBƏDİYYAT

1. Abbasov T.A.Naxçıvan: aqrar sektorun resurs potensialı , aqrar bazar və iqtisadi inkişaf. Bakı: ADPU, 2018, 584 s.
2. Abbasov T.A. Aqrar bazar və sahibkarlığın regional inkişaf problemləri. Bakı: ADPU, 2006, 289 s.
3. Alıyev İ.H. Aəzrbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin

təkmilləşdirilməsi.Bakı: Elm, 2003, 315 s.
4. Bağırov E.A. Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı. Bakı:Avropa, 2015, 332 s.
5. Bağırov M.S., Mahmudov C.İ., Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı: prob¬lemlər və həlli yolları. Naxçıvan: Qeyrət, 2017. 257 s.
6. Bağırov M.S.Naxçıvan Muxtar Respublikasında aqrar sektoru: hasilat-reallaşdırma sistemi və marketinq prinsipləri. Naxçıvan: Qeyrət, 2016. 344 s.
7. Bağırov M.S.Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşmasın¬da rolu. Naxçıvan: Qeyrət, 2014. 131 s.
8. Bağırov M.S.Aqrar sahənin inkişafi və marketinq prinsiplərindən istifadə. Naxçıvan: Qeyrət, 2014. 102 s.
9. Bağırov M.S.Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri. Naxçıvan: Qeyrət, 2014. 107 s.
10. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sahənin iqtisadiyyatı və idarə edilməsi (dərslik). Bakı: Avropa, 2013, 406 s.
11. “Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında” Azərbaycan Respublikası Qanunu, 18 iyun 2002-ci il.
12. www.stat.gov.az – Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin elektron ünvanı

## SUMMARY

**Mehdi Bagirov**
**Masud Farajov**

## PLANTATION - AS ONE OF THE IMPORTANT DIRECTIONS OF THE AGRARIAN SECTOR

**The purpose of the study** is to clarify the situation in agriculture, which is the leading sector of the country's economic system in the current situation, to assess and analyze the state of production in the field of crop production, to clarify the priorities of its development strategy and to develop targeted proposals.

**Research methodology** - observation, grouping and summarization, use of comparative analysis methods.

**The results of the study** - comparative research and analysis of the country's crop direction on the plantation direction, comparison of relevant information covering different time periods and identification of effective combinations based on situational research, disclosure of appropriate proposals and recommendations.

**The practical significance of the research** is to clarify the status of important indicators of the republic covering the years 1992-2020, distinguished by their relevance to the field of crop production on plantation, while clarifying the main impact factors.

**Originality and scientific novelty of the research** - demonstration of the level of meeting the food needs of the population in the agrarian sector (specifically in crop production on plantation) on the basis of experimental data, implementation of systematization of steps to ensure food security in real conditions and identification of economic system requirements, complex implementation of relevant research stages.

***Key words:*** *agrarian sector, crop production or plantation, field management, supply of crop products, productivity*

## РЕЗЮМЕ

**Махти Багиров**
**Масуд Фараджов**

## РАСТЕНИЕВОДСТВО - КАК ОДНО ИЗ ВАЖНЫХ НАПРАВЛЕНИЙ АГРАРНОЙ ПРОМЫШЛЕННОСТИ



**Цель исследования** - уточнить состояние сельского хозяйства, являющегося в современной ситуации ведущей отраслью экономической системы страны, оценить и проанализировать состояние производства в сфере растениеводства, уточнить приоритеты его развития. стратегии и подготовка целенаправленных предложений по развитию.

**Методология исследования** – наблюдение, группировка и обобщение, использование методов сравнительного анализа.

**Результаты исследования** - проведение сравнительных исследований и анализа в области растениеводства в стране, сопоставление актуальной информации, охватывающей разные периоды времени и выявление эффективных комбинаций на основе ситуационного исследования, раскрытие соответствующих предложений и рекомендаций.

**Практическая значимость** исследования заключается в уточнении состояния важных показателей республики за 1992-2020 годы, выделенных применительно к сфере растениеводства, а также в выяснении основных факторов воздействия.

**Оригинальность и научная новизна** исследования - экспозиция товаров, произведенных в агропромышленном комплексе (в частности, растениеводства) на основе эмпирических данных о степени удовлетворения ими потребности населения в продуктах питания, осуществление системных мероприятий по обеспечению продовольственной безопасности, определение требований экономической системы, комплексное выполнение соответствующих этапов исследований.


***Ключевые слова:*** *аграрный сектор, растениеводство, уход за полем, снабжение растениеводческой продукцией, продуктивность*.

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 87-97
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 87-97
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 87-97

**HƏSƏN ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*
*hesenabbaszade@gmail.com*

**UOT: 338.**

# MÜASİR DÖVRÜN AQRAR TƏNZİMLƏMƏ FƏALİYYƏTİNDƏ "SAHƏ – REGİON" TANDEMİ: PROBLEMLƏR VƏ BEYNƏLXALQ TƏCRÜBƏDƏN İSTİFADƏ YOLLARI

*Müasir dövr Azərbaycan Respublikasında həyata keçirilən çoxsaylı iqtisadi proqram və işlərlə müşayət olunmaqdadır. Bu fəaliyyət digər istiqamətlərlə yanaşı "sahə - region" cütlüyünü vahid müstəvidə ifadə edən işlərin icrasını da əks etdirməkdədir. Bəhs edilən yöndə Naxçıvan regionu üzrə aqrar sahədə yerinə yetirilmiş işlər özünəməxsusluğu ilə fərqlənməkdədir.*

*Aqrar sahədə tənzimləmə fəaliyyətinin həyata keçirilməsi müxtəlif səviyyəliliyi ilə fərqlənməkdədir. Respublika və muxtar respublika səviyyəli işlərlə yanaşı son illərdə kənd təsərrüfatı üzrə beynəlxalq təcrübənin aktiv öyrənilməsi və təcrübədə tətbiqi əsas məhsulların istehsalının mütəmadi artımı ilə yanaşı aqrosferaya xidmət edən manqaların yaradılması, mövcud olanların isə işlərinin təkmilləşdirilməsinə, yeni texniki vasitələrdən istifadə imkanlarının artırılmasına, beynəlxalq təcrübədə özünü təsdiqləmiş tənzimləyici-texnoloji alət və vasitələrdən istifadəyə geniş şərait yaratmışdır.*

*Məqalədə həmçinin müxtəlif ölkələr timsalında tənzimləmədə özünü kifayət qədər təsdiqləmiş sarı, yaşıl və mavi zəmbil tədbirləri haqqında əhatəli şəkildə bəhs olunmuşdur.*

**Açar sözlər:** *aqrar sahə, regional tənzimləmə, beynəlxalq təcrübədən istifadə, Naxçıvan regionu, Azərbaycan Respublikası*

Müasir dövr ölkənin iqtisadi sferasında çoxsaylı irəliləyişlər, transformasiyalar və təkmilləşmələrlə müşayət olunmaqdadır. Bir tərəfdən dünyanı bürümüş və istənilən ölkəyə kifayət qədər insani, maliyyə, səhiyyə və digər yönlərdə zərər vuran "COVİD-19" bəlası, digər tərəfdən, respublikamızın möhtəşəm zəfərlə yekunlaşdırdığı 44 günlük II Qarabağ müharibəsi ilə yanaşı həyata keçirilən sistemli və kompleks tədbirlərin təsirləri özünü müsbət yöndən biruzə verməkdədir. 30 ildən bəri vurulmuş "yaraları sarıyan" dövlətimiz öz fəaliyyətində iqtisadi sahələrin aldığı zərbələri yenidən müəyyən etməkdə və çoxsaylı hallarda perspektiv yüksəlişlərə hesablanan tənzimləmə proqramlarının hazırlanmasına xüsusi yer ayrımaqdadır.

Dağlıq Qarabağ və onunla həmsərhəd olan bir neçə inzibati vahidin düşmən işğalından azad olunması, ərazilərdə mütəşəkkil şəkildə minalardan təmizləmə işlərinin həyata keçirilməsi orada mövcud olan iqtisadi imkanların yenidən aktivlərşdirilməsinə və təkrar fəal (yaradıcı) dövriyyələrə cəlb olunmasına şərait yaratmaqdadır.

Bununla belə, aktiv hərbi əməliyyat meydanlarından birini də Naxçıvan Muxtar Respublikasının Sədərək, Şərur, Ordubad kimi inzibati vahidləri təşkil etmişdir. Regional və ölkə büdcəindən iqtisadi və sosial sferalara, ölkənin və onun insanının firavanlığına, iqtisadi potensialının yüksəlişinə sərf edilməli olan vəsaitlərin hərbi əməliyyatların icrası istiqamətlərinə yönəldilməsi regionun maliyyə resursları, iqtisadi aktivliyi yönündə olan hərəkətlənmələrində durğunluq yaranmış, onun sahə, istərsə də region müstəvisində imkanlarını müəyyən qədər məhdudlaşdırmışdır.

Deyilənlərin nəzərə alınması qarşımızda müasir dövrdə aqrar sahənin Naxçıvan regionunda olan təkamülünə yenidən baxışın təmin edilməsi zərurətini qoymuşdur.

## TƏNZİMLƏMƏ ANLAYIŞI VƏ TƏNZİMLƏMƏ FƏALİYYƏTİ

Məlumdur ki, cəmiyyətin sosial və iqtisadi inkişafı fərqli ictimai-iqtisadi formasiyalarda özünə qarşı spesifik yanaşmaları tələb etmişdir. Quldarlıq rejimi ilə təməli qoyulmuş, sonralar isə mərhələli şəkildə təkmilləşdirilimiş, uyğun dövrün tələblərinə cavab verməyə "məhkum olmuş" bu fəaliyyət kapitalızm və sosializm iqtisadi sistemlərinin ehtiyaclarına "cavab verməyə" çalışmış, bazar iqtisadi modeli dövründə isə hökümətin hökmran alətinə çevrilmişdir. Dövlətin iqtisadi və digər fəaliyyət istiqamətlərinin idarə olunmasının qanunvericilik normaları ilə nizama salınması tənzimləmənin mühüm alətlərindən hesab olunmaqdadır. Bu fikir makro səviyyədə tənzimləmə fəaliyyətinin mahiyyətinə aydınlıq gətirmiş olur. Digər tərəfdən, məqalənin araşdırma obyektinin Naxçıvan regionunun aqrar sahəsinin olması çoxsaylı spesifik cəhətləri sərgiləmiş olur ki, bu da tədqiqatın miqyasını dəqiqləşdirməklə yanaşı, onun bazar iqtisadi mühiti dövründə təbii-iqlim, yerquruluşu, işçi qüvvəsi, fəaliyyət potensialı və s. istiqamətlərdə xüsusiyyətlərini sərgiləmiş olur.

Qeyd olunduğu kimi, tənzimləmə fəaliyyətinin ən geniş vüsət aldığı dövr bazar iqtisadiyyatına təsadüf edir. Bu zaman başlanğıc (istinad) nöqtəsi kimi ilk növbədə bazar iqtisadi sisteminin biri-digəri ilə qarşılıqlı əlqəli olan, biri-digərini tamamlayan funksiyalarına, xarakterik cəhətlərinə və metodlarına xüsusi diqqət yetirmək zəruridir. Haqqında bəhs olunan məsələyə kompleks yanaşmaq məqsədilə aşağıdakı sxemə baxaq.

Sxem 1.Bazar iqtisadiyyatının funksiyaları, xarakterik cəhətləri və metodları

**Bazar iqtisadiyyatının funksiyaları, xarakterik cəhətləri və metodları**

**funksiyalar**

Bazar: 1. Iqtisadi siyasət vasitəsidir;
2. Qismən mərkəzləşdirilmiş qaydada təşkil olunur;
3. tələbatın öyrənilməsində cinsi-əşya tərkibini konkretləşdirir
4.bu və ya digər istehsal nisbətlərinin vəziyyətinə aydınlıq gətirir, onların istehsal həcmlərinin zəruriliyini əsaslandırır və s.

**xarakterik cəhətlər**

1. İqtisadi subyektlərin sərbəstliyinin maksimallığı
2. Qiymətlərin sərbəst formalşması, bazardakı tələb-təklif tarazlığına əsaslanması
3. Mülkiyyət növlərinin hüquqi bərabərliyinin təminatı
4. Daxili iqtisadiyyatın beynəlxalq iqtisadi mühitə inteqrasiyasının təmin edilməsi
5.Təsərrüfat vahidlərinin icra nəticələrinə görə məsuliyyət daşıması
6. Dövlət orqanlarının istehsal subyektlərinin fəaliyyətinə müdaxiləsi nin minimallaşdırılması
7. Vətəndşların sosial müdafiəsinin tələblərə uyğun təşkili və s.

**metodlar**

1. İqtisadi tənzimləmənin dolayı metodları
2. İnzibati amirlik qaydasında özünü biruzə verən birbaşa (müstəqim) metodlar

Beynəlxalq təcrübəyə nəzər salınması eyni zamanda iqtisadiyyatın dövlət tənzimlənməsində spesifik forma və modellərin də mövcudluğunu təsdiqləyir.

## BEYNƏLXALQ MÜSTƏVİDƏ AQRAR TƏNZİMLƏMƏ FƏALİYYƏTİ VƏ ONDAN REGİONAL MÜSTƏVİDƏ İSTİFADƏ İMKANLARI

Beynəlxalq təcrübədə istər təşkilatlar çərçivəsində, istərsə də fərdi qaydada ayrı-ayrı ölkələr miqyasında müxtəlif xarakterli tənzimləyici işlərin həyata keçirilməsi yer almaqdadır. Bu istiqamətdə ilk sistemli yanaşma Ümumdünya Ticarət Təşkilatının 1994-cü ildə Uruqvayda keçirilən toplantısında təmin edilmişdir. Həmin yığıncaqda qərara alınmışdır ki, aqrar sektorun dövlət tənzimlənməsinin metod və formalarının hazırlanmasına start verilsin. Bu proses əsas etibarı ilə liberallaşma prosesləri ilə qarşılıqlı əlaqə və asılılıq şəraitində, biri-digərinə mane olmamaqla həyata keçirilməli və əsasən üç razılaşma sənədinin: Kənd Təsərrüfatı Üzrə Razılaşmanın (bu sənəd öz növbəsində bazara çıxışı, ixrac investisiyalarının təyinini və kənd təsərrüfatının daxili yardım siyasətini əhatə edən istiqamətlər haqqında məlumatları özündə birləşdirir), Sanitariya və Fitosanitariya Standartları Haqqında Razılaşmanın və Ticarətdə Texniki Maneələr Haqqında Razılaşmanın müddəalarına cavab verməlidir.[8;206]

Kənd təsərrüfatı üzrə hazırlanmış beynəlxalq razılaşmada öncül məqamlardan biri kimi iştirakçı ölkələrin daxili bazarlarına qarşılıqlı girişinin genişləndirilməsi hesab olunur. Problemin belə prinsip əsasında qoyuluşunun ölkəmizə tətbiqi hazırki mərhələdə bir çox ölkələrlə müqayisədə kifayət qədər güclərə malik olmayan, böyük ağırlığı daxili tələbatı ödənilməsinə yönəldən aqrar sektorumuzun zəifləməsi ilə nəticələnə bilər. Müvafiq fikir xüsusilə də kifayət qədər əsas fondlarla, xammal bazasına malik, geniş infrastruktur imkanları ilə seçilən inkişaf etmiş ölkələrin respublikamızın aqrar bazarlarına girişi zamanı daxili məhsulların qiymət və keyfiyyət problemləri ilə rastlaşacağından xəbər verir. Bu sahədə gözlənilməli olan növbəti prinsip kimi kənd təsərrüfatına daxili dəstəyin azaldılması göstərilir. Haliyədə respublika səviyyəsində mərkəzləşdirilmiş qaydada, həmçinin muxtar respublika səviyyəsində aqrar sektorun yüksəlişi məqsədilə bir çox yardımların həyata keçirilməsi geniş vüsət almışdır. Beynəlxalq təcrübənin müddəaları aqrar sahəyə yardım səviyyələrinin ("sarı zənbil" tədbirləri çərçivəsində) inkişaf etmiş ölkələr üçün 5% həcmində, inkişaf etməkdə olan ölkələr üçün 10% həcmində müəyyənləşdirilməsini nəzərdə tutur. Halbuki, onun real səviyyəsi kiçik həcmli təsərrüfatların üstünlük təşkil etdiyi muxtar respublikada bəzi fəaliyyət istiqamətlərində 27-30% arasında tərəddüd edir.

Beynəlxalq tələb və prinsiplər sırasında ixrac subsidiyalarının azaldılması və ixracın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi özünəməxsusluğu ilə fərqlənir. Bu prinsip bir sıra ölkələrdə (məsələn, Türkiyədə, İranda və s.) aqrar sektorun inkişafının əsas təşviqedici amillərində biri rolunda çıxış etməkdədir. Məhsulun dəyərinin 5-15%-i arasında istehsalçıya ödənilən məbləğlər əgər bir tərəfdən ölkə və ya istehsalçı regionun sahibkarlarının maddi həvəsləndirilməsinə, onların maliyyə vəziyyətinin yaxşılaşmasına şərait yaradırsa, digər tərəfdən həmin ölkələrin beynəlxalq arenada ixracat imicini formalaşdırmağa şərait yaradır.

Beynəlxalq praktikanın ətraflı araşdırılması tənzimləmə tədbirlərində ölkənin real vəziyyətindən, aqrar sektorun inkişaf səviyyəsindən və digər şərtlərdən asılı olaraq "sarı zənbil", "yaşıl zənbil" və ya "mavi zənbil" tədbirlərinin tətbiqi mümkünlüyünü şərtləndirir. Qeyd etmək yerinə düşər ki, "mavi zənbil" və "yaşıl zənbil" tədbirlərindən fərqli olaraq "sarı zənbil" tədbirləri dövlətin himayəçilik siyasətində ədalətli rəqabət və xarici ticarət mühitlərinə özünün bir sıra mənfi təsirləri ilə seçilməkdədir. Tərkib etibarı ilə aşağıdakı qruplardan ibarət olan və bir sıra ölkələr tərəfindən müraciət olunmuş (məsələn, İslandiya, Norveç, İsveçrə, Yaponiya) "sarı zənbil" tədbirləri özündə aqrar sektora yönəlik həyata keçirilən dövlət yardım siyasətinin forması kimi təzahür edir və məzmunca istehlakçılardan daxil olan vəsaitlərin yenidən bölüşdürülməsinə əsaslanır:

- ✓ Torpaq, su, enerji və digər resurs növləri ilə, onların sistemli şəkildə istifadəsi (məsələn, meliorasiya sisteminin yaradılması və ya təmiri) ilə bağlı çəkilən xərclərə dotasiya;
- ✓ Damazlıq heyvandarlıq, elit toxumçuluq və qarışıq yem istiqamətlərində dotasiyaların verilməsi;
- ✓ Bitkiçilik və heyvandarlıq məhsulları üzrə dövlət yardımlarının verilməsi;
- ✓ Aqroməhsulların alış və bazar qiymətləri arasındakı fərlərə görə, həmçinin sahibkalara bazar

qiymətlərində aşağı qiymətə məhsulların verilməsinə, xidmətlərin göstərilməsinə görə dotasiyalar;

- ✓ Dövlət vəsaitləri hesabına kəndli sahibkarlara güzəştli kreditlərin verilməsi, onların borc həcmlərinə və şərtlərinə yenidən baxılması (onların silinməsi və ya ödənilmə müddətinin uzadılması, şərtlərinin yüngülləşdiriməsi və s.);
- ✓ Bitkilərin kimyəvi mühafizəsi və mineral gübrələrin əldə olunması sahəsində xərclərin (tamı və ya bir hissəsinin) ödənilməsi;
- ✓ Lizinq xərclərinin bir hissəsinin dövlər tərəfindən ödənilməsi;
- ✓ Kənd təsərrüfatı məhsullarının daşınması sahəsində güzəştlərin tətbiqi;
- ✓ İstehsal təyinatlı əsaslı vəsait qoyuluşlarında xərclərin bir hissəsinin dövlət tərəfindən üstlənməsi;
- ✓ Aqrar sahədə mövsümilik əlaməti nəzərə alınmaqda fasiləsiz istehsal məqsədlərinə investisiyaların yönəldilməsi və s.[3; 177]

Bu tədbirlər növü subsidiyalaşmanı məhdudlaşdırmağı, onların "minimal kriteriyalar" əsasında həyata keçirilməsini nəzərdə tutur. Bəhs olunan məsələdə "dəstəyin aqreqat ölçüsü" göstəricisi əsasında qiymətləndirmə prosesi təşkil olunur. O, əsas etibarı ilə, fərdi qaydada hesablamalara məruz qalır və dəqiqləşdirmələrin aparılması əsasında hər hansı aqroməhsula edilən subsidiyadan məcmu şəklində xəbər verir. Dəstəyin aqreqat ölçüsü üzrə hesablanmış subsidiyaların həcmi yekun etibarı ilə onların aid olduğu başlanğıc dövrünün nəticəsini üstələməlidir. Bu dövr kimi inkişaf etmiş ölkələr üçün 1996-1998-ci illər götürülməlidir, onların nəticələri üzrə aparılan nisbi müqayisə nəticə etibarı ilə 1-dən (yəni, bazis kəmiyyəti : hər hansı sonrakı ilin subsidiya həcmi ≥ 1) çox olmamalıdır və aqrar istehsalda subyektlərin öz gücü hesabına inkişafını ifadə etməlidir.

Qeyd edək ki, "sarı zənbil"in tətbiqi zamanı bir sıra fəaliyyət istiqamətləri üzrə qoyulan qadağalar vardır ki, onlar inkişaf etməkdə olan ölkələrlə bağlı tətbiq edilmir. Bu sırada kənd təsərrüfatına xidmət edəcək yol və digər infrastrukturların edilən investisiya qoyuluşarı, aqrar istehsalın quruluşunun yenilənməsinə (diversifikasiyasına) yönələn proqramların maliyyələşdirilməsi, gəliri aşağı və istehsal imkanları məhdud olan subyektlər üzrə kənd təsərrüfatı vasitələrinə verilən subsidiyalar və s. öncül yerləri tutmaqdadır. Təcrübə göstərir ki, "sarı zənbil" tədbirlrindən 1995-1997-ci illərdə Avropa İttifaqı ölkələrində (daxili yardımın strukturunda 54%), 1995-1998-ci illərdə İslandiyada (82%), Norveçdə (48%), İsveçrədə (55%), Yaponiyada (53%), Cənubi Koreyada (26%), Çexoslovakiyada (21%) uğurla istifadə olunmuşdur.

Beynəlxalq praktikada istifadə olunan tənzimləyici tədbirlər sırasında "yaşıl zənbil" tədbirləri özünəməxsusluğu ilə fərqlənir. Bu tədbirlər qrupu istehsal prosesinin nəticəsini ifadə edən qiymətlərə heç bir təsir göstərmir, onları nəzərə almaqla işlənən Dövlət Proqramlarında bu tədbirlərin maliyyələşdirilməsi ölkə və ya regional büdcələrin (ödənilən vergilərin) hesabına mümkün olur. Beynəlxalq arenada həyata keçirilən "yaşıl zənbil" tədbirləri özünün rəngarəngliyi və spesifikliyi ilə seçilir. Aqrar sahədə daxili yardım strukturunun ifadə edilməsində faktiki kəmiyyətlərin incələnməsi bu istiqamətdə müxtəlif ölkələrin pay nisbətlərinin geniş amplituda üzrə həyata keçirilməsinə şahidlik edir. Bu sahədə ən böyük pay istifadəçisi kimi Yeni Zellandiya çıxış edir. Belə ki, həmin ölkə 1995-1998-ci ildə həyata keçirdiyi tənzimləyici tədbirlər sırasında 100%-lik payı məhz "yaşıl zənbil" tədbirlərinə yönəltmişdir. Bununla belə Polşa (1995-1997-ci illərdə - 89%), Avstraliya (1995-1997-ci illərdə - 88%), ABŞ (1995-1998-ci illərdə - 84%), Çexoslovakiya (1995-1998-ci illərdə - 75%), Cənubi Koreya (1995-1997-ci illərdə - 67%), Meksika (1995-ci ildə - 60%) kimi ölkələr bu tədbirlərə özlərinin yardım proqramlarında üstünlük vermişlər. [7; 458]

Müvafiq tədbirlər proqramında dövlət yardımlarının həcmlərinin "dəstəyin aqreqat ölçüsü" vasitəsilə hesablanmasına bamayaraq, onların illər üzrə mütəmadi azaldılmasına ehtiyac qalmır. Oxşar yanaşma inkişaf etməkdə olan ölkələrdə tətbiq olunan xüsusi proqramların tətbiqi zamanı də gözlənilmədədir. Belə ki, "əlverişsiz regionlar və ya strukturlar" yaxud "azgəlirli və istehsal vasitələri ilə aşağı səviyyədə təmin olunmuş istehsalçılar" kimi proqramlarla bağlı "yaşıl zənbil" tədbirlərində yardım təyinatlı vəsaitlərin illər üzrə azalma tempinin gözlənilməsinə ehtiyac yoxdur. Ticarətə minimal təsir imkanları ilə seçilən "yaşıl zənbil" tədbirləri bu fəaliyyət sferasında ixtisar üzrə

öhdəliklərdən azad olunmuşlar. Yaranmış vəziyyət hər bir dövlət üçün özünün maliyyə imkanları və zərurəti daxilində yuxarıda ifadə edilmiş təsnifatın maddələrində nəzərdə tutulan tədbirləri fərqli, öz ehtiyaclarından irəli gələn həcmlərdə maliyyələşdirə bilər.

Daha yüksək tələblərlə seçilən "mavi zənbil" tədbirlərinin tətbiqi proqramları adətən inkişaf etmiş ölkələrdə mümkün olmuşdur. Nəzərdən keçirilən 15 ölkə içərisində bu tədbirlər ən az müraciət olunanlar sırasındadır. Cəmi 4 ölkə (ölkələr qrupu) müxtəlif zaman kəsiklərində "mavi zənbil" tədbirlərindən yararlanmışdır: Norveç – 1995-1997-ci illərdə, daxili yardımın ümumi həcmində 34%-lik pay nisbətində; Avropa İttifaqı – 1995-1997-ci illərdə, daxili yardmın ümumi həcmində 23%-lik pay nisbətində; ABŞ – 1995-1998-ci illərdə, daxili yardımın ümumi həcmində 4%-lik pay nisbətində; İslandiya – 1995-1998-ci illərdə, daxili yardımın ümumi həcmində 2%-lik pay nisbətində. [4; 467]

Kəskin qadağanedici normalara malik bu tədbirlər qrupunda birbaşa istehsal və reallaşdırma ilə bağlı dövlət yardımını məhdudlaşdıran bir çox maddənin olmasına baxmayaraq, ÜTT-nin Kənd Təsərrüfatı üzrə Sazişinin Maddə 6.5-inə uyğun olaraq bir sıra istisnalar da nəzərdə tutulmuşdur ki, onların sırasında aşağıdakılar göstərilə bilər: 1.öncədən müəyyən olunmuş əkin sahələri və məhsuldarlıq ifadələrinə görə birbaşa ödənişlərin edilməsinə qadağanın qoyulmaması; 2.istehsal həcminin baza səviyyəsinin 85%-dən aşağı olması halında birbaşa, müstəqim qaydada ödənişlərin edilməsinin mümkünlüyü; 3.mal-qara sayında öncədən müəyyən edilən say sərhəddinin keçilməməsi halında dövlət yardımı formasında birbaşa ödənişlərinin edilməsi və s. Onu da demək yerinə düşər ki, "mavi zənbil" tədbirlərinin əsas məqsədlərindən biri kimi təklifin tələbi üstələməsi halında aqrar məhsulların qiymətlərinin enməsinin qarşısını almaqdan ibarətdir və "istehsalçı qiymətlərinə" üstünlüyün verilməsi siyasətinin bir hissəsidir.

Yuxarıda nəzərdən keçirilən, beynəlxaq təcrübədə istifadə olunan tədbirlərin araşdırılması onu göstərir ki, haliyədə də bir çox ölkələr (ABŞ və digərləri) "sarı zənbil" tədbirlərinin yuxari hədd səviyyələrinin (5% və 10%) yüksəldilməsi və ya tamamilə aradan qaldırılması yönündə işlər görməkdədirlər. Təhlillər göstərir ki, müasir dövrdə dünyada mövcud olan iqtisadi problemlər aqrar sahədən də kənar keçməmiş, onun dirçəlişi və yeni inkişaf fazalarına mane olmaqdadır. Danılmazdır ki, "yaşıl zənbil" tədbirləri inkişaf etməkdə olan ölkələr üçün özünün qaneedici təsirlərini tam ifadə edə bilmir. Belə olduqda, "sarı zənbil" tədbirlərinin "minimal" həcmlərindən istifadənin əsaslandırılmasına ehtiyac yaranır. Vəziyyətin qeyd olunan məcrada davamının qarşısının alınması məqsədilə inkişaf etmiş ölkələrin təcrübəsindən və UNCTAD tərəfindən hazırlanmış metodiki göstərişlərdən istifadə olunması çıxış yollarından biri kimi qiymətləndirilməlidir. Həmin metodiki göstəriş və tövsiyyələr mövcud olmuş təcrübi məlumatların əsasında hazırlanmış və ÜTT-nin tələbləri ilə uyğunlaşdırılmışdır. [5; 128]

Beynəlxalq arenada (xüsusilə də inkişaf etmiş və inkişaf etməkdə olan ölkələri əhatə edən ölkələri əhatə edən) mövcud olan ümumi tənzimləmə qayda, prinsip və metodları ilə yanaşı ayrı-ayrı ölkələrin timsalında istifadə olunan təcrübələrin öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan ilk növbədə bir sıra inkişaf etmiş ölkələrin təcrübələrinə müraciət etmək məqsədəuyğun olardı. Həmçinin deyə bilərik ki, beynəlxalq təcrübədə aparılan tənzimləmə siyasətində əsasən iki yolun müddəalarına müraciət olunmuşdur:

1. tədricən həyata keçirilməsi ilə seçilən yol - təkamül yolunda birinci addım kimi aqrar sahədə islahatların aparılması çıxış edir ki, bu da uzun illərdən bəri mövcud omuş istehsal-reallaşdırma adət-ənənələrinin bərpasına, müvafiq sahənin mərhələlər üzrə inkişafına təkan verir.
2. "şok-terapiyası" əsasında aparılan tənzimləmə siyasəti. Onun seçilməsi məcburi variant kimi qiymətləndiriir, məhsul qıtlığının, maliyyə çatışmazlıqlarının kiçik zaman kəsiklərində aradan qaldırılması məqsədlərinə xidmət edir.

Müxtəlif zənbillərin tətbiqi özünü nəticədə etibarı ilə istehsal olunmuş və reallaşdırılmış məhsul həcmində ifadə etməlidir. Bu zaman tənzimləmə baxımında görüləcək işlər sırasında bazar çatışmazlıqlarının qiymətləndirilməsi və həyata keçiriləcək iqtisadi siyasətin səmərəliliyi ön plana çıxır. Birinci məsələ ilə bağlı kiçik sayda satıcıların (inhisarçılıq) və ya alıcıların (monopsoniya) hallarının qiymətləndirilməsi məsələsi öz aktuallığını qorumaqdadır. Bu halda xammalın, və ya hazır

məhsulun qiyməti beynəlxalq qiymətlərlə müqayisədə aşağı olur ki, bu da son nəticədə dolayı subsidiyadan xəbər verir. Digər tərəfdən, bazar çatışmazlıqları sırasında informasiya sistemlərinin və ictimai xidmətlərin (yol təsərrüfatının zəif inkişafı, sosial obyektlərin azlığı və s.) vəziyyətinin qənaətbəxş olmaması da göstərilə bilər. Müraciət olunan çatışmazlıq istiqamətləri ilə yanaşı beynəlxalq təcrübədə daxili bazarın qorunması, daxildəki hasilatçılar üçün vergilərin azaldılması, onlara xammal, material, qiymət və digər subsidiyaların verilməsi, minimal qiymətlərin təyin edilməsi də çatışmazlıqlar sırasında qiymətləndirilir. Həyata keçirilən iqtisadi siyasətin səmərəliliyi beynəlxalq təcrübədə ilk növbədə daxili qiymətlərin beynəlxalq paritet qiymətlərə yaxınlaşma dərəcəsi ilə müəyyən olunur. Səmərəli siyasət vasitəsilə ölkələrin hökümətlərinin tənzimləmədə yarana biləcək mənfi meyllərin qarşısını nə dərəcədə alması ölçülür. Bu zaman Siyasət Təhlili Matrisindən istifadə etməklə hesablanan göstəricilər əsasında iqtisadi siyasətin aqrar sahəyə hansı aspektlərdə təsir etdiyi müəyyənləşə bilər. Bu zaman:

- ✓ daxili bazarın qorunmasını ifadə edən ilkin Nominal Müdafiə Əmsalı (Nominal Protection Coefficient, $NPC_I$ – satıla bilən istehsal vasitələrinin sosial qiymətlərlə dəyərinin satıla bilən istehsal vasitələrinin faktiki qiymətlərlə dəyərinə olan nisbətindən ibarətdir),
- ✓ son məhsul üçün Nominal Müdafiə Əmsalından ($NPC_O$ – son məhsulun faktiki qiymətlərlə dəyərinin son məhsulun sosial qiymətlərlə dəyərinə olan nisbətindən ibarətdir),
- ✓ Səmərəli Müdafiə Əmsalından (Effective Protection Coefficient, EPC) və digər əmsallardan istifadə oluna bilər.

Səmərəli Müdafiə Əmsalının hesablanması qaydası aşağıdakı kimidir:

$$EPS = (A - B) : (E - F)$$

*Burada: A – fərdi qiymətlərlə ümumi gəlir, B – satıla bilən satıla bilən istehsal vasitələrinin faktiki qiymətlərlə dəyəri;*
*E – sosial qiymətlərlə ümumi gəlir, F – satıla bilən istehsal vasitələrinin sosial qiymətlərlə dəyəridir [6; 224]*

Bu göstəricilər sırasında özünün əhəmiyyəti ilə seçilənlərdən biri də rəqabətqabiliyyətlilikdir. Bu istiqamətdə ifadə edilmiş çoxsaylı fikir və düşüncələrə də lazımi diqqəti göstərmək şərtilə ilk növbədə M.Potter tərəfindən 1993-cü ildə irəli sürülən, və özünün sistemliliyi, əhatəliliyi və kompleksliliyi ilə seçilən konsepsiyaya müraciət etməyimiz daha məqsədəuyğun olardı. Mikro, makro və mezo səviyyədə rəqabətqabiliyyətliliyin tədqiqi ifadə edilən bu konsepsiya on ölkə timsalında sınaqdan keçirilmiş, yüzdən artıq sahə və yarımsahəni araşdırma obyekti kimi nəzərdən keçirmişdir. Tədqiqatın ilk nəticəsi istənilən ölkədə yaradılan fəaliyyət mühitini ön plana çəkir və istehsal amilləri, daxili bazardakı tələbin xarakteri, aqrar subyektlərin qarşılıqlı əlaqədə fəaliyyət göstərən sahə və subyektlərin inkişafı, ölkədə idarəetmə və rəqabətin təkamül səviyyəsi, ölkənin həyata keçirdiyi iqtisadi siyasətin spesifikası kimi maddələrin tələblərinə hansı səviyyədə əməl olunmasında asılılığı ifadə edir. Rəqabətqabiliyyətliliyin determinatlarının (Porterin "rombunun") yer aldığı bu konsepsiyada əsas üstünlüyün ilk növbədə ölkədə yaradılan işgüzar mühitə və daxili bazarda rəqabətin xarakterinə verilməsi daha yüksək nəticələrin əldə olunması baxımından anlaşılandır. Müraciət etdiyimiz ölkələr sırasında öncül yerləri ABŞ, Rusiya, Macarıstan, Kanada, Meksika və Polşa tutur. Onlar yerli imkanları, aqrar sektorun inkişaf səviyyəsini, onun maliyyə təminatını və digər aparıcı şərtləri nəzərə almaqla özünəməxsus tənzimləmə siyasət həyata keçirməkdədirlər.

Dünya aparıcı "nəhənglərindən" olan ABŞ özünün aqrar sektorunda dövlətin dəstək sisteminin bir çox istiqamətlərini birbaşa və ya dolayısı ilə qorumaqdadır. Əsas məqsədin aqrar sektorun davam inkişafı olan bu ölkədə işlənilən tarazlıyıcı mexanizmlər üzrə vahid startegiyanın hazırlanması, bu təməl üzərində müxtəlif təyinata malik qanunların işlənilməsi aqrar sferada daha yüksək işgüzar mühitin formalaşmasını sövq edir. Hazırlanmış federal və ştat qanunlarının bir tərəfdən makrosəviyyədə (təminatın yaxşılaşdırılması, dövlət satınalmalarının təşkili və s.) işlərin görülməsinə icazə verməsi, digər tərəfdən mikrosəviyyədə öz ifadəsin tapan göstəricilərin (istehsal həcminin artırılması, məhsuldarlığın yüksəlməsi və s.) müsbət dinamika üzrə irəliləməsinə şərait yaradır. Bu

qanunlar, proqramlar və tənzimləyici normalar sırasında “ABŞ-da aqrar istehsalçıların maliyyə təminatı və onun yüksəldilməsi haqqında” Dövlət Proqramı (1999), “Fyuçers əməliyyatları haqqında” Federal Qanun (2012), “ABŞ-da heyvandarlığın inkişafı üzrə” Dövlət Proqramı (2003), “Kənd təsərrüfatı istehsalçıları üzrə hesablaşma əməliyyatlarının təkmilləşdirilməsi” Federal Qanunu (2003), “Kənd təsərrüfatı məhsullarının dövlət satınalmalarının həyata keçirilməsi üzrə” Qaydalar (2011), “İstehsalların məhsuldarlıq göstəricilərinin hesablanması metodologiyasının təkmilləşdirilməsi üzrə” Metodiki Tövsiyyələr (2008) və digər hüquqi-normativ aktlar, təklif və tövsiyyə xarakterli sənədlər nümunə olaraq göstərilə bilər. [4; 206].

Onların tətbiqi, digər izahatverici və təşkilati addımların atılması bu ölkədə “sarı zənbil” tədbirlər səviyyəsini icazə verilən 5%-lik həddən 12%-lik həddə qaldırmışdır (“əlverişli olmayan region”, “əlverişli olmayan struktur” və digər oxşar maddələri əsas gətirməklə). Digər tərəfdən, dövlət səviyyəsində səmərəli mikromaliyyələşdirmənin təşkili aqrar istehsalçıların tələbatlarının ödənilməsində, onların istehsal imkanlarının və nəticələrinin yüksəldilməsində mühüm rol oynamışdır. Əsas fondlar istehsalçılarına “kreditlə satış sistemnin” tətbiqinə icazə verilməsi (1958) və bu şəbəkənin ölkənin aparıcı şirkətləri tərəfindən onun demək olar ki, bütün ştatlarında qurulması aqrar istehsalçıların işini bir az da asanlaşdırır.

Macarıstanda istifadə olunan tənzimləyici addımlar əsas etibarı ilə “üfuqi” istiqamətdə inkişaf etmişdir. Belə ki, “minimal kriteriya” nəzərə alınmaqla görülən işlər daxili yardım quruluşunda 61% təşkil etmişdir. Bu ölkədə aqrar sahəni də əhatə edən “Orta və kiçik sahibkarlıq subyektlərinə dövlət təstəyi ” Proqramı (1995) özündə hər bir fəaliyyət subyektinə aidiyyatı ilə seçilən zəruri tələbləri əks etdirir ki, bəhs olunan məsələlər də dövlətin bəhs olunan istiqamətdə startegiyasının müəyyənləşməsinin əsasını təşkil etmişdir. Bununla yanaşı, aqrar sahənin vahid sistemi təşkil etdiyi ölkə iqtisadiyyatı sahəsində qəbul olunan qanunlar tənzimləmənin tələblərə uyğun səviyyəyə qaldırılmasına, onun liberal iqtisadi təməllərə mane olmamasına şərait yaratmışdır. Nəticə etibarı ilə aqrar sahə son üç ildə orta hesabla 5,8%-lik nəticə ilə irəliləmişdir. Aqrar istehsalı əsasən kiçik sahibkarlıq subyektləri üzərində qurulan (subyektlərin ümumi həcmində 78,2%) Rusiyada tənzimləyici addımlar sırasında istər ümumilikdə kənd təsərrüfatı, istərsə də onun ayrı-ayrı sahələri üzrə qəbul olunan xüsusi Dövlət Proqramlarının, özünün birbaşa və dolayı aidiyyatı ilə seçilən digər səviyyəli hüquqi-normativ aktlarının rolu öz əhəmiyyətliliyi uzun illərdən bəri qorumaqdadır. Müvafiq Proqramlar sırasında “Kiçik sahibkarlığa yardım” Dövlət Proqramları (Государственная Программа «Помощи малому предпринимательству»” – 2001, 2013), “Kənd təsərrüfatının inkişafı üzrə” Dövlət Proqramı (Государственная Программа «По развитию сельского хозяйства» - 2005) və digər sahədaxili istiqamətləri əhatə edən, tənzimləmə xarakterinə malik proqramlar və digər hüquqi-normaitv sənədlər göstərilə bilər. Ölkədə aqrar sahənin təkamül yolu ilə (tədricən) inkişafına üstünlük verilmişdir. Bu baxımdan kəskun tənzimləyici addımlara yol verilməmək şərtilə dövlət tərəfində kənd təsərrüfai sahəsi ilə əlaqəli monitorinqlərin aparılması, toplanan məlumatların ümumiləşdirilməsi və bu əsasda tənzimləmə istiqamətləri və addimlarının seçilməsi praktikasından istifadə olunmaqdadır. Rusiyada tətbiq olunan dövlət dəstəri həcmləri taxılçılıqda 21,4%-dən heyvandarlığın bəzi istiqamətlərindəki 31,6%-ədək tərəddüd edir. Bu ölkə özünün tənzimləmə siyasətində beynəlxalq arenada mövcud olan heç bir məhdudlaşdırıcı aktın kəmiyyətlərinə məhəl qoymayaraq, real ehtiyacların qiymətləndirilməsi və onların optial qaydada aradan qaldırılması tədbirlərini icra etməkdədir. Deyilənlər Rusiyada son illərdə aqrar istehsal səviyyəsinin ayrı-ayrı istiqamətlər üzrə 4,7%- 23,1% arasında artımına səbəb olmuşdur [9; 392].

Dünya ölkələri sırasında aqrar sahə istehsalında (xüsusilə də taxılçılıqda) liderlərdən hesab olunan Kanada özünün “sarı zənbil” tədbirləri çərçivəsində dövlət dəstəyinə meylli olmadığı ilə seçilir (19%). Bu ölkənin tənzimləyici siyasətində üstünlük “yaşıl zənbil” tədbirlərinə (51%) və “minimum kriteriyaya” uyğun tədbirlərə (30%) verilmişdir. Müvafiq mənzərə aqrar sahibkarlara minimal (zəruri) istehsal şərtlərinin və bir çox qeyri-istehsal imkanlarının (infrastruktur, marketinq və s.) yaradılması əsasında sahibkarlığın inkişafına yol açır. Yəni, sahibkarların yüksək həcmli dövlət dəstəyinə arxayin olmaması, öz imkanları, işgüzarlığı əsasında iqtisadi cəhətdən güclənməsi ölkənin tənzimləmə siyasətində seçilən prioritetlərdən hesab olunur. Zəruri qanunvericilik bazasının

mütəmadi təkmilləşdirilməsi, aqrar fəaliyyətin ayrı-ayrı istiqamətlərini (xüsusilə də taxılçılıq və maldarlıq üzrə) əhatə edən proqramların qəbulu bu işlərə öz müsbət təsirini göstərməkdədir. [2; 253].

Aqrar sahədə özünəməxsus inkişaf yolunu seçmiş, bizim üçün də xüsusi maraq kəsb edən ölkələrdən biri də Meksika hesab olunur. Bu ölkədə müxtəlif zənbilləri əhatə edən tədbirlərlə yanaşı, inkişaf etmiş ölkələr üçün nəzərdə tutulan xüsusi proqramlardan da (dövlət dəstəyinin ümumi strukturunda 24%-lik payla) məharətlə istifadə edilmişdir. İqtisadiyyatı nisbi zəif artım templərinə malik bu ölkə xüsusi proqramlar çərçivəsində dövlət yardımı formasında aqrar sahənin bir sıra istiqamətlərində (meyvəçilik, xirda buynuzlu heyvandarlıq, quşçuluq və s.) təməlli işlərin həyata keçirilməsinə nail olmuşdur. Bu ölkədə "yazıl zənbil" tədbirlərinin ardıcıllığı da (ümumi dəstək həcmində 60%-lik payla) onun aqrar sektorunun 1996-2006-cı illərdə 8%-lik artımına şərait yaratmışdır. İstehsal olunmuş məhsulların son istehlakçılara birbaşa və ya dolayısı ilə çatdırılması işlərində müəyyən sistemin formalaşdırılması (elektron ticarət, qapıda təslimat, son istehlakçıya çatdırılma və s.) aqrar istehsalçıların maddi maraqlarının artırılması ilə yekunlaşmış, onların istehsallarının genişlənməsinə imkan vermişdir. [4; 267].

Ümumi iqtisadi sisteminə, o cümlədən aqrosektoruna xüsusi tənzimləmə sistemini – "şok terapiyasını" tətbiq edən Polşanın təcrübəsi də xüsusi marağa səbəb olmaqdadır. Keçən əsrin 90-cı illərinin birinci yarısında kifayət qədər iqtisadi çətinliklərlə üzləşən bu ölkə çıxış yolunu təkamül formalı inkişafı kənarlaşdırmaqla, daha qısa dövrdə çatışmazlıq və məhrumiyyətləri arxada qoymaqda gördü. Keçmiş Sovet "düşərgəsinin" dağılması, yeni sistem və əlaqələrin formalaşması belə vəziyyətin formalaşmasında həlledici rola malik idi. Vəziyyətin belə məcrada dəyişməsi Polşada 1995-1997-ci ildə qəti addımların atılmasına sövq etdi. Bu ölkə özünün sonrakı inkişafında cəmi 11%-lik həcmdə "sarı zənbil" tədbirlərindən istifadəyə qərar verdi. Cəmi tədbirlərin 89%-lik həcmi isə "yaşıl tədbirlərin" öhdəsinə buraxıldı. Bu ölkədə öncül addımlar kimi, istisadiyyatın liberallaşması əsasında sahibkarlığa tanınan azad fəaliyyət hüququnun tanınması, istehsal proseslərinin təşkilinə metodiki və metodoloji cəhətdən yardımların göstərilməsi, hasil edilmiş məhsulların satışının təşkili, infrastruktur istiqamətləri üzrə sistemli tənzimlətici və təşkilati addımların atılması, gəlirlərin sığortalanması proqramlarının hazırlanması, müxtəlif investisiya tutumlu və digər proqramların hazırlanması olmuşdur. Nəticə etibarı ilə Polşa qəbul edilmiş kursdan cəmi 3 il keçməsinə baxmayaraq, artıq bir çox fəaliyyət sahələrində "Sovet dönəminin" göstəricilərini üstələyəcək səviyyədə istehsala malik idi. Həmin illərlə müqayisədə haliyədə bu ölkə aqrar sahənin ayrı-ayrı sahələrində 3,1 dəfədən 29,6 dəfəyədək olan artımları nümayiş etdirməkdədir. [9; 128]

Beynəlxalq təcrübə üzrə sadalanan istər ümumi, istərsə də ayrı-ayrı ölkələrin timsallarındakı məlumatlar aqrar sahənin tənzimlənməsində bir tərəfdən makrosəviyyədə, digər tərəfdən isə mikroəhəmiyyətli addımların spesifkliyi ilə maraq doğurur. Düşünürük ki, nəzərdən keçirdiyimiz ölkələr sırasında Macarıstanın, Kanadanın, Meksikanın və Rusiyanın təcrübələrinə müraciət olunması daha məqsədəuyğundur. Belə ki, bəhs olunan ölkələrin aqrar sferasının inkişaf meyli və şəraiti ölkəmizlə müəyyən oxşarlıqlara malikdir. Sahəvi tənzimləmədə təkamül yolunu seçən respublikamızda belə beynəlxalq təcrübələr nəzərə alınmaqla müvafiq addımların atılması daha yaxşı, məhsuldar nəticələrlə özünü təzahür edə bilər.

## NƏTİCƏ

Haqqında bəhs olunan problemlərin çoxşaxəliliyi cari dövrdə özünün qruplaşdırılmasını, təsnifləşdirmə zamanı yaranmış vəziyyətlər əsasında fərdi qiymətləndirilməsini və çıxış yollarının axtarilmasını tələb edir. Deyilənlərin sistemli ifadə olunması əsasında mövcud olan problemlərin kökünü əsasən aşağıdakılarda axtarmaq lazımdır:

a) kənd təsərrüfatının təkamülünə xidmət edəcək istehsal, bazar və sosial infrastruktur komponentlərinin ləng inkişafı;
b) aqrar sahədə istehsal subyektlərinin istehsal-texniki vasitələrlə və maliyyə resursları ilə təminatının arzuolunan səviyyədə olmaması;
c) hasilatın əksər hallarda ekstensiv xarakter daşıması və intensiv amillərə meylliliyin az olması;
d) muxtar respublikada heyvandarlığın inkişafında ekstensiv yola üstünlük verilməsi və bu

əsasda otlaqların sıradan çıxmasının sürətləndirilməsi;

e) ərzaq təyinatlı bitkiçilik məhsullarının hasilatında ekstensizliyin üstünlüyü;
f) müqayisəli üstünlüyə malik aqrar istehsal istiqamətlərinin zəif templərə malik olması;
g) emal sahələrinin templər baxımından inkişafının tələblərə uyğunsuzluğu;
h) aqrar sahənin ixrac potensialından istifadə səviyyəsinin aşağı olması;
i) əksər subyektlərdə aqrotexniki normalara riayət olunmaması;
j) aqrar sahədə məşğul olanların gəlir səviyyəsinin aşağı olması;
k) kənd təsərrüfatı məhsullarının satınalma və ya sərbəst reallaşdırma qiymətlərinin aşağı olması, bəzi hallarda onların maya dəyəri ilə uyğunsuzluq təşkil etməsi və s. [5; 154]

Verilmiş təsnifatda qeyd olunan məsələlər aqrar sahə üzrə görülməli olan işlərin konturlarına aydınlıq gətirmiş olur. Sahəvi tənzimləmənin Naxçıvan regionunda tətbiqinin məqsədi bir tərəfdən ümumi sahəvi xarakter daşıyacağı halda, digər tərəfdən konkret fəaliyyət istiqamətlərini əhatə etməkdən ibarət olmalıdır. Aqrar istehsalda ekstensivliyin üstün mövqeyinin aradan qaldırılması, daha mütərəqqi intensiv addımların atılması öz zəruriliyini qorumaqdadır. Həmçinin xüsusi təyinata malik proqramların və digər icra təyinatlı tənzimləyici aktların (tərkibinin idarəetmə, maliyyə, kredit, hesablaşmalar, infrastruktur, məsləhət və s. istiqamətləri əhatə edən) qəbulu, bu sahədə nəzərdə tutulan işlərin icrası kənd təsərrüfatına öz müsbət təsirlərini göstərməkdədir. Bu istiqamətdə görüləcək ilk işlərdən biri aqrosahibkarlar arasında zəruri maarifləndirmə işlərinin aparılması yolu ilə həyata keçiriləcək tənzimləmə xarakterli işlərin mahiyyətinin açıqlanmasıdır. Düşünürük ki, ümumi və sahəvi tənzimləməyə aid hüquqi sənədlərin, Dövlət Proqramlarının və ya aidiyyatı qərarların qəbulu məsələnin bir tərəfidir. Lakin onların sahibkarlıq subyektləri tərəfindən qəbul olunması, mənimsənilməsi və tələblərə uyğun icrası bu işlərin sistemli şəkildə təşkil olunması zərurətindən xəbər verir.

Təsərrüfatların fəaliyyətinə təsir edən amillərdən biri kimi sahibkarlara ibtidai iqtisadi bilik və bacarıqların aşılanmasıdır. Bu məsələyə kompleks yanaşma aşağıdakı problemlərin həllinə şərait yarada bilər: subyektlər müstəqil sürətdə öz fəaliyyətini iqtisadi cəhətdən qiymətləndirə bilər (maya dəyərinin hesablanması, gəlirlərin müəyyən edilməsi və s.); maliyyə vəsaitlərinin istifadəsində optimallığı təmin edə bilər; kredit ehtiyaclarını ödəmək üçün sənədləşmə fəaliyyətini həyata keçirmək imkanına malik ola bilər (biznes-planların hazırlanması və s.); satış proseslərində müxtəlif üsullardan istifadə edə bilər (elektron ticarətin imkanlarından istifadə, daimi müştərilərlə uzunmüddətli razılaşmaların əldə olunması, sifarişçilərlə fərdi qaydada "qapıda təslim" variantından istifadə olunması və s. ) kənar subyektlərlə hesablaşmaları qanunauyğun, maliyyə tələblərinə müvafiq şəkildə apara bilər; zəruri istehsal və digər ehtiyacların müəyyən edilməsi, bu əsasda subyektin təchizat məsələlərinə (cinsi, maliyyə və digər yönlərdən) aydınlıq gətirilməsi; zərurət yarandıqda aqrar sahə mütəxəssislərindən zəruri məsləhətlər ala bilər (bunun üçün müraciət edəcəyi ünvanlar bəlli olmalıdır); subyektdaxili kiçik həcmli istehsal və digər infrastruktur istiqamətlərini (saxlama anbarının, təsərrüfatdaxili kiçik emal sahələrinin yaradılması və s.) müstəqil qurmaq imkanına malik ola bilər və s. Bəhs olunan məsələdə ikinci yol kimi təsərrüfatların müvafiq bilik və təcübəyə malik fərdi peşəkarların və ya aqrar sahə üzrə ixtisaslaşmış və kompleks xidmətləri göstərən subyektlərin xidmətlərindən istifadə etməsi (müddətli fərdi müqavilələrin bağlanması yolu ilə) göstərilə bilər. [1; 204]

Sahəvi tənzimləmə digər məsələlərlə yanaşı sahibkarların rayonlar üzrə əlaqələndirmə şuralarının və birliklərinin yaradılması özünün əhəmiyyətini qorumaqdadır. Belə quruluşun fomalaşdırılması sahibkarlara imkan verəcək ki:

- ✓ eyni məhsul istehsalı ilə məşğul olan digər sahibkarlarla birbaşa ünsiyyət qurulsun, informasiya mübadiləsi mümkün olsun;
- ✓ istehsalda mütərəqqi üsullardan, texnologiyadan istifadə təcrübəsi yayılsın;
- ✓ maliyyə və digər məsələlərin qiymətləndirilməsində daha səmərəli variantların tətbiqi mümkün olsun;
- ✓ infrastruktur imkanlarından istifadənin mümkün maksimallığına nail olunsun, bu sahədə olan bəzi məsələlərdə çatışmazlıqların aradan qaldırılmasında sahibkarların iştirakı təmin

olunsun;
- ✓ rayonların ümumi ərzaq ehtiyacları nəzərə alınmaqla istehsal həcmlərində optimallıq qorunsun;
- ✓ sahibkarların fərdi problem və ehtiyacları dinlənilməklə yaranmış vəziyyətdən çıxış yollarının axtarılması birgə təmin edilsin və s. [10; 152]

Bəhs olunan məsələdə həmin Şura və ya Birliklərin fəaliyyətinə aydınlıq gətirilməsi, onların fəaliyət öhdəlikləri və səlahiyyətlərinin müəyyən edilməsi tənzimləyici addımların atılması xüsusiyyətləri ilə müəyyən edilməlidir.

Baxılan məsələlər sırasında sosial sahələrdə aparılan işlər də yaddan çıxarılmamalıdır. Burada kənd əhalisinin sağlamlığının qorunmasını, kənddə fəaliyyət göstərənlərin ixtisas artırma kurslarına cəlbi, onlar üçün müxəlif mədəni-məişət təyinatlı tədbirlərin təşkili kimi işlər öz əhəmiyyətini qorumaqdadır. Qeyd etmək yerinə düşər ki, muxtar respublikanın kəndlərində ibtidai səhiyyə ocaqlarının yaradılması

## ƏDƏBİYYAT


1. Abbasov T.A. Naxçıvan MR-də aqrar bazar: konseptual əsaslar və inkişaf istiqamətləri. Bakı: AzTU, 2015, 301 s.
2. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı: ADİU, 2007, 792 s
3. Alıyev İ.H. Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı: Elm, 2006, 380 s.
4. Bağırov M.S. Məhmudov C.İ. Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı: problemlər və həlli yolları. Naxçıvan: Əcəmi, 2017, 257 s.
5. Bağırov M.S. Naxçıvan Muxtar Respublikasının aqrar sektoru: hasilat-reallaşdırma sistemi və marketinq prinsipləri. Naxçıvan: Əcəmi, 2016, 344 s.
6. Əhmədov N.H. Dövlət tənzimlənməsinin iqtisadi mexanizmləri. Bakı: Sabah, 2011, 194 s
7. Ефременко Н.В., Галицын Н.И. Государственное регулирование национальной экономики: реалии и проблемы. М: Аристей, 2013, 629 с.
8. Бабашкина А.М. Вопросы регулирования аграрной сферы. М: ЮНИТИ, 2018, 537 с.
9. Малыш М.Н. Государственное регулирование экономики. СПб: Наука, 2010, 499 с.
10. Серова Е.С. Аграрные реформы в переходных экономиках: общие цели и различные траектории. Новосибирск: Экомир, 2014, 229 с.


## SUMMARY

**Hasan Abbasov**

### "FIELD-REGION" TANDEM IN MODERN AGRICULTURAL REGULATORY ACTIVITIES: PROBLEMS AND WAYS OF USING INTERNATIONAL EXPERIENCE

The modern period is accompanied by numerous economic programs and activities implemented in the Republic of Azerbaijan. This activity, along with other fields, reflects the implementation of works that represent the "field - region" pair on a single plane. In this regard, the works done in the agricultural sector in the Nakhchivan region are distinguished by its originality.

The implementation of regulatory activities in the agricultural sector differs at various levels. Along with the works done at the republican and autonomous republic level, the active study of international experience in agriculture in recent years and the steady increase in the production of basic products, establishing teams serving the agrosphere, the improvement of existing ones, increasing access to new technical tools have created wide conditions for the use of technological equipment and means.

The article also discusses the yellow, green and blue basket measures comprehensively, which have proved themselves in the regulation on the example of different countries.

***Key words:*** *agricultural area, regional regulation, using international experience, Nakhchivan region, the Republic of Azerbaijan*

**РЕЗЮМЕ**

**Гасан Аббасов**

**ТАНДЕМ "СФЕРА – РЕГИОН" В АГРАРНО-РЕГУЛЯТИВНОЙ ДЕЯТЕЛЬНОСТИ СОВРЕМЕННОСТИ: ПРОБЛЕМЫ И ПУТИ ИСПОЛЬЗОВАНИЯ МЕЖДУНАРОДНОГО ОПЫТА**

Современный период сопровождается многочисленными экономическими программами и мероприятиями, реализуемыми в Азербайджанской Республике. Эта деятельность, в том числе, отражает выполнение работы, представляющей пару «сфера — регион» в единой плоскости. В этом отношении работа, проделанная в сельскохозяйственном секторе Нахчыванской области, уникальна.

Осуществление регулирующей деятельности в аграрной сфере отличается различной ее уровненностью. Наряду с работой на республиканском и автономном республиканском уровнях, активное изучение и практическое применение международного опыта в сельском хозяйстве в последние годы наряду с регулярным ростом производства основной продукции создали широкие условия для создания предприятий, обслуживающих агросферу, совершенствования их работы, расширения возможностей использования новых технических средств, использования нормативно-технологических инструментов и инструментов, зарекомендовавших себя в международной практике.

В статье также рассматриваются желтые, зеленые и синие носилочные меры, зарекомендовавшие себя в регулировании на примере разных стран.

***Ключевые слова:*** *аграрная сфера, региональное регулирование, использование международного опыта, Нахчыванский регион, Азербайджанская Республика*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 98-104
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 98-104
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 98-104

**ELŞƏN NƏSİROV**
*enasirov@inbox.ru*
**DİLRUBƏ QASIMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*dilrubenovruzova@hotmail.com*

**UOT: 338.**

# TRANSMİLLİ KORPORASİYALARIN TARİXİ ASPEKTLƏRİ

*Elmi məqalədə Transmilli Korporasiyaların yaranma tarixi və səbəbləri, eləcə də inkişaf mərhələləri araşdırılmışdır.*

*Qloballaşma şəraitində dünya iqtisadiyyatının transmilliləşməsi, qloballaşma dalğalarının strukturu, transmilli korporasiyaların təşkilinin mahiyyəti və əsas konseptual prinsipləri, beynəlxalq inteqrasiyanın inkişaf meylləri, transmilliləşən şirkətlərin beynəlxalq inteqrasiyada yeri, rolu və bu kimi digər məsələlər məqalənin tədqiqat obyekti prizmasından nəzərdən keçirilmişdir. Məqalədə hipotetik nöqteyi nəzərdən vurğulanır ki, transmilli korporasiyaların genezisi XV əsrin sonlarında müstəmləkələrin mineral ehtiyatlarına və kənd təsərrüfatı məhsullarına çıxış əldə etmək üçün aparıcı dövlətlər tərəfindən təşkil edilmiş müstəmləkə ekspansiyası dövrü ilə əlaqələndirilə bilər. Belə ki, dünya müharibələri, resurslar uğrunda sərt mübarizə, cəmiyyətin texnolojiləşməsi, qloballaşma, post-sənayeləşmə və beynəlxalq maliyyənin təkamülü - bütün bunlar transmilli korporasiyaların inkişafı ilə birbaşa əlaqəli olan meyillər və dəyişikliklərdir.*

*Transmilli korporasiyaların təkamülünü daha aydın təsəvvür etmək üçün, məqalədə əyani vəsait kimi 2 cədvəl təqdim olunur: «Dünya iqtisadiyyatında transmilli korporasiyaların təkamülü» və «Qloballaşma dalğalarının strukturu». Birinci cədvəldə transmilli korporasiyaların təkamülünü təşkil edən tarixi dövrlər və hər dövrün ayrı-ayrılıqda xarakterik xüsusiyyətləri sadalanır. İkinci cədvəldə isə qloballaşma proseslərinin tarixi xronologiyası göstərilir.*

*Elmi məqalədə, həmçinin dünya iqtisadiyyatında transmilli korporasiyaların təkamülü prosesləri dərindən təhlil edilmiş və bu proseslərin labüdlüyü əsaslandırılmışdır.*

***Açar sözlər:*** *transmilliləşmə, transmilli korporasiyalar, qloballaşma, transmilli ekspansiya, sənaye inqilabı, elmi-texniki tərəqqi, şəbəkə qloballaşması, texnologiyalar, dünya inteqrasiya ittifaqları, energetika, nüvə enerjisi, elektronika, kosmik sənaye, cihazqayırma, maşınqayırma.*

Bir sıra araşdırmalar göstərir ki, transmilli biznes XV əsrin ortalarından XVII əsrin ikinci yarısına qədər, "Böyük Coğrafi Kəşflər" dövründə yaranıb. Bu dövrdə əsasən avropalılar yeni torpaqlar kəşf edirdilər, xüsusilə də "Yeni Dünya" ya dəniz yolları çəkirdilər: Afrika, Amerika, Hindistan, Asiya və Okeaniyaya.

Tarix göstərir ki, ilk transmilli korporasiyalar rəsmi olaraq 1600-cü ildə qurulan İngilis Şərqi Hindistan Şirkəti hesab edilə bilər. İki il sonra, 1602-ci ildə ən böyük beynəlxalq səhmdar Hollandiya Şərqi Hindistan Şirkəti quruldu. Aparıcı elm adamlarının qeyd etdiyi kimi, bu, yer üzündə ilk megakorporasiya idi ki, müharibə aparmaq qabiliyyəti də daxil olmaqla yarı dövlət güclərinə sahib idi, siyasi mübahisələrdə iştirak etmək, sikkələr buraxmaq və koloniyalar yaratmaq imkanına da malik olmuşdur.

Transmilli korporasiyaların yaranmasında ən geniş yayılmış səbəb kimi milli dövlət sərhədlərini aşan istehsal qüvvələrinin inkişafına əsaslanan istehsalın və kapitalın beynəlmiləlləşməsi hesab edilə bilər.

Beynəlxalq transmilli korporasiyaların formalaşması və inkişafında kapital ixracı ən vacib amildir. Həm də transmilli korporasiyaların yaranmasının eyni dərəcədə vacib səbəbi izafi mənfəət

əldə etmək istəyi idi.

Digər tarixi bir mənbəyə görə, «Transmilli korporasiya» fenomeni 1118-ci ildə Birinci Səlib yürüşündən sonra yaranan cəngavər Tapınaqçılar Ordenindən qaynaqlanır. Artıq 1135-ci ildə Tapınaqçı Cəngavərlər ordeni bankçılıqla fəal məşğul olmağa başladı və bu dövrdə ilk transmilli maliyyə qurumu oldu. Artıq XIII əsrin əvvəllərində Tapınaqçılar Avropa, Fələstin və Suriyada əhəmiyyətli mülkiyyət sahiblərinə çevrilmişdilər. Bundan əlavə, bu təşkilat geniş dini, hərbi və hüquqi imtiyazlara malik olmuşdur.

Transmilli biznesin yaranması yeni kəşf edilmiş torpaqlara olan müstəsna hüquqlarla əvvəlcədən müəyyən edilmişdi, bununla yanaşı avropalıların "Yeni Dünya" ya keçməsi yeni müstəmləkə imperiyalarının yaranması və inkişafı ilə müşayiət olunmuşdu. Gələcəkdə "Köhnə" və "Yeni Dünya" təmaslarına əsaslanan "Kolumb mübadiləsi" baş verir ki, bu da bitkilərin, heyvanların, qida məhsullarının, bütün xalqların (qullar daxil olmaqla) planet ətrafında hərəkəti ilə nəticələnir. Bunun fonunda sivilizasiyalar arasında mübadilə artır, transmilli korporasiyaların formalaşması və inkişafı isə dünyanın qloballaşmasına səbəb olur.

Müstəmləkə imperiyalarında yeni ticarət tərəfdaşları ilə qurulan əlaqələr böyük ticarət firmalarına çevrildi və bu da öz növbəsində transmilliləşən firmaların əllərində əhəmiyyətli sərmayələr cəmləşdirdi. Əslində bunlar ilk trnasmilli korporasiyalar kimi ölkələrin hakim zadəganları ilə sıx əlaqədə idilər və təbii sərvətlərin hasilatına, qitələrarası daşımaların həyata keçirilməsinə və beynəlxalq ticarətə öz kapitallarını yatırırdılar.

Müxtəlif iqtisadi məktəblərin bir sıra alimlərinin xeyli sayda əsəri transmilli korporasiyaların nəzəriyyəsi və təcrübəsinin tədqiqi problemlərinə həsr edilmişdir. Qərb iqtisadi məktəbini təmsil edən A.Kernkross, F.Kotler, L.Metzler, F.Maçlup, J.Stevens, H.Markovich, J.Tobin, R.Vernon, S.Heimer, C.Kindleberger və B.Milner kimi müəlliflər transmilli korporasiyaları birbaşa xarici investisiyaların inkişafı kontekstində araşdırmışlar. Təqdim olunan əsərlər transmilliləşmənin nəzəri və metodoloji əsaslarını və birbaşa xarici sərmayənin həyata keçirilməsini əks etdirir, transmilli korporasiyaların təşkilinin mahiyyəti və əsas konseptual prinsipləri, eləcə də birbaşa xarici investisiyaların inkişafı üçün zəruri vasitələri müəyyən edir.

Aparıcı elm adamlarının qeyd etdiyi kimi, 1600-cü ildə qurulan İngilis Şərqi Hindistan Şirkəti yer üzündə ilk mega-korporasiya olmuşdur. Bu şirkət kvazi-dövlət səlahiyyətlərinə malik idi. Belə ki, şirkət müharibələr aparmaq, siyasi mübahisələrdə iştirak etmək, sikkələr buraxmaq və müstəmləkələr yaratmaq kimi potensiala malik olmuşdur.

Transmilli korporasiyaların inkişafı XIX əsrin sonu - XX əsrin əvvəllərində, ən böyük inhisarların kapital çıxarmaq üçün xarici istehsal sahələri yaratmağa başladığı zaman geniş vüsət aldı. XX əsrin sonunda transmilli korporasiyalar beynəlxalq iqtisadi münasibətlər sistemində möhkəm yer tutdular.

Mövcudluqlarının ilkin mərhələlərində transmilli korporasiyalar birbaşa investisiya axınını əsasən müstəmləkə hökumət sisteminin formalaşmasına və onların xammal mənbələrinə zəmanətli çıxışını təmin edən ekspansionist müharibələrin aparılmasına yönəldiblər.

Sonradan transmilli korporasiyalar əhəmiyyətli struktur dəyişikliklərinə məruz qaldı, bu dövrdə artımın əsas təkanverici qüvvəsi elmi-texniki tərəqqi və sonrakı sənaye inqilabı oldu ki, bu da transmilli korporasiyalar əsasında beynəlxalq istehsal və texnoloji komplekslərin inkişafına töhfə verdi. Müasir dövrdə belə texnoloji komplekslərin tərkibinə daxil olan transmilli korporasiyaların xarici filiallarının əsas xüsusiyyəti onların "ana şirkətin miniatür bir surəti" olmasıdır.

Ümumiyyətlə, transmilli korporasiyaların inkişafında səkkiz əsas dövrü müəyyən etmək mümkündür, bu da aşağıda verilən cədvəldə əks etdirilir.

**Cədvəl 1. Dünya iqtisadiyyatında transmilli korporasiyaların təkamülü**

| Mərhələlər | Xarakterik xüsusiyyətlər |
|---|---|
| 1095 - 1291<br>"Səlib yürüşləri" dövrü | "Səlib yürüşləri" dövrü Qərb dəyərlərinin bütün dünyada hökmranlığını bərqərar etmək üçün ilk cəhddir. Papa "kafirlərə" qarşı mübarizəyə çağırır və "səlib yürüşləri"ni bütpərəstləri xristianlığı qəbul etmək məqsədi ilə təchiz edir. Bu zaman |

| | |
|---|---|
| | Tapınaqçı Cəngavərləri Ordeni formalaşır ki, bu da öz mahiyyətinə görə ilk transmilli quruma çevrilir. XII-XIII əsrlərin sonlarında orden Fələstində, Suriyada və Avropada geniş torpaq sahələrinə sahib çıxır və 1135-ci ildən orden bank işi ilə fəal məşğul olmağa başlayır, geniş kilsə və hüquqi imtiyazlara malik olur. |
| 1241 - 1778<br>“Böyük coğrafi kəşflər” dövrü – transmilli şirkətlərin yaranması dövrü | “Böyük coğrafi kəşflər” dövrü avropalıların yeni kəşf edilmiş torpaqlara müstəsna hüquqlarla “Yeni Dünya”ya irəliləməsi, həmçinin müstəmləkə imperiyalarının yaradılması və inkişafı ilə müşayiət olunur. Sonralar "Köhnə" və "Yeni Dünya" arasındakı təmaslar zamanı "Kolumb mübadiləsi" baş verdi: planetin ətrafında aşağıdakı mal növləri hərəkət etdi: bitkilər, heyvanlar, qidalar, bütöv xalqlar (qullar da daxil olmaqla) və onlarla birlikdə yoluxucu xəstəliklər. Eyni zamanda, “Köhnə” və “Yeni Dünya” sivilizasiyaları arasında mədəni mübadilə mövcud idi, bu, dünyada transmilli şirkətlərin formalaşması və inkişafının və qloballaşmanın ən mühüm mərhələlərindən biri idi. Bu dövr firmaların təşkilati strukturları davamlı formalaşmağa başladı, maliyyə gücünün artması, inkişafı və transmilli korporasiyaların yaranmağa başlaması ilə xarakterizə olunur. Belə transmilli korporasiyalar əsasən ticarət sahəsində və hasilat sənayesində cəmlənmiş, onların filialları müstəmləkələrdə və inkişaf etməmiş ölkələrdə yerləşirdi.<br>Bu dövrdə istehsal geniş inkişaf yolu ilə getdi. Çünki bu ölkələrdə yeni texnologiyaların tətbiqi ilə bağlı böyük çətinliklər var idi. |
| 1778 - 1914<br>“Sənaye İnqilabı” dövrü | Sənaye İnqilabı dövrü əvvəllər “Yeni Dünya”da yaradılmış müstəmləkələrdən əsasən “Köhnə Dünya”ya ehtiyatlarının çıxarılması. Əl əməyindən maşın əməyinə, manufakturadan fabrika istehsalına, kənd təsərrüfatı iqtisadiyyatından sənaye istehsalına keçid başlayır. Belə transformasiyaların nəticəsində sənaye cəmiyyətinin formalaşması başlayır. |
| 1914 - 1945<br>"Böyük Depressiya" dövrü | Böyük Depressiya dövrü inkişaf etmiş ölkələrin transmilli korporasiyaları arasında gedən dünya hökmranlığı uğrunda rəqabət prosesi maliyyə-iqtisadi sistemin dağılmasına səbəb oldu. Bu dövrdə transmilli korporasiyalar iki dünya müharibəsi arasında inkişaf edir, müharibələrdən əldə etdikləri gəlirləri biznesə yönəldirlər və Avropa, Amerika və Yaponiyanın silah, döyüş sursatına olan ehtiyaclarını ödəmək üçün silah və hərbi texnika istehsalı ilə məşğul olurlar. Bu dövrdə transmilli korporasiyalar maksimum imkanlardan istifadə edərək inkişaf etmiş ölkələri digər ölkələrlə qarşıdurmaya sövq edirlər. |
| 1945 - 1970<br>“İdeyaların yaranması” dövrü | İkinci Dünya Müharibəsinin sonunda imperiyaların və müstəmləkəçilik sisteminin dağılması qalib tərəfləri bütün dünya nizamı sistemini bərpa etməyə sövq etdi. Bu vaxta qədər yeni kəşf edilmiş torpaqlar üzərində bütün müstəsna hüquqlar başa çatmış və “İdeyaların yaranması” dövrü başlamışdır. Transmilli korporasiyalar ən son ideyaları yaradır və bütün sahələrdə (energetika, nüvə enerjisi, elektronika, kosmik sənaye, cihazqayırma, maşınqayırma və s.) elmi və texniki nailiyyətlərin yayıcısına çevrilir. |
| 1970 - 1980<br>“Elmi-texniki tərəqqi” dövrü | Dünya bazarında rəqabətin güclənməsi tədricən elmi-texniki tərəqqini sürətləndirməyə və beynəlxalq iqtisadi əlaqələrə təsir |

| | |
|---|---|
| | etmək uğrunda mübarizəni gücləndirməyə başladı. Bu dövrdə birləşmə prosesləri nəzərəçarpacaq dərəcədə sürətləndi və əhəmiyyətli kapital ehtiyatlarına malik olan transmilli korporasiyalar biznesdən ən uğurlu nəticələr əldə etməyə başladı. |
| 1980 - 2000 “Dünya inteqrasiya ittifaqları” dövrü | Bu dövrdə dünyada ayrı-ayrı ölkələrə əsaslanan ümumi iqtisadi məkanlar şəklində özünü göstərən inteqrasiya prosesləri yaranmağa başladı. Yaradılan inteqrasiya ittifaqları beynəlxalq biznes sahəsində fəaliyyət göstərən transmilli korporasiyalar üçün daha geniş imkanlar açmışdır. Getdikcə artan elmi-texniki tərəqqi müasir transmilli korporasiyalar arasında mövcud olan bütün əlaqələrin dərinləşməsinə kömək etdi və onların əsasında beynəlxalq istehsal-texnoloji komplekslər yaranmağa başladı. Bu baxımdan yüksək səviyyəli elmi və innovativ düşüncə bu komplekslərin əsas istinad nöqtəsinə çevrilmişdir. Beynəlxalq istehsal-texnoloji komplekslərin tərkibinə daxil olan transmilli korporasiyaların yaradılmış xarici filiallarının əsas xüsusiyyəti onların “ana şirkətin miniatür surəti” olmasıdır. |
| 2000-ci ildən – indiyədək: “Şəbəkə qloballaşması” dövrü | "Şəbəkə Qloballaşması" dövründə Beynəlxalq istehsal-texnoloji komplekslər daha da yeni innovativ struktura çevrilməyə başladı və bunun nəticəsində Mega Transmilli Korporasiyalar meydana gəldi. Mega Transmilli Korporasiyalar beynəlxalq sistemdə mühüm yer tutmuşdular və çox vaxt qloballaşma proseslərinin inkişafında hərəkətverici bir amil rolunu oynamağa başlamışdı. Digər tərəfdən, Mega Transmilli Korporasiyalar xüsusi, əhəmiyyətli bir əlaqə rolunu oynadılar, onlarsız əmək və həyat məhsuldarlığının qlobal səviyyəsini artırmaq mümkün deyildi. Eyni zamanda, onlar tez-tez qeyri-sabit (keçid) iqtisadiyyatı olan dövlətlərin suverenliyi üçün təhlükəyə çevrilirlər. |

Cədvəl 1-in təhlili göstərir ki, transmilli korporasiyalar öz maliyyə gücünü və nüfuzlu siyasi dəstəyi rəqiblərini aradan qaldırılmaq məqsədilə davamlı olaraq həyata keçirdikləri birləşmələr və satınalmalar, eləcə də etibarlı şəxslərini dünya elitasının hakim dairələrinə yerləşdirməklə böyük kapitalların yığılması zamanı əldə edilmişdir.

Transmilliləşmə və qloballaşma bir-birilə sıx və düz mütənasib “tellərlə” bağlıdır. Qloballaşmaya transmillləşmənin məntiqi nəticəsi kimi baxıla bilər. Qloballaşmanın tarixi “Səlib yürüşləri” (1095-1291) dövrünə təsadüf edir, “Böyük coğrafi kəşflər” dövrü isə qloballaşmanın birinci dalğasına əlavə ətalət verdi. Nəqliyyat sektorundakı irəliləyişlər dünya ticarətinin inkişafı üçün universal təkan rolunu oynamışdır. Dünya ticarətinin çiçəklənməsi nəticəsində qloballaşmanın ikinci dalğasının başlanğıcında dünya gəlirlərinin həcmində ixracın payı 2 dəfə artaraq 8% təşkil etmişdir. Cədvəl 2-də qloballaşma dalğalarının strukturu göstərilir:

**Cədvəl 2. Qloballaşma dalğalarının strukturu**

| Qloballaşma | İllər | Dövr |
|---|---|---|
| Birinci dalğa | 1095–1291 | Səlib yürüşləri |
| | 1241–1778 | Böyük coğrafi kəşflər |
| İkinci dalğa | 1778–1914 | Sənaye inqilabı |
| Dünya müharibələri | 1914–1945 | Böyük Depressiya |
| Üçüncü dalğa | 1945–1970 | İdeyaların yaranması |

| | | |
|---|---|---|
| Dördüncü dalğa | 1970–1980 | Elmi-texniki tərəqqi |
| | 1980–2000 | Dünya inteqrasiya ittifaqları |
| | 2000 – bu günə qədər | Şəbəkə qloballaşması |

"Böyük coğrafi kəşflər" dövrü (1241-1778) insanları yaşamaq və ya işləmək üçün daha yaxşı yer tapmaq ümidi ilə kütləvi köçə doğru sövq etdi. Bu dövrdə təxminən 60 milyon insan (və ya dünya əhalisinin təxminən 10%-i) Avropa qitəsindən Yeni Dünyaya köç etdi. Bu dövr feodal inhisarlarının və azad ticarətin məhvi ilə yadda qaldı.

Qloballaşmanın ikinci dalğası (1778-1914) "Sənaye İnqilabı" dövründə başladı. Bu dövrdə fabriklərdə istehsalın mexanikləşdirilməsi və təmərküzləşməsi baş verir, daxili proteksionizm və xarici ticarət azadlığına diqqət yetirilir.

Lakin imperializm və müstəmləkəçilik qloballaşmanın ikinci dalğasını kəskinləşmə rejiminə aparır və əsrin əvvəllərində (1914-1945) mövcud sistemdə uğursuzluq yaranır ki, bu da silsilə dünya müharibələrinə səbəb olur. Birinci Dünya müharibəsindən sonra ticarət maneələri və tarifləri dövrü başladı. Dünya iqtisadi artımı dayandı və qlobal gəlirdə ixracın payı 1870-ci il səviyyəsinə düşdü.

İkinci Dünya müharibəsindən sonra 1945-ci ildən 1980-ci ilə qədər davam edən üçüncü qloballaşma dalğası baş verdi. Şərti olaraq bu qloballaşma dalğasını "İdeyaların yaranması" (1945-1970) və "Elmi-texniki tərəqqi" (1970-1980) dövrünə bölmək olar.

Qloballaşmanın üçüncü dalğası Avropa, Şimali Amerika və Yaponiya ölkələri arasında beynəlxalq inteqrasiyadan çoxtərəfli ticarətin liberallaşdırılması vasitəsi kimi istifadə edərək ticarət əlaqələrinin bərpası ilə başladı.

Bu dövrdə iqtisadi artım əsasən "İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı"na üzv olan ölkələrdə cəmləşmişdi. 1948-ci ildə yaradılan bu təşkilat "Marşal Plan"ı çərçivəsində Avropanın iqtisadi bərpası üçün layihələri əlaqələndirmək üçün nəzərdə tutulmuşdu. Lakin bu inteqrasiya dalğası praktiki olaraq inkişaf etməkdə olan ölkələrə təsir etmədi.

1980-ci ildə qloballaşmanın dördüncü dalğası yarandı və bu gün də davam edir. Bu, elm, informasiya texnologiyaları, istehsal və marketinqin inteqrasiyası, eləcə də iqtisadiyyatlarını beynəlxalq ticarətə açarkən xarici sərmayələri cəlb etmək üçün aktiv siyasət yürüdən və inkişaf etməkdə olan ölkələrin hərəkətləri ilə bağlı irəliləyişlərin birləşməsi ilə təkan verdi.

1980-2000-ci illərdə "Dünya İnteqrasiya Birlikləri"nin yeni mərhələsi fəal şəkildə davam edirdi. Proses çərçivəsində qlobal tənzimləmə və qloballaşma institutlarının formalaşması prosesi başladı. 2000-ci ildən "Şəbəkə Qloballaşması" dövrü başladı ki, bu dövrdə şirkətlər öz bizneslərini idarə etmək və onlara nəzarət etmək üçün müasir informasiya texnologiyalarından fəal şəkildə istifadə etməyə başladılar.

## ƏDƏBİYYAT

1. Gənciyev G., Ələkbərov Ə. Transmilli Korporasiyalar. Bakı: 2007.
2. The Coming of Post-Industrial Society. New York: Basic Books, 2018.
3. Гороховская О.А. Потенциальные стратегические изменения в политике ТНК. Москва: 2012.
4. Исаченко Т.М. ТНК в современных международной экономическе. Москва: 2011.
5. Губайдуллина Ф.С. Крупные ТНК на новых рынках. Москва: 2011.
6. Клычев Т.Ю. Перспективы развития ТНК на мировом рынке. Москва, 2014.
7. Локотош Я.В. ТНК и их роль в мировых политико-экономических процессах. Москва: 2014.
8. Плешков А.М. Инвестиционная деятельность ТНК. Москва: 2014.
9. Robertson R. Globalization: social theory and global culture. London: Sage, 1992.
10. Dunning C.H. The Globalization of Business. London: Routledge, 1993.

**SUMMARY**

**Elshan Nasirov**
**Dilruba Gasimova**

**HISTORICAL ASPECTS OF TRANSNATIONAL CORPORATIONS**

The scientific article examines the history and reasons for the creation of transnational corporations, as well as the stages of their development.

The article also considers the transnationalization of the world economy in the context of globalization, the structure of the waves of globalization, the essence and basic conceptual principles of the organization of transnational corporations, trends in the development of international integration, the place and role of transnational companies in international integration and other issues.

From a hypothetical point of view, the article emphasizes that the genesis of transnational corporations can be associated with the era of colonial expansion at the end of the 15th century, when colonies were organized by leading states for access to mineral resources and agricultural products.

The author states that world wars, a fierce struggle for resources, the technologization of society, globalization, post-industrialization and the evolution of international finance are all trends and changes that are directly related to the development of transnational corporations.

For a clearer idea of the evolution of transnational corporations, the article presents two tables as a visual aid: "The evolution of transnational corporations in the world economy" and "The structure of globalization waves".

The first table lists the historical periods that make up the evolution of transnational corporations and the characteristic features of each period individually. The second table shows the historical chronology of globalization processes.

The scientific article also has carried out an in-depth analysis of the processes of evolution of transnational corporations in the world economy and substantiated the inevitability of these processes.

***Key words:*** *Transnationalization, transnational corporations, globalization, transnational expansion, industrial revolution, scientific and technological progress, network globalization, technologies, üorld integration unions, energy, nuclear power, electronics, space industry, device engineering, machine building*

**РЕЗЮМЕ**

**Эльшан Насиров**
**Гасымова Дилруба**

**ИСТОРИЧЕСКИЕ АСПЕКТЫ ТРАНСНАЦИОНАЛЬНЫХ КОРПОРАЦИЙ**

В научной статье рассматриваются история и причины создания транснациональных корпораций, а также этапы их развития. Транснационализация мирового хозяйства в условиях глобализации, структура волн глобализации, сущность и основные концептуальные принципы организации транснациональных корпораций, тенденции развития международной интеграции, место и роль транснациональных компаний в международной интеграции и др. вопросы рассматриваются с объективной точки зрения. В статье акцентируется гипотетический момент, согласно которому генезис транснациональных корпораций можно проследить до конца XV века, периода колониальной экспансии, организованной ведущими государствами для получения доступа к минеральным ресурсам и сельскохозяйственной продукции колоний. Таким образом, мировые войны, ожесточенная борьба за ресурсы, технологизация общества, глобализация, постиндустриализация и эволюция международных финансов - все это тенденции и изменения, непосредственно связанные с развитием транснациональных корпораций.

Для лучшего понимания эволюции транснациональных корпораций в качестве наглядного пособия в статье представлены две таблицы: «Эволюция транснациональных корпораций в мировой экономике» и «Структура волн глобализации». В первой таблице

перечислены исторические периоды, составляющие эволюцию транснациональных корпораций, и характеристики каждого периода. Во второй таблице показана историческая хронология процессов глобализации.

В научной статье также глубоко анализируются эволюционные процессы транснациональных корпораций в мировой экономике и обосновывается неизбежность этих процессов.

***Ключевые слова:*** *транснационализация, транснациональные корпорации, глобализация, транснациональная экспансия, промышленная революция, научно-технический прогресс, сетевая глобализация, технологии, мировые интеграционные объединения, энергетика, атомная энергетика, электроника, космическая промышленность, приборостроение, машиностроение.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə fəlsəfə doktoru, dosent Ceyhun Mahmudov*
***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 105-110
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 105-110
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 105-110

**NƏSRİN ƏLİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*nesrin.lyv06@gmail.com*

**UOT: 336.**

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ DÖVLƏT BORCU VƏ ONUN TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

*Dövlət borcalmaları ölkənin sosial-iqtisadi inkişafına yönəldilmiş proqramların həyata keçirilməsini təmin etmək, dövlət büdcəsinin kəsirini örtmək, dövlət investisiyalarını maliyyələşdirmək və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilən digər məsələlərin həlli məqsədi ilə həyata keçirilir. Dövlət borcu daxili və xarici dövlət borcundan ibarət olmaqla respublikamızın təxirəsalınmaz sosial-iqtisadi xərclərinin maliyyələşdirilməsi və büdcə kəsirinin yerinin doldurulması üçün Azərbaycan Respublikası hökumətinin hüquqi və fiziki şəxslərə, habelə xarici dövlətlərə müvafiq faiz ödənilməklə qaytarılmalı olan, milli və xarici valyuta ilə ifadə edilmiş borc öhdəlikləridir. Xarici borclar, dövlətin xarici bazarlardan borcları əldə etməsidir. Bu cür borc ilə dövlətə əlavə istehsal və investisiya qoymaq şəraiti yaranır və ölkə mənbələri artır.*

*Dövlətin zamanətçi və borc alan kimi çıxış etdiyi münasibətlər dövlət borcu kimi xarakterizə olunur. Adətən, bütün ölkələrdə dövlət kreditindən yaranan borclar dövlət borclarının tərkibində üstünlük təşkil edir. Bu da dövlət borcunun mahiyyətindən irəli gəlir.*

*Bu məqalədə Azərbaycan Respublikasının xarici dövlət borcu, onun idarə olunması və bu borcların tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərindən bəhs olunur. Məqalədə borcların əldə olunma mənbələri, müddətinə görə növləri, borcların yaranma səbəbləri, daxili mənbələrdən əldə olunan borclarla xarici mənbələrdən alınan borcların mənfi və müsbət cəhətləri, borcların idarə olunması mərhələləri və tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri kimi əsas məsələlər ön plana çəkilmişdir.*

***Açar sözlər**: xarici borc, dövlət borcu, Azərbaycan, idarəetmə, öhdəlik, tənzimlənmə*

Müasir dövrdə dövlətin öhdəsinə düşən vəzifələrin sayı kifayət qədər artmışdır. Dövlət öz üzərinə düşən vəzifələri səmərəli şəkildə idarə etmək üçün müxtəlif gəlir mənbələrinə malikdir. Həmçinin bundan əlavə dövlət müəyyən məsələləri həll etmək üçün müəyyən mənbələrdən borclar əldə edir.

"Dövlət Borcu" haqqında Azərbaycan Respublikasının Qanununda dövlət borcu daxili və xarici dövlət borcundan ibarət olmaqla respublikamızın təxirəsalınmaz sosial-iqtisadi xərclərinin maliyyələşdirilməsi və büdcə kəsirinin yerinin doldurulması üçün Azərbaycan Respublikası hökumətinin hüquqi və fiziki şəxslərə, habelə xarici dövlətlərə müvafiq faiz ödənilməklə qaytarılmalı olan, milli və xarici valyuta ilə ifadə edilmiş borc öhdəlikləridir [1].

Dövlət borcları ən əsas aşağıdakı bəzi əlamətlərinə görə qruplaşdırılır:

- müddətinə görə dövlət borcları;
- mənbəyinə görə dövlət borcları.

Dövlət borcunun başlıca xüsusiyyətlərindən biri onun əhatə etdiyi müddətdir. Dövlət borcları müddətinə görə iki qrupa bölünür. Qısamüddətli və uzunmüddətli dövlət borcları.

Qısamüddətli borclar miqdar baxımından davamlı olaraq dəyişmələr (azalma və çoxalma) göstərir. Uzunmüddətli dövlət borcları investisiya xərcləri xarakteri daşıyır və kapital, yaxud kredit bazarlarından qaynaqlanır. Uzun müddətdən sonra ödənilən borclara "təhkim edilmiş borclar" deyilir və onlar da iki hissəyə bölünür:

1) Qaytarılma müddəti dəqiq olan borclar - dövlətin borc dəftərində qeyd olunan, istiqrazlar

satılan və ya buraxılan zaman dəqiq ödəmə tarixləri müəyyən edilmiş borclardan ibarətdir.

2) Daimi borclar da dövlətin borc dəftərində qeydiyyatdan keçir. Belə borcların qaytarılma vaxtı əvvəlcədən müəyyən edilmir.

Dövlət borcları əldə olunduğu mənbələr baxımından daxili və xarici borclara bölünür. Ümumilikdə daxili mənbələrdən borclanma xarici mənbələrdən borclanmağa görə daha məqsədə uyğundur. Lakin Azərbaycanda, dövlət borclarının tərkibində daxili borclar xarici borclarla müqayisədə azlıq təşkil edir. Bu da, ölkədə dövlət qiymətli kağızlar bazarının və maliyyə bazarlarının yenicə formalaşmağa başlamasından irəli gəlir. Maliyyə bazarının nisbətən zəif inkişaf etdiyi ölkələrdə xarici dövlət borcları güclü iqtisadi sistemə malik dövlətlərdə isə daxili dövlət borcları üstün paya malikdir.

Dövlət öz borcunu daxili və xarici mənbələrdən əldə edir.

Xarici mənbələr: Xarici dövlətlərin hökumətləri, Beynəlxalq maliyyə-kredit təşkilatları, Xarici kommersiya bankları, Fərdi və institusional investorlar və s.

Daxili mənbələr: Mərkəzi Bank, Kommersiya bankları, Fiziki və hüquqi şəxslər, Dövlətn xüsusi maliyyə fondları və s.

Daxili dövlət borclarının xarici borclanmaya görə bir sıra üstün cəhətləri var:

1. Daxili borclanma xarici borclanmadan daha asandır. Dövlət daxili maliyyə bazarından borclanarkən, təklif etdiyi qiymətli kağızlar müqabilində pul vəsaitlərini daha tez müddət ərzində əldə edərək ehtiyaclarını qarşılamış olur.

2. Daxili borclar milli valyuta ilə cəlb olunmuş olur ki, beləliklə dövlətin borc yükündə xarici valyutalar üzrə məzənnə riski istisna olunur.

3. Borclara görə faizlər daxili subyektlərə ödənildiyi üçün son nəticə olaraq borca görə dövlət xərcləri ölkə iqtisadiyyatına xidmət etmiş olur [3].

Azərbaycanda daxili dövlət borcunun əsas vasitələri aşağıdakılardır:

- Dövlət qiymətli kağızları;
- Mərkəzi Bank və dövlət zəmanəti ilə Azərbaycan Respublikasının digər maliyyə-kredit təşkilatlarından alınmış kreditlər;
- Daxili dövlət borcunun digər vasitələri;
- Qısa və orta müddətli dövlət İstiqrazları;
- Mərkəzi Bankın notları [1].

Xarici borclar, dövlətin xarici bazarlardan borcları əldə etməsidir. Bu cür borc ilə, dövlətə əlavə istehsal və investisiya qoymaq şəraiti yaranır və ölkə mənbələri artır. Xarici borcların artması təhlükəlidir. Çünki, çox borclandıqda borcun faiz maliyyəti də artmış olur və xarici borc inzibatçılığında ölkənin inflyasiya ilə qarşılaşma riski də artır. Xaricdən borclanmanın davam edə bilməsi üçün yerli pula dəyər vermək lazımdır.

Dövlət borclarının əsas yaranma səbəbləri aşağıdakı kimi qruplaşdırılır:

- fövqəladə vəziyyətlər nəticəsində yaranan xərclərin maliyyələşdirilməsi üçün alınan borclar;
- tədiyə balansının tarazlaşdırmaq üçün əldə olunan borclar;
- mövcud olan borcları ödəmək üçün alınan borclar;
- dövlətin investisiyalarını maliyyələşdirmək;

Dövlətlərin borc vəsaitlərinə müraciət etmə səbəbləri onların iqtisadi məqsəd və maraqları müxtəlif olduğu üçün fərqlənir. Məsələn, inkişaf etmiş ölkələrdə dövlət borcları müvəqqəti büdcə kəsirlərinin aradan götürülməsi, texnologiyanın inkişafı, beynəlxalq səviyyədə böyük layihələrin həyata keçirilməsi və fövqəladə xərclərin maliyyələşdirilməsi üçün əldə edildiyi halda, inkişaf etməkdə olan ölkələrdə daha çox iqtisadi inkişafın sürətini əngəlləyən səbəblər dövlətin borc almasına gətirib çıxarır [3].

Dövlət borcları yaranma səbəblərinə görə və onların təsirləri baxımından olduqca müxtəlifdir. Dövlətin borc vəsaitlərinə müraciət etməsinin üstünlükləri olduğu kimi, onun müxtəlif mənfi təsirləri də vardır. Beləliklə, dövlət borclarının mənfi təsirlərini aşağıdakı kimi göstərmək olar:

- Pul vəsaitləri iqtisadiyyatın gəlirli sahələrindən dövlət borclarının ödənilməsinə yönəldildiyi üçün, iqtisadiyyatın səmərəliliyinin aşağı düşməsinə gətirib çıxarır;

- Gəlirin özəl sektordan dövlət sektorlarına axını başlayır və bu zaman gəlir bölgüsündə bərabərsizlik meydana gəlmiş olur;
- Borcun faiz məbləği üçün lazım olan vəsait vergiləri çoxaldır;
- Uzun müddətə inflyasiya riskinin meydana gəlməsinə səbəb olur;
- Dövlət borcu gələcək nəsillərə borc yükü ötürür və onların rifahı aşağı düşür;
- Xarici borcun əsas məbləği və yaxud faiz məbləğini ödəmək üçün ümumi daxili məhsulun bir hissəsi xaricə verilir;
- Valyuta və borc böhranına gətirib çıxarda bilər [2].

İllər üzrə xarici borcların məbləği mln manat ilə;

| İl | Xarici dövlət borcu | Xarici dövlət borcunun ÜDM-də payı (%) |
|---|---|---|
| 2018 | 15 mlrd. 978,1 mln. Manat | 22.8 |
| 2019 | 15 mlrd.164.1 mln. Manat | 19.0 |
| 2020 | 16 mlrd. 682,6 mln. Manat | 24.5 |
| 2021 | 14 mlrd. 625,8 mln. Manat | 18.2 |

Dövlət borclarının idarə olunması mərhələləri;

Dövlət borclarının idarə edilməsi zamanı ilk olaraq meydana çıxan vəsait çatışmazlığının aradan qaldırılması üçün maliyyə mənbəyinin tapılmasından başlanır.

Əldə olunan vəsaitlərin səmərəli şəkildə istifadəsini təmin etmək dövlət borclarının idarə edilməsi prosesindəki növbəti vəzifələrdən biridir. Çünki bu vəzifə borcların idarə edilməsi prosesinin əsasını təşkil edir.

Borc vəsaitlərinin ödənilməsi üçün pul fondlarının səfərbər edilməsi dövlət borclarının idarə edilməsi prosesində növbəti və əsas vəzifələrdən biridir. Bu mərhələ borc vəsaitlərinin istifadə səviyyəsi ilə sıx bağlıdır. Pul fondlarının səfərbər edilməsi idarəetmənin sonrakı mərhələsinə, yəni dövlət borclarının ödənilməsinə xidmət edir.

Borc vəsaitlərinin qaytarılması dövlət borcunun idarə edilməsi prosesində sonuncu mərhələni təşkil edir. Bu, sözügedən prosesin əsas mərhələsini təşkil edir.

Bütövlükdə dövlət borcu münasibətlərinin səmərəliliyi ayrı-ayrılıqda qeyd etdiyimiz mərhələlərin hər biri ilə sıx bağlıdır. Beləliklə, aydın olur ki, dövlət borclarının idarə edilməsi həm də bu mərhələlərin ayrı-ayrılıqda idarə edilməsi deməkdir.

Dövlət borclarının tənzimlənməsi dövlət borclarının səmərəli idarə edilməsinə əhəmiyyətli təsir göstərir. Respublikamızda da dövlət borclarının tənzimlənməsində müxtəlif problemlər mövcuddur. Bu problemlərin uğurlu həlli üçün Azərbaycanda dövlət borclarının tənzimlənməsi sistemi təkmilləşdirilməlidir. Ona görə də, dövlət borclarının tənzimlənməsini təkmilləşdirərək mövcud problemlərin tezliklə həllini tapmaq olar:

Dövlət borclarını tənzimləmək üçün dövlət borc götürən zaman dövlətin borc vəsaitinə müraciət etmə səbəbləri geniş müzakirə edilməlidir. Borc münasibətinə qoşulmamışdan öncə səbəblər dəqiq araşdırılmalı, əldə olunacaq borc vəsaitinin hansı məqsədlə istifadə olunması tamamilə reallığa uyğun olmalıdır.

Alınan borcların effektiv istifadəsi həyata keçirilməlidir. Bəzən əldə olunan borcların dəyər gətirməyən layihələrin maliyyələşdirilməsi üçün istifadə edilməsinin şahidi oluruq. Bunun nəticəsində isə, kredit portfeli şişərək, dövlət borclarının idarə edilməsini çətinləşdirir. Ona görə cəlb olunan borc vəsaitləri səmərəli şəkildə və mənfəət gətirən sahələrdə istifadə olunmalıdır. Bunun üçün isə, Maliyyə Nazirliyi tərəfindən dövlət borcları üzrə İcmal Hesabat hazırlanmalı, xüsusilə xarici borcların alınma məqsədləri, təyinatı üzrə istifadə vəziyyəti dəqiqliklə əks olunmalı və ictimaiyyətə açıqlanmalıdır.

Xarici borcların idarə edilməsinin kompleks sistemi formalaşdırılmalıdır. Azərbaycanda xarici borcların idarə edilməsi prinsiplərini təkmilləşdirmək üçün ilk öncə korporativ idarəetmə sistemi təşkil olunmalıdır.

Dövlət borclarının monitorinqi müntəzəm olaraq həyata keçirilməlidir. Xarici borcların mənbələri, sektorlar üzrə bölgüsü, xüsusi sektorun borclanma yükü, cəlb edilmiş xarici borcların səmərəli istifadə edilməsi, risklərin qiymətləndirilməsi və xarici borc qalığının digər makroiqtisadi gostəricilərə uyğunluğu kimi amillər monitorinq prosesinin obyekti olmalıdır.

Qeyri-neft sektorunun inkişafına dəstək artırılmalıdır. İllik borclanma limiti azaldılmalıdır.

Daxili borc bazarını inkişafına şərait yaradılmalıdır. Daxili borcları xarici borclara nisbətən daha asan və daha tez almaq olur. Lakin, Azərbaycanda daxili borc bazarı yüksək səviyyədə inkişaf etməyib. Əhalinin dövlətə borc vermək istəməməsinin səbəbi isə qiymətli kağızlar bazarının inkişaf etməməsi, dövlətə verilmiş borcların qaytarılacağına ümidin olmaması, yəni dövlətə inamın zəifliyi kimi amillərdir. Dövlətə olan inamın artırılması üçün daxili borc bazarı inkişaf etdirilməlidir. Bunun üçün isə, qiymətli kağızlar bazarı yenidən qurulmalı, təkmilləşdirilməli və daxili maliyyə bazarının qanunvericilik bazası formalaşdırılmalı və daxili borclanma üçün vasitələr artırılmalıdır.

Dövlət borclarının səmərəli idarə edilməsi üçün Hesablama Palatasının səlahiyyətləri artırılmalıdır. Bildiyimiz kimi, dövlət borclarının yaranması birbaşa olaraq büdcənin gəlir və xərclərinin icrası ilə bağlıdır. Dövlət büdcəsinin gəlir və xərclərin icrasına nəzarəti isə Hesablama Palatası həyata keçiririr. Borc vəsaitlərin məqsədli və səmərəli istifadəsi üçün Hesablama Palatasına əlavə səlahiyyətlərin verilməsi məqsədəuyğundur.

Azərbaycan Respublikasının Dövlət Borclarının İdarə Edilməsi Agentliyinin fəaliyyəti uğurlu dünya təcrübəsinə əsaslanmalıdır. İEÖ-də sırf dövlət borclarının idarə edilməsi ilə məşğul olan xüsusi borc menecerləri fəaliyyət göstərir. Borc menecerlərinin vəzifələrinə dövlət borcları ilə bağlı məlumatların toplanması, dövlət borclarının planlaşdırılması, hökumətin öhdəliklərin vaxtında və dəqiqiliklə həyata keçirilməsi, borc portfelinin dəyərini və əlaqəli risklərin məqbul səviyyədə saxlanması məsuliyyəti və hökumətin borc strategiyasını həyata keçirmək daxildir. Azərbaycanda da xarici dövlət borcunun milli iqtisadi səmərəsini artırılması prioritetlərindən biri ölkəyə cəlb edilən xarici kreditlərin strukturunun dəyişdirilməsi, istifadə formaları və istiqamətlərinin müəyyən qaydalar və normalar əsasında tənzimlənməsi problemi ilə bağlıdır. Bu, ölkəyə hər üç istiqamətdə, yəni birbaşa hökumətin məqsədlərinə, hökumət vasitəsilə icraçı subyektlərə və dövlət zəmanəti əsasında yerli təsərrufat subyektlərinə cəlb olunan xarici kreditlərin hər birinin xüsusi proqram daxilində perspektiv olaraq qiymətləndirilməsini nəzərdə tutur. Beləliklə, ölkəyə cəlb edilən xarici kreditlərin strukturunun təkmilləşdirilməsi üçün aşağıdakılar mühümdür:

- dövlət zəmanəti əsasında təsərrüfat subyektlərinə verilən xarici kreditlərin limitini yüksək səviyyədə müəyyənləşdirmək və beynəlxalq maliyyə institutları tərəfindən təsbit olunan limit göstəricilərin dövlət zəmanətli xarici kreditlərinə şamil edilməməsi;
- bütün bunlardan əlavə iqtisadiyyatın sahələri üzrə xarici kreditlərin strukturunun təkmilləşdirilməsi məqsədilə dövlət proqramlarının tərkib hissəsi olaraq prioritet istiqamətlərin məsələn, qeyri-neft sektorunun və ya regional iqtisadi inkişafın ön plana çəkilməsi.

Dövlət borcunun tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi məsələsi dövlət zəmanətli xarici kreditlərin xarici dövlət borcunun tərkibində payının artırılması probleminə istiqamətlənmişdir. Bu istiqamətdə səmərəli idarə olunma mexanizminin yaradılması, eyni zamanda dövlət zəmanəti ilə ölkəyə cəlb olunan birbaşa xarici kreditlərin iqtisadi səmərəsinin artırılması, o cümlədən ölkənin investisiya ehtiyacının qarşılanması məqsədilə yeni modelin həyata keçirilməsini zəruridir. Bu modelin başlıca prinsipləri dövlət zəmanətli xarici kreditlərin istifadəsinin səmərəliliyin təmin olunması və güclü nəzarət mexanizminin yaradılmasından ibarətdir.

Azərbaycan dövlət borcnunun tənzimlənməsi mexanizmində ciddi boşluqlardan biri kredit olmayan dövlət borclarının idarə edilməsi ilə bağlı alt mexanizmin olmaması, bu öhdəliklər üzrə borcun qaytarılması reqlamentinin müəyyənləşdirilməməsi ilə bağlıdır. Kredit olmayan dövlət borclarının idarə edilməsinin ilkin şərti borc vəsaitinin qaytarılması üçün maliyyə mənbəyinin təsbit edilməsidir.

Azərbaycanda bu mənbələr kimi aşağıdakıları müəyyənləşdirməlidir:
- dövlət büdcəsi
- büdcədənkənar dövlət fondları
- bu məqsədlə cəlb edilən xarici kreditlər
- borcların müxtəlif formalarda qarşılıqlı əvəzləşdirilməsi

Ölkəmizdə dövlət borcu siyasətinin prioritetlərindən biri daxili borc bazarının inkişaf etdirilməsi və bunun əvəzində milli iqtisadi təhlükəsizlik baxımından həssas olan birbaşa xarici kreditlərin daxili kreditlərlə əvəz olunmasından ibarətdir.

Azərbaycanda təkcə fiskal tarazlığın təmin edilməsi məqsədilə deyil, bilavasitə investisiya layihələrinin maliyyələşdirilməsi məqsədilə borc öhdəlikli maliyyə alətlərinin yerləşdirilməsi üçün hər şeydən öncə bu məsələ müvafiq qanunvericilik bazasında müəyyənləşdirilməlidir.

Azərbaycanda dövlət borcunun tənzimlənməsi mexanizminin təkmilləşdirilməsinin digər ümumi istiqaməti borc öhdəlikli dövlət qiymətli kağızlar bazarının inkişaf potensialı ilə bağlıdır. Bu seqmetin maliyyələşdirilməsi üçün aşağıdakıların həyata keçirilməsi vacibdir:

1. Dövlət qiymətli kağızlar bazarının qanunvericilik bazasının inkişaf etdirilməsi;
2. Müxtəlif növ və tədavül şərtlərinə malik borc öhdəlikli yeni dövlət qiymətli kağızlarının dövriyyə buraxılması;
3. Dövlət qiymətli kağızlar bazarının təkmilləşdirilməsi, o cümlədən investorların strukturunun genişləndirilməsi [3].

## ƏDƏBİYYAT

1. Dövlət borcu haqqında Azərbaycan Respublikasının qanunu.
2. Hüseynov A.A., Xarici dövlət borcu və iqtisadi inkişaf məsələləri. Bakı: 2009.
3. Ağayev A.Q. Dövlət borcu və onun idarə edilməsi, monoqrafiya. Bakı: 2002.

## SUMMARY

**Nasrin Aliyeva**

**THE FOREIGN STATE DEBT OF THE REPUBLIC OF AZERBAIJAN AND THE DIRECTIONS OF IMPROVING ITS REGULATION**

The state debt is carried out with the aim of ensuring the implementation of programs aimed at the socio-economic development of the country, covering the state budget deficit, financing public investments and solving other issues defined by the legislation of the Republic of Azerbaijan. The state debt, consisting of internal and external public debt, is the debt obligations of the Government of the Republic of Azerbaijan, expressed in national and foreign currency, which must be returned to legal entities and individuals, as well as to foreign states with the payment of appropriate interest to finance urgent socio-economic expenditures of our republic and fill the budget deficit.

Foreign debt is the acquisition by the state of debts from foreign markets. With this type of debt, conditions are created for additional production and investment in the state, and Country resources are growing. Relations in which the state acts as a guarantor and borrower are characterized as public debt. Usually, in all countries, the structure of public debt is dominated by debts formed at the expense of public credit. And this follows from the essence of the national debt.

.This article deals with the foreign state debt of the Republic of Azerbaijan, its management and directions for improving regulation.

The article highlights such key issues as the sources of obtaining debts, their types according

to their duration, the causes of the emergence of debts, the negative and positive aspects of borrowing from external sources with debts obtained from internal sources, the stages of debt management and directions to improve its regulation.

***Key words:*** *foreign debt, public debt, Azerbaijan, management, obligations, regulation*

## РЕЗЮМЕ

**Насрин Алиева**

## ВНЕШНИЙ ГОСУДАРСТВЕННЫЙ ДОЛГ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ ЕГО РЕГУЛИРОВАНИЯ

Государственные заимствования осуществляются в целях обеспечения реализации программ, направленных на социально-экономическое развитие страны, покрытия дефицита государственного бюджета, финансирования государственных инвестиций и решения других вопросов, определенных законодательством Азербайджанской Республики. Государственный долг, состоящий из внутреннего и внешнего государственного долга, представляет собой долговые обязательства правительства Азербайджанской Республики, выраженные в национальной и иностранной валюте, которые должны быть возвращены юридическим и физическим лицам, а также иностранным государствам с уплатой соответствующих процентов для финансирования неотложных социально-экономических расходов нашей республики и восполнения дефицита бюджета. Внешний долг-это приобретение государством долгов с внешних рынков. При таком долге создаются условия для дополнительного производства и инвестиций государства, увеличиваются ресурсы страны.

Отношения, в которых государство выступает гарантом и заемщиком, характеризуются как государственный долг. Обычно во всех странах в структуре государственного долга преобладают долги, возникающие за счет государственного кредита. И это вытекает из сущности государственного долга.

В данной статье говорится о внешнем государственном долге Азербайджанской Республики, его управлении и направлениях совершенствования регулирования. В статье на первый план выдвигаются такие основные вопросы, как источники образования задолженности, ее виды по срокам, причины образования задолженности, плюсы и минусы заимствований из внешних источников с заимствованиями из внутренних источников, этапы управления задолженностью и направления совершенствования ее регулирования.

***Ключевые слова:*** *внешний долг, государственный долг, Азербайджан, управление, обязательства, регулирование.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*

***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*

***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 111-114
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 111-114
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 111-114

**HÜMEYRƏ MUSTAFAYEVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*humeyramustafayeva12@gmail.com*

**UOT: 930.85.**

# QLOBALLAŞMA, MƏDƏNİYYƏT VƏ İNKİŞAF

*Qloballaşma özünün bütün ziddiyyətli təzahürlərinə baxmayaraq, müasir ictimai inkişafın obyektiv meylidir. Bu prosesin müxtəlif dövlətlərə təsir imkanları çoxaspektlidir və fərqli xüsusiyyətlərə malikdir. Məqalədə bu təsiri şərtləndirən amillər təhlil olunur və müəyyən ümumiləşdirmələr aparılaraq qarşılıqlı təsiri optimallaşdırmağın zəruriliyi əsaslandırılır. Dünya ölkələri nümunəsində ciddi sosial-siyasi, mədəni ehtiyatların mövcudluğuna xüsusi diqqət yetirilir. Qloballaşma tendensiyası sosial inteqrasiya meylinin davamı və müasir formasıdır. Bu, rasionallaşma tendensiyası ilə sıx bağlıdır, çünki bütövlükdə dünya ümumi rasional qaydalara uyğun olaraq dəyişir. Müasir ictimai inkişafın paradokslarından biri ondan ibarətdir ki, sosial inteqrasiya müasir sivilizasiyanın böhranının səbəblərindən biri olan dünyanın birləşməsinə gətirib çıxarır. Müəllif məqalədə qloballaşma şəraitində müxtəlif xalqların mədəni əlaqələrinin genişlənməsi ilə yeni-yeni müsbət təcrübələrin qazanılmasını, mədəniyyətin zənginləşməsini, mədəni dəyərlərin mübadiləsini, yüksək inkişaf səviyyəsinə çatmasını araşdırır. Bu gün dünyada, mədəniyyətlər və sivilizasiyalararası dialoqun təşviqində, həmçinin multikultural dəyərlərin təbliğ olunmasında cəmiyyətlərdə müxtəlif metodlardan istifadə olunur. Belə bir şəraitdə dünyanın gələcəyinin mədəniyyətlərarası münasibətlərdən asılı olması tam ciddiliyi ilə meydana çıxır. Bu baxımdan xalqlar bir-birinin varlığını qəbul etməli, bir-birinə hörmətlə yanaşmalı və müasir dünyanın birgəyaşayış prinsiplərinin məsuliyyətini anlamalıdırlar. Müasir dövrdə ümumdünya reallığında baş vermiş insanlararası münaqişələrin aradan götürülməsi yolları kimi etnik, mədəni və dini müxtəlifliklərin müdafiəsi, konsensus və eləcə də dialoq istiqamətində həlli yolları açıqlanır.*

***Açar sözlər:*** *qloballaşma, mədəniyyət, dil, vətəndaş cəmiyyəti*

Qloballaşmanın gücü bəzi siyasi, mədəni və iqtisadi münasibətlərin təhlil olunmasında dünya bazarı və kommunikasiya texnologiyalarının inkişafı ilə ölçülür.

Qloballaşma xüsusilə həyata təsir göstərməkdədir. Əslində bu proses qloballaşmanın gücünün əlamətidir. Elitalar bir-birindən fərqlənən qloballaşmanın uzunmüddətli nəticələri haqqında maraqlı fikirlər irəli sürürlər.

**2. Qloballaşmanın mədəni aspektləri**

Müasir dil oyunları ingilis-amerikan kökündən olan sözlərinköməkliyi ilə Almaniyada mədəni qloballaşma problemlərini anlamaq üçün vacib şərt hesab olunur. Bilirik ki, ingilis dili beynəlxalq ünsiyyət vasitəsinə çevrilərək hər kəs tərəfindən təsdiq olunmuş beynəlxalq müasir dil statusunu almışdır. Demək olar ki, qloballaşmanın hər bir bələdçisi ünsiyyət yaratmaq üçün ingilis dilindən istifadə edir. Almaniya Federativ Respublikasında ingilis dilində olan bəzi sözlər müxtəlif sahələrdə danışıq dilinə daxil olmuşdur. Məsələn bəzi terminləri misal gətirə bilərik. “hadisə”- (event), “möhtəşəm” (performance), “zövq almaq” (groove), “xoşbəxt” (happy) və ya “əla” (cool). Demək olar ki, bu və ya digər sözlər xüsusilə alman gənclərinin danışığında ən çox işlənən sözlərə çevrilmişdir. İngilis dilinin müasir alman dilinin semantik sahələrinə sürətlə müdaxiləsi açıq-aşkar alman cəmiyyətinin ayrı-ayrı gündəlik həyatına təsir etməkdədir. Məsələn, kompüterlə bağlı elektron terminlərin gündəlik həyatda istifadə olunması. Bunun nəticəsində gündəlik həyatın müxtəlif sahələrinə və həmçinin texnologiya sahələrinə də bu sözlər müdaxilə olunur. Demək olar ki, hər evdə istifadə olunan elektron avadanlıqlar (kompüter, planşet, elektron poçt, internet) Microsoft və Apple

sadə vətəndaşların beynində möhkəm diskə çevrilib. Bu disklərdəki söz lüğətindən istifadə bütün dünyada qlobal ünsiyyətin yaranmasına səbəb olmuşdur [4]. Bu növ ünsiyyət formasının yaranması müxtəlif mədəniyyətlərə müdaxiləyə gətirib çıxarır. Mədəni qloballaşmaya şərait yaradaraq insanlararası, mədəniyyətlərarası ünsiyyətin yaranmasına səbəb olur. Həmçinin cəmiyyətin müxtəlif ictimai sahələrində, xüsusilə, pop musiqidə, siyasətdə, elmdə, idmanda, moda aləmində olan ünsiyyətə də müxtəlif ingilis terminləri daxil olmaqdadır.

Nəhayət, menecer və biznes sahəsində də ingilis dili xüsusi olaraq hamı tərəfindən qəbul olunmuş beynəlxalq ünsiyyət vasitəsinə çevrilmişdir.

Bir çox Qərbi Avropa dövlətləri dillərin ünsiyyət vasitəsinə çevrilməsilə mədəniyyətlərarası münasibətlərin yaranmasına, müxtəlif sahələrdə özünüifadə etməsinə yol açmasını müsbət qarşılayırlar. Lakin bu gün Almaniyada ingilis mədəniyyətinin alman mədəniyyətinə təsir etməsindən ciddi-cəhdlə qorunurlar. Gündəlik danışıq dilində bəzi ingilis dili sözlərindən istifadə edənlərə qarşı etiraz edirlər. Bəzi təşkilat üzvləri hesab edirlər ki, ingilis dilindən birgə istifadə elm üçün təhlükəlidir. Eyni zamanda Qərbi Avropada yaşayan etnik qrupların və azlıqların mədəniyyətlərinin itməsinə səbəb ola bilər. Fransız institutlarının və Dantev təşkilatının rəsmi nümayəndələri isə Avropada ümummədəniyyətin formalaşmasına maraq göstərirlər. Düşünmək olar ki, bəzi qüvvələr qloballaşan dünyada öz "müstəqil oyunlarını" həyata keçirmək məqsədi güdürlər. Onun həqiqət olmasını yəqin ki, zaman göstərəcəkdir.

Qloballaşma yüksək mədəniyyətin müxtəlif sahələrinə təsir göstərməkdədir. Zaman-zaman qloballaşma, bir qlobal mədəniyyətdən digər qlobal mədəniyyətə keçid edərək, daha qlobal xarakter alır. Sadə dildə desək, Mosartı-Maykl Cekson, Byunyueli - S.Spilberq, Şekspiri isə komikslər əvəz etməkdədir. Eyni zamanda göründüyü kimi, qloballaşma kütləvi mədəniyyətdə təsir göstərməkdədir. Qərb mədəniyyətini daha çox ABŞ-dan ixrac olunan mədəniyyət təsir altında saxlayır. Bu mədəni məhsullara elmi nəzəriyyələr, professional bacarıqlar, davranış tərzləri, hüquqi prosedurlar və s. "qeyd-şərtsiz liberallaşma"da istifadə olunur. Buna uyğun misalı Budapeştdə yerləşən Pepsi adasında keçirilən festivalı söyləyə bilərik. Hər il bura rok və dünya musiqisini sevən mərkəzi Avropa gəncləri toplaşırlar [1].

Lakin öz dilinin təmizliyini, öz mədəniyyətini daha çox sevən insanlar unutmamalıdırlar ki, dil, hətta öz doğma diliniz olmasa belə o, yüksək keyfiyyətli mədəni məhsuldur. İngilis dili bütün dünyada köynəklərin üstündə ədəbsiz sözlərlə öz kimliyini ifadə edən dil deyil, eyni zamanda müxtəlif xalqlara anqlosakson mədəniyyəti ilə tanış olmağa imkan və şərait yaradan bir dildir. Bundan başqa ingilis dili beysbol qaydalarını və yaxud Brodveydə musiqi hitlərini özündə ehtiva etmir, eyni zamanda o, birgə yaşayışı, insanlararası münasibətlərin tənzimlənməsinə səbəb olur. Avropada yaşayan xalqların arasında macarların dili ən çətin dil hesab olunur. Buna baxmayaraq, macarlar ingilis dilini mənimsəməyə maraq göstərmirlər. Lakin eyni zamanda onların hamısı hesab edirlər ki, qloballaşma və yaxud onun bəzi aspektləri qaçılmaz bir prosesdir.

Qloballaşma xüsusilə iqtisadi, mədəni və texnoloji sahələrə təsir göstərməkdədir. Müasirlər söyləyirlər ki, "Hər kəs sürətlə hərəkət edir, lakin hamı bir istiqamətə yönəlirlər". Karter mərkəzinin tədqiqatçıları uzunmüddətli tədqiqatlardan sonra belə bir nəticəyə gəliblər ki, qloballaşma prosesinin inkişafı ilə əlaqədar millətlərin heç birinin seçimi qalmır. Mədəniyyətlərin, dillərin qaynayıb-qarışması prosesi gün-gündən sürətlənir. Bunun timsalında Braziliyanı misal gətirirlər. "Braziliya kimi böyük bir ölkə özünü təcrid etmək istədi. Lakin braziliyalılar belə qənaətə gəldilər ki, bunu indiki zamanda daha həyata keçirmək mümkün olan bir iş deyildir. Və heç kimdə edə bilməz" [3]. Qloballaşmanı hansı şəkildə həyata keçirməyin özü də bir problemə çevrilmişdir. Bu istiqamətdə çalışan beynəlxalq qeyri-hökumət təşkilatlarının özləri belə, bu suala cavab verməyə çətinlik çəkirlər.

Çünki bir sıra kasıb ölkələr, demək olar ki, bütün Afrika dövlətləri, ümumiyyətlə qloballaşmanın mahiyyətini belə dərk etmirlər. Bu istiqamətdə onun mümkünlüyünü realizə etmək üçün mühüm işlər görülməlidir.

Vətəndaş cəmiyyəti nümayəndələri tərəfindən irəli sürülən ümumi intellektual konsepsiyalarda hesab edirlər ki, Türkiyədə ictimai cəmiyyətin inkişafında qloballaşma prosesi mühüm cəhətlərdən biridir. Türkiyədə iqtisadi, ictimai, intellektual sahələrə mədəni qloballaşma təsir göstərməkdədir.

Adət-ənənələrin canlanması, islam dəyərlərinin güclənməsi, yenilənməsi (moda, musiqi, incəsənət, turizm), türkdilli xalqların birliyi, türk dilinin türkdilli xalqların arasında vahid ünsiyyət vasitəsinə çevrilməsi cəhdləri qloballaşmanın pozitiv elementi kimi dəyərləndirilə bilər.

Çin məsələsində isə yeni mədəni qloballaşma nümayiş olunur. İdarəetmə prosesində dövlət əsas aparıcı rol oynayır, elita və xalq kütləsi isə inkişaf etməkdə olan qlobal mədəniyyətdə öz hüquqlarını müdafiə etmək üçün birlikdə çalışırlar.

**Nəticə.** Beləliklə, qloballaşma, eyni zamanda ənənələrə diqqəti artıraraq, fərqlərin təzahürünü yeni şərtlərlə özünüdərk prosesinə əhəmiyyətli dərəcədə köməklik edir. Lokal qloballaşma plüralist multikultural cəmiyyətdə demokratikləşməni həyata keçirmiş olur. Bütün bu qloballaşma ilə bağlı xüsusiyyətlər bir daha göstərir ki, qloballaşma dünyada paradiqmaya söykənərək "çağırış və cavab" şəklində qlobal – yerli qarşılıqlı əlaqələr münasibətində təmsiletmə, universal əhəmiyyət kəsb etmir.

## ƏDƏBİYYAT


1. Линдси, Б. Глобализация: Повторение пройденного. Москва: Альпина Бизнес Букс. 2006, 416 стр.
2. Медведева, О. Дискуссия о мультикультурализме и актуальные проблемы социалньной политики государства. "Политика и политические науки", журнал 2. Москва, 2009. https://cyberleninka.ru/article/n/diskussiya-o-multikulturalizme-i-aktualnye-problemy-sotsialnoy-politiki-gosudarstva
3. Удовин, С. Глобализация семиотические подходы. Москва: Рефл-бук, 2002, 462 стр.
4. Voss, A. Betteln und Spenden. Berlin; De Gruyter, 1992, 174 pages.


## SUMMARY

**Humeyra Mustafayeva**

## GLOBALISATION, CULTURE AND DEVELOPMENT

Globalisation is an objective tendency of modern social development in spite of all the contradictory reflections. Opportunities of influence of this process on various countries are multi-faceted and have different features. The article analyses the factors contributing to this effect and substantiates the need to optimize the interaction by making certain generalizations. On the example of the countries of the world it is paid special attention to availability of serious social-political, cultural resources. Tendency of globalisation is a continuation and modern form of social integration. It is close to the tendency of rationalization, because the world is completely changing in accordance with common rational rules. One of the paradoxes of modern social development is that social integration causes the unity of the world, which is one of the causes of the crisis of modern civilization. In the article the author studies to gain new experiences, to enrich the culture, to exchange cultural values, and to reach high level of development due to the expansion of cultural relations of different nations in the case of globalization. Nowadays various methods in societies sre used in promotion of intercultural and intercivilization dialogues, and multicultural values. In that case it means future of the world depends on intercultural relations. In this regard nations should accept each other's existence, respect to each other and understand the responsibility of principles of cohabitation. In modern era in order to prevent the interpersonal conflicts happening in world reality it is put forward solutions in the direction of defence of ethnic, cultural and religious diversities, consensus and dialogue.

***Key words:*** *globalisation, culture, language, civil society*

## РЕЗЮМЕ

**Гумейра Мустафаева**

## ГЛОБАЛИЗАЦИЯ, КУЛЬТУРА И РАЗВИТИЕ

Глобализация, несмотря на все свои противоречивые проявления, способствует объективному стремлению к современному общественному развитию. Возможности влияния этого процесса на различные страны много аспектны и имеют отличающиеся особенности. В статье анализируются факторы, способствующие этому эффекту, и обосновывается необходимость оптимизации взаимодействия путем определенных обобщений. Особое внимание в статье уделяется наличию серьёзных социально-политических, культурных возможностей на примере мировых стран.

Тенденция глобализации является продолжением и современной формой социальной интеграции. Она близка тенденции рационализации, потому что мир полностью меняется в соответствии с общими рациональными правилами. Один из парадоксов современного общественного развития состоит в том, что социальная интеграция обуславливает единство мира, что является одной из причин кризиса современной цивилизации. В статье автор изучает получение нового опыта, обогащение культуры, обмен культурными ценностями, достижение высокого уровня развития за счет расширения культурных связей разных народов в условиях глобализации. В настоящее время в обществах используются различные методы продвижения межкультурного и межцивилизационного диалога, поликультурных ценностей. В таком случае это означает, что будущее мира зависит от межкультурных отношений. В связи с этим нации должны принимать существование друг друга, уважать друг друга и понимать ответственность принципов сожительства. В современную эпоху для предотвращения возникновения межличностных конфликтов в мировой действительности выдвигаются решения в направлении защиты этнического, культурного и религиозного разнообразия, консенсуса и диалога.


***Ключевые слова:*** *глобализация, культура, язык, гражданское общество*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 115-122
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 115-122
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 115-122

**ETİBAR MUSAYEV**
*Gəncə Dövlət Universiteti*
*etibaradiloglu@mail.ru*

**UOT: 338.**

# AVROPA İTTİFAQININ ENERJİ TƏCHİZATI TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNƏ YANAŞMALAR

*Məqalədə enrji təchizatı məsələləri geniş və ətraflı şərh olunur. Müasir dövrdə enerji təhlükəsizliyi məsləsi dünya dövlətlərinin əsas siyasətlərinə çevrildiyindən, enerji təchizatı təhlükəsizliyi də tədarükçü dövlətlərin milli siyasətlrində aktuallıq kəsb edir. Avropa dövlətlərinin Avropa İttifaqı çərçivəsində enerji təchizatı və onun təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirdikləri siyasət enerji mənbələrinin mövcud olduğu dövlətlərin milli siyasətləri ilə bəzən tərs mütənasiblik təşkil etsə də, bəzən tədarükçü və istehlakçı dövlətlərin qarşılıqlı əməkdaşlığına da gətirib çıxarır. Enerji ehtiyatları müəyyən coğrafi ərazilərdə cəmləşdiyindən dünya məhdud sayda enerji ixracatçısı olan dövlətlərdən asılıdır. Dünyanın sənaye ölkələrinin əsas enerji tələbatı neft və qaz olduğundan həmin sənayeləşmiş dövlətlər təchizat təhlükəsizliyi ilə bağlı həyata keçirəcəkləri tədbirləri enerji siyasətlərinə daxil etmişlər. Enerjiyə artan tələbat dünya bazarında onun qiymətinin kəskin artımına gətirib çıxarmaqla böhranlarla müşaiyət olunmuşdur. Dünya bazarlarında neftin qiymətinin qeyri-sabitliyi, resursların azalması, enerji tələbatının sürətlə artması, istehsalçıların azlığı, artan asılılıq səbəbindən enerji təchizatı təhlükəsizliyi ilə bağlı narahatlıqları XX əsrin 80-90-cı illərindən gündəmdə saxlamışdır. Elə buna görə də enerji idxalçıları və xüsusilə də sənayeləşmiş ölkələr enerji təhlükəsizliklərini gücləndirmək üçün tədbirlər görməyə başlamışlar. Məqalədə enerji təchizatı və təhlükəsizliyi ilə bağlı məsələlər geniş və ətraflı şəkildə təhlil süzgəcindən keçirilir.*

***Açar sözlər:*** *Avropa İttifaqı, enerji təchizatı, təhlükəsizlik, neft, Enerji Agentliyi, bazar, strategiya, komissiya*

Enerji dövlətlərin iqtisadi, siyasi və sosial inkişafına təsir edən əsas amil olduğundan hər bir ölkə enerjiyə ucuz və fasiləsiz çıxış əldə etmək istəyir. Bu gün neft, təbii qaz və kömür, bərpa olunan enerji və nüvə enerjisi başlıca enerji qaynaqlarındandır. Müasir dünyada bərpa olunan enerji mənbələrinin rolu hələ də məhduddur. Bu baxımdan da neft və təbii qaz əsas enerji mənbəyi olaraq qalmaqdadır. Əlbəttə əsas yanacaqlardan olan neft və qazın dünyada paylanması qeyri-bərabərdir. Bu enerji ehtiyatları müəyyən coğrafi ərazilərdə cəmləşmişdir. Məhz buna görə də dünya məhdud sayda enerji ixracatçısı olan dövlətlərdən asılıdır. Bu enerji növlərini isə ən çox inkişaf etmiş dövlətlər istehlak və idxal edirlər. Bu cür istehlak və idxal münasibətlərinin olması 1970-ci illərin neft böhranlarına gətirib çıxarmışdır. Məhz bu dövrdən başlayaraq dünyada enerji böhranı müşahidə edilir. Nəticədə Qərb və sənayeləşmiş dövlətləri böhran bürümüş, onların ÜDM-u azalmış, işsizlik və inflyasiya səviyyəsi yüksəlmişdir. Bu problemlərin bir daha yaşanmaması üçün Qərb dövlətləri, xüsusilə də sənayeləşmiş dövlətlər bu dövrdən başlayaraq enerji təchizat təhlükəsizliyi ilə bağlı müzakirələrə başlamışdır. Bu baxımdan da Qərb və sənayeləşmiş dövlətlər enerji təminatının təhlükəsizliyini təmin etmək məqsədilə həyata keçirəcəkləri tədbirləri enerji siyasətlərinə daxil etmişlər. Məhz bu dövrdə enerji təhlükəsizliyi ilə bağlı AB-i dövlətləri alternativ enerji mənbələrinin axtarışı və inkişafı istiqamətində mühüm addımlar atmağa başladılar. Nüvə enerjisinin sürətli inkişafı mümkün olduğunda, mayeləşdirilmiş qaz və kömür yanacağına keçid, istehsalın enerji intensivliyini azaltmaq üçün addımlar atdılar. 1974-cü ildə Beynəlxalq Enerji Agentliyini yaratdılar [1; 2, 487-490].

Məhz bu dövlətlərin sözügedən dövrdə həyata keçirdikləri siyasətləri uğurlu olmuş, XX əsrin 80-90-cı illərində dünya enerji bazarı stabilləşmişdir. Lakin enerji ilə yeni təhlükələr məhz XX əsrin

80-90-cı illərində bir daha gündəmə gəlməyə başlamışdır. Belə ki, Yaxın Şərq regionunda baş vermiş məlum hadisələrdən sonra, İran-İraq müharibəsi (1980-1988) və İraqın Küveyti işğal etmisi ilə (1991-ci il) enerji məsələsi yenidən gündəmə gəlmişdir. Enerji təhlükəsizliyi məsələsi XXI əsrdə də milli və beynəlxalq gündəmdə yenidən əsas mövzulardan birinə çevrilmişdir. Dünya bazarlarında neftin qiymətinin qeyri-sabitliyi, resursların azalması, enerji tələbatının sürətlə artması, istehsalçıların azlığı, artan asılılıq səbəbindən enerji təchizatı təhlükəsizliyi ilə bağlı narahatlıqlar yenidən gündəmə gəlmişdir.

Əlbəttə, bütün bu narahatlıqlar enerji idxal edən dövlətlərin enerji təchizatına təsir göstərmişdir. Nəticədə enerji idxalçıları və xüsusilə də sənayeləşmiş ölkələr enerji təhlükəsizliklərini gücləndirmək üçün tədbirlər görməyə başlamışdılar. XX əsrin sonlarına doğru dünya enerji bazarında güclü oyunçulara çevrilən Çin və Hindistan kimi yeni istehlakçılar öz enerji təchizatını təmin etmək istəyən Qərb dövlətlərini yeni problemlərlə üzləşdirmişdir.

**Aİ-nin enerji təchizati təhlükəsizliyinin təmin edilməsinə yanaşma.** Dünyanın ən böyük enerji idxal edən bölgəsi olan AB-də ilk olaraq 2000-ci il tarixli “Enerji Təchizatı Təhlükəsizliyi üzrə Avropa Strategiyasına Doğru” adlı Yaşıl Kitabda qiymətləndirilir. Enerji təchizatı təhlükəsizliyinin geosiyasi məsələləri AB-yə enerji ixrac etdiyi ölkələrlə enerji ixracatını nəzərə alaraq münasibətlərini institusionallaşdırmağa çalışırdılar. Son illərdə AB-nin enerji təchizatı təhlükəsizliyi ilə bağlı narahatlığın artmasında əsas amil Rusiya faktorudur.

Dünya enerji bazarındakı dəyişikliklərdən istifadə edən Rusiya Aİ-yə qarşı bir enerji siyasəti yeritməyə başladı. AB-də davamlı olaraq təbii qaza olan tələbatın artmasından istifadə edərək müəyyən təsirlər göstərməyə başlamışdır. Rusiya Aİ-nin ən böyük təbii qaz tədarükçüsüdür. Rusiyanın “Qazprom” enerji şirkəti Aİ-nin enerji bazarını demək olar ki, ələ alıb. Rusiya bundan istifadə edərək hakim mövqeyini daha da möhkəmləndirməyə çalışır. Aİ Rusiyanın Avropa bazarında nə qədər güclü olduğundan narahatdır. 2005-ci ildə Rusiya-Ukrayna enerji böhranı yaranan zaman Rusiya enerji təchizatı məsələsində etibarını heçə endirdi. Rusiya-Ukrayna enerji böhranından sonra hazırlanan 2006-cı il Yaşıl Sənəddə, mövcud Aİ-nin enerji strategiyasının davamlılığı, rəqabət qabiliyyəti və onun təchizat təhlükəsizliyi məqsədlərinə uyğun qurulması göstərilirdi. AB-nin enerji təhlükəsizliyini gücləndirmək üçün ümumi enerji siyasəti və ümumi xarici siyasətin qurulmasının vacibliyini vurğuladılar. AB-yə üzv dövlətlər bunu strateji məsələ hesab etdikləri üçün, birlik səviyyəsinə keçirməyə davam edirlər.

AB enerji təchizatı təhlükəsizliyinə münasibəti öz yurisdiksiyası daxilində qurmuşdur və Aİ-nin enerji təchizatı təhlükəsizliyini təmin etməyə çalışır. AB-nin bu çərçivədə yanaşması liberallaşma və rəqabət prinsiplərinə əsaslanır. İlk olaraq, daxili bazarı tamamlayaraq enerji təchizatı təhlükəsizliyini təhdid edən problemlərin öhdəsindən gəlmək istəyir. Aİ-nin enerji ixrac edən dövlətlərlə inkişaf etdirdiyi əlaqələrin infrastrukturu və liberallaşma prinsipləri Aİ bazar qaydaları bu ölkələrdə lazımi qaydada tətbiq edilir. AB ölkələri fəaliyyətlərini enerji təchizatının davamlılığını təmin etmək məqsədilə enerji dialoqları, enerji sazişləri, tərəfdaşlıq və AB-nin qonşuluq siyasəti razılaşmaları vasitəsilə bu ölkələrin enerji bazarlarındakı qaydalarına uyğun qururlar.

Bundan əlavə, Aİ tək bir enerji mənbəyindən asılı olmaq risklərini qiymətləndirərək enerji ixracını diversifikasiya etmək istəyir. Diversifikasiya siyasəti xüsusilə Rusiyadan enerji asılılığını azaltmağa yönəlib. Aİ enerji təchizatının diversifikasiyası üçün bütün variantları nəzərdən keçirir. Elə bu baxımdan da Xəzər regionu diversifikasiya siyasətində ön plana çıxdı. Ancaq bu axtarış Qərbi Afrikaya, hətta heç bir institusional əlaqənin olmadığı İrana qədər uzanır. Diversifikasiya siyasətləri çərçivəsində Türkiyənin Yaxın Şərq və Xəzər regionuna yaxınlığı Türkiyənin Aİ üçün mühüm tranzit ölkə kimi əhəmiyyətini artırır. Bu kontekstdə Aİ-də enerji təchizatı təhlükəsizliyinin necə təmin olunduğuna dair araşdırmalar aparılıb. Birinci hissədə enerji təchizatı təhlükəsizliyinin ümumi tərifi və riskləri müvafiq yanaşmalara diqqət yetirildikdən sonra ətraflı şəkildə izah edilmişdir. Bundan əlavə, qlobal enerji təchizatı Təhlükəsizlik və enerji istehlakı baxımından lider iki ölkə olan ABŞ və Çinin vəziyyətinə münasibət də araşdırılmışdır. İkinci hissədə Aİ-nin enerji təchizatı təhlükəsizliyi siyasəti müzakirə olunur. AB-nin enerji ehtiyacı və buna uyğun olaraq inkişaf etdirilən müxtəlif aspektli siyasət şərh edilir. Üçüncü hissədə Aİ-ni enerji ilə təmin edən bölgələr, Rusiya, Xəzər

regionu, Yaxın Şərq, Şimali Afrika, Qərbi Afrika və Norveç ətraflı tədqiq edilmişdir. Bu tədqiqat ikinci dərəcəli mənbələrdən alınan stolüstü tədqiqat kimi hazırlanmışdır. Nəticə etibarı ilə, xüsusilə Aİ-yə üzv dövlətlərin öz milli siyasətlərini davam etdirmək istədikləri müəyyən olunmuşdur. Aİ enerji təchizatı təhlükəsizliyinin təmin edilməsində vahid ümumi siyasətdən çıxış edə bilməz. Enerji siyasətindəki baş verən dəyişikliklər AB-nin yenidən 2007-ci ildə qəbul etmiş olduğu siyasi hədəflərinin yüksək olduğu müşahidə olunur.

Enerji təchizatı təhlükəsizliyi konsepsiyası, 1970-ci illərdə OPEC neft embarqosu, 1979-cu ildə İran inqilabının baş verməsi, bunun nəticəsində enerji təchizatının və neftin qiymətinin artması ilə əlaqədardır. Bununla bağlı olaraq enerji təhlükəsizliyi məsələsi gündəmə gəlmişdir. Enerji təchizatı təhlükəsizliyi, əsasən Qərb dövlətlərinin idxal etdikləri neftin fasiləsiz və münasib qiymətə əldə edilməsi üçün qiymətləndirilmişdir. Təbii qaz alternativ enerji mənbəyi kimi əhəmiyyət kəsb etməyə başlayan kimi bu qiymətləndirmə enerji təhlükəsizliyi siyasətinə daxil edilmişdir. Enerji təchizatının təhlükəsizliyi konsepsiyası hələ də gündəmdə qalmaqdadır. Bu, daha çox sənayeləşmiş Qərb dövlətləri tərəfindən istifadə edilən bir anlayışdır [3, 27-30].

Enerji təchizatı təhlükəsizliyi anlayışının araşdırılması zamanı istifadə olunan mənbələrə nəzər salındıqda müxtəlif təriflərə rast gəlmək mümkündür. Bərpa olunan enerji mənbələrinin dəstəklənməsi, enerji obyektlərinin təhlükəsizliyi və neft təchizatı kimi müxtəlif elementləri özündə birləşdirən təriflərin mövcud olduğunu görürük. Aİ Komissiyası tərəfindən hazırlanmış "Enerji Təchizatı Təhlükəsizliyi üçün Avropa Strategiyasına doğru" adlı Yaşıl Sənəddə enerji təchizatı təhlükəsizliyi; "Bütün cəmiyyət rifah və yaxşı işləyən iqtisadiyyat üçün davamlı inkişaf hədəfi çərçivəsində Bütün istehlakçılar üçün hər qiymətlərlə enerji məhsulları bazarına fasiləsiz fiziki çıxışı təmin etmək" kimi müəyyən edilir [9, 9]. Beynəlxalq Enerji Agentliyi (UEA) isə təbii qaz və neftin sabit təchizatı ilə enerji təchizatı təhlükəsizliyini təmin edir [10, 36].

Birləşmiş Millətlər Avropa İqtisadi Komissiyası "Bir dövlətin sosial-iqtisadi inkişafını məhdudlaşdırmamaq üçün enerji kifayət qədər miqdarda və uyğun olaraq enerji təchizatı əlçatan kimi müəyyən edilir [14, 2].

Enerji təchizatının təhlükəsizliyinə dair tədqiqatların əksəriyyəti neft üzərində cəmlənib. Çünki, alternativ enerji mənbələrinin inkişafı üçün səylər və texnoloji inkişafa baxmayaraq, neft və təbii qazdan asılılığın azaldılması ilə bağlı heç bir irəliləyiş əldə olunmayıb. 2030-cu ilə qədər proqnozlara görə neft və təbii qazın enerji qarışığında dominant mənbələr olaraq qalması gözlənilir [12, 3]. Bərpa olunan enerji mənbələri; istilik, elektrik enerjisi istehsalı neftin yerini qismən doldursa da, nəqliyyat sektorunda qlobal neft əvəzedicisi hələ ki, görünmür. Bu yenilənəbilən enerjilərin yüksək qiymətlərinə görədir. Digər bir alternativ enerji mənbəyi olan nüvə enerjisi isə idxal olunan enerjidən asılılığı azaldır. Nüvə enerjisinin əsas xammalı olan uran qiymətinə görə ucuzdur və dünyanın böyük hissəsində yayılmışdır. Buna baxmayaraq Qərb ölkələrində iyirmi ildən sonra Atom elektrik stansiyaları sıradan çıxacaq. Onların yerini isə əvəz edəcək stansiyaların tikintisi ilə bağlı konkret bir təşəbbüs yoxdur. Bu vəziyyətin başlıca səbəbi 1986-cı ildə Çernobıl qəzasından sonra baş vermiş böyük nüvə qəzasıdır. Həmçinin 12 mart 2011-ci ildə, inşası 1970-ci ildə olmuş Yaponiyanın "Fukusima-1" AES-də partlayış baş verdi [15].

Onu da qeyd etmək istərdim ki, bu gün dünyanın bir çox ölkələrində AES var, gələcəkdə AES inşa edəcək ölkələr də mövcuddur. AES olan ölkələr daha çox Avropadadır. Almaniya, Belçika, Böyük Britaniya, Fransa, Finlandiya, Bolqarıstan, Niderland, İsveç, İsveçrə, İspaniya, Litva, Macarıstan, Rumıniya, Rusiya, Slovakiya, Sloveniya, Ukrayna, Azərbaycan isə AES inşa etməyi planlaşdırır [16]. Qəzaların dünya miqyasında fəlakətə səbəb olacağı qorxusu dünya ictimaiyyətində bu gün də davam etməkdədir. Bundan əlavə, nüvə stansiyalarının istehsal etdiyi radioaktiv məhsulların, tullantıların saxlanması probleminin hələ də həlli yoxdur [13, 462].

Nüvə tullantıları və reaktorların təhlükəsizliyi, nüvə enerjisindən terrorçuların istifadəsi ilə bağlı narahatlıqlar da mövcuddur [7, 105-115]. Lakin enerji təhlükəsizliyi məsələsində ilk olaraq əsas enerji sayılan neft və qaz enerji daşıyıcıları nəzərdə tutulur. Neft qlobal enerji təchizatında böyük rola malikdir. Bununla belə, Aİ-nin enerji təchizatı təhlükəsizliyi üçün təbii qaz da neft qədər vacibdir.

Enerji təchizatının təhlükəsizliyi üçün ən vacib iki məsələ enerji resurslarına əlçatanlıq və

məqbul qiymətlərdir. Bu iki element ayrılmaz şəkildə bir-biri ilə sıx bağlıdır.

Əgər enerji mənbələrinə malik olmaq müəyyən həddən aşağı düşərsə enerji təchizatı pisləşəcək. Enerji təchizatının pisləşməsi qiymət artımlarına və ya qiymətlərin qeyri-sabitliyinə gətirib çıxarar [17, 116].

Enerji təchizatının təhlükəsizliyi üçün tələb olunan münasib qiymətdir ki, ixrac edən ölkələrin investisiyalarının qaytarılmasını təmin etmək üçün kifayət qədər aşağı, istehlakçı dövlətlərdə iqtisadi artımı stimullaşdırmaq üçün kifayət qədər yüksək olmalıdır. Aşağı enerji qiymətləri yüksək enerji qiymətləri qədər təchizatın təhlükəsizliyi üçün təhlükəlidir [3, 27-30]. Məsələn, 1980-ci illərin ortalarından etibarən enerji təchizatının artması, uzunmüddətli tələbin aşağı səviyyəsi, neftin qiymətinin aşağı düşməsi və idxalçı dövlətlərdə tələbi məhdudlaşdırmaq üçün stimulların azaldılmasıdır. Buna görə də istehlakçı dövlətlər üçün riskli vəziyyət yaradan idxal enerjisindən asılılıq artmışdır [20].

Enerji təchizatı təhlükəsizliyi ilə əlaqədar təhlükəsizliyin konseptuallaşdırılması riskin mövcudluğunu vurğulayır. Risk enerji idxal edən dövlətin enerji təchizatının pozulması və ya baş verə biləcək enerji təchizatının kəsilməsinin mümkünlüyünü göstərir [21, 4-7]. Baş verə biləcək enerji böhranlarının öhdəsindən gəlmək üçün risklərin müəyyən edilməsi vacibdir. Bununla belə, müəyyən edilmiş risklər çərçivəsində tədbirlər yaradıla bilər. Elə buna görə də bir çox tədqiqatlarda enerji böhranının mümkün mənbələrinə diqqət yetirilmişdir. Bütün enerji təhlükəsizliyinin vaxtı və sahəsi üzrə risklərin təsnifatına müxtəlif yanaşmalar qəbul edilir. Enerji idxal edən dövlətlər qısa müddətdə, qeyri-adi iqlim şəraiti, müxtəlif hadisələr, tətillər, təxribatlar və qəzalar nəticəsində gözlənilməz enerji təchizatında kəsilmələr ilə qarşılaşa bilər. Lakin orta və uzunmüddətli perspektivdə enerji ixrac edən dövlətlərdə qeyri-sabitlik və ya istehsal gücü, daşınma və saxlama ilə bağlı tələb olunan investisiyaların qoyulmaması nəticəsində enerji resurslarına çıxış imkanının olmaması enerji təhlükəsizliyini daha az təhdid edir [19, 2-3].

Enerji təhlükəsizliyi ilə bağlı riskləri araşdırarkən müxtəlif formaların olması üzə çıxır. Elə bu baxımdan da riskləri təsir sahəsinə görə qlobal və yerli risklər kimi təsnif etmək olar. Risklər bütün təbii qaz və neft idxal edən ölkələrə aiddir. OPEC-in hasilat səviyyəsi ilə bağlı qəbul edilən siyasi qərarlar qlobal təsiri olan hadisələrə misal ola bilər. OPEC istənilən qiymətə nail olmaq üçün hasilatın səviyyəsini dəyişirsə qlobal enerji bazarında qəfil və gözlənilməz qiymət dəyişikliklərinə səbəb ola bilər. Həmçinin istehsal, nəqletmə və emal gücünə sərmayənin lazımi səviyyədə olmaması enerji təchizatında yaranan ən ciddi risklərdən birini təşkil edir. Bu problemlər qlobal enerji təchizatı təhlükəsizliyi üçün ciddi risklərdən sayıla bilər. Bundan əlavə, enerji ixrac edən ölkələrin siyasi manevrləri də qlobal enerji təhlükəsizliyinə təsir göstərə bilər. Əlbəttə belə hadisələr daimi deyildir. Beynəlxalq enerji təhlükəsizliyinə mənfi təsir göstərən amillərdən biri kimi müharibələri də göstərmək olar. Belə olduqda enerji təhlükəsizliyində problemlər bir müddət davam edə bilər.

Enerji idxal edən ölkəyə ümumi embarqo qoyulması ölkəni asanlıqla diz çökdürə bilər. Lakin belə hadisə beynəlxalq və ya regional müharibə zamanı baş verə bilər. Ən böyük risk isə ixracatçı ölkə hesab edilir. Belə ki, ixracatçı bir ölkə və ya tranzit ölkə tərəfindən enerji ixracı axınında qəsdən kəsilmələr baş verərsə bu idxal edən ölkələrə siyasi təzyiq kimi qiymətləndirilməlidir. Bu, enerji axınında qısa müddətli təchizatı dayandıra bilər. Digər tərəfdən terror aktları və qəzalar yerli təchizatın pozulmasına səbəb ola bilər. Buna misal olaraq biz XX əsrin 80-90-cı illərində və müasir dövrdə Yaxın Şərq regionunda baş vermiş hadisələr zamanı enerji ixrac edən ölkələrin və tranzit ölkələrdən enerji kəmərlərinin təhlükə altında qalması nəticəsində enerjinin çatdırıla bilmədiyini göstərə bilərik. Həmçinin, enerji idxalçı ölkə daxilində təzyiq qruplarının və hökumətlərin yanlış qərarları və enerji şirkətlərin inhisarçı davranışı kimi yerli dinamikaya görə tədarükün pozulması da baş verə bilər [4, 2-3].

Digər tərəfdən, Aİ enerji təchizatı təhlükəsizliyi ilə bağlı risk təsnifatı da fərqlidir. Bu baxımdan Aİ Komissiyası riskləri dörd qrupda təsnif etmişdir: fiziki risklər, iqtisadi risklər, sosial risklər və ekoloji risklər. Fiziki risklər müvəqqəti və daimi olmaqla iki qrupa bölünür. Enerji təchizatında daimi mənbə enerji ehtiyatları tükəndikdə və ya enerji istehsalı zamanı enerji təchizatının pozulması şəraitində baş verə bilər. Avropanın təbii qazını təmin edən Şimal Dənizdə təbii qaz

ehtiyatlarının azalması Aİ üçün belə bir risk yaradır. Enerji təchizatının müvəqqəti pozulmasında isə təbii fəlakət, tətillər və geosiyasət böhranları nəticəsində ola bilər. Buna misal isə 2008-2009-cu illərin ayrıcında Rusiya və Ukrayna arasında baş vermiş böhran zamanı AB-yə təbii Qazın verilməməsi olmuşdur ki, bu da müvəqqəti riskə aiddir. İqtisadi risklər varsa enerji tələbi və təklifi arasında balanssızlıq nəticəsində də baş verə bilər.

Enerji böhranı tələb və təklif arasındakı tarazlığın pozulması çox vaxt enerji sektoruna kifayət qədər investisiya qoyulmaması və səhv müqavilələr nəticəsində meydana çıxır. Enerji tələbi və təklifi arasında balanssızlıq bazarda qiymətlərin qeyri-sabitliyinə gətirib çıxarır ki, bu da istehlakçılara zərər verə bilər. Məsələn, enerji böhranı qiymətlərin qəfil artması Aİ-nin maliyyə və kommersiya vəziyyətində problemlər yarada bilər. Sosial risklər cəmiyyətdə enerji təchizatının pisləşməsidir ki, bu da ümumilikdə yaratdığı problemləri əhatə edir. Enerji çatışmazlığından yaranan sosial problemlərin iki əsr əvvəl Avropada çörək qıtlığı zamanı yartamış olduğu problemlərə bənzər olacağı gözlənilir. Ekoloji risklər, qəzalar zəncirindən karbon və qalıq yanacaqların istifadəsi kimi problemlər nəticəsində yaranan çirklənmədən yarana biləcək risklər daxildir [22, 76-77].

Enerji təchizatında qəzalar, təbii fəlakətlər və terror aktları nəticəsində baş verə biləcək qısamüddətli pisləşməyə qarşı; hökumətlər və ya enerji şirkətləri ehtiyat gücü və yerli ehtiyatların yaradılması, sürətli təmir sisteminin qurulması və sağlam paylaşımı təmin edərək tədbir görməyə çalışırlar. Enerji təchizatında digər tədbirlər daha mürəkkəb siyasi və iqtisadi qiymətləndirmədir. Çünki enerji təchizatında orta və uzunmüddətli bir pisləşmə böyük dərəcədə ölkənin iqtisadi istehsalına, siyasi sabitliyinə və sosial rifahına ziyan vurur. Adekvat enerji təchizatı, iqtisadi artım və siyasi mövcudluğun qanuniliyi üçün ilkin şərtdir. Ona görə də ilk növbədə enerji təchizatının təmin edilməsi dövlətlərin məsuliyyətidir. Bundan başqa dövlətlər, şirkətlər, beynəlxalq təşkilatlar kimi digər aktyorların enerji təchizatında fasilələrin qarşısını almaq və ya təsirini azaldacaq mexanizmlərə cəlb olunub-olunmayacağından asılıdır. Uzun və ortamüddətli perspektivdə enerji təchizatının təhlükəsizliyini təmin etmək Beynəlxalq və regional şəraitdən asılı olaraq həyata keçiriləcək siyasət də fərqli ola bilər. Bu siyasətlər arasında əsasən, enerji resurslarının diversifikasiya, enerji idxalının azaldılması, enerji daşınmasının yaxşılaşdırılması, enerjiyə qənaət, əsas ixrac edən enerji dövlətlərinə investisiyaların artırılması, enerji ixracatçısı kimi dövlətlərlə dialoq qurmaq kimi siyasi təşəbbüslər daxildir [18, 12-18]. Enerji təchizatını təmin etmək cəhdləri az və ya yalnız alternativ resursdan asılılıq olduqda daha da artır [5, 1-16]. Həm də idxal olunan enerji təchizatının həcmi eyni olsa belə, enerji təchizatı ilə bağlı dövlətlərin təhlükəsizliyi qavrayışı zamanla arta və ya azala bilər. Xüsusilə, enerji ticarəti edən dövlətlər arasında münasibətlərin xarakteri idxalçı dövlətin enerji təchizatı təhlükəsizliyi qavrayışında fərqlər yaradır. Enerji təchizatı üçün risk yüksək kimi qəbul edildikdə enerji təhlükəsizliyi ilə bağlı məsələlər ön plana keçir [6, 447-465]. Məsələn, Aİ enerji təchizatı təhlükəsizliyi ilə əlaqədar narahatlıqların artmasında və enerji təchizatı təhlükəsizliyini təmin etmək üçün birgə səylərin gücləndirilməsinin arxasında qlobal enerji bazarındakı dəyişikliklərlə yanaşı, Rusiya ilə münasibətlərin də böyük təsiri olub.

Enerji təchizatının təhlükəsizliyini təmin etmək üçün iki əsas yanaşma mövcuddur: strateji yanaşma və bazar yanaşması. Strateji yanaşma beynəlxalq siyasi və iqtisadi sistem haqqında bədbin qiymət verir. Buna uyğun olaraq dünya siyasi, dini və ideoloji əsaslara görə bölünür. Beynəlxalq və milli narahatlıqlar və münaqişələr beynəlxalq iqtisadi inteqrasiyaya mane olur. Bu yanaşmaya görə, dövlətlərarası, beynəlxalq təşkilatlar arasında etimadsızlıq səviyyəsi yüksək olur. Bu isə öz növbəsində Beynəlxalq və dövlətlərarası əməkdaşlığı təmin etmək üçün kifayət deyil. Eyni bölgələrdə enerji idxal edən dövlətlər enerji mənbələrindən asılı olurlar. Buna görə də, qıt resurslar üçün rəqabət böyükdür və bu vəziyyət münaqişələri təşviq edir.

**Nəticə.** Aİ-nin inteqrasiyasının dərinləşməsinə ən böyük maneə üzv dövlətlərin milli maraqlarına gəldikdə səlahiyyətlərini Aİ səviyyəsinə vermək istəməmələridir. Bu mənada Aİ-nin bu gün legitimlik problemi var. Enerji Aİ-yə üzv dövlətlərin milli olaraq düşündükləri əsas məsələlərdən biridir. Onlar öz milli siyasətlərini, xüsusilə enerji təchizatının xarici ölçüsü ilə bağlı davam etdirmək əzmindədirlər. Aİ-nin enerji mövzusunda "bir səs olmaq" çağırışlarına yalnız Rusiyaya qarşı enerji dalanına dirənmiş dövlətlər cavab verir. Dünya enerji bazarında mövcud problemlər üzv dövlətlərin

təkbaşına mübarizə apara biləcəyi miqyasda deyil. Aİ-nin də fəal yanaşması üçün onun lazımi siyasi dəstəyi yoxdur. Dünya enerji bazarında artan rəqabət enerji münasibətlərini getdikcə daha çox siyasiləşdirməkdədir. Çin və ABŞ kimi əsas qlobal oyunçular bu tendensiyanı gücləndirmək üçün bir addım atırlar. Çin enerji məsələsində merkantilist siyasətini davam etdirir. ABŞ enerji ilə zəngin İrana müdaxilə edir. "Rusiya Aİ üçün alternativ enerji tranzit marşrutu olan Gürcüstana müdaxilə edib. Görünən odur ki, Aİ də bu vəziyyətdə daha çox efirə çevriləcək. Çünki bu halda üzv dövlətlər də ikitərəfli enerji əlaqələrini gücləndirəcəklər. Ona görə də Aİ-yə üzv dövlətlər enerji sahəsində bir-birlərinin maraqlarını dəstəkləyəcəklər". Zərərverici davranışlar artacaq. Enerji maraqları məsələsinə gəldikdə, Aİ-yə üzv dövlətlərin Aİ-ni zəiflətmək cəhdlərindən əl çəkməyən Rusiyanın timsalında müşahidə olunur.

## ƏDƏBİYYAT

1. https://azertag.az/xeber/Brusselde_Enerji_Xartiyasi_Investisiya_Qrupunun_novbeti_iclasi_kechirilecek-836289;

2. See European Communities, Seventh General Report on the Activities of the European Communities in 1973, (1974), pp. 487 and 490.

3. Alhajji, A. F.(2007). What Is Energy Security? Definitions and Concepts. Midll East Economic Survey. 50(45): 27-30 p.1

4. Andrews, P. ( 2003). Energy Security in East Asia: a European View. CEPMLPInternet Journal ,13 (5). http://www.dundee.ac.uk/cepmlp/journal/html/Vol13/vol13-5.html (3 Şubat 2008). 2-3

5. Baumann, F. (Mart 2008). Energy Security as Multidimensional. Concept Center for Applied Policy Research, 2008(1):1-16 www.cap.lmu.de/download/2008/CAPPolicy-Analysis-2008-01.pdf (5 Nisan 2008).4

6. Baev, P. K. (2007) 'Russia Aspires to the Status of 'Energy Superpower". Strategic Analysis, 31(3): s.354

7. Buchan, D.(2002). The Threat Within: Deregulation and Energy Security. Survival, 44(3): p.105-115

8. Buchan, 2002:110 Buchan, D.(2002). The Threat Within: Deregulation and Energy Security. Survival,44(3): p.110.105-115

9. European Commission. (2000). Green Paper: Towards a European strategy for the security of energy supply. http://ec.europa.eu/energy/green-paper-energy-supply /index_en.htm ( 10 Aralık 2007). P.9

10. Clingendael International Energy Programme (CIEP). (2004) Study on Energy Supply Security and Geopolitics .Clingendael International Energy Programme Final Report. www.clingendael.nl/pu blications/2004/200401000 ciep_study pdf (12 Mayıs 2008) p.36

11. Marketbased Options for Security of Energy Supply. Centre for European Polıcy Studıes.http://www.ceps.be/index3.php. (3 Mart 2008).

12. Melgar, L. (1 Nisan 2004). Energy Security: A North American Approach. Forging North American Energy Security Conference, Monterrey, Mexico. www.american.ed u /ia/cnas/events/NAFI-en.pdf (1 Şubat 2008). P.3

13. Li, M. (2007). Peak oil, the rise of China and India, and the Global Energy Crisis. Journal of Contemporary Asia, 37(4): 462.

14. Center for Energy, Petroleum and Mineral Law and Policy (CEPMLP). (2006).Security of International Oil and Gas. A Project for the Economic and Social Research Council. www.energyinst.org.uk/content/files/esrcinterim.pdf (10 Şubat 2008). s.2

15. https://m-eng.ru/az/podklyuchenie-k-kanalizacii/avariya-na-aes-fukusima-1-v-yaponii avariya-na-fukusime-ekologicheskaya-problema.html

16. https://az.wikipedia.org/wiki/Atom_elektrik_stansiyas%C4%B1

17. Costantini ve Gracceva, 2004:2 Costantini, V. ve Gracceva F. (2004). Social Costs of Energy Disruption. FEEM Working Paper, 116 (4). http:// www. feem.it/ Feem/ Pub/ Publications/WPapers/default htm (18 Mart 2008).

18. Center for Energy, Petroleum and Mineral Law and Policy (CEPMLP). (2006).Security of International Oil and Gas. A Project for the Economic and Social Research Council. www.energyinst.org.uk/content/files/esrcinterim.pdf (10 Şubat 2008). 12-13

19. Chevalier, J. ( 26 Eylül 2005). Security of Energy Supply for the European Union www.dauphine.fr/cgemp/Publications/Articles/Chevalier%20SECURITY%20OF%2 0ENERGY%20SUPPLY.pdf (3 Nisan 2008). 2-3

20. Emerson, 2008:3 Emerson, S. (2008). The Factors Encouraging High Oil Prices. The United StatesSenate Committee on Energy and Natural Resources. energy.senate.gov/public/_ files/EmersonTestimony040308.pdf (15 Mayıs 2008).

21. Egenhofer C., Gialoglou K, Luciani G., Boots ,Scheepers M., Markadanya Costantini V., Gracceva F., Anil Markandya ve Giorgio V. ( 1 Mart 2004). 4-7

22. European Commission. (2000). Green Paper: Towards a European strategy for the security of energy supply. http://ec.europa.eu/energy/green-paper-energy-supply /index_en.htm ( 10 Aralık 2007). 76-77.

## SUMMARY

**Etibar Musayev**

## APPROACHES TO EU ENERGY SECURITY

The article provides an extensive and detailed explanation of energy supply issues. As the issue of energy security has become one of the main policies of the world's states in modern times, energy supply security is also relevant in the national policies of supplier states. The policies pursued by European countries in the field of energy supply and security within the European Union are sometimes inversely proportional to the national policies of the countries where the energy sources are available, but sometimes lead to mutual cooperation between suppliers and consumers. The world depends on a limited number of energy exporters, as energy resources are concentrated in certain geographical areas. As the world's main energy needs are oil and gas, those industrialized nations have included energy security measures in their energy policies. Growing demand for energy has been accompanied by crises, leading to a sharp rise in world oil prices. In the 1980s and 1990s, concerns about the security of energy supplies were on the agenda due to the instability of oil prices on world markets, declining resources, rapid growth in energy demand, lack of producers, and growing dependence. That is why energy importers, and especially industrialized countries, have begun to take measures to strengthen energy security. The article analyzes energy supply and security issues in detail.

***Key words:*** *European Union, energy supply, security, oil, Energy Agency, market, strategy, commission*

## РЕЗЮМЕ

**Этибар Мусаев**

## ПОДХОДЫ К ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ ЕС

В статье дано обширное и подробное разъяснение вопросов энергоснабжения. Поскольку вопрос энергетической безопасности стал одним из основных направлений политики государств мира в современное время, безопасность энергоснабжения актуальна и в национальной политике государств-поставщиков. Политика, проводимая европейскими странами в области энергоснабжения и безопасности в рамках Евросоюза, иногда обратно пропорциональна национальной политике стран, где имеются источники энергии, но иногда приводит к взаимному сотрудничеству между поставщиками и потребителями. Мир зависит

от ограниченного числа экспортеров энергии, поскольку энергоресурсы сосредоточены в определенных географических районах. Поскольку основными мировыми энергетическими потребностями являются нефть и газ, эти промышленно развитые страны включили меры энергетической безопасности в свою энергетическую политику. Растущий спрос на энергоносители сопровождался кризисами, что приводило к резкому росту мировых цен на нефть. В 1980-х и 1990-х годах в повестку дня входили опасения по поводу безопасности поставок энергоносителей из-за нестабильности цен на нефть на мировых рынках, сокращения ресурсов, быстрого роста спроса на энергию, отсутствия производителей и растущей зависимости. Именно поэтому импортеры энергоресурсов, и особенно промышленно развитые страны, начали принимать меры по укреплению энергетической безопасности. В статье подробно анализируются вопросы энергоснабжения и безопасности.

***Ключевые слова:*** *Европейский Союз, энергоснабжение, безопасность, нефть, энергетическое агентство, рынок, стратегия, комиссия*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə fəlsəfə doktoru, dosent Müslüm Cabbarzadə*
***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 123-129
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 123-129
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 123-129

**SƏBUHİ RAMAZANOV**
*Gəncə Dövlət Universiteti*

**UOT: 338.**

# İDARƏETMƏ SİSTEMİNDƏ APARILAN İSLAHATLAR VƏ İQTİSADİ ARTIMA TƏSİRLƏRİNİN TƏHLİLİ

*Məqalənin məqsədi istər dövlət istərsə də iqtisadi müəssisələrdə müasir idarəetmə sistemlərinin tədqiqini həyata keçirmək və iqtisadi artıma təsirlərini müəyyənləşdirməkdir. Çünkü müasir dünyada iqtisadi artımın təmin edilməsi və bu göstərici üzrə davamlılığın qorunması həm inkişaf etmiş, həm də inkişafda olan ölkələr üçün əsas hədəflərdən biridir. İqtisadi artımı qismən həyata keçirmiş ölkələr bu stabilliyin davamlılığını təmin etmək üçün, zəif inkişaf etmiş və ya inkişafda olan ölkələr isə bu hədəflərə nail olmaq üçün iqtisadi sahədə müxtəlif tənzimləmə və islahatlar həyata keçirirlər. İdarəetmə sistemi ilə bağlı aparılan islahatlar isə iqtisadi artıma nail olmaq üçün həyata keçirilən islahatlar arasında mühüm yerlərdən birini tutur.*

*Məqalədə yeni idarəetmə üsulları və idarəetmədə aparılan islahatlar ilə iqtisadi artım arasındakı mütənasibliyi tədqiq edən elmi əsərlər tədqiq edilmişdir. Həmçinin, bir sıra beynəlxalq təşkilatların hesabatları təhlil edilmişdir.*

*İrəli sürülən əsas elmi yenilik. Məqalədə həm dünyada və Azərbaycanın idarəetmə sisteminin liberallaşdırılması sahəsində aparılan islahatlar, bu islahatların nəticələri öz əksini tapmışdır. Bu islahatların dövlətlərin və iqtisadi müəssisələrin iqtisadi artımına təsirləri statistik göstəricilər əsasında ortaya qoyulmuşdur.*

***Açar sözlər:*** *idarəetmə, idarəetmə sistemi, islahat, iqtisadi artım, korporativ idarəetmə.*

Müasir dünyada iqtisadi artım və böyümənin təmin edilməsi və ya davam etdirilməsi istər inkişaf etmiş, istərsə də inkişafda olan ölkələr üçün əsas hədəflərdən biridir. İqtisadi artımı qismən həyata keçirmiş ölkələr bu stabilliyin davamlılığını təmin etmək üçün, zəif inkişaf etmiş və ya inkişafda olan ölkələr isə bu hədəflərə nail olmaq üçün iqtisadi sahədə müxtəlif tənzimləmə və islahatlar həyata keçirirlər. İqtisadi artıma nail olmaq üçün həyata keçirilən islahatlar arasında mühüm yerlərdən birini də idarəetmə sistemi ilə bağlı aparılan islahatlar tutur. Bu islahatları həm dövlət, həm də şirkət səviyyəsində göstərmək mümkündür. Dövlət səviyyəsində tətbiq edilən islahatlardan biri və bəlkə də ən vacibi demokratikləşmə islahatlarıdır.

Tarixə nəzər salsaq görərik ki, demokratikləşmə ilə iqtisadi inkişafın bir-birindən ayrı proseslər olaraq qəbul edildiyi ölkələrdə böyük iqtisadi problemlərlə üzləşilmişdir. Bunun əksinə, demokratikləşmə ilə iqtisadi inkişaf arasında güclü əlaqənin mövcud olduğunu qəbul edən ölkələrdə isə həm sosial, həm də iqtisadi sferada sürətli inkişafa nail olunmuşdur. Bu çərçivədə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə daha demokratik sosial-iqtisadi nizamın təmini üçün iqtisadi inkişafı təşviq edəcək iqtisadi və sosial tədbirlərə ehtiyac duyula bilər. Eyni zamanda, dayanıqlı iqtisadi artıma nail olmaq üçün, demokratik əsaslara söykənən qurumların təsis edilməsinə və gücləndirilməsinə, siyasi hüquqların, mülki və iqtisadi azadlığın təmin edilməsinə zərurət duyulur (3, 36).

**Mövcud ədəbiyyatın təhlili.** Ədəbiyyatlara nəzər saldıqda görürük ki, idarəetmə sisteminin iqtisadiyyata təsir edib-etmədiyi məsələsi daima diqqəti cəlb edən mühüm araşdırma mövzularından biridir. Bu problem təkcə iqtisadçılar və politoloqlar tərəfindən deyil, sosioloqlar və bir çox sosial elmlərin nümayəndələri tərəfindən araşdırılmış bir məsələdir. Müqayisəli politiogiyada əsas yeri demokratik sistemlərin iqtisadi artım üçün daha effektiv olduğu fikri aparıcı yer tutsa da, bu fikrə qarşı çıxan və avtoritar rejimləri dəstəkləyən açıqlamalar da var.

Müqayisəli politologiya elmində modernləşmə nəzəriyyəsinin banisi kimi qəbul edilən Seymour Martin Lipset, demokratikləşməni, demək olar ki, təbii dəyişiklik prosesinin bir hissəsi kimi görmüş və iqtisadi inkişafın özü ilə ictimai və siyasi inkişafı gətirdiyini iddia etmişdir. Lipsetin 1959-cu ildə yazdığı "Demokratiyanın sosial tələbləri: iqtisadi artım və siyasi legitimlik" (Some Social Requisites of Democracy: Economic Development and Political Legitimacy) adlı məqaləsi bu sahədə ilkin araşdırmadır. Lipset məqalədə demokratiya ilə iqtisadi inkişaf arasında mövcud olduğunu iddia etdiyi qarşılıqlı əlaqə üzərində qurduğu fərziyyəsində, xalqın iqtisadi inkişaf sayəsində sosial-rifahının yüksələcəyini, bunun demokratiyanın inkişafına və siyasi sisteminin əsas siyasi anlayışlarından birinə çevriləcəyini müdafiə edir. Lipsetə görə cəmiyyət iqtisadi baxımından nə qədər çox inkişaf etsə, demokratiyanın o cəmiyyətdə var olma və sabit şəkildə davam etmə şansı da o qədər çoxalır.

Ümumiyyətlə, demokratiyanın ölkə iqtisadiyyatında iqtisadi artım və inkişafın təmin edilməsində əhəmiyyətli rola sahib olduğunu müdafiə edənlər, demokratik əsaslarla təşkil edilən dövlət strukturu, siyasi hüquqlar, mülki və iqtisadi azadlıqların genişləndirilməsi nəticəsində, ölkədə sosyal-iqtisadi inkişaf səviyyəsinin yüksələcəyini və yüksək iqtisadi artıma nail olunacaağını ifadə edirlər.

Aşağıdakı sxemdən də göründüyü kimi, demokratikləşmə yanaşması çərçivəsində iqtisadi inkişafın ilkin şərti olaraq nəzərdən keçiriləcək əsas amillər, dövlət idarəçilik sisteminin təmkilləşdirilməsi, siyasi hüquqlar, mülki və iqtisadi azadlıqlar demokratikləşmənin iqtisadi artıma təsirini izah edərkən yol nişanı rolunu oynayır (Sxem 1).

**Sxem 1.** İqtisadi İnkişaf Kontekstində Demokratikləşmə




**Mənbə:** Geyikçi, 2019.

Bu nümunə idarəetmə sisteminin iqtisadi artıma təsirlərini göstərən ən geniş yayılmış fikirlərdir. Ümumilikdə dövlətin iqtisadi artımda, o cümlədən sosial sistemlərin tənzimlənməsində rolu qloballaşma, liberallaşma və informasiya cəmiyyəti kimi müasir çağırışlar fonunda günü-gündən dəyişir. Texnologiyanın inkişaf etməsi, sənayeləşmə, şəhərləşmə, sürətli əhali artımı, müharibə və siyasi çevrilişlər kimi bir çox amillərin təsiri ilə əsrlər boyu davam edən proses nəticəsində formalaşan dövlət idarəetməsi, xüsusilə XX əsrdə sosial funksionallıq və gündəlik həyata təsiri baxımından zirvəyə yüksəlmişdir. Dövlət idarəçiliyi və ya sosial xidmət əsri kimi də xarakterizə oluna bilən bu dövrdə, dövlət idarəetməsinin miqyası böyümüş və funksiyaları son dərəcə müxtəlifləşmişdir. Bu dəyişiklik də cəmiyyətin ümumi inkişafı çərçivəsində dəyərləndirilə bilər. Şübhəsiz ki, dəyişiklik insan tarixi qədər qədim bir fenomendir. Yaşadığımız dövrün ən nəzərəçarpan xüsusiyyətlərindən biri isə inkişafın sürətlənməsi və çoxölçülü hala gəlməsidir. Bu gün texnoloji, iqtisadi, siyasi, sosial və mədəni sahələrdə sürətli və interaktiv inkişaf prosesi yaşanır. Bu proses təkcə ayrı-ayrı fərdlər üzərində deyil, eyni zamanda bütün ölkələr və qurumlar üzərində də öz təsirini göstərir.

Dünyadakı sürətli və çoxşaxəli dəyişiklik, xüsusilə idarəetmə zehniyyəti və klassik bürokratik strukturlarda köklü yenidənqurmanı zərurətə çevirir. İdarəetmə anlayışına və mexanizmlərinə dərindən təsir edən və ya stimullaşdıran dəyişiklik amilləri dörd əsas başlıq altında ümumiləşdirilə bilər:

- İqtisadi nəzəriyyədə dəyişiklik;

- İdarəetmə nəzəriyyəsində dəyişiklik;
- Özəl sektorun rəqabətə əsaslanan strukturu və əldə etdiyi inkişaf;
- İctimai nəzarət və dəyişiklik tələbi ilə vətəndaş cəmiyyətinin inkişafı.

İdarəetmədə dövrün tələb etdiyi islahatları uğurla həyata keçirən dövlətlər və mərkəzi hökumətlər, bir tərəfdən qlobal və regional inteqrasiya proseslərində fəallıq nümayiş etdirir, digər tərəfdən fərqlilikləri hüquqi təminat altına alaraq demokratik mühiti daha da inkişaf etdirir. Bunun nəticəsi olaraq, dövlətin idarəetmə mexanizmləri daha səmərəli fəaliyyət göstərir və göstərdiyi xidmətləri daha az resurslarla prioritet sahələrə istiqamətləndirir.

Qlobal kommunikasiyanın miqyası və miqdarı genişləndikcə bütün sahələrdə olduğu kimi iqtisadiyyat və idarəetmə sahəsində də yeni terminlər meydana çıxır. Belə terminlərdən biri türk alimlər tərəfindən ədəbiyyata daxil edilən "yönetişim" terminidir. Bu termin iki sözün, idarəetmə mənasını ifadə edən "yönetim" və kommunikasiya mənasını ifadə edən "iletişim" sözlərinin birləşməsindən meydana gəlmişdir.

Məlum olduğu kimi, ədəbiyyatda idarəetmə anlayışı "menecment"in tərcüməsi kimi istifadə edilir və onu sadə dillə desək, "başqaları vasitəsilə iş görmək" kimi izah edirlər. "Yönetişim" isə sadə dillə "başqaları ilə birlikdə iş görmək" deməkdir. Beləliklə, interaktiv nəticə ortaya çıxır. İdarəedənlər və idarə olunanlar hədəfi birlikdə müəyyənləşdirir və ortaya çıxan sinerji ilə bir vücud təşkildə həmin hədəfə doğru irəliləyirlər. Nəticədə əldə olunan uğur, komandanın əldə etdiyi uğur hesab olunur və birtərəfli reallaşan idarəetmədən daha səmərəli struktur formalaşdırır. Vəzifəsi insanları və digər istehsal faktorlarını hərəkətə keçirmək olan hər bir lider və menecerin yola çıxdıqları komanda yoldaşları ilə "yönetişim" tətbiq etməsi vacibdir. "Yönetişim" prosesini təşkil edən və onun funksiyaları adlandıra biləcəyimiz anlayışlar isə: ünsiyyət və effektiv informasiya mübadiləsi, empatiya, emosional zəka, beyin fırtınasına əsaslanan müştərək qərar qəbulu, proaktiv düşüncə, sinerji, gücləndirmə, şəffaflıq və çox yönlü etimaddır.

Bir daha görürük ki, informasiya mübadiləsi idarəetmə qərarlarının verilməsində öz təsirini göstərir. İstər şirkət, istərsə də dövlət miqyasında idarəetmə sisteminin təkmilləşdirilməsinin əhəmiyyəti Covid-19 pandemiyası ilə mübarizədə də özünü bir daha göstərdi. Dünyasının istehsalda post-sənaye mərhələsində olması və rəqəmsal informasiyaların üstünlük təşkil etdiyini nəzərə alaraq, belə bir dünyada öz layiqli yerini alması üçün əsas şərt, bu dövrün tələblərinə uyğun idarəetmə sisteminə malik olmaqdır (4, 191). Rəqəmsallaşmanın Covid-19 pandemiyası prosesinin idarə olunmasına müsbət töhfəsi ondan ibarətdir ki, dünya miqyasında elm adamlarının daima virusu demokratik normaları pozmadan və digər həmvətənlərini qoruyaraq aşkarlamaq üçün misli görünməmiş "Süni İntellekt (Sİ)" sistemlərini sınaqdan keçirmə və dizayn etmək üçün çalışması, böyük elm səfərbərliyi olaraq qəbul edilə bilər (15, 3).

**İdarəetmə sistemində aparılan islahatlar və iqtisadi artıma təsirləri.** İqtisadi artım və idarəetmə arasındakı əlaqə birbaşa və dolayı olmaqla iki baxımdan təhlil edilə bilər. İdarəetmənin iqtisadi artıma təsir göstərdiyi əsas mexanizm adambaşına düşən gəlirlə ölçülür. Bu mexanizm, xüsusi ilə aşağı gəlirli insanların təhsil, səhiyyə və qidalanma kimi sahələrə daha çox vəsait sərf etməsini təmin edərək fəaliyyət göstərir.

Yaxşı idarəetmə səviyyəsinə və hüquqi infrastruktura sahib olan ölkələr, investisiya toplanması və yeni malların və istehsal texnologiyalarının inkişafı kimi məhsuldar fəaliyyətlərə investisiya təşviqləri yolu ilə nail olur. Yaxşı idarəetmədə təhsil və səhiyyə sahələrinə uzunmüddətli investisiyaların yatırılmasını təmin etmək üçün bu sahələrə ciddi təşviqlər tətbiq edilir. İdarəetmənin düzgün təşkili, həm də korrupsiyaya uğramış dövlət məmurlarının renta və rüşvət fəaliyyətlərinin qarşısını almağı, bu baxımdan hesabatlılığı və büdcə şəffaflığını əsas götürən xüsusiyyətlərə malikdir (16, 2).

İdarəetmənin inkişafına təsir göstərən ikinci mexanizm büdcə şəffaflığıdır. Demokratik ölkələrdə büdcə şəffaflığının zəruriliyi mübahisəsiz reallıqdır. Büdcə şəffaflığı, vətəndaşların ödədiyi vergilərin qanuni səlahiyyət əsasında yığılması və bu vəsaitlər hesabına təşkil edilən dövlət xidmətləri ilə bağlı vətəndaşların məlumatlandırılmasıdır. Büdcə qanunu, hər il parlamentin təsdiqi ilə qəbul edilən yeganə qanundur. Yeni idarəetmə (yönetişim) modeli ilə büdcə daxilolmaları ilə toplanan

vəsaiti daha səmərəli sosial layihələrə istiqamətləndirən sosial dövlət anlayışı önə çıxır.

**Sxem 2.** İdarəetmə və iqtisadi artım arasında əlaqə




**Mənbə:** Kunal S. (2014). Governance and development outcomes in Asia.

Korrupsiya səviyyəsinin aşağı, vergi gəlirlərindəki itkilərin az olduğu, həmçinin vergi yığımının səmərəli olduğu bu idarəetmə modelində sosial sahəyə ayrılan xərclərdə və dövlət məhsullarında effektivlik özünü göstərir. Vətəndaşlara dövlətin təşkil etdiyi sosialyönümlü xidmətləri həyata keçirən xidmət təminatçılarının hesabatlılığı təmin edilir. Məsələn, korrupsiyanın, rüşvətin, ayrı-ayrı dövlət idarə və təşkilatlarının büdcəsində mövcud olan vəsaitin məqsədyönlü istifadə edilməməsi hallarının qarşısı alınarkən, təhsil və səhiyyə xidmətləri isə əhalinin əksəriyyəti üçün əlçatan olur (Sxem 2) (16, 2).

Müasir idarəetmə anlayışına görə, dövlət "müdaxilə edən" deyil, "koordinasiya edən" rolunu oynayır, bu isə ənənəvi rifah iqtisadiyyatının qaydalarının ləğv edilməsi, qeyri-hökumət təşkilatlarının və kollektiv fəaliyyətlərin iqtisadi artımda özünə mühüm yer tapmasına şərait yaradır (12, 318).

İqtisadi artımı stimullaşdırmaq və ictimai həyatı canlandırmaq üçün fəaliyyət göstərən qeyri-hökumət təşkilatları son dövrlərdə cəmiyyətin hərəkətverici qüvvəsinə çevrilməyə başlamışdır. İndi ümumiyyətlə, dövlət, özəl sektor və vətəndaş cəmiyyətinin yoxsulluqla mübarizədə bir-birini tamamlayan birgə səyləri nəzərə çarpır. Müasir idarəetmə sistemi çoxpilləli struktura malikdir. Həqiqi rifah iqtisadiyyatı, sərmayənin, dövlətin və vətəndaş cəmiyyətinin balanslaşdırılmış şəklində klasterləşməsidir (6, 100).

Vətəndaş cəmiyyətinin iqtisadi həyatda və sürətli inkişafda rolu çox vacibdir. İnkişaf etməkdə olan ölkələrdə insan kapitalından, təbii ehtiyatlardan və maliyyə mənbələrindən səmərəli istifadəyə olan tələbat, QHT-lərin fəaliyyətlərini bu mənbələrdən səmərəli istifadə etməyə təşviq edir (9, 49).

QHT-lər sürətli iqtisadi artımda üç cəhətdən mühüm rol oynayır (11, 1):

- Donorların və digər aktorların fəaliyyətlərini izləyir və korrupsiyaya qarşı ictimai nəzarət funksiyasını həyata keçirirlər;
- Çoxtərəfli müzakirələrə qoşularaq, iqtisadi artım fəaliyyətinin qlobal gündəmini formalaşdırırlar;
- Fəaliyyətlərini və necə hərəkət edəcəklərini beynəlxalq səviyyədə qəbul edilmiş artım səmərəliliyi prinsiplərinə uyğun müəyyənləşdirərək, iqtisadi artımın səmərəliliyinin yüksəldilməsinə töhfə verirlər.

Vətəndaş cəmiyyətinin iqtisadi artıma təsirləri ilə bağlı 1970-80-ci illərdə müəyyən tədqiqatlar aparılsa da, bu mövzunun əhəmiyyətinin artması və sürətli inkişafı 1995-ci ildə Kopenhagendə keçirilən BMT-nin Dünya Sosial Sammitindən sonra başlandı. İqtisadi artım dedikdə ağla gələn, 70 ildən artıq tarixi ilə ən böyük qlobal tərəfdaş olan Dünya Bankının müasir idarəetmə fəaliyyətləri kontekstində dövlət siyasətinin QHT-lərin gücünə necə təsir etməsinə diqqət yetirməsi vacib addımlardan biridir. QHT-lərlə əlaqələri gücləndirmək və siyasi dialoq üçün uyğun mühit təmin etmək üçün Dünya Bankının daxilində QHT ilə iş üzrə xüsusi şöbə yaradıldı (17, 3-5).

Ümumiyyətlə, yaxşı idarəetmənin ancaq o vaxt uğur qazanacağı qəbul edilir ki, orada güclü

sosial təşkilatlanma mövcuddur. Koordinasiyaedici dövlət və kollektiv tədbirləri icra edən vətəndaş cəmiyyəti uğurlu iqtisadi artımın ən vacib şərtləridir. Güclü ictimai təşkilatlanma, səmərəlilik, şəffaflıq və hesabatlılıq kimi idarəetmə elementlərini dəstəkləyir və qoruyur.

1980-ci illərdən etibarən, müəssisə və təşkilatların idarə edilməsi üçün yeni model axtarışlarının nəticəsində "Korporativ idarəetmə" prinsipləri işlənib hazırlanmağa və tətbiq edilməyə başlandı. Korporativ idarəetmə, İngilis dilində "Corporate Governance" ifadəsinin azərbaycanca qarşılığıdır. "İdarəetmə" termini nəzarət, istiqamətləndirmə funksiyalarını əhatə edir və bu fəaliyyətlər təbii olaraq dövlət, özəl və kommersiya, həmçinin qeyri-kommersiya müəssisə və təşkilatlarda həyata keçirilir. "Korporativ idarəetmə" isə digər qurumlarda deyil, məhz müəssisələrdə həyata keçirilən idarəetməni nəzərdə tutur. Korporativ idarəetmə, müəssisəni maliyyələşdirən səhmdarların bu investisiyalardan qazanc əldə etməkdə özlərini təhlükəsiz hiss etməyinə kömək edən üsuldur (10, 737).

Korporativ idarəetmə, qeyd edildiyi kimi, 1980-ci illərdən etibarən bir çox ölkədə yayılan korporativ qalmaqallara və korrupsiyaya qarşı çıxış yolu olaraq qəbul olunmağa başlandı, 1990-cı illərin əvvəllərindən başlayaraq müxtəlif cəhətlərindən ən mütəşəkkil, müzakirə edilən və araşdırılan mövzulardan birinə çevrildi (2, 17). Başqa sözlə, 1980-ci illərdən bəri dünyanın müxtəlif yerlərində baş verən beynəlxalq maliyyə böhranları, korrupsiya və şirkət qalmaqalları nəticəsində müəssisələrə olan inamın sarsılması ilə korporativ idarəetmə əhəmiyyət qazanmışdır.

1999-cu ildə Dünya Bankının keçmiş prezidentlərindən biri olan Volfensohn, "Müəssisələrin korporativ idarə edilməsi, dünya iqtisadiyyatının böyüməsi üçün dövlətlərin idarə edilməsindən daha vacibdir" sözü ilə önəmi bir daha təsdiq olunan (13, 38) korporativ idarəetmənin əhəmiyyətini daha geniş perspektivdə nəzərdən keçirdiyimiz zaman, onun ölkə iqtisadiyyatının inkişafı üçün böyük əhəmiyyətə malik olduğu aydın olur.

"Korporativ idarəetmə, şirkətlərin geniş mənada yönləndirildiyi və idarə olunduğu bir sistemdir" (8, 48). Korporativ idarəetmə, səhmdarlar, direktorlar şurası, yüksək vəzifəli şəxslər və digər maraqlı tərəflər (mənfəət sahibləri, alacaqlılar, satıcılar, işçilər, müştərilər, rəqiblər, hökumət, kreditorlar, həmkarlar ittifaqları) kimi iştirakçıların hüquq və vəzifələrinin ayrılmasını, onlar arasındakı əlaqələri və şirkət daxilindəki qərarvermə mexanizmlərini tənzimləyən konsepsiyadır (14, 1). Beləliklə, korporativ idarəetmənin əsas iştirakçılarını menecerlər, direktorlar şurası və səhmdarlar təşkil edir.

Korporativ idarəetmə modeli uğurlu bir model olaraq təkcə özəl şirkətlərdə və böyük korporasiyaların, holdinqlərin idarə edilməsində deyil, eyni zamanda dövlət müəssisələrinin də idarə edilməsində tətbiq edilir. Bu halda əsas sərmayədar rolunda dövlətin özü çıxış edir. Bir sıra ölkənin iqtisadiyyatında mühüm paya sahib olan dövlət müəssisələrinin necə idarə olunduğunu qiymətləndirmək və idarəetmə proseslərini yaxşılaşdırmaq üçün İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən hazırlanan "Dövlət Müəssisələri üçün Korporativ İdarəetmə Bələdçisi" mühüm bir qaynaqdır. Bu təlimatda qısa şəkildə ifadə etsək, dövlətin səhmdar və tənzimləyici (idarə edici) funksiyalarının ciddi şəkildə ayrılması təklif edilir (7, 17-19).

Azərbaycanda da dövlət müəssisələrinin daha səmərəli idarə edilməsi istiqamətdə bir sıra addımlar atılır. Bu məqsədlə, Azərbaycan Respublikası Prezidenti "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 5 sentyabr tarixli 2300 nömrəli Sərəncamı vermiş və bu sərəncamdan irəli gələn məsələlərin icrası məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 4 iyun 2019-cu il tarixli 257 №-li qərar qəbul etmişdir. Bu qərara əsasən "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası" təsdiq edilmişdir. Bundan əlavə, Azərbaycan Respublikası prezident İlham Əliyevin 7 avqust 2020-ci il tarixli fərmanı ilə nizamnamə kapitalı 10 mln. manat təşkil edən "Azərbaycan İnvestisiya Holdinqi" də yaradılmış və Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli Fərmanı ilə Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə bir sıra dövlət şirkətləri və müəssisələri, habelə dövlət payı olan təsərrüfat cəmiyyətləri daxil edilmişdir (1).

**Nəticə.** Müasir dövrdə yalnız azad bazar münasibətlərinin hərtərəfli inkişafına, dayanıqlı özəl

mülkiyyətin genişlənməsinə, daha sağlam prinsiplərə söykənən idarəçiliyə əsaslanmaqla iqtisadi inkişafı sürətləndirmək mümkündür. Buna görə də dövlətə məxsus müəssisələrin idarə olunması sisteminin təkmilləşdirilməsi, fəaliyyətinin səmərəliliyinin və şəffaflığının artırılması, xərclərini və risklərini optimallaşdırmaq yolu ilə onların tam sağlamlaşdırılması istiqamətində struktur islahatlarının dərinləşdirilməsi tələb olunur.

## ƏDƏBİYYAT

1. Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin siyahısı. https://cutt.ly/Xc19kdk Tarix 10.04.2021

2. Alp A. və Kılıç S. (2014). Kurumsal yönetim (nasıl yönetilmeli?). İstanbul: Doğan.

3. Çukurçayır S. və Tezcan K. (2011). Demokratikleşme ve ekonomik kalkinma: etkileşim analizi. Bilgi Ekonomisi ve Yönetimi Jurnalı, № 6/2, ss.48-76.

4. Eğilmez M. (2018). Tarihsel süreç içinde dünya ekonomisi. İstanbul: Remzi Kitabevi.

5. Geyikçi Ş. və Çil U. (2019). Modernleşme teorisini yeniden düşünmek: ekonomik kalkınma ve demokrasi ilişkisine eleştirel bir bakış. Uluslararası Toplum Araştırmaları Dergisi, № 11/18, ss.2996-3022.

6. Korten D.C. (2009), Agenda for A new economy. From pphantom wealth to real wealth. San Francisco: Berrett-Koehler Publishers.

7. OECD kamu işletmeleri için kurumsal yönetim rehberi. (2006), OECD. İstanbul: L.Yalkın.

8. Özsoy Z. (2011). Kurumsal yönetim ve yönetim kurulları. Ankara: İmge.

9. Psacharopoulos G. & Nguyen X. (1997), The role of government and the private sector in fighting poverty. Technical Paper, №. 346, World Bank, Washington DC.

10. Shleifer A. & Vishny R.W. (1997). A Survey of Corporate Governance. The Journal of Finance. № 52/ 2, pp.737-783.

11. Trialog (2013), Development Effectiveness & the Role of Civil Society Organisations. Policy Digest, № 6, December.

12. Wayenberge V.E. (2013), Washington Mutabakatı'ndan Washington Sonrası Mutabakata: Kalkınma Yanılsamaları. Neoliberal Küreselleşme ve Kalkınma (Seçme Yazılar). İstanbul: İletişim, ss.307-345.

13. Wolfensohn J.D. (1999). A battle for corporate honesty. The Economist: The World in 1999.

14. Yıldırım M. (2007). Türkiyede kurumsal yönetim ve şirketlerin finansal performansları üzerine etkileri. Dokuz Eylül Unv. doktorluq dissertasiyası. İzmir.

15. Calzada I. (2020). "Will Covid-19 be the end of the global citizen?". Retrieved from: https://www.researchgate.net/publication/340024110_Will_Covid-19_be_the_end_of_the_global_citizen Erişim Tarihi: 20.03.2020

16. Kunal S. (2014). Governance and development outcomes in Asia. ADB Economics Working Paper Series, № 384, Mandaluyong: Asian Development Bank. https://www.adb.org/sites/default/files/publication/31175/ewp-384-governancedevelopment-outcomes-asia.pdf.

17. World Bank (1998), http://documents.worldbank.org.

## SUMMARY

**Sabuhi Ramazanov**

**GOVERNANCE SYSTEM REFORM AND ANALYSES OF ECONOMIC GROWTH EFFECTS**

The purpose of the article, both in the state and in economic enterprises to study modern management systems and their effects on economic growth and it determine influence on economical growth. The maintenance of sustainability on the indicator is both advanced and developing on one of the main targets for the countries. Countries that have particular achieved economic growth to ensure the sustainability of this stability, whether underdeveloped or developing countries have different regulations in the economic sphere and to achieve these goals implement reforms. Management reforms are economic one of the important places among the reforms implemented to achieve growth holds.

The article deals with new management methods and economic reforms. Scientific studies examining the relationship between growth have been conducted. Also, reports of a number of international organizations were analyzed.

***The main scientific innovation***. In the article, both in the world and in Azerbaijan reforms in the field of management system liberalization, the results of these reforms are reflected. These reforms of states and economic enterprises effects on economic growth are presented on the basis of statistical indicators.

***Key words:*** *management, management system, reform, economic growth, corporate management.*



## РЕЗЮМЕ

**Сабухи Рамазанов**

**РЕФОРМИРОВАНИЕ СИСТЕМЫ УПРАВЛЕНИЯ И АНАЛИЗ ЭФФЕКТА ЭКОНОМИЧЕСКОГО РОСТА**

Цель статьи, заключается в том, чтобы определить и изучить как в государстве, так и в хозяйственных предприятиях современные системы управления и их влияние на экономический рост. Потому что в современном мире для обеспечения экономического роста и поддержание устойчивости по индикатору является целью как продвинутой, так и развивающейся. И это является одной из основных целей для стран. Страны, частично добившиеся экономического роста для обеспечения устойчивости этой стабильности, будь то слаборазвитой или недоразвитой страной имеют разное регулирование в экономической сфере и для достижения этих целей проводят реформы. Реформы управления являются экономическими и являються одной из важных среди реформ, реализуемых для достижения роста.

В статье рассматриваются новые методы управления и экономические реформы. Были проведены научные исследования, изучающие взаимосвязь между ростом и экономическими реформами. Также, были проанализированы отчеты ряда международных организаций.

***Главное научное нововведение***. В статье отражаются реформы в области либерализации системы управления как в мире, так и в Азербайджане. Эти реформы государства воздействуют на экономические предприятия и на экономический рост и всё это представлено на основе статистических показателей.

***Ключевые слова:*** *менеджмент, система управления, реформа, экономический рост, корпоративный, управление*


---


***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*

***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*

***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 2 (115), 130-133
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 2 (115), 130-133
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 2 (115), 130-133

**ANAR HASANOV**
*UNEC*

**UOT: 338.2**

# OPEN INNOVATION MARKETING STRATEGY

*In this study, it is to describe, identify and classify the application forms for open innovation and how to manage the open innovation strategically in international large enterprises is presented. The methodology includes the critical review of main theoretical concept of open innovation, its evolution and applications. The first theme is the discussion of international adoption of innovation strategy. This study has two main themes. International marketing of innovations is the ability of an enterprise to sell innovative products, new technologies and new forms of scientific and technical cooperation on the basis of licensed and patent forms of international trade by using international business standards, the theory and tools of international marketing. Marketing of contract (scientific) research is the identification of opportunities for implementing the scientific results of science-intensive organizations under the influence of the achievements of scientific and technological progress, taking into account the needs of end users.*

***Key words****: innovation, enterprise,technologie,business,marketing*

According to the concept of open innovation, organization is not required to start from its own research and development, they may obtain the knowledge from the cooperative research, purchase of copy rights, transfer of knowledge between the organizations in same industry (or) between the industry as well as the universities, knowledge application from open sources (or) social media, cooperation between organizations that have business relationship for integrating the internal and external research and development practices.[1] These all are complementing the open innovation process in order to create the new products, technologies and production processes towards the market. The concept of open innovation is clearly mentioned in following Figure-1.




Figure-1: Concept of Open Innovation in enterprises

The concept of innovation marketing is considered as a constant reaction of marketers to changes in the external and internal environment of an enterprise, as one of the most important tools for increasing its competitiveness. The result of this reaction is growing demand, new offers, transformed into marketing plans and providing new opportunities for the enterprise in competitive

markets. The main stages in the development of the concept of marketing innovations are almost universal:

Stage 1. Generation of ideas for marketing innovations within the core competencies of the enterprise. The collection of ideas goes on a wide front: in changing markets, in engineering and technology, product and product range, pricing strategies, promotion and distribution strategies, market innovations of competitors, sources of scientific literature, etc.

Stage 2. Selection and identification of alternative marketing ideas and development of options for specific innovations. Alternative options are checked for the degree of compliance with financial, production and labor resources; the degree of technological commonality of new and traditional products, pricing policy and communications, their compliance with the adopted development strategy are being clarified.

Stage 3. Analysis of the economic efficiency of innovative marketing proposals. Here, an innovative idea takes the form of a specific project with certain marketing estimates for demand, price, budget, life cycle time, implementation time, and profitability. [2]

Stage 4. Development of a specific marketing program with the definition of the rights, duties and responsibilities of the company's divisions, providing the divisions with appropriate resources.

Stage 5.Deciding on the implementation of a marketing innovation in specific markets based on the marketing innovation program.

The main results of the implementation of marketing innovations can be:

- increase in sales of existing goods, services, information;
- "capture" or penetration into new sales markets with acceptable prices for consumers and the quality of promoted products;
- Improve the quality of products and services;
- increasing the profit of the enterprise through the development of innovative marketing solutions;
- improving the efficiency of labor and production, improving the system of promotion and distribution;
- ahead of competitors in the most significant areas of activity for the enterprise.

Innovative opportunities need to be identified in areas where the company will have a clear competitive advantage. Such opportunities can be identified on the paths of intensive growth within the scope of the current product-market activity (deeper market penetration, expanding the boundaries of one's market or improving the product and product range), on the paths of integrative growth within the industry (regressive, progressive or horizontal integration), or on the paths of diversification growth (concentric, horizontal or conglomerate diversification). Huge innovative opportunities in the commercial sphere are offered by the Internet and other information technologies. There are several types of innovation marketing, each of which requires appropriate research methods. Among them are:

- domestic and international marketing of innovations;
- marketing of contract (scientific) research;
- marketing of risky research and innovation;
- marketing of obsolete, modern and new technologies;
- strategic marketing (regular and rehabilitation);
- tactical marketing.

Internal marketing of innovations is a study of market and marketing opportunities regarding their implementation to establish innovative activities of enterprises. [3]

Marketing risk research and innovation - tracking the relationship between supply and demand for innovation, the number of transactions, price dynamics for innovation and the nature of demand in a competitive confrontation. Legacy technology marketing is the study of legacy technologies from the point of view of the possibilities of launching new products to win over customers. Marketing of modern and new technologies - the study of marketing opportunities for the development of horizontal diversification of innovative business with the release of new types that

are not technologically related to outdated production technology, but are intended for the existing clientele. Or the achievement of conglomerate diversification, when it provides access to innovations that are not associated with either existing products or existing customers. Strategic marketing in the innovation field - the strategic intentions of the company regarding the achievement of marketing coordination in the markets of products, capital, labor and technology in order to adapt to the market in order to achieve the competitive advantages of an innovative enterprise.

Strategic marketing includes the following sub-species of innovation marketing:

• regular - aimed at maintaining the competitiveness of the company through the constant formation or use of technological (scientific and technical) and commercial backlog of product and process innovations;

• rehabilitation - providing support for product and technological innovations by allocation innovations (reorganization) in the structure of an innovative enterprise.

Tactical marketing is a way of launching new products by leaving one product line and entering another.

## LITERATURE


1. Parida, V., Oghazi, P. and Ericson, A. (2014). Realization of Open Innovation: Case study in manufacturing industry, *Journal of Promotion Management*, 20(3), 372-389.
2. Chesbrough, H. (2013). Open Innovation. Oxford.UK.: Oxford University Press. ISBN 978-0199682461.
3. Elmquist M & Ollila S. (2009). Exploring the field of Open Innovation. *European Journal of Innovation Management*, 12(3), 326-345.


## XÜLASƏ

**Anar Həsənov**

## AÇIQ İNNOVASİYA MARKETİNQİ STRATEGİYASI

Bu tədqiqat açıq innovasiyaların tətbiqi formalarını təsvir edir, müəyyən edir və təsnif edir, həmçinin iri beynəlxalq böyük müəssisələrdə açıq innovasiyanın strateji şəkildə necə idarə olunacağı təqdim olunur. Metodologiya açıq innovasiyanın əsas nəzəri konsepsiyasının, onun təkamülünün və tətbiqlərinin tənqidi nəzərdən keçirilməsini əhatə edir. Birinci mövzu beynəlxalq səviyyədə innovativ strategiyaların qəbul edilməsinin müzakirəsidir. Bu tədqiqatın iki əsas mövzusu var. Beynəlxalq innovasiya marketinqi-biznesin aparılmasının beynəlxalq standartlarından, beynəlxalq marketinq nəzəriyyələrindən və alətlərindən istifadə edərək, müəssisənin innovasiya məhsullarını, yeni texnologiyaları və beynəlxalq ticarətin lisenziyalaşdırılmış və patentləşdirilmiş formaları əsasında elmi-texniki əməkdaşlığın yeni formalarını satmaq qabiliyyətidir. Müqavilə (elmi) tədqiqatlarının marketinqi son istifadəçilərin ehtiyaclarını nəzərə almaqla elmi-texniki tərəqqinin nailiyyətlərinin təsiri altında elm tutumlu təşkilatların elmi nəticələrinin tətbiqi imkanlarının müəyyənləşdiril-məsindən ibarətdir.

***Açar sözlər***: *innovasiya, müəssisə, texnologiya, biznes, marketinq*

## РЕЗЮМЕ

**Анар Гасанов**

## МАРКЕТИНГОВАЯ СТРАТЕГИЯ ОТКРЫТЫХ ИННОВАЦИЙ

В этом исследовании речь идет о описании, выявлении и классификации форм заявок на открытые инновации и о том, как стратегически управлять открытыми инновациями на крупных международных предприятиях. Методология включает критический обзор основной теоретической концепции открытых инноваций, ее эволюции и приложений. Первая тема –

это обсуждение международного принятия инновационной стратегии. Это исследование имеет две основные темы. Международный маркетинг инноваций - это способность предприятия реализовывать инновационную продукцию, новые технологии и новые формы научно-технического сотрудничества на основе лицензионных и патентных форм международной торговли с использованием международных стандартов ведения бизнеса, теории и инструментов международного маркетинга. Маркетинг контрактных (научных) исследований – это выявление возможностей реализации научных результатов наукоемких организаций под влиянием достижений научно-технического прогресса с учетом потребностей конечных пользователей.

***Ключевые слова***: *инновации, предприятие, технологии, бизнес, маркетинг.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*

***Məqalə daxil olmuşdur:*** *4 oktyabr 2022-ci il*

***Çapa qəbul edilmişdir:*** *10 oktyabr 2022-ci il*

# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası 30 aprel 2010-cu il tarixli (protokol №10-R) qərarı ilə Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalının aşağıdakı seriyalarını müstəqil jurnallar kimi tanımışdır:

1. Elmi əsərlər. *Humanitar elmlər seriyası*
2. Elmi əsərlər. *İctimai elmlər seriyası*
3. Elmi əsərlər. *Təbiət elmləri və tibb seriyası*
4. Elmi əsərlər. *Fizika-riyaziyyat və texnika elmləri seriyası*

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası sədrinin 20 dekabr 2010-cu il tarixli 48-01-947/16 saylı məktubuna əsasən "Elmi əsərlər" jurnalına çap üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Məqalənin mətni – 17 sm x 25 sm formatında, sətirlərarası – 1 intervalla, Times New Roman-12 (Azərbaycan dilində - latın, rus dilində - kiril, ingilis dilində - ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Müəllifin (müəlliflərin) adı və soyadı, elmi dərəcəsi tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompyuterdə çap olunmuş şəkildə CD-lə (disklə) birlikdə təqdim edilməlidir, CD-lər geri qaytarılmır.

4. Ədəbiyyat siyahısı AAK-ın "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan Təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2-10.4.6 tələblərinə uyğun tərtib olunmalıdır.

5. Məqalənin xülasəsi və açar sözləri rus və ingilis dillərində olmalıdır (150-200 söz)

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir.** *Məs.: Həbibbəyli İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, Nurlan, 2007, 696 s.*

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir.** *Məs.: Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Əcəmi, 2010, 300 s.*

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** *Məs.: Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, I cild, Bakı, Lider nəşriyyat, 2004, 440 s.*

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır:** *Məs.: Hacıyev İ.M. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, bunun qarşısının alınması. // NDU-nun Elmi əsərləri. İctimai elmlər seriyası, 2011, №1, s.13-18*

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir:** *Məs.: Həbibbəyli İ.Ə. Naxçıvan şəhərinin yaşı-beş min il./ "Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik" mövzusunda elmi-praktik konfransın materialları. Bakı: Nurlan, 2007, s.20-27*

**Dissertasiyaya aşağıdakı kimi istinad olmalıdır:** *Məs.: Həsənli O.Q. Şagird şəxsiyyətinin formalaşdırılmasında diyarşünaslıq materiallarından istifadənin sistemi: Pedaqoji elm.dok. ... . dis. Naxçıvan, 2005, 240 s.*

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız "avtoreferat" sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır:** *Məs.: Şeremetyevski P.A. Naxçıvanın duz yataqları. "525-ci qəzet" qəz., Bakı, 28 iyul 2012*

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir.** *Məs.: Naxçıvan MDTA: f.19, siy.3, iş 56 v.7-9*

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

**Elmi əsərlər jurnalında çap olunan məqalələrin elektron variantı ilə

**www. ndu.edu.az.** saytında tanış olmaq olar.

***P.S: Kənar müəssisələrdən NDU-nun "Elmi əsərlər"inə məqalə göndərən müəlliflər NDU rektorunun adına, təmsil olunduğu müəssisə rəhbərinin məktubunu da təqdim etməlidir. Növbəti saylarda bu tələblərin hər hansı birinə cavab verməyən məqalələr nəşriyyat tərəfindən qəbul edilməyəcəkdir.***

***REDAKSİYA HEYƏTİ***

## TO THE AUTHORS!

By its 30 April, 2010 (minutes J\b 10-R) decision of the Higher Attestation Commission attached to the President of the Azerbaijan Republic has admitted the following series of the journal **"Scientific works" of Nakhchivan State University as independent journals:**

**1. Scientific works. Humanitarian sciences series**

**2. Scientific works. Social sciences series**

**3. Scientific works. Nature sciences and medicine series**

**4. Scientific works. Physics-mathematics and technical sciences series**

By the letter Ns 48-01947/16, 20 December, 2010 of the Chairman of the Higher Attestation Commission attached to the President of the Azerbaijan Republic the articles submitted for publication in the journal **"Scientific works"** of NSU should follow the following the rules**:**

**1. Papers should be typed in single space ,{4 size (17sm x 25sm) format, in l2pt Times New Roman (in Azerbaijani -in Latin alphabet, in Russian - in Cyrillic, in English –in the English alphabet).**

**2. Name(s) and surname(s) of the author(s) and affiliation(s), their scientific degree should be given in full, their e-mail address and complete address (university, organization) should be shown.**

**3. Each article should include UOT indexes or codes of PACS type and keywords (keywords should be in the language in which the article and abstracts have been written).**

The articles and abstracts (in three languages) should be submitted in computer typed form and electronic form (in CD disk); CDs ate not given back.

**4. List of literature (References) should meet the 10.2 -10.4. 6. requirements of the section "Used Literature" of the Instruction of the HAC "Rules for Dissertations" which is in power.**

**5.The abstract and key words of the article should be in Russian and English language (150-200 words) Sources in "References" are shown as follows:**

Books (monographies, text-books, etc.) Habibbayli I.A. Literary-historioal memory and modernism**. Baki, Nurlan, 2007,696 p.**

Multi-authored books ( collective monographies and text-books) Noah prophet, world's gale and Nakhchivan: **Adjami, 2010, 300 p.**

Multi-volume publications Encyclopedia of the Azerbaijan People's Republic. In 2 volumes, I volume, **Baki, Lider Publishing house, 2004,440 p.**

**Articles/ Papers Hajiyev LM. Tenitorial claims of the Atmenians against Azerbaijan during the Azerbaijan People's Republic and its prevention. //** Scientific works of NSU. Social sciences series, 2011, Nr 1, pp. 13-18.

Series of articles and conference materials Habibbayli I.A. Age of the city Nakhchivan- five thousand years. **/ Materials of the scientificpractical conference "Establishment of Nakhchivan Autonomous Republic: history and modernism". Baki, Nurlan, 2007, pp.20-27**

**Thesis /Dissertation Hassanli O.G.** Use system of regional ethnographic materials in the formation of student personality: Doctor of pedagogical sciences ... Disselt, Nakhchivan, 2005, 240 p.

**The same is applied to the Synopsis of thesis, only the word "synopsis of thesis" is added.** Newspaper materials Sheremetyevski P. A. Salt deposits of Nakhchivan. Newspaper "Newspaper 525", Baki, 28 July,20l2.

**Archive materials Nakhchivan MDTA:** f. 19, list 3, work 56 v.7-9

The literature ofthe last 5-10 years in the references is specially prefened.

**P.S: The authors from other enterprises should also submit the letter by his/her head to the rector of NSU for publication of their papers. the papers which do not meet these requirements will not be admitted.**

## К СВЕДЕНИЮ АВТОРОВ!

Высшая Аттестационная Комиссия при Президенте Азербайджанской Республики по решению (протокол № 10-Р) от 30 апреля 2010 года признал как самостоятельные журналы нижеследующие серии журнала **«Научные труды» Нахчыванского Государственного Университета:**

1. **Научные труды.** ***Серия гуманитарных наук***
2. **Научные труды.** ***Серия общественных наук***
3. **Научные труды.** ***Серия естественных и медицинских наук***
4. **Научные труды.** ***Серия физико-математических и технических наук***

На основани письма № 48-01-947/16 от 20 декабря 2010 года председателя Высшей Аттестационной Комисси при Президенте Азербайджанской Республики статьи, представленные для публикации в журнале **«Научные труды»**, должны составляться на основе нижеследующих требований:

1. Текст статьи должен быть набран в формате 17 см x 25 см, межстрочный интервал 1 на компьютере в программе Times New Roman-12 (на азербайджанском языке латинским, на русском – на кирили, на английском – на английском алфавите).

2. Имя и фамилию автора (авторов), ученую степень следует написать полностью, указать адрес электронной почты, название предприятия (организации), где работает.

3. В каждой статье следует дать индексы УДК или коды типа PACS (ключевые слова должны быть написаны на языке статьи и резюме).

4. Ключевые слова статьи должны быть на русском и английском языках.(150-200 слов)

Статьи и резюме должны быть набраны на компьютере (на трех языках) и представлены в электронной версии на диске СД (СД не возвращаются).

5.Список литературы должен составляться в соответствии с требованиями раздела 10.2-10.4.6 «Использованная литература» существующей Инструкции ВАК «О порядках составления Диссертаций».

**Библиографическое описание книг (монографий, учебников и т.д.) составляется названием книги.** *Напр.: Габиббейли И.А. Литературно-историческая память и современность. Баку, Нурлан, 2007, 696 с.*

**Книги, в которых не указан автор, и которые имеют более четырех авторов (коллективные монографии или учебники), даются по названию книги.** *Напр.: Пророк Ной, всемирный потап и Нахчыван: Аджеми, 2010, 300 с.*

**На многотомное издание ссылка дается в нижеследующем порядке:** *Напр.: Энциклопедия Азербайджанской Народной Республики. В 2-х томах, том I, Баку, издательство Лидер, 2004, 440 с.*

**Ссылка на статьи должна быть в нижеследующем порядке:** *Напр.*: *Гаджиев И.М. Территориальные притязания армян к Азербайджану в период Азербайджанской Народной Республики и их предотвращение. // Научные труды НГУ. Серия общественных наук, 2011, № 1, с. 13-18.*

**На источники по сборникам статей и материалам конференций следует указать так:** *Напр.: Габиббейли И.А. Городу Нахчыван – пять тысяч лет. / Материалы научно-практической конференции на тему: «Создание Нахчыванской Автономной Республики: история и современность». Баку: Нурлан, 2007, с. 20-27.*

**На диссертацию следует ссылаться так:** *Напр.: Гасанлы О.Г. Система использования краеведческих материалов в формировании личности ученика: Дис... доктора педагогических наук. Нахчыван, 2005, 240 с.*

**На автореферат диссертации ссылка дается также, но следует добавить слово «автореферат».**

**Ссылка на газетные материалы производится так:** *Напр.: Шереметевски Р.А. Сольные скважины Нахчывана. Газ. «525-я газета», Баку, 28 июля 2012*

**Ссылка на архивные материалы дается так**: *Напр.: НГИА Нахчывана: ф.19, оп.3, д. 56, лл.7-9.*

В списке использованной литературы следует предпочитать литературу последних 5-10 лет.

**П.С.: Присылающие в «Научные труды» НГУ статьи из других организаций авторы, должны представить на имя ректора НГУ письмо руководителя организацию, которую они представляют. Статьи, не отвечающие на эти требования, не будут в последующем приняты издательством.**

***<u>РЕДКОЛЛЕГИЯ</u>***

# DÜZƏLİŞLƏR ÜÇÜN SƏHİFƏ

## PAGE FOR CORRECTION

## СТРАНИЦА ДЛЯ КОРРЕКЦИЙ

| | |
|---|---|
| Nəşriyyat direktoru: | Əli Həşimov |
| Mətbəə müdiri: | Vidadi Kazımov |
| Baş mühəndis-proqramçı: | Səminə Rüstəmova |
| Aparıcı redaktor: | Sahilə Abbasova |
| Aparıcı redaktor: | Günel Məmmədova |
| Aparıcı korrektor: | Sitarə Əlizadə |

Yığılmağa verilib: 10. 10. 2022
Çapa imzalanıb: 28. 10. 2022
Formatı: 60/90, 32/1, həcmi 8.6 ç/v
Sifariş №69, sayı 100 nüsxə

NDU-nun «Qeyrət» nəşriyyatının mətbəəsində çap olunmuşdur.

**REDAKSİYANIN ÜNVANI:** *7012. Naxçıvan şəhəri,*
*Universitet şəhərciyi,*
*Naxçıvan Dövlət Universiteti,*
*Əsas bina, I mərtəbə,*
*"Qeyrət" nəşriyyatı*
**TELEFON**: (00994 036) 545-45-59
(00994 036) 544-08-61
**E-mail:** *elmi.hisse@mail.ru*